Hər dəfə sən kitab oxuyanda,

ağaclar sevinir və ölümdən sonrakı

həyata inanırlar...

Köhlən nəşriyyatı

Əli Şamil

# Albaniya və Azərbaycandakı Albanlar

Köhlən nəşriyyatı

Buraxılışa məsul: Nizami Əlisoy
Elmi redaktoru və
ön söz müəllifi: Cəlal Qasımov (*f.e.d., professor)*
Məsləhətçi: Entela Meço (*doç. dr.)*
Redaktorları: İsrafil Qurbanov
Əlipənah Bayramov
Namiq Əhmədli
Korrektor: Günel Haşımlı
Dizayner: Anar Əli

**Əli Şamil. Albaniya və Azərbaycandakı Albanlar.**
Bakı, "Köhlən" nəşriyyatı, 2021, 276 səh.

© Əli Şamil / 2021
© Köhlən Nəşriyyatı / 2021
İSBN: 978-9952-8411-3-8

Avropanın güneyində, Adriatik dənizinin sahilindəki Albaniya dövləti ilə Qafqaz Albaniyasını 1100 ilə yaxın bir tarix ayırır. Adları oxşar olan bu ölkələrdə insanlar soyca bir-birinə bağlı olmasalar da görünüşlərində, davranışlarında bir yaxınlıq var. Balkanlardakı bir çox ölkələrlə müqayisədə Albaniyanın Azərbaycanla iqtisadi, siyasi əlaqələri zəifdir. Buna baxmayaraq 20-ci yüzildə Azərbaycanda albanlar yaşamış və ölkənin ictimai-siyasi həyatında izlərini qoymuşlar. Kitaba yol qeydlərim, Azərbaycanda yaşamış Əhməd Bedi Triniç, Nafiə Abid (Tanur), İsmail Farka haqqında bəhs edən məruzə-məqalələr daxil edilib.

facebook.com/kohlanpress
instagram.com/kohlanpress
twitter.com/kohlanpress
kohlanpress@gmail.com
(+994 55) 359-99-23

# İÇİNDƏKİLƏR


Əli Şamilin vətəndaş-ziyalı hesabatı .................................. 11

Qısaltmalar haqqında ................................................ 17

Tanıtma .............................................................. 19

Albaniya: bildiklərim, gördüklərim .................................. 24

Albaniyaya getməyə nədən can atırdım .................................24

Tiranaya yolçuluğum...................................................28

Tomor baba necə Abbas Əli pirinə çevrilib.............................29

Ənənə və müasirlik arasında: İmam Əli dünyası mövzusunda simpozium...............................................................31

Simpoziumda tanış olduğum Əli Heydər Bayat.............................35

Məzahir Avşarla görüş ................................................37

Entela Muço ilə tanışlıq .............................................38

Entela Muçonun ömür yolundan bəzi səhifələr ..........................41

Entela Muçonun Azərbaycanla bağlılığı ................................43

Tiranada Novruz bayramı...............................................45

Təbrizli operatorun tutulması ........................................46

Albaniyada dinə münasibət.............................................48

Təbrizli operatoru qurtarmaq üçün cəhd ................................49

Əkrəm Kokalarinin xatirələri və Entela xanımın verdiyi tarixi bilgilər ...............................................................51

Osmanlı dövlətində məşhurlaşan albanlar ..............................55

Albaniyanın azadlığı: qazancları və itkiləri .........................57

Tiranadan Yorga Kostriota – Skender bəyin Krujaya qalasına yolçuluğumuz.........................................................59

Dıraç şəhərinin abidələri ....................................................64
Arnavut Əhməd Triniç özkeçmişində nələri gizlədib? ......... 69
Rəsul Rza hansı şeirində kürəndən söz açıb? ...........................71
Əhməd Triniç haqqında oxuduqlarım, eşitdiklərim .................76
Əhməd Triniçin KGB arxivindəki istintaq işi ..........................77
Uşaqlığı və gəncliyi ...................................................................78
Hərbi xidməti və əsirliyi.............................................................81
Əhməd Triniç Bakıya gələnədək Azərbaycanın ictimai-siyasi durumu.............................................................................................82
Əhməd Triniç və Məhəmmədəmin Rəsulzadə..........................91
Müsəlman hərbi məktəbinin müəllimi.....................................93
Əhməd Triniçi giritli Həsən Ruşeni Barkın nədən öldürmək istəyirmiş? ....................................................................................95
Quba qəzası...................................................................................99
Əli bəy Zizikski niyə Əhməd Triniçi ölümdən qurtarıb? ........101
Əhməd Triniç Bakı Sovetinin əsgəri birliklərinə qarşı ...........105
Gelovaninin cəza dəstəsi Quba qəzasında ..............................108
Qubada Hamazasp (Amazasp) Srvandzyanın törətdiyi qırğın .113
Əhməd Triniç və Qarabəy Qarabəyov .....................................117
Əhməd Triniç Gəncədə ..............................................................118
Əhməd Triniç ikincə dəfə Qubada ..........................................120
Əhməd Şükrü Paşa Əhməd Triniçdirmi?...............................123
Quba-Xaçmazın təmizlənməsində Əhməd Triniçin rolu ........126
Əhməd Triniç və Levan Qoqoberidze......................................128
Əhməd Triniç və Lazar Biçeraxov ..........................................134

Əhməd Triniç və Viktor Naneyşvili ....................................137
Əhməd Triniç və Lavrenti Beriya ........................................143
Əhməd Triniç və Mir Cəfər Bağırov ....................................144
Muhittin Birgen Əhməd Triniç haqqında ..............................151
Əhməd Triniçin jurnalistlik fəaliyyəti ..................................156
Əhməd Triniç rəhbər vəzifələrdə ..........................................160
Partiyadaxili qruplaşmaların Əhməd Triniçə təsiri ..................163
Əhməd Triniç və bacısı Nemət Kamal ....................................170
Əhməd Triniçn ailəsi ..........................................................171
Əhməd Triniçin həyatına son qoyan həbs ...............................173
İ.K.Əfəndiyev Əhməd Triniç haqqında ....................................179
İsmail Hikmet Ertaylan .........................................................185
Halil Fikret Kanad ...............................................................186
İ.K.Əfəndiyevin Əhməd Triniç haqqındakı ittihamları ..........187
Əhməd Triniç intihar edib, yoxsa onu öldürüblər? .................189
Sonuç ................................................................................193
Nafiə Abid-Tanurun amerikadaki və türkiyədəki nəvələri. 202
Amerikadan gələn məktub .....................................................203
Əmin Abid haqqında ilk bilgim ..............................................205
Hüseyn Nəcdətin ailəsindəki arxiv ........................................206
Arxivin dövlət təşkilatına aparılmasında Qulam Məmmədlinin rolu ....................................................................................208
Əmin Abidin qohumlarının axtarışında .................................209
Əzizə Cəfərzadənin xatirələri ...............................................211
Qasım İsmailov küçəsində, Əmin Abidin yaşadığı evdə .........212

İnna ilə görüş ....................................................................213
Əmin Abidin ilk dövr yaradıcılığı haqqında qısa bilgi............215
Əmin Abidin Sovet dövrü yaradıcılığı ..................................216
Nafiə Abidlə bağlı axtarışlarım ...........................................218
Nafiə Abidin həbsi və sənədlərdə onun ömür yolu .................220
KQB müstəntiqi nədən Nafiə Abidin qohumu, Türkiyə Milli Məclisinin rəhbəri Abdulhaluk Renda ilə maraqlanırmış?.......221
Abdulhaluk Renda haqqında qısa bilgi.................................225
Akmola repressiya muzeyindən Aida Eyvazlının bir məqaləsi.227
Əmin Abidlə Nafiə xanımın evlilik tarixi ..............................229
Nafiə Abidin bədii yaradıcılığı ..............................................230
Türkiyədə Nafiə Abidlə bağlı axtarışlarım............................231
Nafiə Abidin nəvəsi Kutay Aslantürklə yazışma....................232
Nafiə xanımın nəvəsi Çağatay Tanurla yazışma .....................235
"Savablarımızı və günahlarımızı yazan" sosial şəbəkə ............238
Amerikada da "525-ci qəzet"i izləyirlər ................................240
Simpoziumlara getmə səbəbləri............................................240
Doğumunun 120 illiyində Əmin Abidin xatırlanması............241
Kutay Aslantürkün İstanbula gəlişi.......................................242
Nafiə Abidin gəlini ...............................................................243
Gəlininin Nafiə Abid haqqında söylədikləri..........................244
Süleyman Sabunçuoğlunun şam yeməyinə dəvəti..................246
Kutay Aslantürk atası ilə anasının ayrılması haqqında ..........247
Kutay Aslantürk ailələrinin xarici ölkədə yaşamağa getmələri haqqında ................................................................................249

Kutay Arslantürk atası Altayla keçirdiyi günlər haqqında......250

Seyid Yahya Bakuvinin davamçıları sayılan cerrahilər təriqəti......251

Kutay Arslantürkün Amerikadan Türkiyəyə köçmək istəyi ...252

İsmail Farka haqqın qalib gələcəyini görmədən dünyasını dəyişdi......256

Hökumətlərarası münasibətlərin pisləşməsinin insanların taleyinə təsiri......258

Alban İsmail Farkanı KQB necə Şəmsəddin Mehdiyevə çevirir......260

Alban İsmail Farka Bakıdakı Respublika Ruhi Xəstəxanasında......263

İsmail Farka və Azərbaycan dissidentləri......265

Azərbaycanda Milli Azadlıq mübarizəsi İsmail Farkanı dəlixanadan çıxardı, lakin... ......267

Onu ölməyə qoymayan ümid......267

# Əli Şamilin vətəndaş-ziyalı hesabatı

Daima yeni axtarışlar və tapıntılarla müşayiət olunan Əli Şamilin tədqiqatçılıq fəaliyyəti yalnız Azərbaycanın deyil, bütövlükdə türk xalqlarının ədəbiyyatşünaslıq tarixinin inkişafına təkan verir. Onun son illərdə yazdığı "Tanıdığım insanlar" (2000), "Dastanlaşmış ömürlər" (2001), "Quzey Kıbrıs" (2001), "Burulğandan çıxmaq mümkündürmü" (2001), "Uyğur, Qaqauz, Quzey Qafqaz Türklərinin folkloru və ədəbiyyatı" (2011), "Qırım sevgisi" (2012), "Axısqalı Xəstə Hasan" (2012), "Türkçülüyün qurbanları" (2013), "Colan türkmanları" (2014) və başqa bu kimi fundamental kitabları, eləcə də beş yüzdən çox elmi-publisistik məqaləsi sözün əsil mənasında fədakarlıq nümunəsidir. Fikrimizcə, bütün bunlar Əli Şamilin yalnız Azərbaycan oxucuları qarşısında deyil, həm də ümumtürk ziyalıları qarşısında verdiyi vətəndaş-ziyalı hesabatıdır. Cəsarətlə demək olar ki, onun türk xalqlarının ədəbi-mədəni irsinin öyrənilməsi, tədqiqi, nəşri və tanıdılması istiqamətində gördüyü işlər bir institutun gördüyü işlərə bərabərdir.

Əli Şamil istər Azərbaycan, istərsə də türk-müsəlman xalqlarının ədəbiyyat və mədəniyyət tarixinin əsasən arxivlərdə, qəzet və mətbuat səhifələrində, cünglərdə qalan geniş kütlənin əli çatmayan materialları üzə çıxarıb, təhlil edərək oxucuya çatdırır. O, bir çox məsləkdaşları kimi türkdilli xalqların intellekt düşüncə tərzini əlyazma kitabdan çap kitaba çevirməklə onlar arasındakı elmi-ədəbi, mədəni bağların daha da möhkəmlənməsinə yardım edir. Bütün bunlar əsas verir deyək ki, o, ədəbiyyatşünaslığa internetdən və kabinetdən deyil, ictimai həyatın özündən, müxtəlif xalqların kitabxanalarından, dövlət və ailə arxivlərindən gəlir. Maraqlıdır ki, Əli Şamil təd-

qiqatlarında arxiv yaddaşı ilə ictimai yaddaş (xatirələr) arasında bir əlaqə yaradır. Lakin buna baxmayaraq o, bu materialları mütləq həqiqət və ya ehkam kimi təqdim etmir. Onları bir neçə mənbə, eləcə də ünsüyətdə olduğu ziyalılardan əldə etdiyi bilgilərlə tutuşdurduqdan, təqdim edəcəyi fikirlərin (hətta faktların) doğruluğuna tam əmin olduqdan sonra oxucunun ixtiyarına verir. Başqa sözlə desək, Əli Şamil tədqiqatlarının predmetinə çevirdiyi hər hansı bir mövzunu dərindən öyrəndikdən, problemi faktlı, predmetli və konseptual şəkildə təhlil sücgəcindən kecirdikdən sonra oxucunun mühakiməsinə verir. Elə bu səbəbdən də, onun coxillik elmi yaradıcılığı, həmişə və hər yerdə, sanballı (həm də etibarlı) bir mənbə kimi tədqiqatçıların diqqətini cəlb edir.

Əli müəllim əldə etdiyi materialları ədəbi-elmi düşüncədə oturuşmuş steroetipləri yeni-yeni faktlarla zənginləşdirməyi, təkzib və ya təsdiq etməyi də sevir. Fikrimizcə, ciddi araşdırıcı və ya tədqiqatçının ən böyük məziyyət və keyfiyyətlərindən biri də budur. Bu baxımdan alimin "**AZƏRBAYCANDAKI ALBANLAR VƏ...**" kitabı olduqca əhəmiyyətlidir.

Kitabda müəllifin yol qeydləri, Əmin Abidin həyat yoldaşı Nafiə Abid (Tanur qızı), Əhməd Bedi Triniç, İsmail Farka haqqında elmi-publisistik məlumat verilir. Yeri gəlmişkən qeyd etməliyik ki, kitabda müəllif özünün dostluq əlaqələrinə də geniş yer vermişdir. Lakin bu dostluq əlaqəsi fərdi dostluq sərhədlərini aşaraq Albaniya Azərbaycan ədəbi əlaqələrinə xidmətə çevrilir. Burada arxiv materiallarının, məsələn, Füzulinin və digərlərinin Albaniyanın arxivlərindən Azərbaycana gətirilməsi, eləcə də afişalarla bağlı materialların Entela Muçoya verilməsi bunun bariz nümunəsidir. Entola xanımın albanların islamı qəbul etmələri, osmanlı dönəmində türklərlə

onlar arasında yaranmış dostluq münasibətləri ilə bağlı verdiyi bilgilər yeni və maraqlıdır. Bu barədə Əli Şamil yazır: "Albaniya Dövlət Arxivində Məhəmməd Füzulinin "Hədiqət üs-süəda" əsərinin 1669-cu ildə, 1789-cu ildə, 1888-ci ildə və 1928-ci ildə köçürülmüş olduqca təkmil əlyazmalarının olması məni heyrətləndirdi. Öyrəndim ki, orada yalnız Məhəmməd Füzulinin deyil, müxtəlif müəlliflərin türkcə 261 əlyazması saxlanılır".

Deyildiyi kimi, əsərdə daha geniş yer verilən məsələlərdən biri albanların Azərbaycanla ilişkisi olan ziyalılarının fəaliyyətini üzə çıxarmaqdır. Əli müəllim barələrində məlumat olduqca az olan Əhmət Triniç, Nafiə Abid, İsmail Farka barədə oxucular üçün tamamilə yeni olan qiymətli mənbələri üzə çıxarır.

Alim digər tədqiqatlarında olduğu kumi "**AZƏRBAYCANDAKI ALBANLAR VƏ...**" kitabında da üç prinsipə ciddi əməl etmişdir. Belə ki o, **birinci prinsip** kimi Əhmət Triniç, Nafiə, İsmail Farka barəsində deyilmişləri diqqətlə öyrənmiş və "bu şəxsiyyətlər barədə mənə qədər nə deyilib" sualına cavab tapmağa çalışıb. Yəni özünə qədərki mətbu mənbələrlə dərindən tanış olan alim yeri gəldikcə həmin mənbələrdən də qaynaqlanmışdır.

**İkinci prinsip** kimi o, deyilmişlərin müqabilində "mən oxucuya yeni nə verəcəm" vədinə aydınlıq gətirir. Əli Şamil Əhməd Triniçlə bağlı tədqiqatlarını bir çox araşdırıcıların, xüsusilə də Əhməd Triniçin istintaq qovluğunun verdiyi məlumatlara əsaslanaraq söyləyir. Lakin o, nə Əhməd Triniçin araşdırıcılarının qənaətlərini, nə də istintaq qovluğundakı ifadə, üzləşmə və digər sənədləri stereotip kimi qəbul etmir. Onları bir-bir saf-çürük edir və müxtəlif arxiv materialları ilə də-

qiqləşdirərək, eləcə də məntiqə söykənərək obyektiv fikri ortaya qoyur. Məsələn, müəllifin bir qənaətinə diqqət yetirək: "Əhməd Triniçin istintaqa verdiyi ifadə 1918-ci ilin mart hadisələrindən sonra bolşeviklərlə əlbir olduğunu, onların xeyrinə işlədiyini bildirir. Lakin bu ifadə inandırıcı görünmür. Çünki xatirələrdən və sənədlərdən aydın olur ki, o, bolşeviklərin deyil, Əli bəy Zizikskinin dəstəsinin komandirlərindən olub". Müəllif bunu gəlişi gözəl söz kimi demir. O, elmi dəlillərlə sübut edir ki, həqiqətən də, Əhməd Triniç Əli bəy Zizikskinin dəstəsində ermənilərə və bolşeviklərə qarşı vuruşub. Əli bəy Zizikskinin belə ifadə verməsi isə özünüqoruma aktı kimi başa düşülməlidir.

Təvəzökar tədqiqatçı heç vaxt bu iddiada olmamışdır ki, araşdırmaya cəlb etdiyim mövzuya mən nöqtə qoydum. Elə ona görə də, Əli Şamil **üçüncü prinsip** kimi "məndən sonra gələn tədqiqatçılara nə qalır?" sualını da cavablandırır. Belə ki, tədqiqatçı hələlik aydınlaşdıra bilmədiyi mətləblər barəsində kifayət qədər aydın təəssürat yarada bilməyəndə yazır: "KQB-də "Ona olan xoş münasibət, rahatlıqla Bakıya gələ bilməsi, sonrakı fəaliyyətində olan qaranlıq məqamlar sual doğurur: doğrudanmı alban olduğuna görə Əhməd Triniçlə sərt, kobud davranmayıblar? Yoxsa o həbsxana nəzarətçiləri, Rusiyanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edib? Bu suala cavab verə biləcək sənədlər tapa bilmədim".

Maraqlıdır ki, bu naməlum, aydınlaşmaya ehtiyacı olan problemlərlə o, tədqiqat obyektinin yeni istiqamətlərini də gələcək tədqiqatçılar arasında açmış olur. Yəni tədqiqatçılar üçün, az işlənən, elmi həllini hələlik axıra qədər tapmayan məsələləri qabardır və gələcək tədqiqatçılar üçün yeni mövzular və istiqamətlər verir.

Əli Şamilin tədqiqatlarında diqqət çəkən özünəməxsusluqlardan biri də müəllimin problemi bütün təfərrüatları ilə, dərininə və eninə açıb göstərməyə meyilli olmasıdır. Beləki o, istər Triniçdən, istər İsmail Farkadan, istərsə də Nafiyə xanımdan danışanda onları mühitdən və zamandan təcrid etmir. Əksinə qəhrəmanı mühiti və müasirləri ilə birgə təqdim etməyə çalışır. Məsələn, Əhməd Triniçdən bəhs edən alim onun Albaniyadakı uşaqlıq və təhsil mühitini, Türkiyədəki hərbi-ictimai mühitini, Azərbaycanda – Qubadakı Hamazasp (Amazasp) Srvandzyanın törətdiyi qırğınların fonunda erməni vandalizmini, Əhməd Triniçin Azərbaycan Cümhuriyyəti dönəmində ermənilərə münasibətini qabarıq şəkildə verir və sonuncu barədə yazır: "Müsəlman Yardım Alayı"nın zabiti Əhməd Triniç müsəlmanları bolşevik-daşnaq qırğınlarından qorumaq üçün İsmailiyyə binasında keçirilən toplantılarda çıxış edir, xalqı silahlı özünümüdafiə dəstələri yaratmağa çağırır. Erməni-bolşevik dəstələrinə qarşı döyüşən, müsəlmanları qorumağa çalışan Əhməd Triniç mart qırğınından sonra Dərbəndə getməli olur".

Əli Şamil Nafiə xanımdan və İsmail Farkadan bəhs açanda isə onların ailə mühitlərini, eləcə də idarə və iş üsulları repressiya olan bolşeviklərin məhbəs mühütini təfərrüatlarına vararaq işıqlandırmağa çalışır. Bunlar Əli müəllimə mühit, zaman və şəxsiyyət problemini bütün incəlikləri ilə təqdim etməyə kömək edir.

"**AZƏRBAYCANDAKI ALBANLAR VƏ...**" kitabının özünəməxsus xüsusiyyətlərindən biri də əsərin dilinin sadəliyidir. Əli müəllim folklorşünas olduğundan haqlı olaraq terminlərə deyil, xalq ifadə və üslubuna xüsusi önəm vermişdir. Bu əsərin elmliyini azaltmır, əksinə, onu oxunaqlı və anlaşıqlı

edir. Bu səbəbdəndir ki, alimin fikir və düşüncələri də aydın və durudur. Hətta deyə bilərik ki, ən mürəkkəb fikir və düşüncə belə Əli Şamilin qələmində sadələşir, sadəlikdə böyüklük, böyüklükdə mükəmməllik və mükəmməllikdə isə müdrüklük qazanır.

Albanların tarixi, mədəniyyəti, adət-ənənələri, məşğuliyyəti, yaşam tərzi, ziyarətgahları, antik teatrları, muzeyləri, tarixi abidələri... Dıraçdakı Kral Əhməd Zoqun qalası, Ortodoks Kilsəsi, Fatih Cami (Fatih Sultan Mehmetin şərəfinə belə adlandırılmışdır), Arxeologiya Muzeyi... barədə verilmiş geniş və müvəssəl məlumatlar əsas verir deyək ki, Əli Şamil "**AZƏRBAYCANDAKI ALBANLAR VƏ...**" kitabıyla Albaniya və Azərbaycandakı albanların mükəmməl, eləcə də hərtərəfli portretini yarada bilmişdi.

*Cəlal Qasımov*
*F.e.d., professor*

# Qısaltmalar haqqında

Kitabda 20-ci yüzilin hadisələrindən söz edildiyindən həmin dövrdəki terminlərdən geniş istifadə edilmişdir. Lakin bu terminləri xarici ölkələrdə yaşayanlar anlaya bilmədikləri kimi, Sovetlər Birliyinin çöküşündən sonra dünyaya gələn nəsil də anlamır. Məsələn kolxoz, sovxoz, komunxoz və s. sözləri 30-40 il öncə Sovetlər Birliyində yaşayanlar başa düşürdü. Rus dilinin bazasında yaradılmış bu sözləri indi rus gənclərinin çoxu başa düşmür.

Kitabda ən çox işlənən terminlərdən biri KQB-dir. Bu termin 1953-cü ildə yaransa da dünyanın əksər guşələrində Sovetlər Birliyindəki təhlükəsizlik xidmətindən söz açılanda KQB işlədilir. Hansı ki, Bolşeviklər 1917-ci ildə silahlı üsyan yolu ilə hakimiyyəti ələ aldıqdan sonra Xalq Komissarlar Sovetinin sədri Vladimir Ulyanov (Lenin) ümumrusiya səviyyəsində baş verə biləcək antibolşevik çıxışlarına sərt divan tutmaq üçün 1917-ci il dekabrın 20-də Xalq Daxili İşlər Komissarlığının nəzdində Fövqəladə Komissiya yaradılması haqqında əmr imzalamışdı. Fövqaladə səlahiyyətlər verilmiş bu komissiyaya milliyətcə polyak yəhudisi olan Feliks Dzerjinski rəhbər təyin edilmişdi. Təşkilatın adı rus dilində Всероссийская Чрезвычайная Комиссия olduğundan onu qısaldılmış şəkildə ÇK adladırırdılar. Azərbaycan Türkçəsində onun mənası Ümumrusiya Fövqəladə Komissya olsa da xalq onu rus dilindəki qısaldılmış şəkilini işlədirdi.

1922-ci il fevralın 6-da bu təşkilat Государственное Политическое Управление – ГПУ (Dövlət Siyasi İdarəsi), 1923-cü il noyabrın 15-dən Объединенное Государственное Политическое Управление – ОГПУ (Birləşmiş Dövlət

Siyasi İdarəsi), 1934-cü ildən Главное управление государственной безопасности – ГУГБ (Dövlət Təhlükəsizliyinin Baş İdarəsi), 1946-cı il martın 15-dən Министерство государственной безопасности СССР – МГБ СССР (SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyi), 1953-cü il martın 13-dən Комитет государственной безопасности при Совете Министров СССР (SSRİ Nazirlər Soveti nəzdində Dövlət Təhlükəsizlik Komitəsi), 1978-ci il iyulun 5-dən isə Комитет Государственной Безопасности СССР (SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi) adlandırılsa da dünyada daha çox KQB kimi tanınır.

Buna görə təşkilatın adını həmin dövrdə necə işlədilmişdirsə elə deyil, daha geniş yayılmış forması olan KQB kimi yazdım. Bununla yanaşı, kitabda ÇK, NKVD sözlərinə də rast gəlinir. Bunlar da əsasən sitatlarda olduğuna görə onları dəyişmədim.

Kitaba daxil edilmiş məqalələri yazarkən müxtəlif arxiv sənədlərindən istifadə etmişəm. Həmin arxivlərin bir çoxunun adı dəyişdirilib. Keçmiş adlarını olduğu kimi saxlasam bu günkü oxucu həmin arxivləri tapa bilmyəcəyini düşündüm. Ona görə arxivlərin adlarını indiki şəkildə verməyi münasib saydım. Məsələ, illər öncə çap olunmuş məqaləmdə AMTN arxivi (Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin Arxivi) yazmışdımsa indi onu AR DTX-nin arxivi (Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi) kimi verdim.

# Tanıtma

Albaniya Respublikası Avropanın Güney Doğusunda, İyon və Adriatik dənizlərinin sahilində yerləşir. Bu ölkənin adı miladdan öncə 4-cü yüzillikdən miladın 705-ci ilinədək Qafqazda mövcud olmuş Albaniya ilə oxşar olduğuna görə ikincini fərqləndirmək üçün çox vaxt Qafqaz Albaniyası adlandırırlar.

Elmi əsası olmayan bir fikir də var ki, indiki Albaniyada yaşayan xalqın ulu əcdadları Qafqazdan oraya köçmüşlər. Albaniyaya səfərim zamanı aldığım bilgiyə görə, miladdan öncə dörd mininci illərdəki bir yazıda qeyd olunmuş sözə əsaslanıb belə güman edirlər ki, Albanların ulu babaları Qafqaza köçmüş və burada qurduqları dövləti Albaniya adlandırmışlar. Bizim fikrimizcə, adlar arasındakı bənzərlik söz oxşarlığından başqa bir şey deyil.

Albanlar öz ölkələrini "Şipri", yəni "Qartallar diyarı", yerli sakinləri isə "şiptar" adlandırırlar. Araşdırıcıların bir qismi Albaniya toponiminin "illiriya" sözündən formalaşdığını və bunun da "olba" – "kənd" anlamı verdiyini yazır. İlliriya sözü də qədim dövrlərdə Balkan yarımadasının batısına və orada yaşamış xalqa verilmiş addır.

Türklər və Osmanlı dövlətinin tərkibində olan xalqların çoxu, eləcə də Osmanlı imperiyası dağıldıqdan sonra onun ərazisində yaranmış dövlətlərdə yaşayan yaşlı albanlar da özlərini arnavut adlandırırlar. Türkiyəli araşdırıcıların fikrincə, orta yüzillərdə albanlar "illiriyalılar" və "pelasqlar" adının yerinə "arber", "arbereş", "arbanoi" sözlərini işlətdiklərindən osmanlılar da onlara arnavut demişlər.

"Albaniya" sözünün latınca "alba" – yəni "yüksəkdə duran" sözündən yarandığını söyləyən araşdırıcılar da var. Milliyətcə alban olan böyük Osmanlı ensiklopediyaçısı Şəmsəddin Sami "Kamus-u Türk"də arnavut sözünün çiftçi-əkinçi mənasında olduğunu yazır.

Ərazisi 28 min 748 kvadratkilometir olan Albaniya batıdan dəniz vasitəsilə İtaliya ilə həmsərhəddir. İki ölkə arasındakı dənizin eni 70-100 kilometrdir. Ölkə əhalisinin 87 faizi albanlar, 1 faizi yunanlar olsa da Yunanıstan hökuməti həmişə bu bölgəyə qarşı ərazi iddiasında olub. Yunanlar 1912-ci ildə Osmanlı hökumətinə qarşı başladıqları savaşda Avropa dövlətlərinin yardımı ilə yeni qurduqları dövlətlərinə albanlar yaşayan bəzi bölgələri də qata bildilər.

Albaniyadakı dindar müsəlmanlar sünnilərə, bəktaşilərə bölünsələr də çoxluq təşki edirlər. Azlıqda qalan xristianlar isə pravoslav və katolik inanclıdırlar. Sosializm birliyi dağıldıqdan sonra vəhabilər burada özlərinə tərəfdarlar toplaya bilmişlər.

Albaniya dövlətinin başlanğıc tarixini 1190-cı ildə yaradılan Alber şahzadəliyindən hesablayırlar. Bölgə orta yüzillərdə müxtəlif dövlətlərin tərkibində olmuşdur. Avropa dövlətlərinin iqtisadiyyatı, sənaye potensialı, hərbi gücü artdıqca onlar yeni müstəmləkələr əldə etməklə yanaşı, tarixin ən güclü dövlətlərindən olan Osmanlı imperiyasını dağıtmaq üçün 20-ci yüzildə Balkanda milli zəmində toqquşmaları qızışdırmış, bu da getdikcə güclənərək müstəqillik uğrunda savaşlara çevrilmişdir. Albanlar da azadlıq əldə etmək, öz dövlətlərini yaratmaq ümidilə böyük həvəslə Osmanlı dövlətinə savaş açmışlar. Nəticədə Osmanlı orduları Balkanlardan geri çəkilməli olmuş, Albanların toplu şəkildə yaşadıqları bölgələr bir neçə yerə bölünmüşdür.

Tarixi ərazilərini itirmək hesabına da olsa 1912-ci il noyabrın 28-də Albaniya müstəqilliyini elan edir. Lakin bu o qədər də uzun sürmür. Yunanların və bolqarların hücumundan qorunmaq ümidilə daha güclü bir dövlətin – İtaliyanın himayəsinə sığınır. 1917-1920-ci illərdə İtaliyanın himayəsində olan Albaniyada 1925-ci ildə yeni bir dövlət qurulur. Baş naziri Əhməd Zoqo (1895-1962) olan bu dövlətin ömrü 1928-ci ilədək davam edir. 1928-ci ildə Baş Nazir Əhməd Zoqo özünü kral elan edir. Onun krallığı 1939-cu ilədək davam gətirə bilir.

1939-1943-cü illərdə faşist İtaliyasının və 1943-1944-cü illərdə faşist Almaniyasının əsarəti altında olan Albaniya 1944-cü ildə döyüşlərlə öz müstəqilliyinə nail ola bilir. Faşizmə qarşı mübarizədə Alban xalqının müxtəlif dünyagörüşlü insanları iştirak etsə də sonda Sovetlərdən yardım alan kommunistlər liderliyi ələ ala bildilər. Ənvər Xoca və Məmməd Şehununun rəhbərliyi ilə 1946-cı ildə Albaniya Xalq Demokratik Respublikası qurulduğu elan edildi.

Nisbi demokratiya uzun sürmədi. Sovetlər Birliyinin yardımı ilə Ənvər Xoca Albaniyada avtoritar bir idarəetmə yaratdı. Ölkədə hər şey onun adı ilə bağlandı. Onun diktator iddiasına, təkhakimiyyətliliyinə göz yumuldu, xalqa xilaskar, humanist, haqq-ədalət nümunəsi kimi tanıdıldı.

Ənvər Xoca (albanca adı və soyadı belə yazılır: *Enver Halil Hoxha*) 1908-ci il oktyabrın 16-da Osmanlı imperiyasının Qirokastra şəhərində doğulub. Atası parça ticarəti ilə məşğul olan dindar bir müsəlman olub. Oğlunun təhsil alması üçün əlindən gələni əsirgəməyib. Albaniyada təhsilini başa vurduqdan sonra onu Fransadakı Monpeley Universitetində oxumağa göndərib. Universitetdə oxuduğu illərdə kommunist ideologi-

yasını mənimsəyib. Vətənə döndükdən sonra Albaniya Kommunist Partiyasının rəhbərliyinə daxil olub və onun birinci katibi vəzifəsinə yüksəlib. 1944-cü il oktyabrın 20-də Albaniya Milli Azadlıq Ordusu faşist Almaniyasının əsgəri birliklərini ölkədən çıxara bilib. 1944-cü il noyabrın 28-də Albaniya Demokratik Hökuməti qurulub və baş nazir vəzifəsinə Ənvər Xoca gətirilib. 1946-cı il yanvarın 10-da Albaniya Xalq Sosialist Respublikasının qurulduğu elan edilib və Albaniya Kommunist Partiyasının adı da dəyişilərək Albaniya Əmək Partiyası adlandırılıb.

Beləcə, sözdə demokratik bir ölkə kimi tanıdılan Albaniyanı 1946-ci ildən 1983-cü ilə kimi Ənvər Xoca təkbaşına idarə edib. Onun ölümündən sonra ölkənin iqtisadi, siyasi həyatındakı qüsurlardan danışanların sayı artıb. 1991-ci ilin martında Albaniyada ilk demokratik seçki keçirilib. Seçkilərdə ölkəni 40 il idarə edən Əmək Partiyası ilə yanaşı, müxalif Demokrat və Respublikaçılar Partiyaları da iştirak edib. Seçkilərdə Əmək Partiyası üstünlük qazanıb, hökumət qursa da iyul ayında baş vermiş tətildən sonra istefa vermək məcburiyyətində qalıb.

Yeni formalaşan parlament ölkənin adını dəyişərək Albaniya Respublikası elan edib. Tətildən sonra hökumət beş siyasi partiyanın nümayəndələrindən təşkil edilib.

Koalisiyalı hökumət ölkədə sabitlik yarada bilməyib. İqtisadiyyat iflic vəziyyətinə düşüb, quldurluq, soyğunçuluq, rüşvətxorluq və korrupsiya geniş yayılıb. 1997-ci il seçkilərindən sonra təşkil edilən hökumət ölkədəki qarğaşanın qarşısını almaq üçün ciddi addımlar atıb.

1998-ci ildə ölkədə yeni konstitusiya qəbul edilib. Bu konstitusiyaya əsasən gizli səsvermə ilə millət vəkillərinin 50

+ 1 səsini alan namizəd 5 illiyə prezident seçilir. Albaniya Respublikası Məclisinin 140 deputatı var. Onlar da fəaliyyətlərini 15 daimi komissiyada və məclisin ümumi iclaslarında davam etdirirlər. Deputatlar dörd ildən bir seçilir.

2002-ci il seçkilərindən sonra təşkil edilən hökumət özündən əvvəlkilərin yolunu davam etdirib. İdarəetmədə bir sabitlik yaranıb. Lakin insanların güzəranında ciddi dəyişiklik baş verməyib. Albaniya Respublikası Avropa ölkəsi sayılsa da, insanların dolanışığı o qədər də yaxşı deyil. Əhali inkişaf etmiş dövlətlərdən alınacaq yardımları böyük ümidlə gözləyir. Keçmiş sosialist respublikalarında olan qüsurlar orada da mövcuddur.

# Albaniya: bildiklərim, gördüklərim

## Albaniyaya getməyə nədən can atırdım

2017-ci ilin oktyabrında Türkiyədə əməliyyat olunmağım elmi simpoziumlara getməyimə, səfərə çıxmağıma əngəl törətmiş, yazı işlərimi də ləngitmişdi. Axtarışlar aparmağa, yeni mövzular üzərində işləməyə halım qalmadığından köhnə yazılarım üzərində işləyir, onlar redaktə edir, nəşrə hazırlayırdım.

Albaniyadan aldığım bir məktub məni xeyli düşündürdü. Məktubu Dünya bəktaşilərinin baş dədəsi Edmond Brahimayın (İbrahimin albanca deyiliş şəkilidir. Ona çox vaxt rəsmi adı və soyadı ilə deyil, Mondi Baba deyə müraciət edirlər – Ə.Ş.) imzalamışdı. Bu 2018-ci il martın 20-də Tirana şəhərindəki Kutsal Sarayda keçiriləcək "Ənənə və müasirlik arasında İmam Əli dünyası" mövzusundakı simpoziuma dəvət idi. Mövzu ürəyimcə deyildi. Heç fikirləşməmişdim ki, belə bir mövzuda nəsə yazaram. Amma neçə illər idi ki, Albaniyaya getmək istəyirdim. İstəyimi reallaşdıra bilmədiyim üçün də çox üzülürdüm. Demək Albaniyaya getməyə şərait yaranmışdı. Odur ki, gücümü toplayıb araşdırmaya başladım.

Albaniyaya getmək istəyi sadəcə o yerləri gəzmək, görmək, yaxud alış-veriş etmək həvəsindən yaranmamışdı. Bu istək məndə 1998-ci ildən yaranmışdı. Polşada nəşr edilən "Dissident sözlüyü" ensiklopediyası üçün məqalələr hazırlayanda Albaniyalı İsmail Farkanın ömür yolu ilə tanış olmuşdum. DTK (KQB) ilə əməkdaşlıq etmək istəmədiyinə görə Albaniyanın Sovetlər Birliyindəki səfirliyinin referenti İsmail Farkanı qatarda vurub iflic etmiş, sonra da "şizofrenik" diaqnozu qoydurаraq psixi xəstəxanaya "müalicəyə" göndərmişlər. Taleyin qəribəliyinə bax ki, hadisələr Moskvada baş versə də

o, 25 ildən çox Azərbaycandakı psixi xəstəxanalarda məcburi "müalicə" olunmuşdu.

Haqqında məqalə yazarkən Albaniya hökumətinin nədən vətəndaşına sahib çıxmadığına heyrət etdim. Həmin vaxtdan içimdə Albaniyaya gedib hökumət yetkililəri ilə görüşmək və onlardan İsmail Farkaya nədən sahib çxmadıqlarını xəbər almaq istəyi baş qaldırdı.

***

Yeniyetməliyimdə oxuduğum "Alban hekayələri" kitabı məndə bu diyara maraq oyatmışdı. Bilmirəm bu marağımın səbəbi Qafqaz Albaniyası (miladdan öncə 4-cü yüzildən miladdan sonra 705-ci ilədək mövcüd olmuş dövlət) ilə Balkanlardakı Albaniya dövləti arasındakı adın yaxınlığı idi, yoxsa Ənvər Xocanın Sovetlər Birliyi kimi nəhəng bir imperyaya dirəniş göstərməsiydi.

1962-ci ildə 8-ci sinifdə oxuyurdum. Sovet mətbuatında Ənvər Xoca kəskin tənqid edilirdi. Mən isə hər yerdə Albaniyanı, Ənvər Xocanı tərifləyirdim. Bu, müəllimlərimin də diqqətindən qaçmamışdı. Direktor məni otağına çağırıb xeyli öyüd-nəsihət vermişdi və başa salmağa çalışmışdı ki, Ənvər Xoca doğru yolda deyil, marksizm-leninizm ideyalarından uzaqlaşıb, maoçuluğa yuvarlanıb. Onda mən müəllimlərimin iradları qarşısında duruş gətirə bilməsəm də ürəyimdə onlarla razılaşmamışdım.

Azərbaycan Dövlət Unversitetinin birinci kursunda oxuyanda (1968) Əmin Abidin adını ilk dəfə "Şifahi xalq ədəbiyyatı" fənnindən dərs deyən müəllimimiz Vaqif Vəliyevdən eşitdim. O, mühazirəsinin sonunda seminara hazırlaşmaq

üçün kitab və məqalə adları da yazdırırdı. Həmin siyahıda Əmin Abidin məqaləsinin də adı vardı.

M.F.Axundov adına kitabxanada seminara hazırlaşarkən Əmin Abidin 1930-cu ildə "Azərbaycanı öyrənmə yolu" jurnalında çap olunmuş "Əşirət dövründəki Azərbaycan ədəbiyyatına dair vəsiqələr" (say.3(8), səh. 48-52) və "Türk xalqları ədəbiyyatında mani nevi və Azərbaycan bayatılarının xüsusiyyətləri" (say.4-5(9-10), səh. 9-42) məqalələrini oxudum. Maraq məni bürüdü. İçimdə bir sual yarandı: nədən belə dəyərli alimi tanımıram?

Beynimi qurcalayan bu suala cavab tapmaq üçün Əmin Abidin ömür yolunu, yaradıcılığını öyrənməyə çalışdım. Kitabxananın kartotekasında daha bir neçə məqaləsinin adı vardı. Onları da oxudum. Oxuduqlarım içimdəki yanğını söndürmürdü. Müəllimlərimdən eşidəndə ki repressiya qurbanı olub, marağım daha da artdı. Qəzet və jurnalları səhifələyib məqalələrini, şeirlərini oxudum. Oxuduqca da onun cazibəsinə düşdüm.

Əmin Abidin ailəsini, qohumlarını görməyə can atdım. Bəzilərinin ünvanlarını tapıb az-maz bilgilər əldə edə bildim. İstanbul Universitetində oxuyarkən milliyətcə alban olan Nafiə adlı bir qızla evləndiyini eşitdim. Mətbuatda Nafiə Abid imzalı şeir və hekayə rastıma çıxanda bildim ki, bu Əmin Abidin xanımıdır.

İkinci kursda oxuyanda, yəni 1970-ci ilin oktyabrında qrup yoldaşım İsrafil Qurbanovla birlikdə Əmin Abidin arxivinin bir hissəsini tapdıq. Əlyazmaları Əmin Abidin böyük qardaşı, vətənsevər şair Əliabbas Müznibin oğlu Hüseyn Nəcdətin dəmir yolunda mühasib işləyən xanımı V.A.Pozdşeva qoruyub saxlamışdı. 1950-ci illərdə dünyasını dəyişmiş Hü-

seyn Nəcdətin və repressiya qurbanı olmuş Əmin Abidin övladı qalmamışdı.

Ailə arxivindəki şəkillər üzərindəki avtoqraflardan, qəzet və jurnal məqalələrindən istifadə edərək Əmin Abidin təxmini tərcümeyi-halını yazdım. Nafiə Abidin də ömür yolunu öyrənməyə, tərcümeyi-halını dəqiqləşdirməyə can atdım. Amma bunu bacarmadım. Faktlar elə bil yağlı əppəyə çevrilib göyə çəkilmişdi.

20-ci yüzildə Azərbaycana gəlmiş iki albanın (arnavutun) acı taleyinə 1990-cı illərdən bəri tanıdığım üçüncü alban da əlavə olundu. Onlardan ikisi repressiyaya uğramışdı. Üçüncüsü isə Sovet rejiminin təzyiqlərinə tab gətirərək sağ qalmışdı. Ona kömək edə bilmədiyimə görə özümü çox pis hiss edirdim. Haqqında yazmaqdan başqa əlimdən bir iş gəlmirdi. Yazdıqlarımı Azərbaycanda, Polşada, Albaniyada çap etdirirdim. Mövzunu ictimailəşdirməyə çalışırdım. Amma yenə də heç nəyə nail ola bilmədim.

"Ənənə və müasirlik arasında İmam Əli dünyası" mövzusunda keçiriləcək simpoziuma 20 illik narahatlığıma son qoyacaq bir imkan kimi baxdım. Dəvətnamədə göstərilirdi ki, məruzəçilərin yol və Tiranada qonaqlama xərcləri ödəniləcək. Düşündüm ki, belə ciddi və beynəlxalq əhəmiyyətli toplantıya sözsüz Albaniyanın rəhbərlərindən də qatılan olacaq. Sözümü orada deyər, mövzunu gündəmə gətirərəm. Sonra da sözü keçən insanların vasitəsilə rəhbər işçilərlə görüşərəm. İsmail Farkanın acı taleyindən söz açar, hökumət rəhbərlərini ona sahib çıxmağa səsləyərəm.

## Tiranaya yolçuluğum

"Azərbaycanda Hz. Əli adı ilə bağlı pirlər, toponimlər və bəktaşi soyadı" mövzusunda bir məruzə hazırladım. Öncədən onu albaniyalı dostum, Azərbaycan sevdalısı Entela Muçoya göndərdim ki, albancaya çevirsin. Sağ olsun, Entela xanım, məruzəni qısa bir zamanda çevirdi və o, simpoziumun təşkilatçıları tərəfindən bəyənildi. Beləcə mən Tiranada keçiriləcək simpoziuma hazırlaşdım. 2018-ci il martın 19-da Türk Hava Yollarının uçağı ilə İstanbuldan keçməklə Tiranaya getdim.

Entela Muço ilə Kutsal Sarayın əməkdaşı məni hava limanında qarşıladı. Şəhərin görünüşünü quşbaxışı seyr etdikdə gördüm ki, tipik sosialist ölkəsidir. Binalar, yollar hələ Sovet dövrünün təsirindən tam sıyrılıb çıxa bilməyən Rusiya Federasiyasının şəhərlərini xatırladır. Tək-tək yeni binalar gözə dəyir. Bunlar da memarlığı, görünüşü ilə əvvəlkilərdən kəskin fərqlənir.

Ölkə kasıb olsa da, qonaqların qarşılanması və yerləşdirilməsi yüksək səviyyədə təşkil edilmişdi. Simpozium şəhərin mərkəzi meydanındakı 15 mərtəbəli "İntenational Tirana Otel"də keçiriləcəkdi. Entela Muço deyir ki, indi Tiranada 20-ə yaxın 17-18 mərtəbəli bina olsa da, hamı bu binaya Uca bina deyir. Çünki Tiranada binalar 4-9 mərtəbəli idi. 1997-ci ildən sonra ilk tikilən ucamərtəbəli bina bu hotel oldu.

Simpoziuma ABŞ-dan, İtaliyadan, Rusiya Federasiyasından, Almaniyadan, Türkiyədən, İrandan, İraqdan, Kosovadan, Makedoniyadan, Bosniyadan və başqa ölkələrdən də gələnlər vardı. Toplantının açılışından, himn oxunandan (Qonaq kimi məni də birinci sırada oturtmuşdular. Ona görə rəyasət heyətində olanlardan prezident və nazirlərin himn oxunanda

ağızlarını açmamaları diqqətimi çəkdi.) sonra Fransalı qonaqların gətirdikləri 40-45 dəqiqəlik bir sənədli film göstərildi.

## Tomor baba necə Abbas Əli pirinə çevrilib

Filmdə ata-babası bəktaşi olan 35-40 yaşlarında birisinin Tiranaya gəlişi, oradan Tomor dağına ziyarətə getməsi təsvir edilirdi. Bəktaşilər Tomor baba dedikləri piri Kəbə kimi əziz tutur, hər ilin avqust ayının 20-25-də buraya gəlir, qurban kəsir, Abbas ibn Əlini yad edir, dualar oxuyur və bunu da həcc ziyarəti adlandırırlar. Maraqlı burasıdır ki, onlardan altı gün öncə xristianlar da bu pirə gəlir, Həzrət Məryəmi yad edir, dualar oxuyur, şam yandırır, nəzir verirlər.



**Şək. 1 Tomor Piri**

Tomor piri Tirananın 120-130 kilometrliyində, dəniz səviyyəsindən 2416 metr yürsəklikdə yerləşir. Bəktaşilərin inancına görə İmam Hüseyinin dəstəsinin bayraqdarı, ögey qardaşı Abbas ibn Əli Kərbəlada şəhid olmayıb. Möcüzə nəticəsində oradan sağ çıxaraq Tirana yaxılığındakı Berat bölgəsinə gəlib. Bir müddət Beratda qaldıqdan sonra müqəddəs Tomor

dağının zirvəsinə qalxıb. Orada yaşayıb və dünyasını da orada dəyişib.

Bəktaşilər "Abbas ibn Əli" söz birləşməsindən "ibn" sözünü atdıqlarından Abbasəli kimi tələffüz edirlər. Tarixi qaynaqlar isə imam Həsən və imam Hüseynin ögey qardaşı Abbas ibn Əlinin Kərbəla döyüşündə şəhid olduğunu yazır. Azərbaycanda, İranda Məhərrəm ayında aşura günü təşkil edilən şəbeh tamaşalarında həzrəti Abbasın şəhadətinə xüsusu yer ayırırlar. Onun şəninə yazılmış yüzlərlə nohə və mərsiyə var. Şəbehlər göstəriləndə, mərsiyələr oxunanda yüzlərlə insan ekstaz vəziyyətinə düşür, ağlayır, başına-gözünə döyür, üzünü cırır və s.

Yunan miflərində isə deyilir ki, Tanrı Dodona Tomor dağında dövləti qoruyan müqəddəs sərv ağacı əkib. Hər il avqust ayında da o ağacla danışmağa, ondan diləklərinin yerinə yetirilməsini xahiş etməyə gəlirmiş.

Bəktaşi dərvişlərinin bu yerlərə gəlməsinin tarixi 15-ci yüzildən o tərəfə getmir. Buna baxmayaraq, onlar Tomor dağını özlərinin müqəddəs pirinə çeviriblər. Araşdırıcılar isə Tomor dağının zirvəsindəki ziyarətgahın yaşının 3 min ildən çox olduğunu isbatlayıblar.

Fransadan ziyarətə gələn, bəktaşiyə bələdçilik edən dindaşı Tomor babaya gedərkən yolüstü atasını da görmək istəyir. Onlar traktor lapetinin üstündəki qarpız satandan bir qarpız alıb kəndə gedirlər. Kənddə onları qarşılayan ata qarpız olan paketi bulaq suyu ilə dolduraraq: "qoyun bir az sərinləsin, sonra kəsək" deyir. Onun bu hərəkəti mənə kəndlərdə gördüyüm insanların davranışını xatırladır. Daha sonra filmin gedişatında aydın olur ki, ateist ata bütün dinlərə və inanclara sayğı ilə yanaşır.

Qəribə burasıdır ki, bəktaşi kimi Abbasəlini yad etməyə gələnlər Tanrı Dodonanın əkdiyi sərv ağaçını görmək üçün dağı xeyli dolanırlar. 3 min il öncə əkildiyi söylənən ağacı tapa bilməyib yorğun Tomor pirinin türbəsinə gəlirlər. Qurbanlıq qoyun alarkən bazarlıq etmələrini, qurbanı kəsdikdən sonra geri dönmələrini də lentə almışdılar.

Filmdə bəktaşilərin bütün din və inaclara qarşı xeyirxah, açıqürəkli, səmimi və comərd olduqları təbliğ edilir.

## Ənənə və müasirlik arasında: İmam Əli dünyası mövzusunda simpozium

Sənədli filmdən sonra Dünya Bəktaşilərinin Baş Dədəsi Edmond Brahimay (İbrahim) simpozium iştirakçılarını, qonaqları, nazirləri və prezidenti salamladı. Dünyadakı bəktaşilərin bugünkü vəziyyətindən, onların Həzrət Əliyə olan sevgisindən, Həzrət Əli ideyalarını yaşatmalarından, bu ideyanın dünyaya sülh və əminamanlıq, bolluq və bərəkət gətirəcəyindən söz açdı. Sonra ATƏT-in Albaniyadakı böyük elçisi Bernard Borcharda, Albaniya Müsəlmanları Komitəsinin sədri Skendern (Biz "İskəndər" kimi tələffüz edir və yazırıq – Ə.Ş.) Bruçaya, Albaniya Dini Qurumlarla İş Komitəsinin sədri Loreta Arikaya çıxış etdi. Açılış toplantısının sonunda Albaniya prezidenti İlir Meta danışdı. Bu mənim diqqətimi çəkdi. Çünki keçmiş Sovetlər Birliyində daha yüksək vəzifəlilərə toplantının önündə söz verilməsi bir protokol qaydasına çevrilmişdi.

Albaniyada Azərbaycana olan maraq və sevgi hər yerdə, hər addımda hiss edilir. Simpoziuma gələnlərin arasında professorlar, yüksək vəzifə və titullular olmasına baxmayaraq, mənim məruzəmi proqramda önə çəkmişdilər. Məruzələr üçün ənənəvi olaraq 20 dəqiqə vaxt ayırmışdılar. Mən həmişə

bu qaydaya əməl etməyə çalışmışam və hamıdan da ona əməl etməsini istəmişəm.




**Şək. 2 Ortada Albaniya prezidenti İlir Meta**

Məruzəmi oxuduqca proyektordan Buzovnadakı Əli ayağı, Zığdakı Qədəmgah, Tovuzla Gədəbəy arasındakı Haçaqaya və başqa pirlərin, Azərbaycandakı Bəktaşi soyadlı elm və mədəniyyət adamlarının şəkillərini göstərirdim. Arxadan kiminsə Təbriz ləhcəsində "Ağa, siz tez-tez danışırsınız, tərcüməçi çatdıra bilmir, bir az yavaş danışın" deməsi məni həm heyrətləndirdi, həm də sevindirdi. Heyrətləndim ki, Tirana hara təbrizli hara. Sevindim ki, Azərbaycandan uzaqlarda doğma səs eşidirəm.

Vaxtımın 15-ci dəqiqəsində məruzəmi oxudum. Son beş dəqiqəni isə İsmail Farkadan söz açdım. Bildirdim ki, o hər bir zülmə tab gətirən vətənsevərdir. Gələcək nəsillər ona dözümlülük və əyilməzlik rəmzi kimi baxacaqlar. Çox təəssüf ki, biz müasirləri ona qarşı laqeydik. Haqqı tapdalanmış bu insanın dəyəri indiyədək verilməyib. Gənc nəslə onun ömür yolu bir örnək kimi öyrədilməyib. SSRİ dağılandan sonra sənədləri olmadığından vətəninə dönə bilməyib. Onu SSRİ-yə göndərən təşkilat öz əməkdaşının taleyinə laqeyd qalıb. İndiyədək İsma-

il Farkanı haqsız həbs edərək, dəlixanaya salanlar beynəlxalq məhkəməyə verilməyib.

Salondakılar mənim çıxışımı sükutla qarşıladılar. Fasilədə isə bunun əksini gördüm.

Mən İsmail Farkayla bağlı Tiranada Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Sosial Müdafiə Nazirliyi əməkdaşları ilə görüşməyə can atırdım. Dostluk, Bilimsel ve Kültürel Arnavutluk-Azerbaycan Derneği başkanı, **Doç.Dr. Entela Muço** bu işdə mənə yardım etmək üçün çox əlləşdi. Azərbaycandan gəldiyimi biləndə ən yüksək vəzifəlilərlə görüşdürəcəklərini vəd etdilər. Hətta görüş günü və saatını da müəyyənləşdirdilər. Amma heç biri baş tutmadı. Görüşə gedəcəyimiz gün qəbul otağında hansı mövzuda söhbət üçün gəldiyimi bildikdə nazir və nazir müavinləri çox incə bir nəzakətlə bu gün rəsmi bir toplantı olacağını, görüşün dəqiq olmayan bir vaxta ertələndiyini bildirdilər.

İsmail Farka haqqında söhbətlərimiz “Albaniya-Azerbaycan Dostluk, Bilimsel ve Kültürel Derneği”nin çərçivəsində qaldı. Dərnəyin ən fəal üzvlərindən olan, vəkil Əkrəm Kokalari mənə təskinlik verdi. Dedi ki, dostlarını, keçmiş iş yoldaşlarını bu işə qoşacaq. Onun söylədiyi bir hadisə məni də dərnək üzvlərini də təəssüfləndirdi. O dedi ki, İsmail Farka adlı birisinin qardaşı ilə tanışdır. Qardaşı İsmail Farkanın təxminən 2-3 ay öncə öldüyünü söyləyib. Qardaşının dediyinə görə İsmail Farka 1933-cü ildə doğulub, Sovetlər Birliyində oxuyub mühəndis olub, orada rus qızı ilə evlənib, ondan da iki övladı olub. Eyni ildə doğulan, təxminən eyni tərcümeyi-hallı iki insanın olması mənə bir az inandırıcı görünmədi.




**Şək. 3 Edmond Brahimay (İbrahim) - Mondi Baba Əli Şamilə qatılım bəlgəsi təqdim edərkən**

Sovetlər Birliyində yadfikirlilərlə xüsusi xidmət orqanlarının davranışına dair eşitdiyim və oxuduğum hadisələri danışırdım, Entela xanım da albancaya çevirirdi. Əkrəm Kokalari də gülümsəyərək bir hadisəni danışdı. Dedi ki, hüquq fakültəsini bitirib hərbi prokurorluqda işləyirdim. Gənc bir zabitin çimərkən boğulduğuna dair sənədləri mənə verdilər. Mən sənədlərlə tanış olanda gördüm zabitin üzgüçülük üzrə dərəcəsi var. Təəccübləndim. Məhkəmə Tibbi Ekspertiza şöbəsinin müdiri ilə söhbət etdim. O, mənə açıq bildirdi ki, zabit öldükdən sonra suya atılıb. Mən cinayət işi açmaq üçün sənədləri hazırladım. Baş prokurorun qəbuluna getdim ki, sənədlərə imza atdırım. O, sənədləri gözdən keçirdikrən sonra əsəbiliklə dedi: "özünü ağıllı sayırsan?! Sənin də meyitinin tapılmasını istəyirsənsə get istintaqa başla. Ağlını başına yığ! Get sənədləşdir ki, intizamsızlıq edib, hərbi hissədən icazəsiz gedib, çimərkən boğularaq ölüb". Prokurorun tapşırığını yerinə yetirdim. Başımı bəlaya salmamaq üçün məsələnin təfsilatını öyrənməyə də cəhd etmədim.

Mən Albaniyadan SSRİ-yə oxumağa göndərilmiş Teha Harxhının Volqa çayında boğulması haqqında sənədlərlə tanış olanda da eyni vəziyyətlə qarşılaşdım. İsmail Farkayla bağlı səmərəli bir iş görə bilmədiyimdən Tirana səfərimi uğursuz

saydım. Dünya Bəktaşilərinin Böyük Dədəsi Edmund Brahimayın, vəkil Əkrəm Kokalarinin vədləri məndə bir ümid oyatdı ki, bu məsələ çözüləcək. İnanıram ki, mütləq çözüləcək. Amma bilmirəm həmin vaxtadək İsmail Farka və mən yaşaya biləcəyikmi?!

## Simpoziumda tanış olduğum Əli Heydər Bayat

Tiranaya dəvət edilməyimdə rolu böyük olan Entela Muço mənə həm dilmanclıq, həm də bələdçilik edirdi. Həssaslığı, işgüzarlığı və canıyananlığı ilə seçilən bu xanımla tanışlığımızın maraqlı tarixçəsi var.

Əli Heydər Bayatla (1941-2006) Türkiyədə simpoziumda tanış olmuşdum. Tibb elmləri doktoru, professor Əli Heydər Bayatın musiqi təhsili, o sahədə dərin biliyi vardı. Ona görə də tibb sahəsində çalışmaqla yanaşı konservatoriyaya da rəhbərlik edirdi. Onun tibb və musiqi sahəsindəki fəaliyyəti haqqında geniş bilgim də yox idi. Yəni əsərlərini oxumamışdım.

Azərbaycan sevdalısı bu insanın Əli bəy Hüseynzadə haqqında yazmış olduğu dəyərli monoqrafiyasını isə oxumuşdum. Monoqrafiyanı oxuduqdan sonra ona hörmətim birə-beş artmışdı. Hər bir sözünü, tapşırığını canla-başla yerinə yetirirdim.

20-ci yüz ilin başlarında Azərbaycanda və keçmiş Rusiya imperiyasında baş verən ictimai-siyasi hadisələr haqqında az-çox bilgim də məni onun üçün maraqlı müsahibə çevirmişdi. Tez-tez yazışmağa, bir-birimizə əldə etdiyimiz yeni materiallar haqqında bilgi verməyə, simpoziumlarda görüşməyə, fikir mübadiləsi etməyə, daha doğrusu dərdləşməyə can atardıq.

O, 2005-ci ildə dedi ki, Türkiyədə türk xalqlarının xalq təbabətində işlənən terminləri əhatə edən bir sözlük hazırla-

nır, gərək mən də onlara kömək edim, Azərbaycandan bu sahənin biliciləri ilə sözlük hazırlayanlar arasında körpü qurum. Onlar da Azərbaycanda işlənən xalq təbabəti terminləri mövzusunda bir məruzə hazırlayıb Türkiyədə keçirilən simpoziuma qatılsınlar. Sözlük hazırlayanlar da onun məruzəsindən yararlansın.

Simpoziuma dəvət edilənlərin bütün xərcləri ödəniləcəkdi. Mən də Bakıya dönəndə Azərbaycan Tibb Universitetinə getdim. Əli Heydər Bayatın təklifini onlara çatdırdım. Böyük həvəslə elə həmin gündən işə başlayacaqlarını söylədilər. Hətta mənim yanımda qərarlaşdırdılar ki, bir neçə nəfər birlikdə məruzəni hazırlasın. Vaxt daraldıqca təşkilatçılar rahatsızlıq keçirir və mənə zəng vururdular. Mən də Tibb Unversitetinə getdim. "Hə, hə" deyirdilər, amma məruzəni yazıb göndərmirdilər.

Bir gün də Əli Heydər Bayat zəng vurdu. Dedi ki, Tibb Universitetinin müəllimləri ilə danışdım. Vəd verdilər ki, məruzəni hazırlayacaqlar. Ancaq içimdə bir hiss var, onlar vədlərinə əməl etməyəcəklər. Hər halda, sən gəncləri də səfərbər et, Azərbaycanda çap olunan, toplanan folklor mətnlərindəki xalq təbabəti terminlərini seçib, bir məruzə hazırla, özün gəl.

Belə bir məruzə hazırlamağın məsuliyyətini boynuma götürmək istəmirdim. Amma Əli Heydər Bayatın sözünü də yerə sala bilməzdim. Onun tapşırığını yerinə yetirdim. Simpoziumda mən ağ qarğa günündəydim. Məndən başqa bütün məruzəçilər tibb tarixi mütəxəssisləri idi. Məruzəmi oxuyandan sonra isə vəziyyət dəyişdi. Təşkilatçılar mənə hörmət və ehtiramla yanaşdılar.

## Məzahir Avşarla görüş



Şək. 4 Məzahir Avşar və xanımı Lalə

Aradan iki il keçəndən sonra simpoziumun təşkilatı işlərinin ağırlığını çiynində daşıyan Prof. Dr. Ayşegül Demirhan Erdemirdən bir məktub aldım. O, keçirəcəkləri toplantının dəvətini göndərmişdi. Əlavə yazdığı məktubda isə bildirirdi ki, simpozium Konyada keçiriləcək. Şəms Təbrizinin, Mövlana Cəlaləddin Ruminin məzarlarını ziyarət etmək üçün imkan yaranıb. Xanımınızla birlikdə gəlin.

Mən tibb sahəsi mütəxəssisi olmadığımı yazdım. Bir gün keçməmiş zəng vurdu. Dedi ki, mövzu tapmaq sizin üçün çətin bir iş deyil. Məruzə hazırlayıb göndərin, sizi gözləyirik.

Simpoziumun təşkilatçıları iki toplantını – Birinci Uluslararası Tibb Tarixi Kongresi və Onuncu Ulusal Türk Tibb Tarixi Kongresini birləşdirmişdilər. Mən də Əfzələddin Xaqaninin əsərləri əsasında Kafiəddin Ömər ibn Osmanın Darüşşəfası haqqında bir məruzə hazırladım. Beləcə 20-24 may 2008-ci ildə Konyada keçiriləcək simpoziuma dəvət edildim.

***

Konyadakı Səlcuq Universitet şəhərciyinə yeni çatmışdıq. Xalq inanclarınının araşdırıcısı Yaşar Kalafat, xanımım və mən söhbət edə-edə gedirdik. Yanımızdan keçən qara rəngli cip bir anda əylənci basdı və biz təkərin asfalta sürtünərək çıxardığı səsə geri döndük. Düşündük ki, nəsə qəza oldu. Qəza-

dan əsər-əlamət yox idi. Sükan arxasından dolu bədənli, orta boylu, saçı-saqqalı ağarmış, başının tükləri bığlarına, bığları saqqalına qarışmış birisi endi. Maşını yolun kənarında saxlayıb iti addımlarla bizə doğru gəldi. Yaxınlaşanda tanıdım. Milli-azadlıq hərəkatının fəallarından olan rəssam Məzahir Avşar idi. 4-5 il idi görüşmürdük.

Gənc, çılğın rəssam dostumun görünüşü məni kövrəltdi. O, Azərbaycanda qalıb işləməyi, milli kadrlar hazırlamağı, mübarizəni sevirdi. Lakin elə çıxılmaz vəziyyətə saldılar ki, xanımını da götürüb iş dalınca Türkiyəyə getməli oldu. Görüşdük, ayaqüstü söhbətləşdik. Gələcəyimizi öncədən ona xəbər vermədiyimizə görə giley-güzar etdi. Həmin gündən Bakıya qayıdana kimi Məzahir Avşar və xanımı Lalə yanımızda oldular, bizi gəzdirdilər, qonaq etdilər. Lalə xanım da rəssamdı. O, daha çox qurama ilə maraqlanır. Yaradıcılığında da qədim quramalarımızın rəng çalarlarından geniş istifadə edir.

## Entela Muço ilə tanışlıq

Simpoziumlarda fasilələr zamanı çay, qəhvə, şirniyat verilən yerlər adətən arı yuvasını xatırladır. İştirakçılar növbədə, salonda gəzişəndə söhbətləşir, fikir mübadiləsi edir, gələcək işlərini, görüşlərini planlaşdırırlar. Bu dəfəki fasilədə isə nədənsə bir seyrəklik vardı. Məzahir Avşar və mən xanımlarımızla bir küncə çəkilib çay içərək dərdləşirdik.

Əlində iki stəkan çay olan qarabuğdayı, arıq və ucaboy bir xanımın bizim stola yaxınlaşması diqqətimizi çəkdi. Məzahir Avşar maraq dolu baxışla: “bu kimdir?” deyərək sanki özü-özündən soruşdu. Mən və xanımım qonaq idik və buradakıları da yaxşı tanımırdıq. Əslində, gələn Məzahir Avşarın və ya xanımının tanışı ola bilərdi. Onun da belə heyrətlə sual

verməsi diqqətimizdən yayınmadı. Xanımım Məzahir Avşara: "Narahat olmayın, Əlinin yanına gəlir", deyərək Lalə xanıma eyham vurdu.

Əlində çay stəkanları olan xanım gülməyimizə əhəmiyyət vermədən çayın birini mənim, birini də öz qarşısına qoyub əyləşdi. Əzizə xanımın sözünün doğru çıxması bizim bir-birimizə mənalı baxaraq gülümsəməyimizə səbəb oldu. Yeni gələn xanım isə heç nə olmamış kimi mənə müraciətlə, avşarlar mövzusunda araşdırma apardığını, bu işdə ona yardımçı ola biləcək azərbaycanlı axtardığını bildirdi. Danışığından Türkiyə türkü olmadığı açıq-aydın seçilən xanımın sözünə dördümüz də güldük. O, yenə heç nə olmamış kimi, verəcəyimiz cavabı gözlədi. Üçümüz də Məzahir Avşarı göstərdik. Sonra da Məzahir bəyin avşar olduğunu, Azərbaycandan gəlib Səlcuk Universitetində Gözəl Sənətlər bölümünə rəhbərlik etdiyini bildirdik. Bizim təqdimatımız xanımı çox sevindirdi.

Məzahir Avşarın vizit kartını aldı. Özü də bizə vizit kartını verdi. Avşarlar mövzusunda başlayan söhbətin bir azdan yönü dəyişdi. Biz onu tanımaq üçün suallar verməyə başladıq. Öyrəndik ki, Tiranadan gəlib. Baş Arxivlər İdarəsində Türk Əlyazmaları şöbəsinin müdiridir. Ona Azərbaycanla maraqlanmasının səbəbləri, avşarlar mövzusunda nə yazmaq istədiyi, Albaniyanın bu günkü durumu və s. haqqında suallar verməyə başladıq. O, ağır-ağır, sanki demək istədiklərini beynində tərcümə edərək, suallarımızı cavablandırırdı. İlk görüşdən xoş ovqat oyadan xanıma əlimizdən gələn köməyi əsirgəməyəcəyimizi vəd etdik.

Simpozium günlərində bir neçə dəfə Entela Muço ilə görüşdük, məruzəsini də dinlədim. Azərbaycan-Albaniya əlaqələri, qədim Qafqaz Albaniyası ilə bu gün Balkanlarda mövcud

olan Albaniya dövlətlərinin ad oxşarlığı, Tiranadakı türkdilli əlyazmalar arasında Azərbaycan yazıçı, şair və alimlərinin əsərləri mövzusunda söhbət etdik. Məzahir bəy sağ olsun, qısa müddətdə avşarlarla bağlı xeyli material toplayıb Entela Muçoya verdi.

Bir neçə ay sonra Entela Muçodan məktub aldım. Bakıya gəlmək, kitabxanalarda, arxivlərdə işləmək, avşarlar mövzusu ilə bağlı ədəbiyyat toplamaq istədiyini yazırdı. Vəziyyəti götür-qoy etdim. Gördüm ki, istəklərini reallaşdırmaq üçün 4-5 ay Bakıda qalması lazımdır. Buna nə maddi imkan var, nə də şərait. Odur ki, gənc alimlərdən Elmira Fikrət qızından, Aida Ağakərim qızından, Səadət Şıxıyevadan xahiş etdim ki, mövzu ilə bağlı kitabların, qəzet və jurnal məqalələrinin surətlərini çıxarsınlar.

Entela Muçonun aylarla axtaracağı materialların yerini onlar az qala əzbər bilirdilər. Çox sağ olsunlar, sözümü yerə salmadılar. Lazım olan materialları seçib hazırladılar. Artıq Entela Muçoya Bakıya gələndə araşdırıcılarla görüşmək, fikir mübadiləsi etmək qalmışdı.

Onu hava limanında qarşılayıb evimizə gətirdim. Sonra da kitabxanaları, arxivləri gəzdirdim. Araşdırıcılarla görüşdürdüm. Gənc araşdırıcıların da yardımı ilə topladığım materialları ona verib ölkəsinə yola saldım. 2-3 ay sonra mənə geniş bir məktub yazdı. Bakıdan apardığı materiallardan razı qalmışdı. Tanımadığı gənc araşdırıcıların təmənnasız yardımından çox təsirlənmişdi. Onlara təşəkkürünü çatdırmağımı xahiş edirdi. Beləcə, azərbaycanlı gənclərin işgüzarlığı və təmənnasız yardımı Entela Muçonu Azərbaycanla sıx bağladı.



**Şək. 5 Soldan: Aynur Qəzənfərqızı, Entela Muço, Qətibə Vaqifqızı, filologiya elmləri doktoru Nailə Səmədova, filologiya üzrə fəlsəfə doktoru Könül Bağırova, elmi işçi Aytən İmanova və Qətibənin qardaşı Elnur Quliyev.**

## Entela Muçonun ömür yolundan bəzi səhifələr

Əksər ölkələrdə və bölgələrdə olduğu kimi Albaniyada da güneylilərlə quzeylilər arasında gözəgörünməz bir ziddiyyət var. Entela Muçonun valideynləri güneydən olsa da onlar paytaxtda yaşayıblar. Ziyalı ailəsində doğulan Entela Muço 1986-1990-cı illərdə Tirana Universitetinin Ədəbiyyat fakültəsinin Tarix bölümündə oxuyub. Təhsil illərində türk dilinə maraq göstərib. Universiteti bitirdikdən sonra fərqli kurslarda türkcə biliyini artırmağa çalışıb. Bu, onu qane etməyib. Albaniya Təhsil Nazirliyinin təqaüdü ilə 1994-1995-ci illərdə Türkiydə TÖMER-də oxuyub. Bu səfər onu Türkiyə ilə sıx bağlayıb. Osmanlı dönəminin sənədlərini oxumaq üzrə mütəxəssis kimi formalaşması üçün Albaniya Təhsil Nazirliyi onu 1995-1997-ci illərədə İstanbul Universitetindəki kurslara göndərib.

Professor Mehmet Ali Beyhanın rəhbərliyi altında ixtisas qazanan Entela Muço 1997-2000-ci illərdə İstanbul Universi-

teti Ədəbiyat fakültəsi Tarix bölümündə magistraturada oxuyub və "Yanya valisi Tepedelenli Ali Paşa emlakı" mövzusunda yazdığı diplom işini uğurla müdafiə edib. Albaniya Baş Arxivlər İdarəsində müxtəlif vəzifələrdə çalışıb. "İbrahim Temonun hayatı, faaliyeti ve fikirleri" mövzusunda yazdığı dissertasiyasını da İstanbul Universiteti Ədəbiyat Fakültəsi Tarix Bölümünün doktorantı kimi müdafiə edib.

Albaniyada 13-20-ci yüzillərdə yazılmış Osmanlı sənədlərinin bilicisi kimi tanınıb. Layihələr hazırlayıb, Türkiyə mütəxəssisləri ilə birlikdə Osmanlı dövrünün sənədlərinin kataloqunu hazırlayıb. 1995-2010-cu illərdə Orta və Güney Albaniyanın Osmanlı kadastrı əmlak dəftərləri üzərində çalışıb. Bu sənədlər əsasında Türkiyədə, Azərbaycanda, Bolqarıstanda, Rumıniyada və b. ölkələrdə keçirilən elmi simpoziumlarda məruzələr oxuyub. Xarici ölkələrin nüfuzlu jurnallarında dəyərli elmi məqalələr çap etdirib. İşi yaxşı bilmək, doğru olmaq, səmimiyyət və xeyirxahlıq bəzən insanın başına bəla da açır...

Entelanın da sadəliyindən istifadə edib həyatının az qala bir ilini cəhənnəmə döndəriblər. Elmi yaradıcılıqla məşğul olmaq əvəzinə müstəntiqlərə, məhkəmələrə izahatlar yazıb. Həbs olunmaq qorxusunu yaşayıb. Səbəb isə notariusdakı bir saxtakarlıq olub. Ona Osmanlı dönəminin kadastr əmlak sənədlərini tərcümə etmək tapşırılıb.

Entela Muço 450 hektarlıq torpaq sahəsinin sənədlərini hazırlayaraq notariusa təqdim edib. Var-dövlət hərisləri onun hazırladığı sənəd üzərində fotoşopla dəyişiklik edərək 450 hektarlıq torpaq sahəsini öz adlarına keçiriblər. Məsələnin üstü açılanda torpağı müsadirə etmiş yüksək vəzifəlilər canlarını birtəhər qurtara bilsələr də, Entela çıxılmaz vəziyyətdə qalıb.

Çox şükür ki, hər yerdə olduğu kimi, Tiranada da xeyirxah insanlar var. Uzun müddət Albaniya hərbi prokurorluğunda işləmiş, oradan təqaüdə çıxdıqdan sonra vəkilliyə başlamış Əkrəm Kokari bir xilaskar mələk kimi onun köməyinə çatıb.



**Şək. 6 Soldan: Dostluk, Bilimsel ve Kültürel Arnavutluk-Azerbaycan Derneği üzvlərindən Aliye xanım, Əkrəm Kokolari, Entela Muço, Əli Şamil və Bədri bəy**

Bu hadisə mənə Azərbaycan qəzetlərində oxuduğum, tanışlardan eşitdiyim məhkəmə çəkişmələrini xatırlatdı. Buradan çıxardığım nəticə budur ki, bu köhnəlik qalığı totalitar rejimin təsiri təkcə Azərbaycanda, Albaniyada deyil, keçmiş sosialist ölkələrinin əksəriyyətinin məhkəmə sistemləri üçün xarakterikdir.

## Entela Muçonun Azərbaycanla bağlılığı

Entela Muço 2009-cu ilin may ayının sonlarında Bakıya gələrək Azərbaycan Cümhuriyyətinin ildönümü münasibətilə təşkil edilən toplantılara qatıldı. Sonralar Bakıya gəlişi sıxlaş-

mağa başladı. Folklor İnstitutunda çalışan Aynur Qəzənfərqızı və Tarix İnstitutunda işləyən İradə Məmmədli ilə də dostlaşdı. İradə xanım onun Bakıda keçirilən simpoziumlara gəlməsinə şərait yaratdı. Sağ olsun, o da heç zaman əliboş gəlmirdi. Bir-birindən maraqlı məruzələrlə simpoziumlarda çıxış edirdi. Onun "Nadir şah dönəmində islam mədəniyyətinin bəzi yönləri" (2009), "Azərbaycan türk xalqına qarşı 1918-1920 soyqırımı" (2013), "18-19-cu yüzillərin keçimində Güney Kafkasyadakı gəlişmələri üzərində bəzi baxışlar (Azərbaycan)" (2013), "Arnavut entelektüel baxışına görə Azərbaycan xalqına qarşı ermənilərin yapdığı soyqırımı" (2017) və b. məruzələrindən Azərbaycanlı araşdırıcılar həvəslə istifadə edirlər. O, yalnız məruzə oxumağa gəlmir, həm də Albaniyadakı arxivlərdə Azərbaycanla bağlı əlyazmaların və sənədlərin surətini gətirir.

Həmin sənədlərdən də istifadə edilərək yeni məqalələr yazılır. Albaniya Dövlət Arxivində Məhəmməd Füzulinin "Hədiqət üs-süəda" əsərinin 1669-cu ildə, 1789-cu ildə, 1888-ci ildə və 1928-ci ildə köçürülmüş olduqca təkmil əlyazmalarının olması məni heyrətləndirdi. Öyrəndim ki, orada yalnız Məhəmməd Füzulinin deyil, müxtəlif müəlliflərin türkcə 261 əlyazması saxlanılır.

Sonrakı gəlişlərində Entela Muço kitabxanalardan, arxivlərdən çox hökumət idarələrinə gedirdi. Prezident Aparatında, Xarici İşlər Nazirliyində, Diasporla İş Komitəsində görüşdüyü adamlarla Azərbaycan-Albaniya əlaqələrinin yaxşılaşdırılmasından söz açır, yollar arayırdı.

Mənə yazdığı məktublarında bəzən də onun zəhmətini qiymətləndirmədiklərindən, hazırladığı layihələrindən rəhbərlikdə olan və mövzudan uzaq insanların yararlandığından şi-

kayətlənir, normal işləməsinə əngəl törədildiyindən gileylənirdi. Mən də keçmiş sosializm blokuna daxil olan ölkələrin çoxunda bu problemlərin olduğunu yazaraq ona təsəlli verməyə çalışırdım.

Uzun mübarizədən, sənədlər hazırladıqdan, sənədləri müxtəlif dillərə çevirdikdən sonra qurduğu "Dostluk, Bilimsel ve Kültürel Arnavutluk-Azerbaycan Derneği"nin 2011-ci ilin iyun ayında Albaniyada qeydiyyata alınmasına nail oldu. O, dərnəyin proqramında Azərbaycan deyəndə yalnız Azərbaycan Resbublikasının deyil, İran İslam Respublikasındakı Azərbaycanı da, yəni Kərəc, Qəzvin, Həmədandan Araz çayınadək olan ərazini də nəzərdə tutduğunu yazması bir çoxlarını qıcıqlandırsa da inadından dönmədi və istədiyini həyata keçirdi.

Təsis yığıncağından sonra Tiranada geniş bir elmi simpozium keçirməyi planladı. Simpoziumun keçiriləcəyi yeri, mövzuları, dəvət edə biləcəyi alimləri, siyasi xadimləri müəyyənləşdirə bilməsi üçün üç aydan çox vaxt xərclədi. Sonra maliyyə qaynağı vəd edənlər sözlərindən qaçdığına görə toplantı baş tutmadı.

Onun istəklərinin bəziləri baş tutmasa da həvəsdən düşmür. İnadla çalışır. Yəqin ki, gələcəkdə onun fəaliyyəti Azərbaycan-Albaniya əlaqələrini öyrənmək baxımından araşdırıcılara mövzu verəcəkdir.

## Tiranada Novruz bayramı

Tiranada Novruz bayramı Kutsal Sarayın, Bəktaşi dədələrinin dəfn edildiyi parkda keçiriləcəkdi. Qaldığım hoteldən parka Əkrəm Kokalarinin maşınında, Entela Muço ilə birlikdə getdik. Tədbirin keçiriləcəyi yerin yaxınlığında maşın saxlamağa imkan yox idi. Ona görə də Əkrəm Kokalari maşınını

Sovet dövründə tikilmiş mikrorayonları xatırladan bir məhəllədə saxladı. Orada hələ küçədə maşın saxlayanlardan yerpulu alanlar gözə dəymirdi.

Piyada parka doğru irəlilədik. Bayram əhval-ruhiyyəli, təzə və səliqəli, al-əlvan geyimləri ilə seçilən müxtəlif yaşda insanlar parka doğru irəliləyirdilər. Parkdakı musiqi səsi uzaqdan eşidilirdi.

Tiranadakı Novruz bayramı Bakıda keçirilən bayramdan tək fərqi kasıblığında idi.

## Təbrizli operatorun tutulması

Biz parka daxil olub mikrofonlar qurulmuş meydana yaxınlaşanda təbrizli operatorun qoluna idmançı görkəmli iki gəncin girərək apardığını görəndə özümü onun qabağına atdım. Dil bilməsəm də onu qurtarmağa çalışdım. Operator da mənim kimi alban dilini bilmirdi. Məni görəndə bir az cəsarətləndi. Bircə kəlmə "aparırlar" dedi.

Əkrəm Kokalarinin qolumdan tutub məni geri çəkməyi ilə yol açıldı. Onlar surətlə irəliləyib parkdan çıxdılar. Əkrəm bəy nə isə deyirdi. Mənim nigaran baxışlarım isə həmyerlimin ardınca qalmışdı. Əkrəm Kokalarin məni niyə geri dartdığını, nə dediyini hələ tam anlaya bilmirdim.

Entela Muço tərcümə etdi ki, burada rejim çox sərtdir. Müqavimət göstərsəydin xüsusi xidmət orqanlarının ətrafdakı mülki paltarlı əməkdaşları səninlə birlikdə bizi də aparacaqdılar. Heç bir günahımız olmasa da ən azı üç-beş gün saxlayıb istintaq edəcəkdilər. Bizim ona heç bir yardımımız dəyməyəcəkdi, özümüz də əziyyət çəkəcəkdik.

Mən yenə də narazılığımı bildirdim. Dedim ki, bu necə ölkədir, qonağa da beləmi münasibət göstərərlər? Özlərinin

rəsmi dəvət etdikləri qonağı bayram günündə, hamının gözü qarşısında, alçaldıcı şəkildə tutub aparmalarına nə ad verəsən? Hansı hoteldə qaldığını bilirlər. Əgər nədənsə şübhələniblərsə, tədbir başa çatandan sonra ora gedib sorğu-sual edərdilər.

Əkrəm Kokalari gülərək "hələ sosializmdə mövcud olan idarəetmədən qurtulub demokratik idarəetməyə keçməmişik. Ona görə də bunlar gündəlik yaşantılarımızdır. Albaniya kimi kiçik bir ölkədə xüsusi xidmət orqanlarında çalışanların sayı çox, işləri isə azdır. Özlərini dövləti qoruyan vacib adamlar kimi göstərir, həm də adamların gözünü qorxudurlar".

İlk təəssürat Novruz bayramının gözəlliyini burnumdan tökdü. Bayram toplantısında Dünya Bəktaşilərinin Baş dədəsi Edmond Brahimayın da, çıxış edənlərin də nə dediyini qeyd etməyə həvəsim qalmadı. Fikrim Təbrizli operatorun yanında idi. Əkrəm Kokalari mənə təskinlik verdi. Dedi ki, səbrli ol. İndi hamı bayram tədbirindədir. Heç kimlə əlaqə qurub vəziyyəti öyrənmək mümkün deyil. Şənliklər iki-üç saata başa çatacaq. Ondan sonra görək nə edə bilirik.

Novruz bayramı şənliklərini elə bil tikan üstündə keçirdim. Əkrəm Kokalarigil də bir yerdə durub bayram şənliklərinə baxmırdılar. Tez-tez yerlərini dəyişirdilər. Dünya Bəktaşilərinin Baş dədəsi Edmond Brahimay Norvuz bayramı, onun humanizmi, demokratikliyi haqqında danışdıqca Entela Muço mənə tərcümə edirdi. Rəsmi çıxışlar bitdikdən sonra çal-çağıra qalmaq istəmədim. Hotelə qayıtmaq istədiyimi bildirdim.

Entela xanım oradakı muzeyə baxdıqdan sonra getməyimizi məsləhət gördü. Yaxşı ki, onun sözünə etiraz etmədim. Muzeyə gedərkən Bəktaşi dədələrinin türbədəki qəbirlərini də ziyarət etdik. Qəbirüstü yazıları Entela oxuyub tərcümə edirdi. Onun dediklərinə qulaq asdıqca qürur duyurdum. Bəktaşi

dədələri dini rəhbərdən, mənəviyyat adamından çox millətinin azadlığı uğrunda mübarizənin önündə olmuş döyüşçü sərkərdələri xatırladırdılar. Onlar həmişə müstəmləkəçilərə qarşı döyüşlərdə əldə silah xalqın önündə olublar.

## Albaniyada dinə münasibət

Ölkədə dindarların təqib olunduğu, dini təbliğatın yasaqlandığı bir zamanda şəhərin mərkəzi meydanlarından birində orta boylu bir bəktaşi dədəsinə heykəl qoyulubmuş. Əkrəm Kokalari heykəli qoyulan dədənin İkinci Dünya Savaşında faşizmə qarşı müqavimət hərəkatında göstərdiyi qəhrəmanlıqlarından danışdı. Bəktaşi dədəsinin adı dünya antifaşist hərəkatı liderlərinin sırasındadır.

Albaniyada bəktaşiliyin yayılması üçün qurulmuş muzeyi çox gözəl tərtibatla hazırlamışlar. Görünür, burada eksponatların yenilənməsinə, kompozisiyaların dəyişdirilməsinə çox diqqət yetirilir. Bəktaşilərə həsr olunmuş muzeyin bir bölümü sanki bizim Ədəbiyyat muzeyinin bir parçasıdır. Burada İmadəddin Nəsimiyə, Şah İsmail Xətaiyə, Qul Hümmətə, Məhəmməd Füzuliyə və başqalarına geniş yer ayrılıb. Onların əsərlərinin köhnə və yeni nəşrləri də nümayiş olunur. Bakıda çap olunmuş kitabları görəndə özümü doğmalarımın arasında hiss edirdim. Diqqətimi çəkən bir də o oldu ki, Füzulinin "Hədiqət üs-süəda" əsərinin bir neçə nəşri, son illərdə yenidən işlənmiş, redaktə edilmiş nüsxəsi də eksponatlar arasındaydı. Əsərin nəşrlərinin sayı Bakıdakı nəşrlərindən bir neçə dəfə çoxdur.

Muzeydə Yunis İmrə, Pir Sultan Abdal və başqaları haqqında eksponatlarda verilən bilgilər isə bizim muzeylərdə verilən bilgilərdən o qədər də seçilmir.

Muzeydən çıxıb Kutsal Saraya gedəndə Əkrəm Kokalari qırmızı kərpicdən tikilmiş bir binanı göstərdi. Dedi ki, Ənvər Xocanın hakimiyyəti illərində bu bina ölkədə yeganə namaz qılınan yer idi. Adına da məscid deyil, qocalar evi deyirdilər. Ənvər Xoca ölkənin məşhur dindarlar ailəsindəndir. Atası da mömün müsəlman idi. Hətta Ənvər Xoca onu Məkkəyə Həcc ziyarətinə də göndərmişdi.

Ramazan və Qurban bayramlarında ölkənin hər yerindən inanclı müsəlmanlar buraya gələrək namaz qılır, imamın çıxışlarını dinləyirdilər. Bina indi də məscid kimi istifadə edilir.

## Təbrizli operatoru qurtarmaq üçün cəhd

Biz oradan keçib Qutsal sarayda Sürya Xhelajın (Celay) qəbuluna getdik. Orada Təbrizli operatorun həbsi məsələsini və ona kömək yollarını müzakirə etdik. Sürya Xhelaj dedi ki, Amerika İran hökumətinə müxalif olan və İranın terrorist adlandırdığı Mücahidi Xaliqan Partiyası tərəfdarlarının əksəriyyətini Albaniyada yerləşdirib. Bu da Albaniya-İran münasibətlərini gərginləşdirib. Görünür, təbrizli operatorun həbsi də Mücahidi Xaliqan Partiyasının üzvlərinin təhlükəsizliyi ilə bağlıdır.

Uzun müzakirədən sonra Əkrəm Kokalari Sürya Xhelajını dilə tutdu ki, Bəktaşilərin baş dədəsi Ebrahim Edmunda zəng vurub narahatlığımızı bildirsin. O, tərəddüdlə də olsa zəng vurdu. Alban dilində uzun-uzadı nəyisə izah etdi. Telefonu yerə qoyandan sonra sifətində bir təbəssüm yarandı. Azərbaycanla bağlı verdiyi sualları Entela Muço mənə görə tərcümə etsə də mən ondan özünün cavablandırmasını istədim. Entela xanım həvəslə bilgi verir, hərdən bəzi məsələləri dəqiqləşdirmək üçün mənə müraciət edirdi.

Sürya Xhelaj Azərbaycana gəlmək imkanlarını, Azərbaycandakı Bəktaşi soyadından olanlarla görüşmək istədiyini, Nəsimi, Xətai, Füzuli, Qul Hümbət və b. şairlərin hansı səviyyədə öyrənildiyini və təbliğ olunduğunu görmək istədiyini bildirdi. Əkrəm Kokalari də, Entela xanım da, mən də onun istəklərinin reallaşması üçün lazımi şərait olduğunu söylədik. O gülümsəyərək dedi ki, biz Avropada yaşasaq da görünür, sizin ölkədə Avropa dəyərlərinə bizdən daha yaxşı əməl olunur. Entela xanım, Azərbaycan Respublikasının Avropa dövləti sayıldığından, hansı beynəlxalq təşkilatların üzvü olduğundan geniş bilgi verdi. Azərbaycan Respublikası ilə İran Azərbaycanı arasındakı əlaqələrdən də geniş danışdı. Entela xanım mən başa düşmədiyim üçün danışılanların hamısını tərcümə edirdi. Söhbətimiz yarım saatdan çox idi davam edirdi. Telefon zəngi söhbətimizi yarımçıq qoydu. Sürya Xhelaj bildirdi ki, Təbrizli operatoru Tiranadan xaricə uçan ilk təyyarə ilə ölkədən çıxaracaqlar. Bizə də məsləhət görürdü ki, onunla görüşməyə və ya yola salmağa getməyək.

Bu xoş xəbərlər dördümüzün də üzünü güldürdü. Mən Sürya Xhelaja təşəkkürümü bildirdim, söhbətimizin davamını Bakıda etmək arzusunda olduğumu çatdırdım. O bir daha xatırlatdı ki, Qutsal Sarayın maşınlarından birini bizim üçün ayırıblar. Haraya getmək istəsək zəng vuraq, sürücü gəlib bizi aparsın. Əkrəm Kokalari ilə Entela xanım da ona bildirdilər ki, Əkrəmin maşını ilə məni sabah Albaniya gəzintisinə çıxaracaqlar. O da qonaqpərvərliyinə və onlara yardım etdiyinə görə Əkrəm Kokalariyə təşəkkürünü bildirdi. Xudahafizləşib ayrıldıq.

## Əkrəm Kokalarinin xatirələri və Entela xanımın verdiyi tarixi bilgilər

Çölə çıxanda Əkrəm Kokalari bildirdi ki, o, gəncliyində hərbi prokurorluqda işlədiyi zaman Edmond Brahimay Alban Ordusunun əks-kəşfiyyat zabiti imiş. Uzun illərdir oradan ayrılıb bəktaşi rəhbərlərindən birinə çevrilsə də, həmin təşkilatda işləyənlər keçmiş iş yoldaşları olan Edmond Brahimayın sözünü eşidirlər. Ona görə də təbrizli operatorun işini çox operativ həll etdilər. Yoxsa belə işlər çox uzanır.

Səhərisi gün Əkrəm bəyin maşınında ölkənin quzeyinə doğru yol aldıq. Bizə bələdçilik edən isə Entela xanımdı. Hərdən Əkrəm Kokalari də söhbətə qoşulur. Onların dediyinə görə dünyada arnavutların sayı 10 milyondan çoxdur. Albaniyada qalanların sayı 3,5 milyonu keçmir. Dolanışıq çətin olduğundan insanlar xaricə köç etməyi bir xilas yolu kimi görür.

Onun dediyinə görə arnavutların 1,8 milyonu Kosovada, 550 mini Makedoniyada, 600 mini Yunanıstanda, 60-70 mini Serbiyada, 30-35 mini Monteneqroda (Karadağ), 15-20 mini Xorvatiyada, 15-20 mini Bosniya-Herseqovinada, yəni ata-baba torpaqlarında yaşayırlar. Xaricə köç edilmiş ölkələr sırasında Almaniya birinci yeri tutur. Orada arnavutların sayı 400 mindən çoxdur. ABŞ, Hollandiya, Belçika, İsveçrə kimi ölkələrin hər birində 100 min, Kanada, Fransa, İsveç, Avstriada və b. ölkələrdə yaşayan arnavutların sayı isə yüz mini keçmir.

Mən: “Entela xanım, bildiyimə görə arnavutların toplu yaşadıqları ölkələr sırasında Türkiyə və İtaliya öndə olmalıdır?” dedikdə o, gülərək: “Həmin ölkələr haqqında ayrıca bilgi verəcəkdim. Tarixi qaynaqların verdiyi bilgiyə görə Osmanlıların bölgəyə ilk yürüşü 1478-ci ildən başlamışdır.

Balkanları tutmaq, oradan da Romanı təsir dairəsinə salmaq arzusunda olan Sultan Fateh Mehmet Gədik Əhməd paşanın rəhbərliyi ilə bölgəyə ordu göndərir. Təcrübəli sərkərdə olan Gədik Əhməd paşa 100 gəmi ilə səfərə çıxıb 1480-ci ildə Adriatik dənizinin o tayındakı İtaliyanın Otranto qalasını alır. Osmanlıların azsaylı orduları Otrantodan Birindisi, Lecce, Toronto istiqamətində yürüşlərini davam etdirirlər. Vəziyyətin gərginliyini görən Papa Fransadakı Aviqona qaçmağa hazırlaşır. Bu zaman Neapol kralı keçmiş düşməninin köməyinə gəlir. Gədik Əhməd paşa yürüşü davam etdirə bilməyəcəyini görüb qalada 500 əsgər yerləşdirərək geri dönür. Trakiyada ordusunu yenidən formalaşdırır. Albaniya mühasirəyə düşmüş olur.

Gədik Əhməd paşa Trakiyada ordusunu formalaşdırdığı zaman Fateh Mehmet dünyasını dəyişir.

1481-ci il mayın 3-də İkinci Mehmetin ölümü İkinci Bəyazitlə Cəm Sultan arasında taxt-tac uğrunda vuruşa səbəb olur. Hakimiyyət uğrunda saraydaxili qarşıdurmanı nizama salmaq üçün İkinci Bəyazit Gədik Əhməd paşanı əsgərli birlikləri ilə İstanbula dəvət edir.

Otrantodakı 500 əsgərə Osmanlıdan yardım gəlmir. Savaşdan qaçmış şəhər əhalisi də geri qayıtmır. Beləcə, qaladakı Osmanlı əsgərləri yemək sıxıntısı ilə üzləşirlər. Bundan bacarıqla istifadə edən Neapol kralı Otrantodakı hərbi hissənin komandirləri ilə danışıb onları öz ordusunda işə götürür. Bununla Neapol kralı bölgənin sözü keçən hökmdarına, ordusu da ən güclü orduya çevrilir.

Saraydaxili çəkişməyə son qoyulduqdan sonra Osmanlı əsgəri birlikləri yenidən Balkanlara doğru yürüş edir. Ayrı-ayrı qalalar uğrunda gedən döyüşlərin qalibi olurlar. 1501-ci il-

də dirəniş göstərən son silahlı qüvvələr də məğlubiyyətləri ilə razılaşırlar. Beləcə bölgədə uzunmüddəli bir sakitlik yaranır.

15-ci yüzilliyin sonlarına doğru Osmanlı ordusu Balkanlara yürüş edəndə xristian inanclı arnavutların bir qismi ailələrini, inanclarını qorumaq düşüncəsi ilə xristianlığın dini mərkəzi sayılan İtaliyaya köçür. Onlar xristian olduqlarına görə müsəlmanların əsarətini qəbul etmirlər. Oradan da İtaliyanın Ağ dənizdəki adalarına, xüsusən də Siciliyaya və Kalabriyaya köçürlər. 19-cu yüzillikdə də Siciliyadan Amerikaya köçüb orada məşhur mafiyaların əsasını qoyurlar.

İslamı qəbul edən arnavutlar Osmanlı hökumətində mövqelərini möhkəmlədirdilər. Onların sayı orduda o qədər artdı ki, 17-ci yüzillikdən sonra Sədrəzəmlik, Paşalıq, Validə Sultanlıq kimi bir çox mövqeyi ələ keçirirlər. Bir sözlə, ölkənin idarə edənlər arasında arnavut kökənli paşaları, valiləri, elm-sənət adamlarını saymaqla qurtarmaz. Zəifləməyə doğru gedən Osmanlı dövlətini çökdürmək üçün Avropanın inkişaf etmiş ölkələri 19-cu yüzillikdən etibarən ciddi fəaliyyətə keçirlər. Bu işdə kilsələr də xüsusi fəallıq göstərir. Onların missioner təşkilatları arnavutların beynini yumağa, milli şüuru oyatmaq adı aldında Osmanlı düşmənliyini təbliğ etməyə başlayırlar.

Nəticədə Balkanların hər yerində olduğu kimi arnavutlar da Osmanlı dövlətinin əleyhinə silahlı mübarizəyə başlayırlar. Lakin bu mübarizənin nə ilə nəticələnəcəyini görmürlər. Bilmirlər ki, onları Osmanlı dövlətinin əleyhinə qızışdıran Serb və Yunan millətçilərinin başqa planları var. Serblər Albaniyanın quzeyində, Yunanlar isə güneyində soyqırım törətməklə boşalmış ərazilərdə özlərinə dövlət qurmayı planlayırlar.

Zəifləmiş, elmi-texniki tərəqqidə Avropa ölkələrindən geri qalmış Osmanlı dövlətinin əskəri birlikləri Balkan savaşlarında geri çəkilir. Bundan yararlanan serblər, yunanlar, bolqarlar arnavutların yüz illər boyu yaşadıqları ərazilərin işğalına başlayırlar. Osmanlı əsgəri birlikləri olmadığından onları qoruyan olmur. Serblər arnavutların toplu yaşadığı Topluca şəhərində soyqırım törədir. Avropa və Rusiya hökumətlərinin yardım etdiyi Yunan əsgəri birlikləri Güneydən Albaniyanın içərilərinə doğur irəliləyir.

Osmanlı dönəmində Yanya vilayətində yaşayan arnavutların sayı 1910-cu ilin siyahıya alınmasında 83 min olduğu göstərilir. Balkan savaşı başlayandan sonra onların bir qismi Osmanlı dövlətinin içərilərinə, bir qismi xarici ölkələrə qaçmalı oldu. Minlərlə arnavut müsəlman olduğuna görə yunan əskəri birlikləri tərəfindən öldürüldü, kəndləri dağıdıldı. 1913-cü ildə, Balkan savaşından sonra Londondakı Böyük Elçilər Konfransında arnavutların toplu yaşadığı Çameriya bölgəsi yeni yaradılan Yunanıstan hökumətinə verildi.

Türkiyə ilə Yunanıstan arasında 1923-cü ilin yanvar ayında bağlanmış və tarixə “Mübadilə anlaşması” kimi daxil olan sənədə əsasən 1923-1926-cı illərdə on minlərlə müsəlman arnavut Türkiyəyə köçməli olmuşdur. Ümumiyyətlə 1923-cü ildən 1944-cü ilədək Türkiyəyə köçürülən arnavutların sayının 85 min nəfəri ötdüyünü yazırlar.

İkinci Dünya Savaşında yunan generalı Napoleon Zervasın başçılıq etdiyi əskəri birliklər 1944-cü ilin iyulundan 1945-ci ilin martına kimi Çameriyada 2900 kişi, 214 qadın, 96 uşaq öldürdükləri və 745 qadına-qıza təcavüz etdikləri, 68 kəndi, 5800 evi yandırdıqları, 2000 adam isə savaşdan qaçmağa çalışdıqları üçün aclıqdan, soyuqdan, xəstəlikdən öldük-

ləri qeydlərə keçib. Sənədlərdə o da göstərilir ki, 3 yaşından kiçik 32 uşaq yunanlar tərəfindən qılıncdan keçirilib. 35 min arnavut da Çameriya bölgəsindən Tirana tərəfə köç etmək zorunda qalıb.

Yunanıstan və Serbiya ərazilərində qalan arnavutlar üçün ana dilində məktəb açmağa, qəzet-jurnal nəşr etməyə, mədəniyyətlərini yaşatmağa imkan vermədilər.

15-ci yüzilin sonlarında arnavutlar Osmanlıdan qurtulmaq üçün İtaliyaya köçürdülərsə, 20-ci yüzilin başlarında tərsinə – Osmanlıya, indiki Türkiyəyə köçməyə başladılar. Təkəmseyrək olsa da köç bu gün də davam edir.

Türkiyədə yaşayan arnavutların sayı haqqında dəqiq bilgi yoxdur. Kimi onların sayının 2 milyon, kimi 4 milyon olduğunu deyir. Çünki Türkiyənin nüfuz müdirliklərində etnik kimliyə görə siyahıya alma aparılmır".

## Osmanlı dövlətində məşhurlaşan albanlar

Yolboyu Osmanlı Hökumətinin baş naziri olmuş Damad Fərid Paşadan, Türkiyə Cümhuriyyətinin himnini yazmış Mehmet Akif Ersoydan, böyük sözlük yazarı və ensiklopedist "Kamus-u Türk"-ün müəllifi Şəmsəddin Samidən, onun qardaşı, şair Maarif Nəzarəti Təlim və Tərcümə Dairəsi üzvlərindən Naim Fraşeridən, "Vətən şairi" adlandırılan Namiq Kamaldan, İttihad və Tərəqqinin qurucularından Dr. İbrahim Temodan, İstanbul Universitetinin ilk rektoru Hoca Hasan Tahsindən xeyli söhbət etdik. Bu adamlar alban kökənli olsalar da ürəkdən türk mədəniyyətinə xidmət etmiş və böyük işlər görmüşlər.

Tiranadakı Bəktaşilər muzeyində Şəmsəddin Saminin və qardaşı Naim Frasheri haqqında iki stend var. Elmin, mədəniyyətin inkişafına böyük xidmət göstərmiş qardaşların adları

və soyadları bir-birinə uyğun gəlmir. Çünki biri islam, o biri xristian dininin adlarını daşıyır.

Yanya bu gün Yunanıstanda bir şəhərdir. Osmanlı dönəmində Albaniyanın güneyi sayılırdı və şəhərdə yaşayan albanların sayı yunanlardan heç də az deyildi. Şəmsəddin Sami də bu şəhərdə yaşayan Xəlil bəyin oğludur. 1850-ci ildə doğulub. İlk təhsilini yunan məktəbində alıb. Fitri istedadı ilə seçilib, yunan, italyan, fransız, ərəb, fars və türk dillərini öyrənib. Ana dilində təhsil görməsə də albancanı da gözəl bilib.

Türkiyədə onun haqqında yazanlar "ilk modern türkcə sözlüyün" banisi deyə yad edirlər. İki cildlik "Kamus-ı Türk"ün, 6 cildlik "Kamusu-ul ləm"in, türkcə ilk roman sayılan "Taaşşuk-ı Talat və Fitnə"nin müəllifidir. O, həm də "Orxon kitabələri" və "Qutadqu bilik" əsərləri üzərində çalışıb.

Səmsəddin Sami türkçülük şüurunun yüksəlməsi üçün əlindən gələni əsirgəməyib. Soyca türk olanların çoxu belə hökumətdəkilərin təzyiqindən qorxaraq türk sözünü dilinə gətirmədiyi bir zamanda Şəmsəddin Sami yazırdı: *"Osmanlı kavim, millet adı değil, kabile-aile-sülale adıdır... Biz ise Türküz, Türk milletindeniz. "Osmanlı" ancak Sultan sülalesi için kullanıla bilir..."*

O dönəm geniş yayılmış osmanlıca və çığatayca sözlərinin əleyhinə çıxan Şəmsəddin Sami bu dillərə türk dil ailəsi deyilməsi fikrini təbliğ edirdi.

Coşqun türk milliyətçisi kimi tanınan Şəmsəddin Sami Abdülhəmid zamanında İstanbulda "Cəmiyyət-i İlmiye Arnavudiye"ni qurub. 1886-cı ildə "Arnavut dili" adlı kitab çap etdirib və 1897-ci ildə latın və yunan hərfləri əsasında alban əlifbasını yaradıb.

Osmanlı dövlətində çalışan alban soylularla sıx əlaqə quran və soydaşlarının assimilə olunmasının qarşısını almağa çalışan böyük osmanlı maarifçisi kimi tanınıb.

Yaradıcılığının ən məhsuldar dövründə, yəni 54 yaşında dünyasını dəyişən böyük alim Ərənköy məzarlığında dəfn edilib.

Albanlar Osmanlı dövlətinə qarşı çıxaraq öz müstəqilliklərini elan etsələr də, türklər onlara düşmən kəsilməmişlər. Əksinə, dara düşəndə kömək əllərini uzatmışlar. Yunanlar albanlara qarşı qəddarlıq edəndə, kəndlərini dağıdıb dinc əhalini qıranda Atatürk albanlara ordu qurmaq üçün köməklik göstərmişdir.

Türklər 1920-ci ildə Albaniya ilə hərbi, iqtisadi, mədəni müqavilələr bağlamışlar. Atatürkün tapşırığı ilə Prizrenli albay Səlahəddin Saip Şkoza 25 nəfərlik bir hərbi heyətlə Tiranaya getmiş, ordu quruculuğuna başlamışdır.

İkili vətəndaşlıq alan Səlahəddin Saip Şkoza Albaniyada millət vəkili seçilərək İlyas Virioni hökumətində iki il müdafiə naziri işləmişdir.

## Albaniyanın azadlığı: qazancları və itkiləri

Mən Əkrəm bəyə yarızarafatla dedim ki, "bəy, albanlar 1913-cü ildə müstəqilliyini elan edəndə torpaqlarının yarısını itirdi və beş il sonra İtaliyanın əsarətinə düşdü. 1939-cu ildə faşist İtaliyası, 1943-cü ildə faşist Almaniyası işğal etdi. 1944-cü ildə Ənvər Xocanın rəhbərlik etdiyi Əmək Partiyası Albaniyanın əsarətdən qurtardığını elan edəndə 28 min 748 kvadratmetr ərazi, əhalinin də üçdə biri qaldı. Türkiyədə arnavut kökənlilərdən kimi dindirmişəmsə deyiblər sayları 5 milyona yaxındı. Belə çıxır ki, Türkiyədəki arnavutların sayı Albanya-

dakından çoxdur. Nədən alban xalqı müstəqilliyinə nail olduqları Albaniyada yaşamaq istəmir, Türkiyəyə – "əsarətə" qaçır?

Entela tərcüməsini başa çatdıranda Əkrəm Kokalari bərkdən güldü. "Müstəqillik şirin şeydir, amma qarın doyurmur. Adamlar harada güzəran yaxşıdır ora qaçır. Amerikaya, Avropa ölkələrinə köçmək istəyənlərin də sayı çoxdur. Amma Türkiyəyə din və mədəniyyət, tarixi bağlar, qohumluq əlaqələrinə görə köçmək istəyənlərin sayı daha çoxdur. Türkiyə imkan versə, inanın ki, bir ildə yarım milyon arnavut oraya köçər. Bir neçə ilə ölkə boşalar", – dedi. Mən bu dəfə ona təskinlik olsun deyə deyil, gördüklərimdən çıxardığım nəticəni dilə gətirdim: "Sovetlər Birliyi zamanı, təhkimçiliyi xatırladan sərt pasport rejimi vardı. Bu rejim çökəndə Azərbaycandan bəzi adamlar iş dalınca Rusiyaya getdi, dil bilmədiklərindən və başqa psixoloji səbəblərdən Avropanın inkişaf etmiş ölkələrinə, Amerikaya gedənlərin sayı Rusiyaya gedənlərdən qat-qat az oldu".

Əkrəm Kokalari gülərək: "Ölkələrimizin adı oxşar olduğu kimi görünür xalqlarımızın psixologiyasında da bir yaxınlıq var", – dedi.

İyon dənizi və Adriatik dənizi sahilində yerləşən bu ölkənin sahilboyu uzunluğu 611 kilometr, eni isə 45 kilometrdir.

1967-ci ildə Ənvər Xoca isə elan etmişdi ki, biz dünyanın ilk ateist dövlətini yaratmışıq. Onun 50 illik hakimiyyətindən sonra məscidlərin, kilsələrin, ziyarətgahların sayı sürətlə artdı. 500 mindən çox adam ortodoks, 300 mindən çox insan isə katolik olduğunu bildirdi. Müsəlmanlar da özlərini sünnilər, bəktaşilər, sufilər deyə üç yerə böldülər. Statistikaya görə hazırda əhalinin təxminən 60 faizi müsəlman, 17 faizi xristian, 2

faizi ateistdir. İnanclar arasında fərq rəsmiyyətdə olsa da, yaşamda hiss olunmadı. Məsələn, mənim yaxından tanıdığım Entela Muço xristian inanclı olsa da, müsəlman mərasimlərinin əksəriyyətinə qatılır və dostlarını da həmin günlərdə təbrik edir.

## Tiranadan Yorga Kostriota – Skender bəyin Krujaya qalasına yolçuluğumuz

Bu başlıqda albanların dini inanclarına bir nümunə göstərmək istəyərdim. Məni gəzməyə aparacaqlarını deyəndə ölkənin güneyinə, subtropik bölgəyə getmək arzusunda olduğumu bildirmişdim. Lakin Entela Muçonun anası, Xarici İşlər Nazirliyinin keçmiş əməkdaşı məsləhət gördü ki, Quzey bölgəyə gedək. Albaniyanın milli qəhrəmanı sayılan İsgəndər bəyin Krujaya qalasına və onun bacısının qalalarını, qədim mədəniyyət mərkəzi Dıraçı (Duraçı) gəzək.

Əsl adı Yorga Kostriota olan İsgəndər bəy bir müddət Osmanlı sarayında yaşayıb, orada təhsil alıb, hərbi təlim keçib. Osmanlı əsgərləri ilə birlikdə döyüşlərdə olub, təcrübə qazanıb. Vətənə döndükdən sonra bölgənin nüfuzlu adamlarını yarıxoş, yarızor özünə tabe edib. Müstəqil dövlət qurmaq üçün 1443-1468-ci illərdə Osmanlılarla vuruşub.

Biz İsgəndər qalasına-Krujaya çatmamış magistral yoldan sağa doğru dönüb dağ yamacına qalxdıq. Dağın təpəsində bəktaşilərin Dolma təkkəsi görünürdü. Əkrəm Kokalari maşını kiçik bir binanın qarşısında saxladı. Entela xanım bildirdi ki, bura ziyarətgahdır. Maşından enib binanın içərisinə keçdik. Yerdə çərçivəyə alınmış daş üzərində ayaq izinə bənzər bir çuxur var idi. Ziyarətçilər ayaq izinə bənzər yeri o qədər öpüb üz sürtüblər ki, daş cilalanıb. Entela xanım da ayaq izini

ziyarət etdi. Sonra məndən xahiş etdi ki, mən də ziyarət edim. Başqa vaxt bunu etməz, bütpərəslik qalığı, mənasız hərəkət adlandırardım. Amma qonaq olduğuma və Entela xanımın xahişinə görə etiraz etmədim. Bu ayaq izi Buzovnadakı Əli ayağını, Zığ qədəmgahını xatırladır. Bizdə ziyarətgahlar çox təmtəraqlı tikilib və içərisi də zəngindir. Albaniyada isə ölkənin özü kimi ziyarətgahı da kasıbdır. Ziyarətgah üzərindəki bina köhnə və kiçikdir. İçərisi də kasıbdır. Entela nəsə baş örtüyünə bənzər bir nəzir qoydu, kassaya pul saldı, hər üçümüz şam yandırdıq.

Entela deyir ki, sənin əməliyyat olunacağını biləndə anam bu ziyarətgaha nəzir demişdi. Lakin nəziri gətirməmişdik. Sizin Tiranaya gələcəyinizi biləndə anam sevindi. Dedi ki, birlikdə gedərsiniz, ziyarət edər və mənim nəzirimi də ora qoyarsınız.

Bərkdən gülmək istəsəm də özümü zorla toparladım. İnsanların inancını zorla, təqiblə, təzyiqlə içlərindən qoparmağın mümkün olmadığının bir daha şahidi oldum. Uzun illər Xarici İşlər Nazirliyində işləyən, ali təhsilli, özünü ateist kimi tanıdan insanın içindəki inancı heç bir qüvvə məhv edə bilməyib. Açığını deyim ki, xristian olan bir qadının müsəlman inanclı, üzünü belə görmədiyi birisi üçün müsəlman ziyarətgahına nəzir deməsi məni təsirləndirdi.



**Şək. 7 Skender kalasından Krujaya şəhərinin görünüşü**

Ziyarətimizi başa vurduqdan sonra Kruja (albanlar şəhərin adını Krujë, bəzi qaynaqlarda isə Kroya şəkilində yazırlar – Ə.Ş.) şəhərinə doğru yol aldıq. Yamac yuxarı qalxdıqca arxada kiçik göllər və ya su anbarları görünürdü. Vaxtilə burada İsgəndərin ya özünün tikdirdiyi, ya da təmir elətdirib möhkəmlətdirdiyi bir qala olub. Qalanın ətrafında kol-kos, seyrək ağac olduğundan ətraf ovuc içi kimi aydın görünürdü. Zamanının möhtəşəm tikintisi olan bu qaladan yalnız müdafiə məqsədilə istifadə edilmirmiş. Karvan yollarının təhlükəsizliyi də təmin edilir, gömrük vergiləri alınır, lazım gələndə qaladakı döyüşçülər ətraf bölgələrə hərbi yürüşlər edib geri qayıdır, qalada düşməndən qorunurmuşlar. Qalanın alt tərəfindən gur su çıxır.

Sonralar qala ətrafında tikililərin sayı artaraq əzəmətli və gözəl bir şəhər yaranmışdır. 1990-cı illərdən sonra ölkənin iqtisadiyyatında bir çökmə əmələ gəldiyindən Kruja şəhəri də öncəki əzəmətini və şöhrətini itirməyə başlamışdır. Şəhərə yaxınlaşdıqca onun kasıblığı daha aydın hiss edilir.

Buradakı xalçaçılıq fabriki, keramika fabriki və başqa sənaye obyektləri bağlandığından adamlar çörəkpulu qazanmaq üçün başqa yerlərə getmək məcburiyyətində qalmışlar.

Vəsait olmadığından şəhəri abadlaşdıra bilmirlər. Hökumət əsas diqqəti Kruja qalasına yetirib. Qala abadlaşdırılıb, hal-hazırda içərisində muzey və restoranlar fəaliyyət göstərir. Burada hər şey şəhərin abadlaşdırılmasına, inkişafına deyil, turist cəlbinə yönəldilib. Özü də avropalı və amerikalı turistlərin cəlbinə. Tiranadakı muzeydə eksponatlar türklərə bir məhəbbət oyadırsa, Kruja qalasındakı Skender bey muzeyi başdan-başa antitürk, antiosmanlı ruhunda hazırlanıb.

Bir zaman bu qala-şəhərin Akçahisar adlandırıldığını, Osmanlı dönəmində bazar, hamam, məscid və başqa mədəni mərkəzlərin yaradıldığını unutdurmağa çalışılır. Bir çox ölkələrdə olduğu kimi burada da Osmanlı mədəniyyəti görməməzliyə vurulur, lakin onu yox etmək, unutdurmaq olmur.

Çünki şəhərin ən qədim və əzəmətli abidəsi 1534-cü ildə tikilmiş Murad bəy Camisidir ki, onu həm də Pazar Camisi adlandırırlar. Turistlərin aparıldığı yerlərdən biri Fateh Mehmet Sultanın adını daşıyan camedirsə, o biri də Ortodoks kilsəsidir. Şəhərin içərisindən qalaya doğru gedəndə uzaqdakı Bəktaşilərin Dolma təkkəsi diqqəti çəkir.

Kruja qalamuzeyini gəzərkən Əfşarlar haqqında maraqlı araşdırmaları olan, Osmanlı Başbakanlıq Arşivindəki və Albaniya arxivlərindəki sənədlərlə yaxından tanış olan Entela Muço dedi ki, 19 yüzilin sonları və 20-ci yüzilin başlarında Avropa misyonerləri durmadan təbliğat aparmağa başladılar ki, Osmanlı orduları Balkanları işğal etdikdən sonra buradakı insanları zor gücünə xristianlaşdırdılar. Yerli əhali də bu təbliğata uydu.

Tarixi qaynaqlarda isə başqa bilgilər də var. Çalışmamda Karaman oğullarının Arnavutluk bölgəsində yaşadıqları, eyni zamanda da onların siyasi və coğrafi alanlarda təsirinin var olduğunu vurğulamışam. Onların torpağlarımızda yerləşdirildikdən, topluluğun sosyal quruluşa təsirindən yazmışam.

Şehabettin Tekindağın da "Karamanoğulları" haqqında dəyərli məqalələri var. Onun Tarih Dergisi, İstanbul 1963, XVII-XVIII, 43 sayında yayınlanmış "Son Osmanlı-Karaman münasebetleri hakkında araştırmalar" məqaləsindən dəfələrlə yararlanmışam.

Entela Muçodan xahiş etdim ki, söhbət etdiyi mövzuda mənə qaynaq versin. Tiranaya dönəndə bilgisayarını qoşub bir səhifəni print edərək mənə verdi. Orada yazılanları olduğu kimi verməyi münasib saydım.



**Şək. 8 Krujada Sarı Saltıkın büstü. Foto Ayhan Aydınındır**

"Arnavutluk ve onun lideri Gjergj Kastriot Skëndërbeu (İskender Bey) de Karaman-Oğulların Beyliğini tanıyanlar arasındaydı. Aynı zamanda özel siyasi durumlarda da iki lider birbirini desteklemekteydiler. Balkanlarda fetihler sırasında Venedik ve Cenevizlilerin doğudaki ekonomik çıkarlarının bozulması üzerine Osmanlılara karşı bir Venedik ittifakı oluştu. Bu ittifakta Venedik, Macaristan, Arnavutluk, Anadoluda da Akkoyunlu[1] ve Karaman oğulları[2] bu ittifakı desteklediler.

Karaman oğulları Arnavutluk bölgelerinde çoğu Kosova ve Makedonyada yerleştirmişlerdir.[3]

Onların işkal ettiği yerler ile ilgili şu bölgeleri zikredebiliriz; Cumapazarı (Manastır Serfice'de merkezi Kayalar), Eğri-

---

[1] Fatih Devri (1444-1451-1481), "Balkanlarda Fetihler" www.ozturkmevzuat.com.

[2] Fatih Devri, "Balkanlarda Fetihler", "Osmanlı Beyliğin Kuruluşu", 11.12.2007.

[3] II Murat Dönemi Olayları, 10.02.2007, Tarih Öğretmeni Forumu.

bucak (Manastır Serfice'de), Köstendil'e bağlı İştip (Üsküp'-te), Radovişte (Üsküp'te), Yanya'ya da), Tarhala.[1]

Araştırmacı Adnan Menderes Kayaya göre; *"Karamanoğullarının yıkılmasından sonra Balkanlara yerleştirilen türkler arasında da önemli miktarda Afşar bulunmaktadır».*[2]

...Afşar boyunun, Balkanlara doğru göç etmesini Osmanlı imparatorluğu döneminde (XIV-XV asırlarda) rastlamaktayız. Sözünü ettiğim zamanda Karamanlılar ile Osmanlılar arasında devamlı bir surette rekabet söz konusudur. Bilhassa onlar arasındaki husumet Kosova savaşından ve Karaman Oğulların Beyliğinin yıkılmasından sonra artmaktadır.

Avşar Türklerinin Balkanlara yerleşmesi genel itibariyle Cem Sultan olayı ile birlikte Osmanlı sabrının taşması ve buralara zorunlu iskân edilmeleri ile olmuştur".

Kruja qalasını 3-4 saat gəzib, muzeyə baxdıqdan və restoranda milli alban xörəklərinin dadına baxdıqdan sonra gəldiyimiz yolla geriyə dönürük.

## Dıraç şəhərinin abidələri

Entela nəzərdə tutmuşdu ki, geri dönəndə Skenderin (İskəndər) bacısının tikdirdiyi və oradan ölkənin bir hissəsinə nəzarət etdiyi qalanı da gəzək. Yolun sağında, təpənin başında olan bu qalaya getsəydik qaranlıq düşəcəkdi. Dıraç şəhərini görə bilməyəcəkdik. Entela ilə Əkrəm məsləhətləşdikdən sonra Dıraç şəhərinə getməyi qərara aldılar. Şəhərin adını alban-

[1] Tahsin Ünal'dan, "Nureddin Bey (Nure Sofi) Ermeni Değildir", TDAD, S.47, Nisan 1987, s.231-33 naklen Adnan Menderes Kaya, s,247.
[2] Tahsin Ünal'dan, "Nureddin Bey (Nure Sofi) Ermeni Değildir", TDAD, S.47, Nisan 1987, s.231-33 naklen Adnan Menderes Kaya, s. 243.

lar Durrës kimi yazırlar. Fərqli qaynaqlarda isə şəhərin adı Durras, Duraç kimi də yazılır.

Tiranaya az qalmış Əkrəm maşını sola döndərdi. Entelanın verdiyi bilgiyə görə eyniadlı vilayətin mərkəzi olan Dıraç şəhəri əhalisinin sayına və iqtisadiyatına görə ölkənin ikinci böyük şəhəridir. Tiranadan 33 kilometr aralıda Adriatik dənizinin sahilində yerləşən şəhərin əhalisinin sayı 130 min nəfəri keçib. Burada iş yeri nisbətən çox olduğuna görə kənardan gələnlərin hesabına şəhər sürətlə böyüyür.

İtalyanın Bari və Brindisi şəhərlərinin qarşı tərəfində yerləşən Dıraç Adriatik dənizinin nisbətən dar bir bölgəsində olsa da ölkənin əsas limanı buradadır. Adriatik dənizinin ləpələri dağların sərt yamacını döydüyündən başqa liman və çimərlik yaratmaq olmur. Dıraç şəhərinə bitişik çimərlik də çox kiçikdir.



**Şək. 9 Dıraç qalasının girişində Ekrem Kokaları ile birlikdə**

Bu imkansızlıqlara baxmayaraq, tarixi və iqtisadi baxımdan Dıraç şəhəri bölgənin önəmli yaşayış məskənlərindən biri olmuşdur. Qədim qalanın batı darvazasından girəndə sağda nəhəng antik teatrın qalıqları görünür. Avropanın ən böyük antik teatrlarından biri olan Dıraç Antik Teatrı şəhərin keçmiş əzəmətindən xəbər verir. Yüzillər boyu torpaq altında qalan antik teatrın üzərində insanlar ev tikib yaşayıblar. Xəbərləri də olmayıb ki, nə-

həng bir tarixi abidənin üzərində yaşayırlar.

1970-ci illərdə qalanın içərisindəki yaşayış məhəlləsində təmir işləri aparılarkən yerin altında qazma qurğularının çətin işlədiyini görüblər. Oradan çıxan nümünəyə baxanda görüblər ki, burada qədim yaşayış məskəni var. Evlərin bəzilərini söküb torpağı kənara daşıdıqda antik teatrın qalıqları ilə rastlaşıblar. Antik teatrın tikintisində işlədilmiş bərkidici məhlul sementdən qat-qat möhkəmdir.

Bir neçə mərtəbəli olan antik teatrın hələlik tamaşaçılar oturan hissəsinin yarıdan azını təmizləyiblər. Binanın qladyatorlar, vəhşi heyvanlar, xidmətçilər, əsgərlər olan hissəsinə hələ əl vurulmayıb. Ölkənin iqtisadi vəziyyəti ağır olduğundan öz büdcəsi ilə təmir-bərpa işləri apara bilmirlər. Beynəlxalq təşkilatlar hələ ki, böyük maddi yardım etmirlər.

Antik Teatrın təmir və bərpası yarımçıq qalsa da bir hissəsini turistlər üçün açıblar. Əkrəm bəy deyir ki, açılmış bu hissə də şəhərə çoxlu turist axımına səbəb olur. Bura tam təmir olunsa, böyük gəlir gətirər və Dıraç şəhəri qısa zamanda sürətlə inkişaf edər.



**Şək. 10 Dıraç qalasında antik teatrın olduğu yer. Arxada antik teatrın bır hissəsi görünür. Böyük bir hissəsini ayağımızın altındakı torpaq qatı örtüb.**

Dıraçdakı Kral Əhməd Zoqun qalası, Ortodoks Kilsəsi, Fatih Cami (Fatih Sultan Mehmetin şərəfinə belə adlandırılmışdır), Arxeologiya Muzeyi, Osmanlı dönəminə aid bir çox tarixi əsərlər də turistlər üçün maraqlıdır. Son illər Avropadan, xüsusən də Almaniyadan Albaniyaya gələn turistlərin sayında bir artım var. Heyif ki, ölkənin iqtisadiyyatı zəif inkişaf etdiyindən turizmin inkişafına lazımi qədər vəsait ayrılmır və xarici şirkətlərin buraya yatırım qoymasına mane olan əngəllər aradan qaldırılmır.

Ölkənin ən böyük universitetlərindən biri olan Aleksandr Moisiu Universiteti də Dıraç şəhərində yerləşir. İldə minlərlə insan bu limandan İtalyaya gedərək orada özlərinə müvəqqəti iş taparaq ailələrini dolandırmağa çalışırlar.

Şər qarışanda Draçdan ayrılıb Tiranaya qayıdırıq. Axşam Dostluk, Bilimsel ve Kültürel Arnavutluk-Azerbaycan Derneğinin ikiotaqlı qərargahına yığıldıq. Gələcək iş planlarını müzakirə etdik. Bədri bəy işi ilə bağlı Yunanıstanın paytaxtı Afinaya tez-tez getdiyindən oradakı Azərbaycan səfirliyi ilə dərnək arasında körpü rolunu oynayır. Aliyə xanım pedaqoq olduğundan məktəblərlə əlaqə saxlayır. İstər ümumtəhsil, istərsə də texniki peşə məktəblərində və texnikumlarda Azərbaycanla bağlı toplantıların təşkilatçısı rolunu öz üzərinə götürüb. Entela Muço universitetlərlə və rəsmi dövlət orqanları ilə əlaqə saxlayır. Əkrəm bəy dərnəyin pulsuz hüquq məsləhətçisidir. Bir sözlə, dərnək Azərbaycanın Albaniyada qeyri-rəsmi səfirliyi rolunu oynayır.

Dərnəkdə söhbətimiz uzun sürsə də oradan xoş əhval-ruhiyyə ilə ayrıldım. Gecəni hüzur içində yatıb səhər yeməyinə enəndə gördüm ki, Entela və Əkrəm hoteldədilər. Əkrəm əlindəki kiçik bağlamanı açdı. Bir kiloqrama yaxın limonu və

bir bağlama otu mənə göstərərək dedi: "Limonlar öz bağımdandır. Albaniyada belə limon çətin taparsan. Hüquqçu olsam da, bağbanlıqda tayım-bərabərim yoxdur. Bu isə dağ yamaclarında, 1600 metr yüksəklikdə bitir. Çox az tapılan bitkidir. Ondan çay kimi istifadə edirik. Dəmləyib içərsiniz və dostlarınızı qonaq edərsiniz. Fikrinizi də Entelaya yazarsınız. O, mənə tərcümə edəcək".



**Şək. 11 Dostluk, Bilimsel ve Kültürel Arnavutluk-Azerbaycan Derneğinde**

Entela isə əlindəki kiçik bağlamanı anasının Əzizə xanım üçün göndərdiyini dedi. Bu dəfə heç birinə etiraz etmədən verdikləri hədiyyələri məmnuniyyətlə qəbul edirəm. Çünki çantam boş, hədiyyələr də yüngül idi.

Təkidimə baxmayaraq Entela və Əkrəm gur yağış altında məni hava limanından yola saldılar. Yeniyetməliyimdən görmək, gəzmək istədiyim Albaniyanı gördüm də, gəzdim də, amma ümidsiz geri döndüm. İnanmadım ki, mən gedəndən sonra burada İsmail Farkayla bağlı bir iş görülsün.

# Arnavut Əhməd Triniç özkeçmişində nələri gizlədib?

Bu gün Albaniya və çevrəsindəki ölkələrdə yaşayanlar özlərinin arnavut adlandırılmasını istəmir. Yüz il bundan öncə isə özlərini bu adla, tanıdır və adları ilə qürur duyurdular. Son yüzilliyin təbliğatı bəhrəsini verib. İndi arnavutlar özlərini şiptar, vətənlərini də Shqipëria (oxunuşu Şipiria) adlandırılar.



Şək. 12 Əhməd Triniç

20-ci yüzilin başlarında Azərbaycanda yaşayan albanlar isə özlərini arnavut kimi təqdim etməklə yanaşı, rəsmi sənədlərdə də "milliyəti" sözünün qarşısında arnavut yazırdılar. Belə insanlardan biri də Əhməd Triniçdir.

Bolşeviklər 1920-ci il aprelin 28-də Azərbaycanı işğal etdikdən sonra Osmanlı ordusunun əsgəri olduğunu, Türkiyə və türklərlə bağlılığını unutdurmaq üçün Əhməd Triniç arnavut olduğunu qabardıb. Bu fikrə düşməyimiz əsassız deyil. Uzun illər mətbuatda çalışan, redaktor işləyən, nəşriyyata və teatra rəhbərlik edən bir adam millətini ürəkdən sevirdisə, ona candan bağlıydısa arnavutları tanıtmaq, onları təbliğ etmək, sevdirmək üçün məqalələr yazar, kitablar çap etdirər, tamaşalar hazırladardı. Görünür, millətçi adlandırıla biləcəyindən ehtiyatlanaraq bunların heç birini etməmişdi.

Mənim onu daha çox Arnavut Əhməd kimi tanımağımda Qulam Məmmədlinin təsiri az olmayıb. Çünki bu adam haqqında ilk dəfə universitetin ikinci kursunda oxuyanda, yəni

1969-cu ildə Qulam Məmmədlidən eşitmişdim. Qəzet və jurnalları səhifələyəndə onun Əhməd Triniç, Əhməd Triniçzadə, Əhməd Bədi, Əhməd Bedin imzaları olduğunu gördüm. İllər sonra rəsmi sənədlərlə tanış olanda onun Əhməd Rəcəb oğlu Triniç olduğunu bildim.

Lakin bilmədiyim hələ çox şey var idi və yenə də var. Məsələn onun soyadı kimi işlədilən Bedi sözü necədir? Bədiimi, Bədimi? Bedimi, yoxsa Bedinmi? Dəqiqləşdirmək üçün o dövrün ən yaxşı araşdırıcılarından biri Adıgözəl Məmmədova müraciət etdim. O, mənə bildirdi ki, Əhməd Triniçin ailəsi ilə çox yaxınam və onların Moskvadakı evlərində qonaq olmuşam. Əhməd Triniçin gəlini kəşfiyyat məktəbində Putinin müəllimi olub. Xarici kəşfiyyat üzrə ehtiyatda olan generaldır, altı dil bilir. Mən Əhməd Triniçin dəqiq ad və soyadını ondan da soruşdum. Rəsmi sənədlərdə, daha doğrusu, Türkiyə Hariciyə İstihbaratının zabiti kimi onun adı Əhməd Bedin gedir.

Maraq doğurur ki, Əhməd Triniçin gəlini görəsən Türkiyə Hariciyə İstihbaratının sənədləri ilə necə tanış olub? Axı heç Əhməd Triniçin istintaqında onun casusluğu ilə bağlı tutarlı bir dəlil, sübut, sənəd yoxdur. İstintaqı aparan müstəntiqlər də onun Qubadakı 1918-ci il fəaliyyəti, erməni və yəhudiləri öldürməsi, Levan Qoqoberidze ilə münasibəti və s. mövzularla ilgiləniblər.

Yəqin ki, gənc araşdırmaçılar sənədlər tapdıqca bu gün bilmədiyimiz çox məsələlərə aydınlıq gətirəcəklər.

Əhməd Triniç sakit həyat tərzi sürən insan olmayıb. 20-ci yüzilin burulğanı onu ölkədən-ölkəyə atıb, fərqli dünyagörüşlü, ziddiyətli xarakterli adamlarla görüşdürüb. O da yaşamaq, ayaqda durmaq üçün düşdüyü şəraitə uyğun davrana bilib. Lakin nə qədər çevik, düşdüyü vəziyyəti dəyərləndirən olsa

belə ictimai-siyasi həyatdakı fəallığı onu 1930-cu illərin repressiyasından qurtara bilməyib. Çünki o, çevrəsindəkilərlə birlikdə repressiya burulğanına düşmüşdü. Oradan sağ çıxmaq isə mümkünsüz idi.

Əhməd Triniçdən söz açarkən Avropanın inkişaf etmiş dövlətlərinin dünyanı yenidən bölüşdürmək, yeni müstəmləkələr əldə etmək üçün Osmanlını məhv etmək planından, Balkanlarda baş verən savaşlardan, Rusiyanı bürümüş ideoloji qarşıdurmadan, əsarət altındakı xalqların azadlıq mübarizəsindən və s. sükutla keçmək olmur. Ona görə də bəzən mövzudan kənara çıxmaq kimi görünsə də Əhməd Triniçin olduğu yerlərdə baş verən ictimai-siyasi hadisələri, savaşları və s. faktları da məqaləyə əlavə etməli olacağıq.

## Rəsul Rza hansı şeirində kürəndən söz açıb?

1968-ci ildə başlansa da qəzet və jurnallarda məqalələr, radio və televiziyada verlişlər, idarə və təşkilatlarda toplantılar 1969-cu ildə də davam edirdi. İnsanlar sanki illər boyu içlərində gəzdirdikləri ağrını, sızıltını, nisgili bölüşməyə imkan tapmışdılar. Lakin ortada ciddi araşdırmalar, həmin dövrdə baş verənlər haqqında məqalə və çıxışlar, şairin çağdaşlarının bir-birinə münasibətlərinə aydınlıq gətirən yazılar yox idi. Yalnız sızıltı, kədər, qüssə vardı. Mikayıl Müşfiq haqqında dissertasiya yazan, əsərlərini toplayıb nəşr etdirən, təbliği üçün əlindən gələni əsirgəməyən Gülhüseyn Hüseynoğlu belə şairin neçənci ildə, hansı ayda, harada öldürüldüyünü dəqiq bilmirdi. Azərbaycanın müstəqilliyinə nail olmaq üçün gizli təşkilat yaratmış bu insan da 1948-ci ildə məsləkdaşları ilə birlikdə həbs edilmişdi.

Gənclər də Mikayıl Müşfiq haqqında yazılanları, onun şeirlərini böyük maraq və həvəslə oxuyur, toplantılarda eşitdiklərini bir-birinə danışırdılar.

Rəsul Rzanın "Qızıl gül olmayaydı" poeması həmin günlərdə ən çox oxunan əsərlərdən biri idi. Xəlil Rzanın "Müşfiqi öldürənlər azad gəzir" şeiri çap olunmamışdı. Amma onu çətinliklə də olsa tapıb üzünü köçürərək bir-birimizə ötürürdük.

Toplantıda olan söhbətlər sürətlə yayılırdı. Azərbaycan (indiki Bakı) Dövlət Unversiteti üçün yeni bina tikilsə də filologiya, jurnalistika, şərqşünaslıq, hüquq və tarix fakültələri keçmiş binada (indiki İstiqlal küçəsi, 6) qalırdı. Orada Mikayıl Müşfiqin anadan olmasının 60 illiyi münasibətilə təntənəli yığıncaq keçirildi. Toplantını Süleyman Rüstəm apardı. Çıxışçılar Mikayıl Müşfiqin həyat və yaradıcılığından danışanda tez-tez onun "Oxu tar!" şerindən parçaları əzbər deyirdilər. Aydın görünürdü ki, 1930-cu illərin aydınlarının əksəriyyəti "Oxu tar!" şeirini əzbər bilirlərmiş.

Salonda bir gərginlik vardı. Toplantıda olanların əksəriyyəti Süleyman Rüstəmin "Oxuma tar, səni sevmir proletar" şeirinə cavab olaraq "Oxu tar!" şeirinin yazıldığını bilirdilər. 1930-cu illərin qarşıdurmasının gərginliyi 1960-cı illərə də öz təsirini göstərmişdi. Biz bu gərginliyin necə bitəcəyini səbrsizliklə gözləyirdik. Çünki bəzi çıxışçılar açıq-aşkar Süleyman Rüstəmə meydan oxuyurdular. Onun adını çəkməsələr də "Oxuma tar, səni sevmir proletar" misralarını söyləyir, sonra da Mikayıl Müşfiqin "Oxu tar, səni kim unutar!" şeirindən parçalar deyirdilər. Süleyman Rüstəm isə səbrlə, deyilənləri qulaqardına vuraraq toplantını davam etdirirdi.

Süleyman Rüstəmin "İndi də sözü verirəm Muxtar Hüseynova" deməsi gərginliyi bir az da artırdı. Muxtar müəlli-

min xasiyyətinə bələd olanlar, onun Müşfiq sevgisindən xəbərdarlar həyəcanla xitabət kürsüsünə doğru irəliləməsini izləyirdilər. O, xitabət kürsüsünün arxasına keçən kimi üzünü Süleyman Rüstəmə çevirərək təxminən belə dedi: "Süleyman, mən Hüseynov yox, Hüseynzadəyəm! Məni Hüseynov eləmək istəyənlər çox oldu, amma bacarmadılar".

Salondakılar hazırcavablığı, incə yumoru ilə seçilən Süleyman Rüstəmin kəskin cavabını gözləyirdilər. O isə elə bil deyilənləri eşitmirdi. Muxtar Hüseynzadə də çıxışında sözü yenə "Oxu tar!" şerinin üzərinə gətirdi və dedi ki, çoxları "Oxuma tar, səni sevmir proletar!" yazanda Mikayıl Müşfiq cəsarətlə milli mədəniyyətimizi qoruyaraq "Oxu tar, səni kim unudar" yazırdı. Milli, mənəvi dəyərlərimizi qoruduğuna görə də onu məhv etdilər.

Süleyman Rüstəm yerdən atılan atmacaları, xitabət kürsüsündən söylənən tikanlı sözləri eşitməzliyə vuraraq toplantını sakitcə başa vurdu.

Bu cür söhbətlər yalnız toplantı salonlarında, auditoriyalarda, çayxanalarda, ailələrdə getmirdi. İki-üç nəfərin arasındakı söhbətlərdə, müzakirələrdə də Mikayıl Müşfiqin acı taleyi, 1937-ci ilin repressiyası gündəmdə idi. Necə deyərlər, Sovetlər Birliyini bir xaos bürümüşdü. Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı ildə keçirilən 20-ci qurultayından sonra İosif Stalin, Sovetlərin repressiya siyasəti, şəxsiyyətə pərəstiş kəskin tənqid edilirdi. Buna baxmayaraq repressiyanın, şəxsiyyətəpərəstişin tərənnümçüləri və onu dəstəkləyənlər hələ də yüksək vəzifələrdə idilər. Onlar üzdə özlərini deyilənlərlə razı kimi göstərsələr də işdə keçmişlə yaşayırdılar. Daha sərt repressiya təşkil etməyə hazır idilər. Lakin imkan olmadığından özlərini qorumaq xatirinə cilddən cildə girirdilər. Repressiya

olunanlara bəraət verilsə də, onların əsərlərinin hamısına bəraət verilmədiyindən, yalnız senzorun icazə verdiyi seçmələr çap olunurdu.

M.F.Axundov adına Respublika Kitabxanasında Qulam Məmmədli ilə tanış olmuşdum. Aramızdakı yaş fərqinə baxmayaraq söhbətimiz tuturdu. Biz ondan müəllimlərin demədiklərini eşidirdik. Elə şərait yaratmışdı ki, istədiyimiz sualı sərbəstcə ona verə bilirdik. Həmin sualları müəllimlərimizə verəndə böyük hay-küy düşürdü.

Rəsul Rzanın "Qızılgül olmayaydı" poemasından söz düşmüşdü. Qulam Məmmədli "Poemanı diqqətləmi oxuyubsunuz? Orada yazılanların hamısı sizə aydındırmı?" deyə xəbər aldı. Biz də poemanı bir neçə dəfə oxuduğumuzu, bəzi dostlarımız isə əzbərdən bildiyini, əsərin dilinin çox sadə və anlaşıqlı olduğunu söylədik. Qulam Məmmədli: "Yaxşı, onda deyin görüm Rəsul Rza kürən deyəndə kimi nəzərdə tutur?" Onun sualına cavab verə bilmədik.

Qulam Məmmədli də söhbətin mövzusunu dəyişdi. Onun bizə verdiyi sualı biz də müəllimlərimizin bir neçəsinə verdik. Lakin doğru-düzgün bir cavab almadıq.

Aradan bir neçə gün keçəndən sonra vəziyyəti Qulam Məmmədliyə anlatdıq. O, söhbətə uzaqdan başladı. Dedi ki, indi hərə bir mövzuda dissertasiya yazır, elmi ad alır, başlayır dərs deməyə. Millətin balalarını kor qoyur. Dövrü dərindən öyrənmədən, şəxsiyyətlər arasındakı münasibətləri araşdırmadan yazılan dissertasiyalar iki qəpiyə dəyməz. Alim olmaq, elmi əsər yazmaq üçün birinci dövrü və mühiti yaxşı öyrənmək lazımdır. Ədəbi mühakimələrdən xəbərsiz adamlar indi Sovet ədəbiyyatından dərs deyirlər.

Sonra Rəsul Rzanın "Qızıl gül olmayaydı" poemasında adı çəkilməyən kürən – Arnavut Əhməddir – dedi. Bu adı ilk dəfə eşidirdik. Odur ki, gözümüzü, məzlumcasına, sual dolu baxışlarla ona zilləmişdik.

Qulam Məmmədli Əhməd Bedi haqqında geniş bir söhbət başlatdı. O, elə bil 30-35 il öncənin hadisələrdən deyil, bu gün baş verənlərdən danışırdı.

Qulam Məmmədlidən 1937-ci ildə repressiya qurbanları haqqında çox eşitmişdim. Amma heç birini belə təfsilatı ilə danışmamışdı. Əhməd Bedi Triniçlə Qulam Məmmədli nə bir yerdə işləmişdi, nə yaxın dost olmuşdu. Söhbətindən açıq-aydın hiss edilirdi ki, münasibətləri o qədər də xoş deyil.

Mən sonralar da Rəzul Rzanın "Qızıl gül olmayaydı" poemasını gözdən keçirdim. Orada Əhməd Bedi Triniçə işarə edəcək bir söz, misra tapa bilmədim. Özlüyümdə bu qənaətə gəldim ki, Qulam Məmmədli onun haqqında bilgi vermək üçün belə bir "ədəbi pryom"dan istifadə edib. Yaxud da bu ifadəni Rəsul Rzanın hansısa şeirində oxuyub, amma yadında "Qızıl gül olmayaydı" poemasında oxumuş kimi qalıb.

Qəribəsi budur ki, Əhməd Triniçi bəraət almasına razı olmayan Qulam Məmmədli repressiyadan sonra onun haqqında ilk məqalə yazan olub. Orada qeyd edilib ki, "qara paltolular" tərəfindən təqib edilən və əli heç bir yerə çatmayan Triniç şikayət üçün Moskvaya gedərkən Biləcəri stansiyasında vaqonda tutulub həbs edilib. "Türkiyə casusu" və "müsavatın ideoloqu" olmaqda ittiham edilib (Məmmədli, Q., 1988:19 avqust).

İstintaq işindəki sənədlər də Qulam Məmmədlinin dediklərini təsdiqləyir. Orada Əhməd Triniçin 1936-cı il aprelin 19-da həbs edilməsi haqqında 407 saylı order var və işsiz ol-

duğu göstərilir. Əhməd Tiriniç də Mir Cəfər Bağırov və başqalarına yazdığı ərizələrdə 3 aya yaxındır həbs edilmədən KQB işçiləri tərəfindən sorğu-suala tutulduğunu yazır (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

## Əhməd Triniç haqqında oxuduqlarım, eşitdiklərim

Uzun illər Əhməd Bedin Triniç haqqında yazmağı düşündüm, sənədlər topladım. Onun haqqında oxuduğum və eşitdiklərim o qədər qarışıq idi ki, aydınlaşdıra bilmədiyimdən yazmağa başladığım üç-beş səhifəni cırıb atırdım. Buna səbəb onun 1928-1935-ci illərdəki çıxışları olurdu. Əsəbiləşməyimə, tərəddüdlərimə baxmayaraq bu ziddiyyətli insanı daha yaxından tanımaq üçün məktub alıb Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin (keçmiş KQB-nin) arxivinə getdim. Onun istintaq materialları ilə tanış oldum. Oradakı sorğu-sual da Əhməd Triniçin ömür yolunu, xarakterini tam aydınlatmadı. İstintaq materialları ilə tanış olanda gördüm ki, övladları atalarına bəraət verilməsini istəyiblər. Əhməd Triniçin istintaq materialları ilə tanış olan Qulam Məmmədli Əhməd Rəcəb oğlu Triniçə bəraət verilməsini məqsədəuyğun saymayıb.

Ədalət Tahirzadə də Əhməd Bedi Triniçin Moskvada yaşayan qızı və oğlundan xeyli söhbət etmişdi. Qulam Məmmədli, Teyyub Qurban, Adıgözəl Məmmədov, Aslan Kənan, Vilayət Quliyev, Lütfiyyə Əsgərova və b. məqalə və kitablarında Əhməd Triniçin ömür yolundan söz açmışlar. Adını çəkdiyim müəlliflər 1920-1950-ci illər tariximizin ən yaxşı araşdırmaçıları olmalarına baxmayaraq onlar da Əhməd Triniçin həyat yolundakı dolaşıqlığa tam aydınlıq gətirə bilməmişlər. Çünki əldə yetərincə sənəd yoxdur. Mən də bu mövzu-

ya aydınlıq gətirə bilməyəcəm. Sadəcə, onun həyatındakı ziddiyyətli, qaranlıq cəhətləri gündəmə gətirməyə çalışacam.

## Əhməd Triniçin KGB arxivindəki istintaq işi



Şək. 13 Əhməd Triniç

Arxivdəki PS-1622 saylı istintaq işində KQB əməkdaşı Tevosyanın hazırladığı 1936-cı il aprelin 21-də "tam məxfi" qrifli qərarda göstərilir ki, 1893-cü ildə Albaniyanın Üsküb (indi Makedoniyanın paytaxtıdır və Skopya yazılır – Ə.Ş.) şəhərində doğulmuş Əhməd Rəcəb oğlu Triniç Böyük Qala küçəsi, ev 45, mənzil 1-də yaşayır. Milliyətcə albandır. Sovet vətəndaşıdır. 1919-cu ildən Ümumittifaq Kommunist Partiyasının üzvüdür, işsizdir. Oğlu Fridrixin 3, qızı Mayanın 11 yaşı var. 1936-cı il aprelin 19-da həbs edilməsi haqqında 407 saylı order yazılıb **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Həbs edilməsi nəzərdə tutulan şəxslərin mənzillərində axtarış aparılması haqqında orderləri görmüşdüm, amma birinci dəfə idi ki, həbs edilməsi planlaşdırılan şəxslə bağla 8 evdə axtarış aparılması orderinə rast gəlməmişdim. Bunlar İçərişəhərdə, Böyük Qala küçəsi 45-də yaşayan Neymət Kamal Məlikovanın, Lebedinski döngəsi 7, ev 163-də yaşayan Tatyana Vasilyevna Triniç-Roxlinanın, 9-cu Kanitapinskaya 279-cu məhəllə, mənzil 80-də yaşayan M.D.Triniçin, Karantinnıy 93-də yaşayan T.D.Akopovanın, Şahski döngəsi 12-də yaşayan S.Sultanova-Musayeva və b. evlərdir (AR DTX-nin arxivi, PS-

**1622 saylı istintaq işi).** Onlardan birincisi bacısının, ikinci və üçüncüsü evləndiyi qadınların evləridir. O birilərinin Əhməd Triniçlə hansı bağlılığı olduğunu müəyyənləşdirə bilmədim.

8 evdən yalnız 9-cu Kanitapinskaya 279-cu məhəllə, mənzil 80-də yaşayan M.D.Triniçin evində Əhməd Triniçə aid vəsiqələr, döş nişanı, rus dilində əlyazmaları, türk dilində qeydləri, fotoşəkillər tapılmışdır. Bunlardan Əhməd Triniçin 1919-cu ildə Azərbaycan Cümhuriyyəti Parlamentinə yazdığı ərizə və bacısı Neymət Kamala yazdığı məktub ekspertizaya göndərilmişdir **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

AzFAN-ın (o dövrdə Sovet Sosialist Respublikaları İttifaqı EA-nın Azərbaycan Filialının rusca qısaldılmış adı belə yazılırdı - Ə.Ş.) elmi katibi Hənəfi Zeynallıdan, Lenin və Stalin adına İnstitutun (indiki Azərbaycan Dövlət Siyasi Partiyalar və İctimai Təşkilatlar Arxivi – Ə.Ş.) bölmə müdiri Sami Kamaldan, KQB işçisi Sadıq Qafarlıdan ibarət ekspert rəy verib ki, hər iki mətn eyni xəttlə yazılıb.

Əhməd Triniç Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 75-ci maddəsi ilə, yəni vətənə xəyanətdə suçlanaraq həbs edilib. Lakin istintaqda Əhməd Triniçin casusluğunu və vətənə xəyanətini təsdiq edən ciddi bir dəlil tapılmayıb. Buna görə də müstəntiqlər diqqəti Azərbaycan Cümhuriyyəti Parlamentinə yazdığı ərizəyə və Əhməd Triniçin 1918-ci ildə Qubadakı fəaliyyətinə yönəldiblər.

## Uşaqlığı və gəncliyi

Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin Arxivindəki PS-1622 saylı cinayət işində Əhməd Triniç müstəntiqin sualına cavab olaraq bildirir ki, 1893-cü ildə Üsküpdə (Skopye)

kasıb bir ailədə doğulub. Atası Rəcəb fransız tütün monopolyasında gözətçi işləyib. Qaçaqmalçılar tərəfindən öldürülüb. Anası misirli müəllimə ərə getdikdən sonra Solonikə köçüb. Buna görə də o, nənəsinin himayəsində böyüyüb. Anası vəfat edib. Əhməd Triniç nədənsə anasının ölüm tarixini və harada öldüyünü yazmayıb. Üsküpdəki ibtidai məktəbdə özünün və bacısının pulsuz təhsil aldığını söyləyib.

Mir Cəfər Bağırovla bağlı bir neçə kitab və onlarla məqalə yazan Adıgözəl Məmmədov Əhməd Triniçdən də geniş söz açıb. O, Əhməd Triniçin oğlu Fridrixlə Moskvada görüşüb. Atası həbs ediləndən sonra anası ilə Moskvaya köçən Fridrix ali təhsil alıb və elmi işlə məşğul olub. Fridrix Triniçin araşdırıcıya verdiyi xatirələrdə isə yazılıb: "Atam Əhməd Bedin Triniç məşhur və varlı bir nəsildən olan albandır. Albaniyanın digər tanınmış bir nəsli ilə aralarında qan düşmənçiliyi olmuşdur. Onun qan qisasından qorxan nənəsi bir oğlan və bir qız nəvəsi ilə Türkiyəyə – atamın zabit məktəbini bitirdiyi ölkəyə gedib". **(Məmmədov, A., 2017: 3 aprel, https://publika.az/news/maraqlitarix/30792.html).**

Sovetlər Birliyi fəhlə-kəndli, kasıb-füqərə hökuməti olduğunu elan etdiyindən rəhbər vəzifə tutmaq istəyənlər də, sıravi adamlar da öz keçmişlərini bu tələblərə uyğun yazırdılar. Çox vaxt nəsillərini danır, həqiqətləri gizlədirdilər. Əhməd Triniç də müxtəlif vaxtlarda yazdığı özkeçmişlərində və istintaqa verdiyi ifadədə varlı ailədən olduğunu gizlədib. Fridrix Triniç isə xatirələrini Sovetlər Birliyi dağıldıqdan sonra qələmə alıb. Buna görə də onun yazdığını daha inandırıcı saymaq olar.

Avropanın inkişaf etmiş dövlətləri dünyanı yenidən bölüşdürmək istəyərkən Osmanlının onlara əngəl törətdiyini gö-

rürdülər. Onlar Osmanlı dövlətini çökdürmək üçün həm Avropayönlü özlərini islahat tərəfdarı adlandıran müxalif qüvvələri dəstəkləyir, həm də ölkə daxilindəki xristian xalqlarının şovinistlərini şirnikləndirərək üsyanlar təşkil edirlər. Bu üsyanların ən fəal iştirakçıları serb, yunan, bolqar, erməni şovinistləri idi. Qəribə burası idi ki, Osmanlı dövlətində həmişə yüksək mövqe tutan albanların (arnavutlar) çoxu da onlara qoşulmuşdu. Balkanlarda xarici dövlətlərin fitnəsilə baş verən üsyanlar milli azadlıq mübarizəsi kimi təqdim edilirdi. Milli azadlıq hərəkatı adlandırılan bu üsyanlarda minlərlə günahsız dinc sakin öldürüldü, yurd-yuvasından didərgin salındı. Həmişə bu işlər hakimiyyət orqanları tərəfindən cəza kimi həyata keçirildiyi halda, bu dəfə üsyana başlamış qüvvələrin silahlı dəstələri tərəfindən törədildi. Onlar xalqlar arasında milli və dini nifaq saldılar, qırğınlar törətdilər. Balkanlardan on minlərlə türk və müsəlman ailəsi ev-eşiklərini, torpaqlarını, var-dövlətlərini ataraq canlarını götürüb Osmanlı dövlətinin içərilərinə doğru qaçmaq məcburiyyətində qaldılar.

Əhməd Triniç alban olsa da Üsküpdə (Skopye) yaşamağın təhlükəli olduğunu görürdü. O, yunan silahlı dəstələrinin amansız divanından qorunmaq üçün misirli müəllim, dindar Sabəhəddin Əfəndi evləndiyi xanımın övladı Əhmədi, bacısını və onların nənəsini öz ailəsi ilə birlikdə 1912-ci ildə İstanbula gətirir. Albanların çoxu Osmanlı dövlətinə nifrət etdiyi bir dövrdə paytaxtda onlara qayğı ilə yanaşırlar. Hökumətin Balkan köçkünləri üçün verdiyi imtiyazlardan bəhrələnirlər. Belə ki, bacısı imtahan verərək müəllimlər seminariyasına qəbul olunur. Əhməd isə Balıkəsirdəki liseydə oxuyur. Hər ikisi də pulsuz təhsil alırlar (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

## Hərbi xidməti və əsirliyi

Yazdığı özkeçmişlərindən və istintaqa verdiyi ifadədən aydın olur ki, Birinci Dünya Savaşı başlayanda Əhməd Triniç altı aylıq çavuşluq kursuna yazılıb. 1915-ci ildə kursu başa vuraraq Dardanel cəbhəsinə gedib. Orada iki-üç həftə qaldıqdan sonra Suriya cəbhəsinə göndərilib. Yolüstü Bitlis şəhərində olarkən, yəni 1915-ci ilin sonlarında rus ordusuna əsir düşüb (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**). Burada anlaşılmayan bəzi məsələlər var. Birincisi, Suriyadakı cəbhəyə göndərilmiş çavuş niyə Bitlisə gedib? İkincisi, özü könüllü təslim olub, yoxsa döyüşərək əsir düşüb? Müstəntiq də bu məsələyə aydınlıq gətirmək üçün əlavə sual verməyib... Bu və sonralar baş vermiş bəzi hadisələr onun əsir düşməsinə şübhə ilə yanaşmağa əsas verir.

Əhməd Triniç izahatında yazıb ki, onları öncə Tbilisiyə, oradan da Nerexte şəhərindəki (Kostroma vilayəti) əsir düşərgəsinə aparıblar. Ruslar əsirlikdəki türklərlə sərt və qəddar davrandıqları halda, sarışınlığına və alban olduğuna görə onu incitməyiblər (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Əsir düşərgəsində incidilməyən Əhməd Triniç idarəolunmaz hala gəlmiş, tətil və mitinqlərin baş alıb getdiyi Rusiyadakı şəraitdən yararlanıb. Əhməd Triniçin dediyinə görə, Nerexte şəhərindəki əsir düşərgəsindəki qeyri türklərə, yəni albanlara, makedonlara, ərəblərə, çərkəzlərə və b. sərbəst hərəkət etmək imkanı verilib. "Sərbəst hərəkət etmək imkanı" verildiyi dövrdə, yəni 1917-ci ilin noyabrınadək Əhməd Triniçin kimlərlə yoldaşlıq etdiyi, harada yaşadığı haqqında əlimizdə elə bir bilgi yoxdur. Orada bolşeviklərlə və ya hər hansı bir sosialist qruplaşması ilə tanışlığı, ünsiyyəti olsaydı yəqin ki,

Kommunist Partiyası sıralarına keçəndə, partiyada "çistka" (təmizləmə) aparılanda və ya istintaqda bunu qeyd edərdi.

Əsir düşərgəsində rus dilini öyrənən Əhməd Triniç izahatında yazır ki, bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra sərbəstliyimiz daha da artdı. Bundan istifadə edərək üç yoldaş Moskvaya getdik. Onlardan iki zabit Moskvada qaldı, mən isə Bakıya gəldim (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Qəribə burasıdır ki, Əhməd Triniç Moskvaya gedən zabitlərin adlarını çəkmədiyi kimi, haraya, kimlərin yanına getdiklərini də söyləməyib. Hər sözü çək-çevir edən müstəntiqlər də bu məsələnin üzərindən də sükutla keçiblər.

Ona olan xoş münasibət, rahatlıqla Bakıya gələ bilməsi, sonrakı fəaliyyətində olan qaranlıq məqamlar sual doğurur: doğrudanmı alban olduğuna görə Əhməd Triniçlə sərt, kobud davranmayıblar? Yoxsa o həbsxana nəzarətçiləri, Rusiyanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edib? Bu suala cavab verə biləcək sənədlər tapa bilmədim.

## Əhməd Triniç Bakıya gələnədək Azərbaycanın ictimai-siyasi durumu

20-ci yüzil qarışıqlar, üsyanlar, inqilablar, Dünya Savaşları ilə tarixə imzasını qoydu. Dünyanın inkişaf etmiş dövlətləri yeni müstəmləkələr əldə etmək üçün məhəlli savaşlarla kifayətlənmirdilər. Dünyanı yenidən bölmək üçün böyük savaşlara hazırlaşırdılar. Avropada Antanta və Üçlər İttifaqı deyilən güc mərkəzləri formalaşmışdı.

1914-cü ildə başlayan Birinci Dünya Savaşı milyonlarla insanın ölümünə, şəhər və kəndlərin dağılmasına səbəb olmuşdu. Savaşda məğlub tərəf olan Osmanlı dövləti ərazisinin

çoxunu itirmişdi. Qaliblərlə eyni ittifaqda olan çar Rusiyasının da durumu məğlub Osmanlı dövlətindən o qədər seçilmirdi. İmperiya ərazisinin çoxunu itirmiş, ölkəni vətəndaş savaşı bürümüşdü. Bu azmış kimi vətəndaş itaətsizliyi də baş alıb gedirdi.

1917-ci ildə Peterburqda baş verən inqilab ölkəni bürümüş qarğaşanı daha da artırıb. Peterburqda fevralın 23-də fəhlələrin başladığı tətil və nümayişlərə dörd gün sonra əsgər və zabitlər də qoşulub. Fevralın 28-də Dövlət Dumasının Müvəqqəti Komitəsi "Petroqradda qayda-qanun yaratmaq, idarə və şəxslərlə əlaqələri təmin etmək" məqsədilə hökumətin funksiyalarını öz üzərinə götürdüyü barədə bəyanat verib. Martın 2-də isə İkinci Nikolay taxt-tacdan əl çəkdiyi haqqda manifest imzalayıb.

Yeni yaradılan Müvəqqəti Hökumət islahatlar həyata keçirməyi planlayıb. Müəssislər Məclisinə seçkilər üçün əsasnamə hazırlayıb. Demokratik idarəetmə aparatı yaratmaq haqqında qanunlar qəbul edib. Bu qanunların biri də Rusiya İmperiyasının Güney Qafqazdakı canişinliyinin ləğv edilib yerində Zaqafqaziya (Güney Qafqaz) Xüsusi Komitəsi yaradılması olub. 1917-ci il martın 9-da işə başlayan Zaqafqaziya Xüsusi Komitəsi martın 15-də keçmiş dövlət idarələrinin fəaliyyətini dayandırıb. Canişini vəzifədən gedib. Tiflis polisinin rəisi həbs edilib. Peterburqda yaradılmış Müvəqqəti Hökumət Güney Qafqazda idarəetməni öz əlində saxlamaq üçün 1917-ci il martın 22-də Dövlət Dumasının üzvlərindən ibarət Xüsusi Zaqafqaziya Komitəsini yaradıb (**Rüstəmova-Tohidi, 2013:47-48**).

Xüsusi Zaqafqaziya Komitəsini əlində real hakimiyyət, güc olmadığından Sovetlər və digər inqilabi təşkilatlar haki-

miyyət ələ almağa can atırdı. 1917-ci il martın 16-da RSDFP-in Qafqaz Diyar Komitəsi konfrans çağıraraq Güney Qafqazda "sosialist işinə" rəhbərlik etmək üçün İcraiyyə Komitəsini seçdi, martın 18-də isə hökumətin vəzifələrini yerinə yetirməli olan Tiflis Fəhlə və Əsgər Deputatları Soveti yaratdılar.

Siyasi partiyalar fərqli mövqedən çıxış edirdilər. Menşeviklər Fəhlə, Əsgər və Kəndli Sovetlərini burjuaziya nümayəndələri ilə əməkdaşlıq əsasında yaradılmasını, eserlər Müvəqqəti Hökumətdə yaranmaqda olan yerli orqanlara Fəhlə və Əsgər Deputatları Sovetlərinin nəzarət etməsini istəyirdilər. Bolşeviklər isə öncə eserlərin tərəfində dursalar da, sonradan hakimiyyəti özləri ələ almağa çalışdılar.

1917-ci il martın 19-da Bakıda Fəhlə Deputatları Soveti yaradıldı. Sovetlə yanaşı İctimai Təşkilatların İcraiyyə Komitəsi də təşkil edildi. Bu təşkilata milli partiya və qruplar, həmçinin Neft Sənayeçiləri İttifaqının, Bakı şəhər Sovetinin və digər təşkilatların nümayəndələri daxil idi. Bakı Sovetinin sədri Stepan Şaumyan seçilmişdi, lakin tezliklə onu bu vəzifədə eser Sako Saakyan əvəz etdi (**Rüstəmova-Tohidi, 2013:47-48).**

Müsəlmanların siyasi təşkilatları da yaranmış imkandan istifadə edərək milli azadlıq hərəkatını gücləndirməyə çalışdılar. Bunun üçün Rusiya müsəlmanlarının siyasi qüvvələrini birləşdirməyə can atırdılar. 1917-ci il martın 27-də Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradılmışdı. Komitə yerli özünüidarə orqanlarında və Müəssislər Məclisində müsəlmanların proporsional şəkildə təmsil olunmasını istəyirdi. Lakin onların bu qanuni istəyinə bolşeviklər, menşeviklər və eserlər əngəl olurdular. Fikirlərini də belə əsaslandırırdılar ki, müsəlmanlar arasında savadsızlar çox oldu-

ğundan onlar səsvermədə fəal və obyektiv iştirak edə bilməzlər.

Müvəqqəti Hökumətin 1917-ci il 25 mart tarixli qərarına uyğun olaraq mayın 21-də Bakı Ərzaq Komitəsinə keçirilmiş seçkilər isə bunun əksini göstərdi. Belə ki, seçkidə müsəlman bloku 29735 səs, sosialistlər (menşeviklər, eserlər, bolşeviklər, daşnaklar) 18061, kadetlər isə 1028 səs topladı (**Azərbaycan tarixi, 2008:224, 5-ci cild**). Müsəlmanların siyasi fəallığı özlərini inqilabçı adlandıran, lakin imperiya təfəkküründən xilas ola bilməyən menşeviklər, eserlər, bolşeviklər, daşnaklar və kadetləri bərk narahat edir, onlar müsəlmanların siyasi və ictimai təşkilatlarını əksinqilabçı adlandırırdılar. Halbuki, aprelin 20-də keçirilmiş Qafqaz Müsəlmanları Qurultayında qəbul edilmiş qətnamədə yazılmışdı: "Əsgər və Fəhlə Deputatları Sovetinin razılığı ilə bəyan etdiyi prinsipləri ardıcıl və dönmədən həyata keçirəcəyi müddətdə onun bütün tədbirlərini hər cəhətdən müdafiə etməyi zəruri sayır" (**Azərbaycan tarixi, 2008:226, 5-ci cild**).

Sovet idarəçiliyində Azərbaycan türklərinin azlıq təşkil etməsi Azərbaycan xalqının milli mənafeyinə xidmət etmirdi. Eser, menşevik, daşnak blokunun rəhbərlik etdiyi Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin rəhbər heyəti ruslardan, rusdilli qeyri-müsəlmanlardan və erməni millətçilərindən ibarət idi və onlar "vahid və bölünməz Rusiya" ideyasını təbliğ edirdilər.

Azərbaycanda yaranmış siyasi partiyalar milli mənafe naminə idarəetmə orqanlarında daha çox yer tutmağa can atırdılar. "Müsavat" Partiyası xalq arasında güclü iş apardığına görə 1917-ci ilin payızında Azərbaycanda milli-demokratik hərəkata başçılıq edən, sinfi və sosial mövqeyindən asılı olmayaraq

cəmiyyətinin müxtəlif təbəqələrini öz arxasınca apara bilən siyasi təşkilata çevrilmişdi.

Sovetlər çarizmin müsəlman xalqlarına qarşı yeritdiyi müstəmləkəçilik siyasətini "daha incə və daha qapalı" şəkildə davam etdirir, Azərbaycan xalqını separatizmdə təqsirləndirir, milli azadlıq hərəkatını boğmağa çalışırdı. Lakin tarixin çarxı başqa yöndə fırlanırdı. Rəqiblərinin sıxışdırıb sıradan çıxarmaq istədiyi milli partiyaların tərəfdarlarının sayı gündən-günə artırdı. Bu təşkilatların əhatə etdiyi bölgələr də sürətlə böyüyürdü.

Güney Qafqazda aparıcı milli təşkilata çevrilən "Müsavat" Partiyasının Bakı Sovetinə və Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə qazandığı qələbə rəqiblərini çətin vəziyyətdə qoymuşdu. 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə bolşeviklər 3823, eserlər 6305, menşeviklər 687, daşnaksutun 5288 səs toplaya bildiyi halda, "Müsavat" Partiyası 9617 səs toplayaraq ümumu səslərin 40 faizini əldə edə bilmişdi (**Həsənli, C., 2009:16**).

1917-ci il oktyabrın 25-də (yeni təqvimlə noyabrın 7-də) Petroqradda bolşeviklər silah gücünə Müvəqqəti Hökuməti devirdilər və İkinci Sovetlər qurultayında (25-26 oktyabr) Sülh və Torpaq haqqında dekretlər qəbul etdiklərini bildirdilər. Lakin Rusiyanın hər yerində bolşeviklər Petroqraddakı məsləkdaşlarının hərəkətlərini təkrarlaya bilmədilər.

Bakı Soveti ən güclü təşkilat sayılmasına baxmayaraq, Fəhlə və Əsgər Deputatları Sovetinin 1917-ci il oktyabrın 27-də keçirilən fövqəladə yığıncağında bolşeviklər uduzdular. Onlar kəskin etiraz etsələr də menşevik-eser-daşnak bloku 168 səsə qarşı 246 səs toplayaraq Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaradılması

haqqında qərarın qəbuluna nail oldular. Hələ bu azmış kimi qaliblər bolşeviklərin Petroqraddakı silahlı çevrilişini qanunsuz saydılar. Onun dinc yolla ləğv olunmasını istədilər. "Müsavat" Partiyasını isə millətçilikdə təqsirləndirərək onunla hər hansı bir bloka girməyəcəklərini bildirdilər (**Azərbaycan tarixi, 2008:237, 5-ci cild**).

Sovet hakimiyyətinin "Rusiya xalqlarının hüquq bəyannaməsi" və "Rusiyanın bütün Şərqin müsəlmanlarına müraciət"i müsavatçıları bolşeviklərə tərəf çəkdi. Beləcə "Müsavat"ın dəstəyini alan bolşeviklər Xəzər ticarət donanmasında, bir sıra həmkarlar təşkilatlarında və şəhər qarnizonunda güclü təbliğat aparıb özlərinə tərəfdar toplaya bildilər. Bakı Sovetinin 1917-ci il noyabrın 2-də keçirilən toplantısında Sovetlərin Bakı şəhərinin ali hakimiyyət orqanı elan edilməsinə nail oldular. Noyabrın 22-də isə İctimai Təşkilatların İcraiyyə Komitəsi ləğv olundu.

Qazandıqları qələbədən fərəhlənən bolşeviklər Sovetlər vasitəsilə bölgədə təkpartiyalı sistem yaratmağa girişdilər. Onlar Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Şəhər Dumasını bolşevikləşmiş Sovetin rəqibi kimi görürdülər.

Antanta və ABŞ tərəfindən Sovet Rusiyasına qarşı hərbi müdaxilənin başladığı günlərdə Gürcüstan Sosial-Demokrat partiyasının (menşeviklər), "Müsavat" partiyasının, Daşnaksutun partiyasının və sağ eserlərin nümayəndələrinin toplantısı keçirildi. Noyabrın 11-də Tiflisdə keçirilən toplantıda ABŞ konsulu Smit, ingilis generalı Şor, fransız polkovniki Şardinyi və b. da iştirak etdilər. Əslində bu toplantı Güney Qafqazı bolşevik Rusiyasından ayırmaq məqsədi daşıyırdı (**Azərbaycan tarixi, 2008:241, 5-ci cild**).

Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. ABŞ konsulu Smit Vaşinqtona göndərdiyi məktubunda Zaqafqaziya Komissarlığını de-fakto tanımaq və antibolşevik qüvvələrə maliyyə yardımı göstərmək üçün Tiflisə 10 milyon dollar göndərməyi təklif edirdi. Noyabrın 15-də yaradılan Zaqafqaziya Komissarlığına Gürcüstandan Y.Gegeçqori (sədr) və A.Çxenkeli, Azərbaycandan F.X.Xoyski, M.Y.Cəfərov, X.Məlikaslanov, ermənilərdən T.Ter-Qazaryan, X.Karçikyan, A.Aqacanyan, sağ eserlərdən D.Donskoy daxil edildilər (**Azərbaycan tarixi, 2008:240, 5-ci cild**).

1917-ci il dekabrın 5-də Zaqafqaziya Komissarlığı ilə Osmanlı Hərbi Komandanlığı arasında Ərzincanda danışıqlar başlandı. 1918-ci il yanvarın 14-də isə Osmanlı komandanlığı Zaqafqaziya Komissarlığına tərəflər arasında sülh müqaviləsi bağlamaq haqqında danışıqları davam etdirməyi təklif etdi. Zaqafqaziya Komissarlığı 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsinin komandanı Vahib paşaya sülh danışıqları aparmaq istədiyini bildirən teleqram göndərdi. 1918-ci il fevralın 10-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Komissarlığının buraxılması və onun yerində Zaqafqaziya Seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi. Seymə müsavat, menşevik, daşnak, kadet, eser, sosial-federalist, ittihad, milli-demokrat, müsəlman sosialistləri bloku və "Hümmət" təşkilatı daxil idi. Müsavatın 30, müsəlman sosialist blokunun 7, hümmətçilərin 4, ittihadçıların isə 3 yeri olduğundan müsəlman partiyaları bloku seymin ən böyük təşkilatı idi.

Zaqafqaziya Seymi Y.H.Gegeçkori başda olmaqla Zaqafqaziya Hökumətini təşkil etdi. Qafqaz cəbhəsində vəziyyət və

Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi məsələləri istər Seymin, istərsə də hökumətin fəaliyyətində əsas yer tuturdu (**Azərbaycan tarixi, 2008:243, 5-ci cild**).

Güney Qafqazın Rusiyadan ayrılma cəhdini bolşeviklər heç cür qəbul etmək istəmirdilər. Rusiya Xalq Komissarları Sovetinin sədri Vladimir Lenin Güney Qafqazda baş verən siyasi proseslərlə hesablaşmırdı. Rusiyanın mərkəzi vilayətlərində mövqelərini möhkəmlədə bilməmiş Xalq Komissarları Soveti 1917-ci il dekabrın 16-da "Qafqazda vəziyyət haqqında" mövzusunda müzakirə aparır, Bakı Sovetinin sədri erməni Stepan Şaumyanı "Qafqaz və Qərbi Ermənistan üzrə Fövqəladə Komissar" təyin edirdi. Bakı Soveti rəhbərliyi Qırmızı Ordu adı altında ermənilərdən hərbi birləşmələr yaradırdı. Bu bolşeviklərin verdikləri vədə əməl etməyəcəkləri, Rusiya İmperiyasının sərhədlərini bərpa etməyə can atmaları demək idi. Qafqaz xalqları isə yenidən imperiya əsarətinə düşmək istəmirdilər.

1918-ci ilin əvvəlində Güney Qafqazda baş verənlər qarşıdurmanı daha da gücləndirdi. Osmanlı cəbhəsindən qayıdan silahlı qüvvələrin və erməni könüllü hərbi birləşmələrinin sayəsində Bakı şəhərində bolşeviklər güclənir, ayrı-ayrı bölgələrdə isə fərqli siyası təşkilatlar nəzarəti əllərinə almağa can atırdılar.

Rusiya Birinci Dünya Savaşı ərəfəsində və döyüşlər gedən günlərdə ermənilərdən Osmanlı cəbhəsində istifadə etmək üçün bir neçə hərbi dəstə yaratmışdı. Onlar Osmanlı Dövləti ərazisindəki müsəlman kəndlərini dağıdır, dinc əhalini öldürür, ordunun təhcizat anbarlarına basqınlar təşkil edirdilər. 1918-ci il martın 3-də Brest-Litovsk anlaşmasından sonra Rusiya hərbi birləşmələrini Osmanlı cəbhəsindən geri çəkməyə

başladı. Bu anlaşma ermənilərdən ibarət silahlı birləşmələri çətin vəziyyətdə qoydu. Rusyanın yardımından məhrum olan Erməni silahlı birləşmələri Osmanlı Ordusunun qarşısında duruş gətirə bilməyib Güney Qafqaza, əsasən də keçmiş İrəvan xanlığının ərazisinə, 1849-cu ildə yaradılan Erivan quberniyasına çəkildilər. Onlar yalnız əsgəri birliklər halında Osmanlı Ordularının hücumundan qaçmırdılar, özləri ilə bərabər milliyətcə erməni olan on minlərlə qaçqını da gətirirdilər.

Erməni hərbi birləşmələri özləri ilə gətirdikləri qaçqınları yerləşdirmək üçün Erivan quberniyasının müsəlman kənd və qəsəbələrinə hücum edir, dinc əhalini qırır, evləri dağıdırdılar. Qaçqınlara abad kəndlər deyil, xaraba kəndlər qalırdı. Erməni kəndliləri Osmanlı dövlətinin ərazisində qoyub gəldikləri abad evlər əvəzində vətən quracaqları yerdə xaraba evlərə alıb onları abadlaşdırmağa çalışırdılar. Yollarda, yeni sahibləndikləri xaraba kəndlərdə on minlərlə erməni acından və xəstəlikdən ölürdü.

Gürcülər və Qafqaz müsəlmanları yaxşı bilirdilər ki, Rusiyanın yaratdığı və silahlandırdığı erməni hərbi hissələr ermənilər dövlət yaradanda onun ordusuna keçəcəkdi.

Ona görə də azərbaycanlılar vətənpərvər qüvvələr arasında iş aparır, əsgəri birliklər yaradılmasına can atırdılar. İlk milli silahlı dəstələrdən biri "Tatar süvari alayı" idi. Bu alay Birinci Dünya Savaşında çar Rusiya ordusunun tərkibində yaradılmış və Karpat dağlarınadək döyüş yolu keçmiş "Qafqaz yerli süvari diviziyası"nın tərkibində olmuşdu. Brest-Litovsk anlaşmasından sonra alay Azərbaycana qayıtmış və yeni yaradılmaqda olan milli silahlı qüvvələrin tərkibinə daxil olmuşdu (**Azərbaycan tarixi, 2008, 5-ci cild**).

Əhməd Triniç belə qarışıq günlərdə Bakıya gəlmişdi.

## Əhməd Triniç və Məhəmmədəmin Rəsulzadə

Əhməd Triniç 1936-cı ildə istintaqa verdiyi izahatda 1917-ci ilin sonlarında Bakıya gəldiyini, dəmir yol vağzalından birbaşa "Açıq söz" qəzetinin redaksiyasına getdiyini, qəzetin redaktoru Məhəmmədəmin Rəsulzadə ilə görüşdüyünü, Məhəmmədəmin Rəsulzadənin dəvətilə Xeyriyyə Cəmiyyətindən gələn bir nəfərin onu hamama apardığını, tatarlar (türklər) kimi geyindirib və Təbriz mehmanxanasında yerləşdirdiyini yazıb (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Bu izahatda da bir az qarışıqlıq var. Əhməd Triniç müstəntiqə əsirlikdə onunla bir yerdə olan iki zabitlə birlikdə Moskvaya gəldiklərini və onlar orada qaldıqlarını deyib. Araşdırıcılardan Lütfiyyə Əsgərzadə isə onun Bakıya milliyətcə laz olan dostu Zyugdi ilə birlikdə gəldiyi qənaətindədir **(Əsgərzadə, 2019, 8 may).**

Həmişə Məhəmmədəmin Rəsulzadəni tanıyanları ciddi-cəhdlə sorğu-suala tutan, haqqında daha çox bilgi toplamağa, əlaqələrini öyrənməyə çalışan KQB əməkdaşları bu dəfə nədənsə mövzuya maraq göstərməyiblər.

Sual yaranır: Nerexte şəhərindəki əsir düşərgəsində olan Əhməd Triniçin "Açıq söz" qəzeti və Məhəmmədəmin Rəsulzadə haqqında bilgisi haradanmış? Savaş başlayandan sonra yaranan kağız qıtlığından qəzetlərin bir çoxu bağlanmış, poçt xidmətində axsamalar meydana gəlmişdi. Belə bir zamanda Bakıda nəşr edilən "Açıq söz" qəzetinin Nerextedəki əsir düşərgəsinə necə göndərilə bilərdi?

Əhməd Triniç nə bilirmiş ki, Bakıya gələndə onu saygı ilə qarşılayacaq və ilk gündən yaşaması üçün normal şərait yaradacaqlar? Bu mövzuya aydınlıq gətirən başqa sənədlərə indiyədək rast gəlməmişəm. Nerextedəki əsir düşərgəsində olan

Osmanlı hərbiçisinin Məhəmmədəmin Rəsulzadə ilə əlaqəsi olubmu, olubsa bu hansı formada imiş?

Bu suala Mehman Süleymanov "Nuru Paşa və silahdaşları" kitabında ipucu verir. Osmanlı ordusundan Qafqaz cəbhəsində əsir düşənlərin Sibirə aparılmasını Nağı Şeyxzamanlı belə xatırlayır: "Gəncə bələdiyyə rəisi Xəlil bəyin yanına gedərək "Gənclik" təşkilatı adından özü ilə danışdım, vəziyyəti anlatdım. İstədiyim bu idi: ruslar Qafqaz cəbhəsindən əsir aldıqları türk əsgərlərini qatarlara doldurub Sibirə göndərirlər. Xəstə olanlara baxılmır, onlar yolda ağırlaşaraq can verirlər. Cəsədləri stansiyalarda boşaldılır. Rus idarəsinin bu qeyri-insani hərəkəti xalqımızı qəzəbləndirir. Xəlil bəy məni dinlədikdən sonra Gəncə qubernatoru ilə görüşəcəyini və nə gərəkdirsə edəcəyini söylədi. Mənə onu axşam klubda görərək nəticəni öyrənməmi söylədi.

Axşam kluba gedərək Xəlil bəyi gördüm. Xəlil bəy mənə dedi: "Qubernator ilə görüşdüm. Sabah stansiyada böyük bir bina boşaldılacaq. Orada düşərgə və xəstəxana açılacaq. Silahlı qüvvələrdən həkimlər istəniləcək, bundan başqa hökumət və bələdiyyə də işlə təmin olunacaqlar. Tiflisdən hərəkət edəcək əsirlər dolu qatarlar əvvəlcədən Gəncədə bildiriləcəkdir. Həkimlər tez stansiyaya gedərək əsirləri gözdən keçirəcəklər və xəstə olanlar düşərgəyə göndəriləcəklər".

Həmin gün əsir daşıyan bir qatar saat 14-də Gəncə stansiyasına çatır. Gənclər təşkilatının fəalları qatardakı 28 vaqonun hər biri üçün ayrılıqda hədiyyələr hazırlayıb verirlər. 40 nəfər xəstə isə qatardan endirilib müalicə üçün Gəncədə saxlanılır. Sağalanlar əsir düşərgələrinə göndərilir.

Nağı Şeyxzamanlının yazdığına görə Gəncədəki müalicəxanada 200-ə yaxın xəstə olurmuş. Xəstələrlə görüşməyə ciddi

əngəl yoxmuş. Nağı Şeyxzamanlı yazır: "Dostlarla birlikdə düşərgələrə gedər, istədiyimiz qədər qala bilərdik. Əsirlərə Azərbaycanda türkcə nəşr edilmiş kitablar, jurnallar verirdik. Bakıda Məmməd Əmin Rəsulzadənin çıxardığı "Açıq söz" qəzetini hər gün onlara çatdırırdıq. Bundan başqa, Gəncədəki bütün müəllimləri və şagirdləri düşərgəyə dəvət edərək əsirləri həsrət çəkməyə qoymurduq. Ən çox sevdikləri şair Əhməd Cavad idi. Bir gün Gəncə tacirlərindən Hacı Həsən mənim yanımda oldu və əsirləri ziyarət etmək istədiyini söylədi. Vəziyyəti Xəlil bəyə bildirdim və qubernatordan icazə almasını xahiş etdim. Bir neçə gündən sonra Xəlil bəy məni iş yerinə çağırdı və dedi: "Hacı Həsənə de ki, gözəl və zəngin bir ziyafət versin. Əsirlərdən başqa mən, qubernator, mərkəz komandiri, hökumət və bələdiyyə hakimləri və şəhərin irəli gələnləri də ziyafətdə olacaq". Bu haqda Hacı Həsənə xəbər verdim. Ertəsi gün 300 nəfərlik bir ziyafət hazırlandı" (**Süleymanov M., 2014**)

Bu yazılanlardan belə nəticə çıxarırıq ki, Nerextedəki əsir düşərgəsinə "Açıq söz" qəzeti və digər mətbuat orqanları, məktublar Azərbaycanda müalicə və ya hansı səbəbdənsə saxlanılan əsirlər vasitəsi ilə çatdırılmışdır.

## Müsəlman hərbi məktəbinin müəllimi

Əhməd Triniç 1936-cı ildəki izahatında Bakıya gəldikdə evlərdə uşaqlara dərs deməklə keçindiyini yazıb. Bunu inkar edəcək elə bir fakta rast gəlmədik. Amma başqa sənədlər onun Azərbaycan Milli Şurasının yeni təşkil etdiyi Müsəlman Hərbi Məktəbində işlədiyini göstərir.

Osmanlı cəbhəsindən, eləcə də İkinci Dünya Savaşından geri dönən əsgər və zabitlər imperiya təfəkkürlü olduğuna gö-

rə Sovetlərin tərəfini saxlayırdılar. Qarşıdan gələn təhlükəni görən Azərbaycan Milli Şurası özünün hərbi kadrlarını hazırlamağa çalışırdı. Osmanlı ordusunda kiçik zabit olmuş Əhməd Triniç kimi birisi onlar üçün olduqca önəmli idi.

Çarlıq dönəmində müsəlman gənclərinin əksəriyyəti orduya çağırılmır, əvəzində onlardan vergi alınırdı. Qafqazda yaşayan erməni və gürcülər hərbi xidmətə aparılır, onlardan zabitlər hazırlanmasına xüsusi diqqət yetirilirdi. Buna görə də Rusiya ordusunda yetərincə gürcü və erməni hərbiçiləri vardı.

1918-ci ilin mayında Zaqafqaziya Seymi dağılanda gürcü və erməni öndərləri Rus ordusunda olan milli kadrlardan istifadə edərək öz ordularını yaratmağa başladılar. Azərbaycan Milli Şurası isə yerli könüllülərdən əsgəri birliklər yaratmaq üçün Osmanlı ordusundan Ruslara əsir düşmüş əsgər və zabitlərdən, hətta keçmiş rus ordusunda xidmət etmiş gürcü, tatar, Quzey Qafqaz xalqlarının zabitlərindən istifadə etmək məcburiyyətində qaldı.

Belə ağır dövrdə Osmanlı ordusunun kiçik zabiti, sərt və intizamlı Əhməd Triniçin gəlişi Azərbaycan Milli Şurası üçün çox önəmli olmuşdu. Sənədlər onu göstərir ki, Əhməd Triniç gənc hərbiçilər hazırlamaqla kifayətlənməmiş, özü də döyüşlərdə fəal iştirak etmişdir.

Xalq artisti Kazım Ziya 1935-ci il noyabrın 13-də KQB müstəntiqinə verdiyi izahatda yazır ki, Əhməd Triniçin heç bir qəddarlığını, kimisə öldürdüyünü görməmişəm. 1918-ci ilin mart hadisələrində evimizin darvazası qarşısında durarkən Əhməd Triniçi əlində mauzer xalqa müraciətlə "Qardaşlar, qorxmayın, Osmanlı ordusu gəlir", dediyini eşitmişəm (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Həmin günlərdə Güney Qafqazda hakim olmaq istəyən bolşeviklər erməni silahlı dəstələri ilə birlikdə Azərbaycanda 20 minə qədər müsəlmanı oldürüb. O günlərin şahidi olan ingilis konsulu Mak-Donald qeyd edib ki, "Bakıda şəhərin küçələrində müsəlman meyitlərindən başqa müsəlman olan qalmamışdı, erməni daşnakları 1918-ci ilin yazında 3-4 gün içərisində şəhərdə 20 min kasıb müsəlman əhalisini qətlə yetirmişdi" (**Əsgərzadə, 2019, 8 may**).

"Müsəlman Yardım Alayı"nın zabiti Əhməd Triniç müsəlmanları bolşevik-daşnaq qırğınlarından qorumaq üçün İsmailiyyə binasında keçirilən toplantılarda çıxış edir, xalqı silahlı özünümüdafiə dəstələri yaratmağa çağırır. Erməni-bolşevik dəstələrinə qarşı döyüşən, müsəlmanları qorumağa çalışan Əhməd Triniç mart qırğınından sonra Dərbəndə getməli olur.

## Əhməd Triniçi giritli Həsən Ruşeni Barkın nədən öldürmək istəyirmiş?

Əhməd Triniçin Dərbəndə getməsi heç də təsadüfi deyildi. Oraya Osmanlıdan zabitlər göndərilmişdi. Onlar Rusiyanın tərkibindən ayrılaraq öz dövlətlərini qurmaq istəyən Dağıstan və Quzey Qafqaz xalqlarına yardım edirdilər. Bu zabitlər həm Birinci Dünya Savaşında rus ordularına əsir düşmüş Osmanlı əsgər və zabitlərini ətraflarına toplayır, həm də yerli əhalidən olan könüllüləri cəlb edirdilər. Sonra bu dəstələr Qafqaz İslam Ordusu tərəfindən Quzey Qafqaza məmur göndərilən və Quzey Qafqaz komandanlığı Ərkani-hərb rəisliyini üzərinə götürən İsmail Həqqi Berkuk bəyin ətrafında birləşir. Onun qərargahı Qunibdə yerləşirdi (**Türkər, 2008:128**).

Birinci Dünya Savaşından geri dönən və ya Bakıdakı Rusiya tərəfdarı olan siyasi güclərə köməyə gedən silahlı hərbi

hissələr əsasən dəmir yolu ilə hərəkət edirdilər. Ona görə də dəmir yolu boyundakı yaşayış məntəqələrində vəziyyət olduqca ağır idi. Ərzaqla lazımınca təmin edilməyən, nizam-intizamı pozulmuş əsgər və zabitlər özbaşınalıq edir, dinc əhalini soyub-talayır, zorakılığa əl atır, şübhəli gördükləri adamları istintaqsız, məhkəməsiz güllələyirdilər.

Dərbənd dəmiryol qovşağında yerləşdiyindən orada da vəziyyət normal deyildi. Dərbəndə gedən Əhməd Triniç vəziyyətin çox qarışıq olduğunu görüb iki gün sonra geri qayıtmağa çalışır.

Müstəntiqin sorğusuna cavabda Əhməd Triniç deyir ki, geri qayıdarkən Yalama dəmiryol stansiyasında Həsən Ruşeni (Rövşəni) ilə qarşılaşdım. Yanında silahlı dəstə olan Ruşeni bəy məni bolşeviklərin xeyrinə casusluq etməkdə suçlayaraq güllələtmək istədi. Lakin Əli bəy Zızikski məni ölümdən qurtardı. Mən Həsən Ruşenini Türkiyə Hərbi Nazirliyinin nümayəndəsi kimi tanıyırdım. 1918-ci ilin başlanğıcında Bakıda olarkən türk ordusunun polkovniki Yusif bəy demişdi ki, Ruşeni avanturistdir (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Lütfiyyə Əsgərzadə isə yazır: "Əslində, Triniçin Bakıya gəlməkdə məqsədi Türkiyəyə dönmək imiş. Bunun üçün M.Ə.Rəsulzadədən kömək istəyir. Rəsulzadə Triniçi o zaman Türk Ordusunun Hərbi naziri (fakt yanlışdır. Ruşeni bey nazir deyil, nümayəndə olub – Ə.Ş.) sayılan Ruşeni bəyin yanına göndərir. Ancaq Ruşeni bəy, ona icazə vermir" (**Əsgərzadə, 2019, 8 may**)

Yusif bəyin və Əhməd Triniçin avanturist adlandırdığı, daha çox "Təşkilat-i məxsusə"nin kadrı kimi tanınan Ruşeni bəyin də bir ara həyatı təhlükə qarşısında qalmışdı. Mehmet

Bilgin 2017-ci ildə İstanbuldakı "Ötükən" nəşriyyatında çap etdirdiyi "Təşkilat-i mahsusanın Kafkasya misyonu və operasyonları" kitabında Həsən Ruşeni haqqında yazır ki, vəzifəsindən ayrılıb Bağdada gedən Ruşenini tutararaq Konyaya göndərirlər. O, yolda qaçaraq Rauf (Orbay) bəyin Əfqanıstana gedən dəstəsinə qoşulur.

Osmanlı tarixində "Ruşeni bəy röyası" kimi daxil olan hadisə məhz Həsən Ruşeninin adı ilə bağlıdır.

Girit adasındakı Hanya şəhərində doğulan Həsən Ruşeni (Rövşəni) Barkın (1884-1953) 1906-cı ildə kurmay yüzbaşı (ştab kapitan) rütbəsində Osmanlının 3-cü Ordusunda hərbi xidmətə göndərilib. İkinci Məşrutiyət elanının ilk günlərində Ədirnədəki 2-ci Ordunun əsgər və zabitlərinin Məşrutiyyə hadisəsini xoş qarşılamayacaqları, etiraz edəcəkləri xəbəri Selanikdəki Mərkəz-i Umumiyyə (İttihat və Tərəqqinin baş qərargahı) çatır. 2-ci Ordu qarışıqlıq salmasın deyə Selanikdən kurmay yüzbaşı Ruşenini Ədirnəyə göndərirlər.

O, 7 zabit və 40 seçmə əsgərlə qatara minib Ədirnəyə gəlir. Ədirnə stansiyasına çatdıqda məharətli bir manevr edir. Özü arxa vaqonda gözləyir. Əsgər və zabitlər vaqonlardan enib stansiyada sıraya düzüləndə arxa vaqondan düşüb gəlir və 3-cü Ordudan 2-ci Orduya salam gətirdiyini söyləyir. Hər iki ordunun əsgər və zabitlərini qucaqlaşdırıb səmimi bir ortam yaradır. Sonra Türk və Yunan dillərində alovlu çıxış edir. 2-ci Ordunun nümayəndələrini və stansiyaya toplaşan mülki adamları nitqi ilə coşdurur, Sultanın Məşrutəni qəbul etdiyini söyləyir. Onun nitqi alqışlarla qarşılanır. Bu hadisədən bir az sonra Sultan Əbdülhəmidin də Məşrutəni qəbul etdiyi xəbəri gəlir. Tapşırılan işin öhdəsindən bacarıqla gələn Həsən Ruşeni dəstəsi ilə yenidən qatara əyləşib Selanikə qayıdır.

1910-cu ildə isə o, Rusiya işğalı altında olan Qars şəhərindəki konsulluğa katib təyin edilir. 1913-cü ildə xarici dil öyrənməsi üçün onu bir il işdən ayırırlar. Yunanca, ərəbcə, farsca və rusca bilən Həsən Ruşeni 1917-ci ilin oktyabrında Şeyx Həsən adıyla İrana göndərilir. Həmin günlərdə ingilislərin və rusların himayəsi ilə Urmiyada yaradılmış aysoru-erməni silahlı dəstələri bölgədəki müsəlmanlara divan tutur, müxtəlif bəhanələrlə onları öldürür, mal-mülklərini əllərindən alır, arvadlarına və qızlarına təcavüz edirlər. Burada yeni bir xristian dövlətinin yaradılmasına çalışılırdı.

İran hökuməti o qədər zəifləmişdi ki, xalqı qoruya bilmirdi. Müsəlmanlar da xəlifənin yanına nümayəndə heyətləri göndərir, onları soyqırımından qorumağı xahiş edirdilər. Birinci Dünya Savaşında məğlubiyyətlə üzləşən Osmanlı dövləti isə zülm altında əzilən, ondan kömək diləyən müsəlmanlara istənilən yardımı göndərə bilmirdi.

Belə gərgin günlərdə peşəkar hərbiçi və diplomat Həsən Ruşeni Şeyx Həsən adı ilə Urmiyanın, Səlmasın, Xoyun və b. şəhərlərin məscidlərində moizələr oxuyur, xalqı düşmənə qarşı səfərbərliyə çağırırdı. Həm də bölgədə ingilislərin, amerikanların, fransızların, rusların gücü, tərəfdarları, planları haqqında bilgi toplayaraq hökumətinin xüsusi xidmət orqanlarına göndərir (**Bilgin M., 2017**).

Qaynaqların verdiyi bilgiyə görə, 1918-ci ildə Sulduz-Xoy bölgəsində 200 min müsəlman öldürülmüşdü ki, bunların da əksəriyyəti qadınlar, uşaqlar, qocalar idi. Osmanlı ordusu yardıma gəlməsəydi, öldürülənlərin sayı daha çox olacaq, necə deyərlər, bölgə türklərdən təmizlənəcək, oyuncaq bir xristian dövləti qurulacaqdı.

"İttihad və tərəqqi"nin Qafqaz şöbəsi 1918-ci ilin martında Həsən Ruşenini məxfi tapşırıqla Bakıya göndərirdi (**Nəsibzadə Nəsib, 1996:41**). O, Bakıda milli düşüncəli insanların köməyi ilə Quzey Qafqazda və Türküstanda turançılıq ideyasının tərəfdarları ilə əlaqə qururdu.

Həsən Ruşeninin Osmanlı ordusunun xarici kəşfiyat üzrə nümayəndəsi kimi Əhməd Triniçi və b. cəzalandırması, güllələməklə hədələməsi inandırıcı görünür. Lakin Həsən Ruşeninin Əhməd Triniçi bolşeviklərə casusluq etməkdə suçlayarkən əlində hansı sənədlərin olduğu bilinmir.

Həsən Ruşeni haqqında yazanlar göstərir ki, Mustafa Kamalın bir həftə qonağı olduğu zaman bolşeviklərlə işbirliyinə girməyi təklif edib. Belə bir adam əlində fakt olmadan Əhməd Triniçi boşleviklərlə əməkdaşlıqda suçlayıb onu güllələmək istəməzdi. Həsən Ruşeni Barkın bolşeviklər Bakını işğal edəndən sonra Əfqanıstana gedir, orada bir müddət işlədikdən sonra yenidən Türkiyəyə qayıdır. Türkiyənin 4-cü, 5-ci və 6-cı dönəm Milli Məclisinin Samsundan millət vəkili seçilib (**Bilgin M.,** 2017).

Əhməd Triniç haqqındakı sənədlərin bir çoxunda Həsən Ruşeninin adı dəfələrlə çəkilib.

## Quba qəzası

Əhməd Triniçin ölümlə üzləşdiyi yer Yalama dəmiryolu stansiyası olmuşdu. Bu stansiya həmin dövrdə Quba qəzasına daxil idi.

Quba deyəndə yada Azərbaycanın bir rayonu və onun mərkəzi olan şəhər düşür. Rayonun sahəsi 2574 kvadrat kilometrdir. Keçmiş Quba qəzasının ərazisində indi Xızı, Siyəzən, Şabran, Quba, Xaçmaz və Qusar rayonları yaradılıb.

Əhməd Triniçin ömrünün ən qaranlıq və qarışıq illəri burada keçdiyindən bölgə haqqında bir az bilgi verməyi lazım bildik. 18-ci yüzildə xanlıq olan Quba, Rusiya işğalından sonra Bakı quberniyasının bir qəzasına çevrilib. 1830-cu illərdə Quba qəzasının sərhədləri Quzeydən Samur çayı və Qafqaz dağları, Güneydən Qafqaz sıra dağları və Qurd bulaq adlanan təbii sədlə, Sumqayıt çayı, Doğudan Xəzər dənizi ilə əhatələnirdi. Qəzanın əhalisinin sayı 88650 nəfər idi ki, bunun da 3830 nəfəri Quba şəhərində, 1294 nəfər şəhərkənarı yəhudi qəsəbəsində, 82150 nəfəri isə on mahala bölünmüş 292 kənddə yaşayırdı. 1832-ci ildə Quba qəzasının kameral siyahısını hazırlayan F.A.Şnitnikov yazır ki, Şabran, Müşkür, Tip, Sırt və Şeşpara mahallarının əhalisi əsasən əkinçiliklə, Anaqdərə, Bərmək, Buduq, Xınalıq və Yuxarıbaş mahallarının əhalisi əsasən heyvandarlıqla, bağçılıqla, mahud, xalça, palaz, çuval toxuculuğu ilə məşğul olur, tərəvəz, tütün və pambıq əkir, tülkü və dələ dəriləri satır, Xəzərdən bol balıq tutur. Buduq və Şabran mahallarında isə cins at ilxıları saxlanılır. Quba şəhərində və yaxınlıqdakı yəhudi qəsəbəsində yaşayanlar isə kustar sənaye ilə məşğul olur. Bunlar da bölgənin iqtisadi imkanlarının böyük olduğunu göstərir (**Rüstəmova-Tohidi, 2013:** 27).

Rusiyanı hərc-mərclik bürüməsinə və ölkənin iqtisadiyatının çökməsinə baxmayaraq Qubada əhali 1917-ci illədək sakit yaşamışdır. Quba qəzasında 2-3 erməni kəndi vardı. Quba şəhərində yaşayan erməni ailələri nəzərəçarpacaq qədər də deyildi. Öz kilsələri, dini məktəbləri olsa da ermənilərin qəzanın inzibati idarəetmə aparatında, ictimai təşkilatlarında varlılar arasında diqqətiçəkənləri yox idi. Qəza idarələrindəki əsas və-

zifələri və rütbələri rus, türk, tat, ləzgi və yəhudi xalqlarının nümayəndələri tuturdular.

1917-ci il martın 6-da Qubada vergi müfəttişi Aleksandr Canturaşvilinin sədrliyi altında yerli məmurların, mülkədarların və ruhanilərin nümayəndələrinin daxil olduğu İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradılmışdı. Qəza komissarı isə rus ordusunun istefada olan kapitanı, Qubanın ən iri mülkədarlarından Əli bəy Zizikskini təyin edilmişdi (**Rüstəmova-Tohidi, 2013:48**).

Quba şəhərində yerləşən hərbi hissələrdə Əsgər Deputatları Soveti yaradılmış, 1917-ci ilin mart ayının ortalarında isə "tərkibinə 500 fəhlə və qulluqçu tərəfindən 14 nümayəndənin seçildiyi" Fəhlə Deputatları Soveti təşkil edilmişdi. Bu da Quba qəzasında ikihakimiyyətlilik demək idi (**Rüstəmova-Tohidi, 2013:48**).

## Əli bəy Zizikski niyə Əhməd Triniçi ölümdən qurtarıb?

1876-cı ilin noyabrında mülkədar ailəsində doğulan Əli bəy Zizikski Sankt-Peterburqda hərbi təhsilini başa vurduqdan sonra çar ordusunda əsgəri xidmətə başlayıb. Müsəlman Süvari Alayının döyüşçüsü kimi Varşava üsyanının yatırılmasında iştirak edib. Kapitan rütbəsində istefaya göndərildikdən sonra vətənə dönüb. 1914-cü ildə Quba Qəza Polis İdarəsinə rəis, 1918-ci ilin fevralından isə Zaqafqaziya Xüsusi Komissarlığının əmrilə Quba Qəza Komissarı işləyib (**Rüstəmova-Tohidi, 2013:48**).

Əli bəy Zizikski gənc müəllim Mir Cəfər Bağırovu 1917-ci ilin fevral-mart aylarında yəhudilər yaşayan qəsəbəyə polis müvəkkili və özünə köməkçi təyin edib. Onun bu addımını

heç də təsadüfi saymaq olmaz. Görünür Əli bəy Zizikski Mir Cəfər Bağırovun inqilabçılarla yaxınlığından xəbərdar imiş. Qəzadakı ikihakimiyyətliliyin doğuracağı fəsadların qarşısını almaq üçün belə bir addım atıbmış.

Mir Cəfər Bağırov 1917-ci ilin noyabrınadək Əli bəy Zizikskinin köməkçisi işləyib (**Rüstəmova-Tohidi, 2013:69**).

Əli bəy Zizikski hadisələrin gedişini diqqətlə izləyir və ona uyğun da hərəkət edirdi. İstər polis rəisi, istər qəza komisarı işlədiyi dövrdə əhalinin silah əldə edib özünümüdafiə dəstələri yaratmasına göz yumurdu. Yaxşı bilirdi ki, hökumətin ayırdığı maaşla işləyən azsaylı polislə qəzada qayda-qanunu qorumaq mümkün olmayacaq.

Ətrafına könüllülərdən ibarət silahlı dəstə toplayan təkcə Əli bəy Zizikski deyildi. Quba qəzasında nüfuzlu şəxslərdən olan Həmdulla Əfəndi Əfəndizadə də ətrafına könüllü özünümüdafiə dəstəsi toplayaraq Dəvəçi nahiyəsində sabitliyi təmin edirdi. Şıxlar bəylərinin də ətrafında xeyli silahlı adamlar vardı. Bu silahlı dəstələrin sayəsində qəza müsəlmanlarının nisbi təhlükəsizliyinini təmin etmək mümkün olmuşdu (**Rüstəmova-Tohidi, 2013:51**).

1917-ci ilin payızından başlayaraq Osmanlı cəbhəsindən geri qayıdan Rus ordusunun əsgər və zabitləri dəmiryol boyundakı kəndlərdə soyğunçuluğa başladılar. Yerli hakimiyyətin onları tərksilah etmək cəhdləri çox vaxt silahlı toqquşmalara səbəb olurdu. Bu da milli zəmində qarşıdurma təsəvvürü yaradırdı.

Qəza komissarı Əli bəy Zizikski, Qubada hakimiyyətin Bakı Sovetinə keçməsinin qarşısını almağa çalışaraq, əslində öz dəstələri ilə qəzada siyasi vəziyyətə nəzarət edirdi. 1917-ci ilin ortalarından başlayaraq Qubada mübarizə yalnız milli

qüvvələrlə Sovetlər arasında getmirdi. Sovetlərdə bolşeviklərlə eser-menşeviklər arasında gərgin mübarizə gedirdi. Bolşeviklər hər vasitədən istifadə etsələr də heç cür çoxluq əldə edə bilmirdilər.

Quba qəzasında da kəndlilərin ayrı-ayrı çıxışları baş vermişdi – məsələn, Qaraqurd və Hacı Qurbanoba kəndlərinin sakinləri "knyaz V.P.Bebutovun onların torpaqları ilə qonşu olan mülklərini" ələ keçirmişdilər, Dəvəçi nahiyəsində bir neçə kəndin sakinləri "mülkədar mülklərinə hücum etmiş, torpaqlarını zəbt etmiş və öz aralarında bölmüşdülər". Bununla belə, qəzada kəndli çıxışları kütləvi hal almamışdı (**Rüstəmova-Tohidi, 2013:50**).

Bakıda Sovetlərin sinfi mübarizə adı altında milli münaqişə törətmələri, on minlərlə müsəlmanın öldürülməsi Azərbaycanın hər yerində olduğu kimi, Quba qəzasında da Sovetlərə qarşı nifrəti artırdı. Özünümüdafiə dəstələrinin sayı artmağa başladı. Əli bəy Zizikski ətrafındakı silahlıları nizami əsgəri birliyə çevirməyə çalışırdı. Belə bir vaxtda o, Yalamada Əhməd Triniçlə rastlaşır.

Əhməd bəy Zizikskinin Osmanlı ordusunda təlim görmüş, döyüşlərdə iştirak etmiş, sərt təbiətli Əhməd Triniç kimilərinə ehtiyacı vardı. Onu güllələtmək istəyən Ruşeniyə mane olur. Necə deyərlər, "türkün ölümü türkün əlilə olmasın" deməklə Ruşenini yumşaldır. Bundan sonra Əhməd Triniç Əli bəy Zizikskinin yaxın silahdaşına çevirir, onunla birlikdə döyüşlərdə iştirak edir.

Əhməd Triniç rus əsirliyindən qaçıb Quba-Qusar bölgəsinə gəlmiş Osmanlı ordusunun əsgərlərini ətrafına toplayıb, yerli əhalidən olan könüllülərə təlim keçib, onları nizami ordu döyüşçüsü kimi hazırlayır.

Əhməd Triniçin istintaqa verdiyi ifadə 1918-ci ilin mart hadisələrindən sonra bolşeviklərlə əlbir olduğunu, onların xeyrinə işlədiyini bildirir. Lakin bu ifadə inandırıcı görünmür. Çünki xatirələrdən və sənədlərdən aydın olur ki, o, bolşeviklərin deyil, Əli bəy Zizikskinin dəstəsinin komandirlərindən olub.

Quba qəzasındakı müsəlmanların bolşevik-erməni silahlı dəstələrindən qorunmasında böyük xidməti olan Əli bəy Zizikskiyə Qafqaz İslam Ordusu Bakıya daxil olduqdan sonra polkovnik rütbəsi vermiş, doğulduğu qəzadan Azərbaycan parlamentinə üzv seçilmiş, maliyyə-büdcə komissiyasının üzvü olmuşdur.

"İttihad" partiyasının 1919-cu ilin aprelində keçirilən 1-ci, 1920-ci ilin yanvarında keçirilən 2-ci qurultayına üzv olan Əli bəy Zıziksk bolşeviklər Azərbaycanı işğal etdikdən sonra gizli fəaliyyətə keçmişdir.

Azərbaycan Fövqəladə Komissiyasına sədr təyin edilən Mir Cəfər Bağırov Əli bəy Zizikskini Sovet xüsusi xidmət orqanlarından qorumuşdur. O, Bakıya köçərək Çəmbərəkənddə yaşamışdır. Həmin dövrdə Əhməd Triniç də Bakıda yaşayır və rəhbər vəzifədə işləyirdi. Keçmiş silahdaşların arasında münasibətlər haqqında heç bir sənədə rast gəlmədik.

1926-cı ilin dekabrın 28-də Fövqəladə Komissiyanın əməkdaşları Əli bəy Zizikskini həbs edirlər. Partiyadaxili qruplaşmaların qarşıdurması dərinləşdiyinə görə Mir Cəfər Bağırov özünü zərbə altında qoymamaq üçün Əli bəy Zizikskini qoruya bilmir. 1928-ci il avqustun 6-da onu Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 63, 75 və 18-84-cü maddələri ilə (əksinqilabi fəaliyyət, xarici əksinqilabçı təşkilatlarla əlaqə) ittiham edib ölüm hökmü verirlər.

Hökm 1929-cu il sentyabrın 17-dən 18-ə keçən gecə yerinə yetirilir (**Rüstəmova-Tohidi, 2013:106).**

Əhməd Triniç həmin dövrdə Bakıda rəhbər işdə olsa da keçmiş silahdaşı və partiya yoldaşı olan Əli bəy Zizikskini qoruya bilmir.

## Əhməd Triniç Bakı Sovetinin əsgəri birliklərinə qarşı

Bakıda vəziyyət 1918-ci ilin əvvəllərindən getdikcə gərginləşməyə başladı. Bolşeviklər hakimiyyəti təkbaşına ələ almaq üçün Vladimir Leninin tapşırığı ilə şeytanla da əlbir olmağa hazır idilər. Onlar Osmanlı cəbhəsindən geri dönən əsgər və zabitlərdən, erməni könüllülərindən, eləcə də qeyri-müsəlmanlardan Qırmızı Ordu adlı əsgəri birliklər yaratmağa başladılar. "Daşnaksutun" paryiyasının üzvü Z.Avetisyan qərargah rəisi, Hamazasp 3-cü briqadanın komandiri, polkovnik Qazarov isə korpus komandiri təyin edildi.

"Müsavat" Partiyasının xalq arasında nüfuzunun gündən-günə artdığını görən erməni millətçi partiyaları və bolşeviklər rəqiblərini sıradan çıxarmaq, Azərbaycan xalqının gözünü qorxutmaq məqsədilə erməni-müsəlman davası salmağı planladılar. Həmin dövrün siyasi mənzərəsindən söz açan erməni siyasətçisi Hovanes Kaçaznuni yazır ki, "bolşeviklərə qarşı dura biləcək iki real qüvvə vardı: "Müsavat" və "Daşnaksutun" partiyaları. "Daşnaksutun" partiyasının üzvləri belə hesab edirdilər ki, "Müsavat" partiyası ilə onun dostluğu bolşevik təhlükəsi olduqda lazımdır. Bakıda bizim köməyimizlə bolşeviklər "Müsavat" partiyasını darmadağın etdilər".

Bununla kifayətlənməyib Şamaxı və ətrafında yerləşən müsəlman kəndlərində də dinc əhaliyə qarşı qəddarlıqlar törətdilər. Minlərlə insan vəhşicəsinə öldürüldü, evlər, tarlalar,

mal-qara məhv edildi. Məqsəd isə bölgədə müsəlmanların sayını azaltmaq, buranı Rusiyanın bir əyalətinə çevirmək idi. Əslində, bu yeni məsələ deyildi. Birinci Pyotr da Dərbənddən Gilanadək olan sahilboyu ərazilərdə müsəlmanların sayını azaldıb Erməni əyaləti yaratmaq istəyirdi. Bölgə əhalisinin əksəriyyətini müsəlmanlar təşkil etdiyindən onun planı baş tutmamışdı.

Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Rayon və Şəhər Komitəsinin üzvü Məşədi Əzizbəyov 1918-ci ilin yanvarında Qırmızı Qvardiya dəstələrinin təşkili üzrə komissiyaya seçilir. Martın ortalarında onu Xaçmaza göndərirlər ki, oradakı hərbiçilər və xristian, yəhudi inanclı mülkü əhali ilə toplantı keçirsin. Bakı Sovetini Quba qəzasından və Dağıstandan gələ biləcək təhlükədən qorumaq üçün tədbir görsün. O, yəhudilər yaşayan qəsəbədə, Qırmızı Qvardiyanın fəal təşkilatçılarından biri İ.İfraimovun evində toplantı keçirir. Qərara alınır ki, Qırmızı Qvardiya dəstələrinin yaradılması sürətləndirilsin (**Rüstəmova-Tohidi, 2013:53**).

Sual doğura bilər ki, müsəlman olmayan ermənilər, ruslar, yəhudilər, hətta müsəlman Məşədi Əzizbəyov nədən bölgənin yerli əhalisindən qorxurdu. Bunun səbəbi sadə idi: İslam dini başqasının malına-mülkünə toxunmağı, insanların izzəti-namusuna sataşmağı günah sayırdı. Bolşeviklər isə hər şeyi bərabər böləcəklərini, varlılardan alıb kasıblara verəcəklərini vəd edirdilər. Hətta ailənin, yəni qadınların da ümumi olacağını söyləyənlər vardı. Mərkəzdə gündəmə gətirilən "bir stəkan" su nəzəriyyəsi yerlərdə fərqli şəkillərdə yozulurdu.

Ona görə də müsəlmanlar bolşeviklərlə əməkdaşlıq etmək istəmirdilər. Zaqafqaziya Komissarlığı ləğv edildikdən sonra, yəni 1918-ci il mart ayının sonlarında yaradılmış Zaqafqaziya

Seyminə tabe olan İctimai Təşkilatların İcraiyyə Komitəsi bölgəni idarə edirdi.

Bakı və Şamaxıda erməni-rus birləşmiş silahlı qüvvələrini müsəlmanlara qarşı törətdikləri soyqırımdan, mal-mülklərinin talan edilməsindən xəbər tutan Əli bəy Zizikski soydaşlarına kömək etmək istəyir. Bacıları -Urma- xanımın əri Şıxlar bəy və qardaşları, Səadət xanımın əri, Dağıstanın məşhur imamı Nəcməddin Qotsinski və Həmdulla Əfəndi Əfəndizadə ilə məsləhətləşərək başçılıq etdikləri özünümüdafiə dəstələri ilə dindaşlarını xillas etmək üçün Bakıya doğru irəliləyirlər. Əhməd Triniçin daxil olduğu müsəlman silahlı dəstəsi də onların arasında olur (**Rüstəmova-Tohidi, 2013:61).**



**Şək. 14 Nəcməddin Qotsinski dəstəsilə birlikdə**

Aprelin 8-də Xırdalan-Biləcəri xətti boyu gedən döyüşdə Qırmızı Qvardiyaçılar və Daşnaksutun (1890-cı ildə Tiflisdə erməni millətçilərindən R.Zoryan, X.Maneilyan və S.Zavaryanın əsasını qoyduğu Erməni İnqilabi Federasiyasının qısaldılmış adı – Ə.Ş.) Partiyasının silahlı dəstələri məğlub olub geri

çəkilir. Döyüşdə Əhməd Triniç cəsarəti və döyüş təcrübəsi ilə fərqlənir (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Bakı Soveti Sovet Rusiyasından hərbi yardım istəyir. Həştərxanda bolşeviklərin təsirində olan əsgər və matrosların bir hissəsi Xəzər dənizi vasitəsi Mahaçqalaya göndərilir. Oradan dəmir yolu ilə Bakıya doğru irəliləyirlər. Onların qarşısını kəsə biləcək güc olmadığından Nəcməddin Qotsinski Bakıya hücumu dayandırıb geriyə, dağlara doğru çəkilməyi məsləhət görür. Quba-Qusardan gəlmiş silahlı dəstələr də geri çəkilməli olurlar.

## Gelovaninin cəza dəstəsi Quba qəzasında

Bakı Soveti hakimiyyəti tam ələ almaq üçün şəhəri ərzaq və xammalla təmin etməli idi. Bunun üçün ətraf qəzalardan silah gücünə də olsa ərzaq toplamağı qərara aldı. Quba qəzasını dinc yolla özünə tabe etməyə çalışdı. Oraya göndərdiyi nümayəndələri uğursuzluğa düçar oldular. Çünki xalq bolşeviklərin hakimiyyətini heç cür qəbul etmək istəmirdi.

Dinc yolla Quba qəzasının tabe olmayacağını gördükdə gürcü knyazları nəslindən olan, 30 yaşlı David Gelovanini silahlı dəstə ilə birlikdə komissar təyin etdi.

David Gelovaninin Azərbaycan Cümhuriyətinin təşkil etdiyi Fövqəladə İstintaq Komissiyasına verdiyi izahatdan aydın olur ki, onun bölşeviklərlə elə bir bağlılığı olmayıb. Moskvada Ali Tibb Məktəbində oxuyarkən sosial-demokrat menşeviklərlə əməkdaşlıq etdiyinə görə sürgünə göndərilib. 1918-ci ilin başlarında qohumları ilə görüşmək üçün Qafqaza gəlib. Qarışıqlıq olduğundan Rusiyaya dönməyib. Bakıda olarkən Bakı Sovetinin rəhbərlərindən biri, milliyətcə gürcü Alyoşa Caparidze onu milis müfəttişi vəzifəsinə təyin edib.

David Gelovaninin yazdığına görə, Bakıda mart hadisələrindən sonra tamamilə başqa bir tapşırığı yerinə yetirmək üçün Xaçmaz dəmir yolu ilə hərəkət edən 2 minlik əsgəri birliyə rəhbərlik etməyə göndərilib. Bu eşalondakıların da əksəriyyətini ermənilər imiş. Fövqəladə İstintaq Komissiyasına verilmiş başqa ifadələr isə David Gelovaninin cəzada yaxa qurtarmaq üçün yalan danışdığını göstərir.

Fövqəladə İstintaq Komissiyasına qubalıların verdiyi ifadədən aydın olur ki, Xaçmaza və Quba ətrafına çoxlu əsgər və zabitin toplanması, hərbiçilərin dəmir yolu boyundakı kəndləri soyması insanları çox narahat edib. Qubalılar öz nümayəndələrini – "müstəntiq Manuylovu, yəhudi Nuvax Ağababayevi və Şükür Babayevi bolşeviklərin hansı məqsədlə Qubaya gəldiklərini öyrənmək üçün" Xaçmaz stansiyasına göndəriblər. Lakin onlar dəqiq bir xəbər gətirmədikləri halda David Gelovani müavini Mir Cəfər Bağırov (Bir neçə ay öncə Əli bəy Zizikskinin köməkçisi olan Mir Cəfər Bağırov indi Bakı Sovetinin bölgəyə göndərdiyi cəza dəstəsinin rəhbəri David Gelivanın müavini kimi Qubaya gəlir.), iki gəlmə yahudi və 187 silahlı əsgər və zabitlə (12-si erməni, bir neçəsi yəhudu, qalanı rus olan bu dəstəyə 200 nəfərə yaxın yerli yəhudi də qoşulur) aprelin 21-də Qubaya gəlir. O, qubalılara iki saat vaxt verir ki, Bakı Sovetinin hakimiyyətini tanısınlar. İki saatda belə bir ciddi ultimatuma cavab istənməsinin özü ağılasığmaz idi **(Rüstəmova-Tohidi, 2013:62).**

Buna baxmayaraq David Gelovani 1918-ci il aprelin 23-də Qubanın şəhər meydanında təntənəli surətdə Sovet hakimiyyətinin qurulduğunu, özünün də Qəza Hərbi İnqilab Komissarı olduğunu elan edir. Vəzifəyə başlayan kimi də göstəriş verir: "1 milyon rubl vergi toplansın!". Həmin günlərdə Bakı-

dakı bolşevik qəzetləri “zəhmətkeşlərin bu hadisəni böyük ruh yüksəkliyi ilə qeyd etdiklərini” yazır. David Gelovani Mir Cəfər Bağırovla birlikdə Quba şəhərində və yaxın kəndlərdə inqilab komitələri – revkomlar təşkil edir, öz bildikləri kimi “qayda-qanun” yaradır, qəza idarələrini ələ keçirir, yerli Qırmızı Qvardiya hissələri yaratmağa başlayırlar. Müzəffər Məlikməmmədov şahid ifadələrinə dayanaraq yazır: “Quba məscidinin qarşısında camaatı başına yığaraq dedi (söhbət David Gelovanidən gedir – Ə.Ş.) ki, müsəlmanlar erməniləri qırır. Ona görə Qubaya qayda-qanun yaratmağa gəlmişik. Bu vaxt həm şiələrdən, həm də sünnilərdən müsəlmanlar etiraz etmişlər: Qubada elə bir şey yoxdur, bunlar yalandır. Molla Şaban daha cəsarətlə etirazını bildirdiyində Gelovani onu yerindəcə güllələyib. Qorxuya düşən camaat deyib ki, sənin şərtlərinə razıyıq, təki qan tökülməsin.

Qubalılar şərtə əməl etsələr də, komandir sözünə əməl etmir. Gecə ikən molla Şabanın evini odlayırlar. Arvadı və iki qızı od tutub yanır, güclə canını qurtaran oğlunu güllə ilə arxadan vururlar. Səhəri gün Şabanın üçkünlü iki qohumu komandirin yanına şikayətə gedir. O, deyir ki, bu məsələdən xəbəri yoxdur. İki gün sonra bir neçə adam evi odlamış qatili Gelovaninin yanına gətirir. Həmin erməni boynuna alır ki, bu işi əsgərlərin göstərişi ilə edib. Şabanın külfətinə güllə atan isə başqa ermənidir. Komandir onların hamısını həbs edir. Gecə ermənini həbsdən buraxırlar. Şikayətə gəlmiş 7-8 adamı isə Qudyal çayın sahilində güllələyirlər” (**Məlikməmmədov M., 2009:38**).

David Gelovani məscidin qarşısındakı çıxışında “müsəlmanlar erməniləri qırır” deyib. Həqiqətdə isə vəziyyət necə idi. Qubada ermənilərin sayı az olsa da çar hökuməti erməni-

lərin varlanması, Qafqazda güclü bir etnosa çevrilməsi üçün hər cür şərait yaratmışdı. Qubanın azsaylı ermənilərі də 1917-ci ildə "Həmrəylik" adlı bir təşkilat yaratmışdılar. Buraya sənayeçi Qriqori Poqasyan, tacir Karapet Vartanyan, balıq vətəgəsi sahibi Vartan Avakov, dəyirman sahibi Harutyun və b. daxil idi. Vartan Avakovun ətrafında 200 yaxın silahlı erməni vardı. Onlar qayda-qanuna əməl etmir, gah müsəlmanların, gah ermənilərin evlərini yandırır, bir sözlə xristian müsəlman qarşıdurması yaradırdılar.

Müzəffər Məlikməmmədov yazır ki, Vartan Avakov ətraf kəndlərdən topladığı 100-ə yaxın müsəlman gəncini balıq vətəgəsində işlətmək adı ilə Nabrana aparır. Orada həmin gəncləri işgəncə ilə öldürtdürür (**Məlikməmmədov M., 2009:36**).

Qubada David Gelovaninin rəhbərlik etdiyi silahlı dəstə yetərincə qəddarlıq etdiyinə baxmayaraq o əlavə qüvvə göndərilməsini istəyir. Fövqəladə İstintaq Komissiyasına verdiyi izahatında yazır ki, "Xaçmazdan köməyimizə poruçik Ağacanyanın başçılığı ilə ancaq ermənilərdən ibarət 150 nəfərlik dəstə və 2 top gəldi" (**Məlikməmmədov M., 2009:38**).

Bölgənin özünümüdafiə dəstələri 8 gün sonra Qubanı işğalçılardan azad etmək üçün hücuma keçirlər. Üç gün davam edən döyüşdə David Gelovaninin dəstəsindən 27 nəfər öldürülür, qalanları Qubada duruş gətirə bilməyib yolları üzərindəki müsəlman kəndlərini talayaraq Xaçmaza çəkilirlər. Mir Cəfər Bağırov da məhkəmədə bu faktları bir az fərqli şəkildə olsa da təsdiqləyir. Əli Abbas bəy Əlibəyov isə Fövqəladə İstintaq Komissiyasına yazdığı izahatda bu döyüşlər zamanı ən azı 70 dinc sakinin öldüyünü qeyd edir.

Araşdırıcı jurnalist Müzəffər Məlikməmmədov yazır: "Ermənilər rus əsgərlərinin köməyi ilə Qubada bir dəfə deyil,

dörd dəfə qırğın törətmişlər. Buraya özünü bolşevik kimi qələmə verən, 2000 əsgərə başçılıq edən David Gelovanidən başqa, bolşevik Strua da gəlmişdir. Onun dəstəsində 1000 əsgər var idi. Onlardan əvvəl Muradyanın (sonralar o ikinci dəfə bolşeviklərlə birlikdə Qubaya qayıtmışdı) komandanlıq etdiyi 2000 erməni əsgəri Quba qəzasında qırğın törətmişdir. Həmin dəstə Birinci Dünya Müharibəsində (1914-1918-ci illər) özünü rus çarizminin ən yaxşı müttəfiqi kimi qələmə verən Daşnaksutun partiyasının əsgərlərindən ibarət idi. Bu əsgərlər cəbhəyə getmək əvəzinə Xaçmazda müsəlmanlardan qisas almışdılar". **(Məlikməmmədov M., 2009:14).**

"Gelovani Qubadan qovulanda əhalini hədələmiş, tezliklə buraya ermənilərin xüsusi təlim görmüş cəza dəstələrinin gələcəyini bildirmişdir" (**Məlikməmmədov M., 2009:38).**

Müzəffər Məlikməmmədov yazır ki, Gelovani Bakıya qayıtmaq niyyətində idi. Amma ermənilər qoymadılar. İnandırdılar ki, Dərbəndə getmək, yeni qüvvə toplayıb Qubaya qayıtmaq lazımdır. Gelovani özü də izahatında Dərbəndə getdiyini deyir. Əslində isə oraya çata bilmir. Çünki Dərbəndə çatmağa 25-30 kilometr qalmış, indiki Bilici qəsəbəsi yaxınlığında məşhur ləzgi qaçağı Hacı Əfəndinin dəstəsilə üzləşir... Gelovani Hacı əfəndinin və məhərrəmkəndli Əbdürrəhim əfəndinin birləşmiş dəstələri ilə döyüşdə böyük təlafat verərək (təxminən 1200 əsgər öldürülmüşdür) eşalonla geri qayıtmağa məcbur olur (**Məlikməmmədov M., 2009:37).**

David Gelovani Qubada müsəlmanların erməni silahlı dəstələri və Rusiyanın hərbiçiləri tərəfindən qədddarlıqla öldürülməsinə, evlərinin yandırılmasına, mal-mülklərinin müsadirə olmasına rəhbərlik etsə də Azərbaycan Cümhuriyyəti tərəfindən cəzalandırılmır. 1919-cu ilin oktyabrına qədər Əmək

Müfəttişliyində işləyir, ilin sonunda isə erməni Sərkis Terunts onu Sabunçu vağzalı yaxınlığında güllələyir.

## Qubada Hamazasp (Amazasp) Srvandzyanın törətdiyi qırğın

1918-ci il aperlin 25-də Stepan Şaumyan rəhbərliyi ilə oyuncaq Bakı Kommunası adlı hökumət qurulur. Yeni hökumət Rusiya ilə əlaqəni möhkəmləndirmək, Quba qəzasını özünə tabe etmək üçün 800-1000 nəfərlik silahlı dəstəni 3-cü Briqadanın komandiri Hamazaspın rəhbərliyi ilə zirehli qatarla Xaçmaza göndərir. Əsasən ermənilərdən təşkil edilmiş bu silahlı dəstə Bakıdan Xaçmaza, oradan Qubaya gedənədək yolüstü müsəlman kəndlərinə basqın edir, dinc əhalini qırır, evləri talayır, yandırır, qadın və qızlara təcavüz edir.

Müzəffər Məlikməmmədov Hamazaspın başçılıq etdiyi əsgərlər və onların silahları haqqında yazır: "Müşahidəçilər (özünümüdafiə dəstəsinin – **Ə.Ş.**) bildirdilər ki, erməni qoşunlarında 7 top, 10 pulemyot və 3000 təpədən dırnağa silahlanmış əsgər var. 200 nəfərdən çox adam atlıdır (Arxiv sənədlərində 2000-dən çox erməni, 4 top, 8 pulemyotla gəldikləri göstərilir, atlılar barədə məlumat verilmir) (**Məlikməmmədov M., 2009:39**).

Hamazasp silahlı dəstəsinə bələdçilik edən Hartun Hayrapetə bir siyahı verir. Həmin siyahıda Əli bəy Zizikskinin, Məhəmməd Qayıbalıyevin, Nurəli Həsənbəyovun, Bəkər Məhərəliyevin, Əhməd əfəndinin (Triniçin – Ə.Ş.), Qazı Əhməd bəy Məhəmmədbəyovun, Qafar Orucovun, Yusif bəy Abusalmanbəyovun, İsgəndər Allahverdiyevin, Mirzə Məhəmmədin, Mahmud Qazıbəyovun, İbrahim bəyin və b. adı var idi. Ha-

mazasp adları siyahıda olanları meydanda hamının gözü qarşısında güllələmək istəyirmiş (**Məlikməmmədov M., 2009:40**).

Müzəffər Məlikməmmədov yazır: "Hamazaspın dəstəsi Qubanın girəcəyindən tutmuş yuxarı hissəsinədək şəhəri odlamağa başladı. Daşnaqlar küçədə qarşılarına çıxan bütün adamları ucdantutma gülləyə tutur, yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüsü ilə dəlik deşik edir, gözlərini ovurdular. Əhali küyə düşmüşdü. Yaxındakı meşələrə qaça bilməyənlər evlərə girib qapıları bağlamışdılar. Ama onları zorla çıxarır, yerindəcə güllələyir və yaxud qabaqlarına qatıb meydana aparırdılar. Bir neçə saatın ərzində yüzlərlə adam qətlə yetirilmişdi (**Məlikməmmədov M., 2009:40**).

Fövqəladə İstintaq Komissiyasının sənədlərində Hamazaspın Qubada törətdiyi qırğın haqqında yazılıb: "Biz bolşevikləri görməmişik, amma onları kim görübsə, danışır ki, onlar yalnız ermənilərdən, yəhudilərdən və bir neçə rusdan ibarət idilər, kəndləri isə ancaq ermənilər yandırırdılar".

"Şəhərin alınması müsəlman əhalinin qırğını və müxtəlif cür zorakılıqlarla müşayiət olunurdu… Elə birinci gün, şəhərin aşağı hissəsində əksəriyyəti qadın və uşaqlar olan 715 müsəlman öldürüldü. İkinci gün şəhərin 1-ci və 2-ci hissələrində, 1012 nəfər – əksəriyyəti şəhərin kasıb təbəqəsindən və iranlı təbəələrdən ibarət olan kişilər qətlə yetirildi, müsəlmanların əmlakı talan olundu. Aparılan hesablamalara görə, Hamazaspın dəstələri yalnız şəhərin özündə dörd milyon rubl nağd pul, dörd milyon yarım rubl dəyərində qızıl, qızıl əşyaları və qiymətli daşlar, iyirmi beş milyon rubl dəyərində müxtəlif mallar və ərzaq aparıblar. Bundan əlavə, Quba şəhərində yüz beş ev və tikili, həmçinin müsəlman idarələrinin yerləşdiyi binalar

yandırılmışdı. Yanğınlar nəticəsində zərərçəkənlərə yüz milyon rubl həcmində ziyan vurulmuşdu.

Meyidlərin dəfn edilməsi ilə bağlı şəhər rəisi Əli Abbas bəy Əlibəyov dəfələrlə Hamazaspa müraciət etsə də rədd cavabı alırdı. Yalnız dördüncü gün erməni carçılar müsəlman kişiləri qollarında ağ sarğı ilə çıxmağa və meyidləri basdırmağa çağırdılar. Şəhərin bir çox sakinləri bu çağırışa cavab olaraq bayıra çıxdı, lakin onlardan heç biri geri qayıtmadıqdan – hamısı güllələndikdən sonra – camaat yenidən gizləndi. Basdırılmayan və yeni öldürülənlərin meyidləri ermənilər gedənə qədər, yəni 9 gün küçələrdə qaldı.

Hamazasp yalnız insanları qəddarlıqla öldürməsi ilə yaddaşlarda qalmayıb. O, həm də müsəlmanlar arasında nifaq salmaq üçün müxtəlif üsullardan istifadə edib. Onun silahlı dəstələrinə bələdçilik edən Quba ermənisi meydana yığılmış müsəlman kişilərini sünni və şiə qruplarına ayırıb üz-üzə qoyur. Sonra da onlara deyir ki, sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyir tüfəngi götürüb qarşıdakı adamları güllələsin. Onların əmrini yerinə yetirmədiklərinə, əllərinə keçmiş imkandan istifadə edərək bir neçə düşmən əsgərini güllələdiklərinə görə sünni Məhəmmədin qollarını kəsirlər. Sonra ayaqlarını, başını kəsib süngüyə keçirirlər və hamı görsün deyə yuxarı qaldırırlar. Şiə Məşədi Mirsadığın gözlərini çıxarıb qollarını sındırır və boynunu qırırlar. Quranı və başqa din kitablarını toplayıb tonqalda yandırırlar (**Məlikməmmədov M., 2009:47**).

Şahid ifadələrində deyilir ki, Hamazasp Qubaya gələndə elan etdi ki, mən buraya qayda-qanun yaratmaq, Sovet hakimiyyətini qurmaq üçün deyil, öldürülən ermənilərin qisasını almaq üçün gəlmişəm. Mənə əmr etmişlər ki, dənizdən Şah-

dağına kimi bütün müsəlmanları məhv edim (**Məlikməmmədov M., 2009:47**).

Rusdilli sənədlərdə adı Amazasp kimi yazılan Hamazasp Srvandzyan müsəlman kəndlərinin dağıdılmasında, əhalinin qəddarlıqla öldürülməsində, evlərinin yandırılmasında xüsusi fəallıq göstərmişdir.

1870-ci ildə Vanda doğulan Hamazasp gəncliyindən erməni millətçilərinə qoşularaq silahlı dəstələr yaradılmasında fəal iştirak etmişdir. 1905-07-ci illərdəki erməni-müsəlman toqquşmalarında dinc əhaliyə divan tutması ilə yadda qalan Hamazasp Birinci Dünya Savaşında Rusiyadan dəstək alıb silahlı dəstə yaradaraq Osmanlı dövləti ərasizində təxribat yaratmış, dinc əhalini qırmışdır. Osmanlının nizami ordusu ilə qarşılaşanda isə Qafqaza qaçmış Yelizavetpol (Gəncə), Erivan quberniyalarında müsəlman kəndlərini məhv etmişdir. 1918-ci ildə Bakıya gələrək Stepan Şaumyanla əməkdaşlıq etmiş, Bakıda, Şamaxıda, Qubada qırğınlar törətmişdir.

Qafqaz İslam Ordusuna qarşı döyüşən Hamazasp 1918-ci il sentyabrın 15-də Bakı uğrunda gedən döyüşlərdə məğlubiyyətin labüdlüyünü görərək əsgərlərini başsız qoyub İrana qaçmışdır. Oradan Ermənistana-Ararat Respublikasına qayıtmış, Nor Bəyazid qəzasında Ermənistan ordusunun komandiri təyin olunmuşdur. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra həbs edilmiş, 1921-ci ilin fevralında İrəvan həbsxanasında erməni kommunistlər tərəfindən öldürülmüşdür (**Rüstəmova-Tohidi, 2013:98**).

Hamazaspın başçılığı ilə Qubaya göndərilmiş silahlı dəstənin tərkibində olan Mir Cəfər Bağırov nəinki soydaşlarını qoruya bilmiş, hətta yaxın qohumları güllələndə də susmuşdur.

Əli bəy Zizikskinin və Həmdulla Əfəndi Əfəndizadənin rəhbərlik etdiyi silahlı dəstələrin (burada Əhməd Triniçin rəhbərlik etdiyi silahlı dəstə də olub – Ə.Ş.) köməyə gəlməsi və milli qüvvələrin toparlanması döyüşün gedişini dəyişmiş, Qusarla-Quba arasındakı döyüşdə erməni-bolşevik hərbi birləşmələri böyük itki vermişlər. Buna görə də sonralar o yer xalq arasında Qanlı dərə adlandırılıb.

Əhməd Triniç Quba-Qusar bölgəsində 1918-ci ilin aprel-may aylarında könüllü özünümüdafiə qüvvələrinin komandirlərindən biri olub.

## Əhməd Triniç və Qarabəy Qarabəyov

Əhməd Triniçin Qarabəy Qarabəyovla ilk tanışlığı haqqında bilgi əldə edə bilmədik. 1936-cı ildə KQB müstəntiqinin sualına cavab verərkən Əhməd Triniç bildirir ki, faytonla Axtıya gedən, "İttihad" partiyasının sədri, doktor Qarabəy Qarabəyovla Qubada görüşüb. Lakin nə söhbət etdiklərini demir. Nədənsə müstəntiq də bu mövzuda suallar vermir. Rusiya xüsusi xidmət orqanları ilə əməkdaşlıq etmiş, 1911-ci ildə Bakıda bir qrup jurnalistin həbsinə şərait yaratmış, Sovet hakimiyyəti illərində də KQB ilə əməkdaşlıq etdiyini söyləyən Qarabəy Qarabəyovla Əhməd Triniçi hansı tellər bağlayıb? Nədən Bakıya gələndə onu qarşılayıb, mehmanxanada yerləşdirən, dolanışığını təmin edən Məhəmmədəmin Rəsulzadənin rəhbərlik etdiyi partiyaya deyil, 1919-cu ilin əvvəllərində "İttihad" Partiyasına daxil olub, partiyanın katibi vəzifəsinədək yüksəlib? **(Dadaşov A.,** 2012)

İzahatlarından belə anlaşılır ki, Əhməd Triniç 1918-ci ilin aprel-may aylarında uzun zaman Quba-Qusar-Dərbənd bölgəsində qalmayıb. Axtıya gedib, orada yenə də "Türk za-

bitləri ilə yeni hökumət yaratmış Ruşeni bəy"lə qarşılaşıb. Ruşeni bəyin türk zabitləri ilə yaratdığı yeni hökumət haqqında da aydın bilgi əldə edə bilmədik. Əhməd Triniç ifadəsində deyir ki, Axtı şəhərinin rəhbəri Səbri bəy mənə "Səni burada casus sayırlar və öldürə bilərlər", dedi. Bu söhbətdən sonra Şəkiyə, oradan da Gəncəyə getdim" **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

## Əhməd Triniç Gəncədə

Qafqaz müsəlmanlarının çoxsaylı xahişindən sonra Osmanlı hökuməti Qafqaz İslam Ordusu yaradıb və Nuru Killigilə (1881-1941) paşa rütbəsi verərək orduya komandan təyin edib. Yeni yaranmış ordunun İstanbuldan gəmi ilə Batuma, oradan da dəmir yolu ilə Azərbaycana gəlməsinə Tiflisdəki Zaqafqaziya Seymi və dəmir yoluna nəzarəti əlinə almış Alman komandanlığı icazə verməyib.

Mehman Süleymanov "Nuru Paşa" (2008) kitabında yazır ki, Nuru Paşa 1918-ci ilin mart ayının ikinci yarısında Azərbaycana doğru hərəkətə başladı. Martın 25-də onun heyəti Mosul şəhərinə çatdı. Mosuldan hərəkət edən əsgəri birlik ərzaq problemi ilə üzləşsə də, çətin yolları keçərək Rəvandüzə gəlir. Oradan Pesva-Savuqbulaq-Təbriz-Alacücə yolu ilə Naxçıvana keçir. Erməni silahlı dəstələrinin yollarda qurduğu pusqulardan, yaz yağışlarının çaylarda yaratdığı daşqınlardan keçərək Qarabağa, Cəbrayıl-Ağdam-Tərtər yolu ilə Yevlağa gəlib çıxır. Mosuldan çıxdıqları vaxtdan iki ay sonra, yəni may ayının 25-də Gəncəyə çatırlar **(Süleymanov, M. 2008).**

Həbsxanada Əhməd Triniçlə eyni kamerada yatan (müstəntiqə verdiyi ifadə məndə bu qənaət yaratdı ki, onu bilərəkdən Əhməd Triniçin kamerasına salıblar ki, söz alsınlar. –

Ə.Ş.) kommunist Əmrəli Dəmirov 1936-cı il sentyabrın 10-da istintaqa verdiyi ifadədə deyir ki, Əhməd Triniç Gəncədə Nuru Paşa və onun ordusu üçün möhtəşəm bir qarşılama mərasimi təşkil etdi və xalqa üzünü tutaraq dedi: "Bax, çoxdan gözlədiyimiz Nuru Paşa gəldi, artıq müsəlmanları qoruyan gəlib çıxdı". "Müstəntiq:

– Əhməd Triniç sizə öz işi haqqında nə danışırdı?

Cavab:

– Əhməd Triniç danışırdı ki, onu Azərbaycanda sovetləşmə dövründə xeyli erməni və bir kommunisti qətlə yetirməkdə günahlandırırlar. Müttəhim həmçinin sözünə davam edərək qeyd edirdi ki, Əhməd Triniç 1918-ci ildə onu da həbs etdirmək istəyib. Lakin biləndə ki, mən bolşevikəm, ona görə də həbs etməyib", "müstəntiqsə bu hadisəni Əhməd Triniçə xatırladanda o, belə cavab vermişdi: "Bu 1918-ci il yox, 1919-cu il olub. Əgər o mənə desəydi ki, bolşevikdir, mən onun dilini boğazından çıxardardım" (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**, s.169).

Nuru Paşa doktor Qarabəy Qarabəyovu özünə müşavir, Əhməd Triniçi yavər təyin edir.

Faktlar bunu deyir. Amma cavabsız suallar yaranır. Nuru Paşanın Gəncəyə gələcəyini Əhməd Triniç haradan bilirdi? Qarşılanma mərasimini təşkili nədən ona tapşırılıb? Nuru Paşa ilk gördüyü adamlardan birini müşavir, o birini yavər təyin edirsə bunlar haqqında bilgisi haradan idi?

Qafqaz İslam Ordusu komandirlərinin bir neçəsi geniş xatirələrini yazıblar. Həmin xatirələrdə də Əhməd Triniçin Gəncədəki fəaliyyəti haqqında bilgiyə rast gəlmədim. Uzun müddət istintaq təcridxanasında saxlanan, uzun-uzadı sorğu-suala tutulan Əhməd Triniçə müstəntiqlər bu mövzuda sual

verməyiblər. Buna görə də onun həyatının həmin dövrünə aydınlıq gətirə bilmədim.

## Əhməd Triniç ikincə dəfə Qubada

Nuru Paşa Gəncəyə gələndə şəhər demək olar iki yerə bölünmüşdü: Gəncə çayın sol sahilində müsəlmanlar, sağ sahilində – İkinci hissə adlanan yerdə ermənilər yaşayırdı. Şəhərin İkinci hissəsi, eləcə də Gəncəbasardakı erməni kəndləri silah və hərbi sursatla təmin edilmişdi. Yaxşı silahlandırılmış erməni dəstələri sadəcə özlərini qorumurdular, basqınları və hədələri ilə bölgənin həyatını iflic vəziyyətinə salmışdılar. Gəncədən 5-6 kilometir aralıdakı Helenedorf (Yelenedorf) qəsəbəsində, topları, pulemyotları olan alman silahlı dəstələri də onlara kömək edirdi. Gürcülər Yelzavetopl (Gəncə) quberniyasının bəzi binalarına Almaniyanın bayrağı ilə yanaşı öz bayraqlarını da asmışdılar.

Nuru Paşa bölgədə sabitliyə nail olmaq üçün öncə İkinci hissədəki erməni silahlılarının rəhbərləri ilə danışığa öz nümayəndələrini göndərdi. Bu çox təhlükəli bir addım idi. Azərbaycan türkləri Nuru Paşaya bildirdilər ki, ermənilər onun göndərdiyi nümayəndələri acımasızcasına öldürəcəklər. Vəziyyətin ağır olduğunu bilsə də Nuru Paşa hərbiçi kimi hərəkət etdi. Danışıq aparmadan, dinc əhalini xəbərdar etmədən erməni silahlı dəstəsinin üzərinə hücum etmək haqqında əmr vermədi.

Danışığa göndərdiyi nümayəndələrini öldürüldüyünü biləndən sonra İkinci hissəyə hücum etməyi planladı. İlk hücum uğursuz alındı. Osmanlı əskəri birliyi şəhərin doğusundakı Gəncə düzündə hücuma keçməli oldu. Yaşayış binalarını, küçə və meydanları möhkəmləndirilmiş səngərə çevirən erməni

hərbiçiləri Osmanlı əsgərlərini tələfat verərək geri çəkilməyə məcbur etdilər.

İkinci hissənin güneyindəki Helenedorf (Yelenedorf) qəsəbəsində yaşayan almanlar da güclü özünümüdafiə dəstəsi yaradıb özlərini qoruya bilirdi. Onlar sadəcə yaşadıqları qəsəbəni qorumurdular. Ətraf kəndlərdəki erməni silahlı dəstələrinin Gəncənin ermənilər yaşayan məhəlləsinə köməyə gəlmələrinə şərait yaratmış olurdular. Belə bir vəziyyət Nuru Paşanın İkinci hissəyə hücum imkanlarını məhdudlaşdırırdı. Odur ki, Nuru Paşa alman koloniyasının rəhbərləri ilə danışıqlar aparıb onların silahlı dəstəsini tərəfsizləşdirdi. Bundan sonra bir neçə yerdən erməni silahlı dəstələrinin üzərinə hücuma keçdi. Onun ikinci hücumu uğurlu alındı. Məğlub olmuş erməni silahlıları pərakəndə halda qaçıb canlarını qurtarmağa çalışdı. Erməni silahlı dəstələrini var gücü ilə müdafiə edənlərin bir çoxu da onlarla birlikdə qaçaraq ətrafdakı erməni kəndlərinə sığındılar **(Süleymanov, M., 2014)**.

Gəncədə sabitlik yaratdıqdan sonra Nuru Paşa yarbay (podpolkovnik) İsmail Haqqı bəyi (Berkuk) kiçik bir dəstə ilə Şəki-Zaqatala bölgəsindəki erməni silahlı dəstələrini tərksilah etməyə göndərdi. Təcrübəli hərbiçi yaxşı bilirdi ki, Osmanlı əsgəri birliyi və yerli özünümüdafiə dəstələri Bakıya doğru irəliləyəndə Şəki-Zaqatala, Qutqaşen-Vartaşen bölgəsindəki erməni silahlı dəstələri onlara arxadan hücuma keçəcək.

İsmail Haqqı bəy (Berkuk) qısa bir zamanda əsirlikdən xilas olan Osmanlı zabit və əsgərlərindən, eləcə də yerli könüllülərdən təşkil edilmiş kiçik dəstələri birləşdirib bölgədəki erməni silahlı dəstələrini və rusiyapərəst qüvvələri darmadağın etdi. Yerli ermənilər gücünə çox güvəndikləri erməni silahlı dəstələrinin və Rusya ordusunun tör-töküntülərinin Osmanlı

əsgəri birliklərinin qarşısında duruş gətirə bilmədiklərini gördükdə qorxuya düşüb ev-eşiklərini, var-dövlətlərini qoyub pərakəndə şəkildə qaçmağa başladılar.

1920-ci ildə bolşeviklərin Azərbaycanı işğalından sonra Osmanlı ordusuna, Osmanlı əsgər və zabitlərinin Azərbaycandakı fədakarlığına qarayaxma kampaniyası başlanmışdı. Mətbuat üçün bu mövzu yasaqlanmışdı. Hadisələrin şahidi olanların xatirələrini danışması belə antisovet təbliğatı kimi qiymətləndirilirdi. Buna baxmayaraq bölgənin yaşlı sakinləri, hətta 1970-ci illərdə belə inandıqları, etibar etdikləri adamların yanında İsmail Haqqi və Əhməd Triniç haqqında danışırdılar.

Bolşeviklər silah gücünə hakimiyyəti ələ alsalar da dağılmış iqtisadiyyatı qura bilmirdilər. Çökmüş iqtisadiyyatı dirçəltmək üçün neftə ehtiyac vardı. O dövrdə də Rusiyanın neftə tələbatını Bakı ödəyirdi. Ona görə də Güney Qafqazda hakimiyyətin kimin əlində olmasına o qədər əhəmiyyət verməsələr də Bakının mütləq onların əlində olmasını istəyirdilər. Həştərxandan dəniz vasitəsilə, Quzey Qafqazdan dəmir yol vasitəsilə Bakı Kommunasına əsgəri güc, silah, hərbi sursat göndərirdilər.

Nuru Paşa Bakı Kommunasına quru yoluyla kömək gəlməsini əngəlləmək üçün bir hərbi dəstə yaradır. Onun başına da yarbay (podpolkovnik) İsmail Haqqını təyin edir (**Süleymanov, M., 2014**).

1918-ci il mayın 11-də Dağıstan və Şimali Qafqaz xalqları da öz müstəqilliklərini elan etmişdilər. Lakin bu müstəqillik formal xarakter daşıyırdı. Onların elə böyük hərbi gücü yox idi. Yaratdıqları özünümüdafiə dəstələrini bir mərkəzdən idarə edilən orduya çevirə bilməmişdilər.

Əmrində olan zabitlər və əsgərlərlə birlikdə Şəkidən Axtıya keçən İsmail Həqqi (Berkuk) 1918-ci il iyunun 21-də Mahaçqalanı rus-erməni birliklərindən azad edir. Yerli əhali qarşısındakı çıxışında xalqı bolşeviklərə qarşı mübarizəyə səsləyir.

Osmanlı hərbiçilərinin gəlməsinə baxmayaraq Mahaçqala-Dərbənd-Bakı dəmir yolu, Quba və Teymurxanşura hələ də bolşeviklərin, eser və menşeviklərin təsirindən qurtara bilmirdi. Çar idarəçiliyini müdafiə edən keçmiş rus zabitlərinin yaratdıqları əsgəri birliklər də bölgədə ağalıq edirdi.

Nuru Paşa Bakının alınmasını planlaşdırarkən oraya Rusiyadan silahlı dəstələrin gələ biləcəyini əngəlləmək və şəhəri mühasirəyə almaq məqsədilə Nuxa (Şəki)-Axtı yolu ilə Qusara hərbi birliklər göndərir. Bu birliklərin tərkibində Əhməd Triniç də olur. Bölgənin nüfuz sahiblərindən Əli bəy Zizikskini, Həmdulla əfəndi Əfəndizadəni yaxından tanıyan Əhməd Triniçin göndərilməsi uğurlu seçim olur. İsmayıl Haqqı bəyin Qafqaz İslam Ordusu komandanlığına 1918-ci il avqustun 3-də Qunibdən göndərdiyi raportda yazıb: "Əvvəlcə təminat altına alınmış Axtı, Quba, Qasımkənd məntəqələrindəki milli qüvvələrlə 27.07.1918-ci ildə Quba üzərinə hərəkat başladı..." **(Türkər, 2008:128).**

Lakin burada tam aydınlıq gətirə bilmədiyimiz məqamlar da var. Əhməd Triniç ikinci dəfə Qubaya hansı vəzifədə, hansı rütbədə gəlib?

## Əhməd Şükrü Paşa Əhməd Triniçdirmi?

Bakını bolşevik-erməni işğalından azad etmək üçün irəliləyən Qafqaz İslam Ordususunun komandirlərindən qaimməqam Rüştü Türkər "Qafqaz Türk İslam Ordusu Bakı yollarında" kitabında bir neçə dəfə Şükrü bəydən söz açmışdı. Musta-

fa Görüryılmaz "Türk Qafqaz İslam Ordusu və ermənilər (1918)" kitabında Akdes Nemət Kurata (Türkiyə və Rusiya, Ankara, 1990, səh 487) dayanaraq yazır ki, "Ənvər Paşa, türk əsgərinin Dağıstana girməsindən əvvəl bəzi məsələlərin həllinin başa çatdırılmasının zəruriliyini bildirərək, bölgədə yaşayan türklərdən ibarət bir korpus yaradılmasının faydalı olacağını bildirmişdi" **(Görüryılmaz, 2009:308).**

Ənvər Paşanın təlimatına əsasən tədbirlər görülür. Mustafa Görüryılmaz yazır: "Quba və Xaçmazın qurtuluşu Şimali Qafqazda milli qüvvələr təşkil etmək üçün 1918-ci ilin may ayında hazırlıq işlərinə başlanmışdı. Bölgə əhalisindən bir piyada və bir süvari diviziyası ilə iki alay təşkil edilməsi nəzərdə tutulurdu. Dağıstan türklərindən qurulacaq bu hərbi birliklər üçün 6-cı Ordunun 6-cı diviziyası və 9-cu Ordunun 11-ci diviziyasından 74 zabit ilə 577 serjant və sıravidən ibarət bir "Təşkilat Diviziyası" qurulmuşdu. Yaradılacaq 4-cü piyada diviziyası komandanlığına, Şərq Cəbhəsindəki döyüşlərdə ruslara əsir düşən, ancaq Rusiyadakı bolşevik inqilabı və qarışıqlıqdan yararlanaraq qaçmağa müvəffəq olan polkovnik (albay) Əhməd Şükrü bəy gətirilmişdi. 1-ci süvari diviziyası komandanlığına isə polkovnik (albay) Akif bəy keçmişdi" **(Görüryılmaz, 2009:308).**

Buradan aydın görünür ki, Əhməd Şükrü elə Əhməd Triniçdir.

Mustafa Görüryılmaz yeni yaradılan hərbi birliklərin vəzifələrindən söz açarkən yazır: "Bundan əlavə, 1-ci süvari diviziyası komandanı podpolkovnik (yarbay) Nazim bəy və 4-cü piyada diviziyası komandanı yarbay Əhməd Şükrü bəy ilə qərargah kadrlarına Şimali Qafqazda, Dağıstan və Çeçenistanda

hərbi təşkilat qurmaq tapşırığı vermişdi" **(Görürıylmaz, 2009:212).**

Beşinci Qafqaz Piyada Firqəsinin komandiri, qaimməqam Rüştü Türkər də raportlarında iki dəfə Şükrü bəyin adını çəkir. Birinci dəfə kitabının 140-cı səhifəsində yazır: "Şimali Qafqazda, Dağıstanda işləməkdə olan əsir zabitlərimizdən, qaimməqam (yarbay) Şükrü bəydən alınan bir raportda: "Quba qəsəbəsini 03.08.1918-ci ildə tutaraq düşməndən üç makinalı tüfəng, 14 at, 500-ə yaxın tüfəng, 25000-ə yaxın piyada mərmisi, mətbəx əşyaları qənimət götürülmüşdür. Müsəlman bolşeviklərini də silah altına alaraq onlarla Xaçmaz üzərinə (Qubanın 28 kilometr şimal-şərqindədir) yürüş etdim və dəmir yolunu, Bakı-Dərbənd xəttini Xudat ətrafında qət edərək rusların keçib-getməsinə mane olmaqla Xaçmazın 8 verst yaxınındayam" bildirilməklə bu məsələ orduya raport edildi".

Qaimməqam Rüştü Türkər ikinci dəfə yazı: "Şimali Qafqazda və Xaçmaz ətrafında olan qaimməqam (yarbay) Şükrü bəylə əlaqə yaratmaq üçün şimala göndərilən firqənin əmr zabiti yüzbaşı Fəxri əfəndidən tarixi köhnəlmiş raport gəldiyindən orduya bunlardan bəhs edən raport verilirdi. (10 avqust)" **(Türkər Rüşdü Qaimməqam, 2008:140-144).**

Qaimməqam Rüştü Türkərin və Mustafa Görürıylmazın yazdıqları Əhməd Triniçin 1936-cı ildə KQB müstəntiqinin sualına verdiyi cavabla uyğun gəlir. Əhməd Triniç döyüşdə 200 əsir aldığını, onları savaş qanunlarına uyğun olaraq əsgərlərinin nəzarəti altında Axtı-Nuxa yolu ilə Gəncəyə göndərdiyini söyləyir.

Rüşdü Türkərin "Əsir zabitlərimizdən, qaimməqam Şükrü bəy" və Mustafa Görürıylmazın 4-cü piyada diviziyası komandanı, yarbay Əhməd Şükrü kimi tanıtdıqları komandirin

adı Mir Cəfər Bağırovun istintaq materialında Şükrü Paşa, Əhməd Şükrü, Əhməd Bedin kimi qeyd edilir.

Buradan aydın olur ki, Şükrü bəy də, Əhməd Şükrü də, Şükrü Paşa da eyni adamdır, yəni Əhməd Triniçdir. 1915-ci ildə hərbi məktəbi bitirib çavuş rütbəsi alan, sonra da Rusiyada əsir həyatı yaşayan, 1917-ci ilin sonlarında Bakıya gələn Əhməd Triniç necə ola bilir ki, qısa müddətdə yarbay, albay və paşa olub? Bu suala aydınlıq gətirə bilmədik. İkinci aydınlaşdıra bilmədiyimiz bir məsələ də onun Şükrü adı, və ya soyadı ilə görünməsidir. Şükrü nə atasının adıdır, nə də ləqəbi! Belə olan halda, nədən onu gah Şükrü bəy, gah da Əhməd Şükrü kimi yazırlar? Mustafa Görüryılmazın 4-cü piyada diviziyası komandanı, yarbay Əhməd Şükrü yazmasında da bir qarışıqlıq var. Belə ki, orada 4-cü piyada divizyası deyil, 4-cü alay ola bilərdi.

Onu müəyyənləşdirə bildik ki, İsmail Həqqi bəy isə rəhbərlik etdiyi əsgər və zabitlərlə 1918-ci il iyulun 8-də Şeyx Şamilin adı ilə bağlı olan Qunib qalasına gedib. Əhməd Triniç də 4-cü piyada alayın komandanı kimi Qubanı Bakı Kommunasının silahlı dəstələrindən təmizləyib.

## Quba-Xaçmazın təmizlənməsində Əhməd Triniçin rolu

Qaimməqam (yarbay) Rüştü Türkərə göndərilmiş raportdan aydın olur ki, Gəncədən irəliləyən Qafqaz İslam Ordusu Bakıya yaxınlaşıb döyüş mövqeyi tutanda, Əhməd Triniçin komandiri olduğu əsgəri birlik də Qusar qəsəbəsini tutub. Döyüşdə düşmənin dörd pulemyotu və xeyli miqdarda hərbi sursatı ələ keçirilib, bolşeviklərin bir bölüyü əsir alınıb. Bunun ardından Quba üzərinə yeriyərək, avqustun 2-də şəhəri bolşe-

viklərdən təmizləyib. Bolşeviklərin Xəzər dənizində olan gəmilərinin top atəşləri isə Xaçmazın düşməndən təmizlənməsini əngəlləyib. Qubanın alınması ilə bağlı Əhməd Triniçin KQB müstəntiqinə verdiyi cavab da bir çox məsələlərə aydınlıq gətirir.

Məsələn, müstəntiq onu cuhudlara (yəhudilərə) qarşı qəddarlıqda təqsirləndirəndə Əhməd Triniç deyir: "Cuhudlar kim idi ki, mən onlarla döyüşəydim. Təpədən bir-iki güllə atan kimi hamısı dovşan kimi qaçdı". Müstəntiq ondan "nədən Nizova kəndində 403 ermənini öldürdun? – deyə xəbər aldıqda, o, veriləcək cəzadan yaxa qurtarmaq üçün "mən bu işi görmədim" demir. Cəsarətlə deyir ki, mən savaş qanunlarına əməl edərək irəliləməkdə olan əsgəri birliyə mane olanları yolumuzdan təmizlədim (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Müstəntiq onu Nizova, Çaxçaxlı, Həzrə kəndlərində və Quba şəhərində silahsız dinc əhalini kütləvi şəkildə, vəhşicəsinə, işgəncələrlə öldürməkdə, həmçinin mülkədar Zizikski ilə birlikdə Sovet xəzinəsini talan etməkdə suçlayanda da Əhməd Triniç soyuqqanlılıqla "yox, etməmişəm" deyə cavab vermir, "savaş qanunlarına görə hərəkət etmişəm" deyir. Erməni-bolşevik silahlı birləşmələrindən əsir aldığı 200-ə yaxın döyüşçünü isə əsgərlərinin nəzarəti altında Axtı-Şəki-Gəncə yolu ilə yeni yaradılmış Azərbaycan Cümhuriyətinin sərəncamına göndərdiyini bildirib.

Müstəntiqlər şahidlərdən Əhməd Triniçin Qubada ermənilərə qarşı qəddarlıq etdiyinə dair ifadə almağa çox cəhd etsələr də istədiklərinə nail ola bilməyiblər. 1892-ci ildə anadan olmuş Qafar Orucov 1936-cı ilin may ayının 13-də verdiyi ifadədə bildirib ki, 1918-ci ildə söhbət gəzirdi ki, Şıxlar bəylə-

ri ilə birgə Əhməd Əfəndi müsəlman uşaqların, qadınların, qocaların çılpaq bədənlərinə qaynar samovar bağlayaraq, onları işgəncə ilə öldürən ermənilərin hərəkətlərinə layiqincə cavab verib (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi, s. 168).**

## Əhməd Triniç və Levan Qoqoberidze

Əhməd Triniçin istintaq materialları arasındakı qeydlərində yazır ki, dekabrın (1936-cı il-Ə.Ş.) 2-də axşam saat 12-də məni Ovanesyanın (müstəntiq – Ə.Ş.) yanına gətirdilər. Müxtəlif söhbətlərdən sonra "dostum" (yəni Ovenesyan – Ə.Ş.) dedi: "Sən kimə güvənirdin, yeganə pənahın Qoqoberidze də sənin kimi içəridədir. İndi nə deyə bilərsən? Yenə də günahını boynuna almırsan?"

Ona cavab verdim ki, "mənim ümidim vicdanlı işimə və hərəkətlərimədir. Həyatda heç kimdən ümid gözləməmişəm və heç kəsin qarşısında əyilməmişəm. Qoqo mənim vicdanlı dostum idi. Onu həbs ediblərsə, çox heyf! Onu tutublar, ya tutmayıblar, bunun mənim işimə heç bir aidiyyati yoxdur. Sən demə, Qoqa mənim haqqımda yazdığı məktubdan imtina edibmiş. Onun sözləri mənim işimə yaramadıqdan sonra o, demişdi: "Tezliklə sənin qapalı məhkəmən olacaq və dostların öz aralarında pul toplayırlar ki, müdafiəçi tutsunlar". Dedim ki, mənə müdafiəçi gərək deyil, əgər məhkəmə mənim şahidlərimi çağırmasa, onda mən heç bir suala cavab verməyəcək və məhkəmənin qərarını gözləyəcəyəm. Gecə saat 2-də kameraya qayıtdım" (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Kutaisi quberniyasındakı Pridonaan-Djixişi kəndində imkanlı bir ailədə doğulan Levan Qoqoberidze haqqından yazı-

lanlardan aydın olur ki, 1916-cı ildə sosialistlərə qoşulub. Fevral Burjua İnqilabından sonra Trabzon şəhəri yaxınlığındakı Cevizlidə Fəhlə və Əsgər Deputatları soveti sədrinin müavini, bolşeviklərin "Kavkazski raboçi" qəzetinin əməkdaşı olub. 1918-ci ilin fevralından isə Bakıya gələrək partiya sovet işində çalışıb. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında göstərilir ki, 1918 il aprelin 25-də yaradılan Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 8 may tarixli əmri ilə F.A.Çikalo və Məşədi Əzizbəyov müvəqqəti olaraq Xalq Daxili İşlər Komissarının müavinləri, Bünyad Sərdarov və L.D. Qoqoberidze isə komissarın müvəkkilləri vəzifəsinə təyin ediliblər (**AXCE, 2005:9, 2-ci cild**).

Sovet Tarixi Ensiklopediyasında Levan Qoqoberidze haqqındakı yazılmış məqalədə isə göstərilir ki, 1918-ci ilin dekabrında Tbilisdə həbs edilərək Bakıya sürgün edilib. Burada da sual yaranır Gürcüstanda doğulmuş, orada həbs edilmiş gürcü nədən Bakıya sürgün olunmalıdır?

Rusiya Kommunist Partiyası Bakı Komitəsinin üzvü olan, 1919-cu ilin mayındakı fəhlə tətillərinə rəhbərlik edən Levan Qoqoberidze toqquşmalarda yaralanıb **(http://enc.biblioclub.ru/Termin/1500890_Gogoberidze_L__D).**

AMEA Ədəbiyyat İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru Lütviyyə Əsgərzadə Əhməd Triniçin 1919-cu ildə Levan Qoqoberidzenin təsiri ilə bolşeviklər partiyasına qəbul olunduğunu yazır (**Əsgərzadə, 2919: 18 iyun**).

1920-ci ilin sənədlərində aydın olur ki, Levan Qoqoberidze Bakıda bolşeviklərin arasındadır. AXCE ensiklopediyasının 2-ci cildində yazılır ki, 1920-ci il avqustun 23-də Quba qəzasında Küzün kəndinin əhalisi silahlı üsyan qaldırıb. Onlar

kənddə iki nəfər milisi öldürüb və yeni hakimiyyətə itaətsizlik ediblər. Üsyanın qarşısını almaq üçün qəza komitəsi kəndə 4-cü süvari alayından 45 nəfərlik (30 nəfər süvari, 15 nəfər piyada) dəstə göndərib. Lakin dəstə üsyanı yatıra bilməyib. Üsyanı yatırmağa gedənlərdən 6 nəfər ölümdən qurtulub.

Qubanın hərbi komissarı Küzün kəndinin sakinlərini Sovet rejiminə tabe etmək üçün bir taqım döyüşçü və pulemyotçu göndərir. Küzün kəndindəki avqustun 26-da baş verən döyüşdə Sovet qüvvələrinə ciddi müqavimət göstərsə də qalib gələ bilmirlər. Avqustun 29-da Qubanın 4 verstliyində (1 verst = 1,0668 km) döyüşdə 100 nəfərlik Sovet qüvvələri xeyli itki verib (**AXCE, 2005:352, 2-ci cild**).

Sovetin Küzün kəndini ram edə bilməməsi təsadüfi deyildi. Orada müqavimət göstərən yalnız kəndlilər deyildi. Onlara Cümhuriyyət ordusunun podpolkovniki Əfəndiyev rəhbərlik edib. Dəstədə türk zabitləri də olub. Qubada Azərbaycan Cümhuriyyəti Parlamentinin keçmiş deputatı, 1918-ci ilin aprel-may aylarında Bakıdan göndərilən bolşevik, daşnaq qüvvələrinə qarşı döyüşmüş Həmdulla əfəndi Əfəndizadə başçılıq etdiyi silahlı qrup bolşeviklərə tabe olmaq istəməyib. Avqustun sonu-sentyabrın başlarında dağıtdıqları bolşevik silahlı dəstələrindən aldıqlar hərbi sursatla təmin olunmuş özünümüdafiə dəstəsi sentyabrın 3-də səhər saat 7-də Dəvəçi-Xaçmaz istiqamətində hücuma keçib. Məqsədləri Rusiyadan Bakıya göndəriləcək bolşevik silahlı birləşmələrinin qarşısını almaq olub.

Bolşeviklər 7-ci süvari dəstəsini özünümüdafiə dəstələrinin hücumunun qarşısını almağa göndərib. Bolşevik əsgərlərinin gücü yetmədiyini görən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi 1920 il sentyabrın 9-dakı plenumunda Əli-

heydər Qarayevi və Levan Qoqoberidzeni bolşeviklərin tərəfdarları və zor gücünə silah altına aldıqları ilə birgə Qubaya göndərməyi qərara alıb. Həmin dövrdə Xalq Əmək və Ədliyyə Komissarı olan Əliheydər Qarayev həm də "Kommunist" qəzetində redaktorluq edib.

Uzun çəkən döyüşlərdən sonra başqa yerdən canlı qüvvə və hərbi sursat ala bilməyən özünümüdafiə dəstələri sentyabrın ortalarınadək döyüşü davam etdirib. Döyüşü davam etdirməyin mümkünsüz olduğunu görən Həmdulla əfəndi Əfəndizadə Şamaxının dağ kəndlərinə çəkilmək məcburiyyətində qalıb. Qubanın kəndlərinə Əliheydər Qarayevin və Levan Qoqoberidzenin silahlı dəstələri divan tutub (**AXCE, 2005:352, 2-ci cild**).

Quba-Dəvəçi bölgəsindəki yaşlı nəsil Əliheydər Qarayevin silahlı dəstəsində Əhməd Trininçin də olduğunu və keçmiş silahdaşlarına qarşı çox qəddarlıqla döyüşdüyünü xatırlayırdılar. Bu fakt inandırıcı görünməyə bilər. Çünki, Əhməd Triniç həmin dövrdə nə hərbi sahədə, nə polisdə, nə də KQB-də işləyirdi. Mərkəzi Komitənin qərarında onun adı keçmir. Başqa sənədlərdə də rast gəlmədim. Amma nəzərə alsaq ki, Əliheydər Qarayev Xalq Əmək və Ədliyyə Komissarı olsa da "Kommunist" qəzetinə də rəhbərlik edirdi. Əhməd Triniç də "Kommunist" qəzetində işləyirdi və Əliheydər Qarayevin yaxın adamı kimi tanınırdı. Onlar bir birinin qabiliyyətinə yaxşı bələd idilər. Əliheydər Qarayevə Əhməd Triniç kimi cəsur komandir, bölgəni tanıyan, xalq arasında böyük nüfuzu olan biri gərək idi.

Əhməd Triniçə də yeni hökumətdə özünə mövqə qazanmaq, keçmişində uzaqlaşdığını göstərmək üçün gərək idi.

Sovetlərin hakimiyyətini qəbul etməyən pərakəndə silahlı dəstələrin sayı çox idi. Onların hamısını bolşeviklərin əsgəri birlikləri tərksilah etmək gücündə deyildi. Buna görə də onların bəziləri ilə danışıqlara getməyə, vədlər verməyə üstünlük verildi. Adətən bu danışıqları Mir Cəfər Bağırov aparırdı. Möhübəli əfəndi və Hətəm ağanın dəstələri ilə aparılan danışıqlar haqqında Müzəffər Məlikməmmədov yazır ki, Nəriman Nərimanov onu qoruyan 27 əsgərlər Qusarın Hil kəndinə gəlir. Hacıbaba Babayevin atasının evində 5 gün qalır və burada danışıqlar aparır. Həmin söhbətdə Mir Cəfər bağırov və Quba İnqilab Komitəsinin sədri işləmiş, Dağıstanın Fler kəndindən olan Feyzulla Abbasov da iştirak edir. Onlara yeni hökumətlə əməkdaşlıq təklif edilir. Möhübəli əfəndi təklifi qəbul etmir. Hatəm ağa isə bir neçə il Quba milis idarəsinin rəisi işləyir. Hökumətin ikiüzlü siyasətini görüb 1922-ci ildə vəzifədən imtina edərək Çağar kəndinə gəlmiş, burada ətrafına 500 nəfərə yaxın silahlı toplayaraq bolşeviklərlə döyüşmüşdür. Bir ay yarım davam edən döyüşdə Hatəm ağa şəhid olmuşdur (**Məlikməmmədov M., 2009:23-24**).

1920-ci ilin sonlarında Rusiya Kommunist Partiyası Nijeqorodsk Quberniya Komitəsi Prezidumunun üzvü olan Levan Qoqoberidze Gürcüstan bolşevik orduları tərəfindən işğal olunduqdan sonra, yəni 1921-ci ilin fevralından sonra Tiflis İnqilab Komitəsinin sədr göndərilib. 1923-24-cü illərdə Gürcüstan Xalq Komissarlar Soveti sədrinin müavini, 1924-25-ci illərdə Rusya Kommunist Partiyası Acarıstan Vilayət Komitəsi Prezidimunun sədri, 1926-1930-cu illərdə Gürcüstan KP MK katibi vəzifələrində işləyib. O, Parisə, diplomatik işə də göndərilib. Əslində isə ona gürcü siyası mühacirləri arasında

nifaq salmaq və kəşfiyyat işləri aparılmaq tapşırılıb (**https://wikipedia.org/Levan_Qoqoberidze**).

Bu qədər gərgin işləməsinə, Sovetlər birliyinə xidmət etməsinə baxmayaraq onu partiyadaxili qruplaşmalarda iştirakda suçlayıb vəzifədən uzaqlaşdırıblar. Serqo Orcikindze və həmyerlisi, inqilabçı Bissarion (Beso) Ломинадзе ilə yaxın dost olduğuna görə təqiblərə məruz qalıb. Ruhulla Axundov, Zəkəriyyə Balaxanskin, Hüseyn (Useyin) Rəhmanov və b. da bu qrupdan sayılıb.

Bundan sonra Levan Qoqoberidze bir daha yüksək rəhbər vəzifə tuta bilməyib. 1930-1934-cü illərdə Qırmızı Professorlar İnstitutunda oxuyub. Təhsilini başa vurduqda onu Rastov Don vilayətinin Eysk rayonuna partiya işinə göndərilib. Serqo Orcanikidzenin köməyi ilə 1935-ci ildə Moskvaya gətirilib. SSRİ Xalq Təhcizat Komissarlığında ona iş verilib. 1936-cı il dekabrın 14-də həbs edilib və 1937-ci il martın 21-də güllələnib **(https://az.wikipedia.org/wiki/Levan_Qoqoberidze).**

İstintaq materiallarından aydın olur ki, Levan Qoqoberidze ömrünün çoxunu Bakıdan uzaqlarda keçirsə də Əhməd Triniçlə münasibətləri korlanmayıb və əlaqələri kəsilməyib. Müstəntiqlər istintaq zamanı Əhməd Triniçdən Şıxlarski bəylərinin 150 min rubl dəyərində olan qiymətli əşyaları və Quba şəhərindəki dövlət əmlakı ilə bağlı məlumat almaq istəyiblər. Əhməd Triniç varidatı Levan Qoqoberidzeyə verdiyini söyləyib. Levan Qoqoberidze isə onu Bakı şəhərində banka verdiyini bildirib. Bu izahatlarda dəqiqlik yoxdur. Belə ki, nə Əhməd Triniçin Levan Qoqoberidzeyə verdiyi, nə də Levan Qoqoberidzenin Bakıda banka verdiyi varidatın qeydiyyatı və təhvil-təslim aktı yoxdur. İstər Levan Qoqoberidze, istər Əhməd Triniçin sonrakı yaşayışı onu göstərir ki, hər ikisi bu vari-

datdan müəyyən miqdar yararlanıblar. Bəlkə də əks cəbhələrdə olan bu insanları sonralar bir-birinə sıx bağlayan vasitələrdən biri də bu məsələ olub.

İstintaq zamanı Əhməd Triniç müstəntiqlərə açıq və qəti şəkildə bildirir ki, mən Levan Qoqoberidzeni sizə verməyəcəm. Yəni Levan Qoqoberidze əleyhinə məndən heç bir ifadə ala bilməyəcəksiniz **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

İstintaq zamanı müstəntiqlər bolşevik Muxtadır Aydınbəyovun öldürülməsini də Əhməd Triniçin boynuna qoymağa çalışıblar. Bu da mümkün olmayıb. Nə şahidlər bu faktı təsdiqləyib, nə də Əhməd Triniçin Qubada komendant olduğu vaxtla Müqtədir Aydınbəyovun ölümü üst-üstə düşüb. 1919-cu ildə Muxtadir Aydınbəyovu öldürməkdə günahkar bilinənlərin 1921-ci ildə məhkəməsi olub. Onlar da Əhməd Triniçin adını çəkməmişlər. Muxtadır Aydınbəyovun oğlu C.M.Aydınbəyov atasının ölümündə əli olanların sırasında Əhməd Triniçin adını yazmayıb.

Sənədlər onu göstərir ki, Mudros Müqaviləsindən sonra Osmanlı ordusu 1918-ci ilin noyabrında Azərbaycanı tərk etmək məcburiyyətində qalanda Əhməd Triniç Batumadək getsə də oradan geri qayıdıb (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

## Əhməd Triniç və Lazar Biçeraxov

Türkiyəyə casusluqda suçlanaraq həbs edilən Əhməd Triniçə casusluqla bağlı ciddi suallar verilməyib.

Müstəntiqlər Əhməd Triniçdən milliyətçə osetin olan, Rus ordusunun polkovniki Lazar Biçeraxova qarşı döyüşməsinin səbəblərini soruşublar. Birinci Dünya Savaşında İranın qu-

zey-batısında yerləşdirilmiş general-mayor N.Baratovun komandir olduğu Rus Ekspedisiya Korpusu Osmanlı ordularına qarşı savaşırdı. Rus ordusuna Van, Ərzrum, Yüksəkoba və b. bölgələrdəki ermənilərdən yaradılmış silahlı dəstələr də təxribatçı hərəkətləri ilə Osmanlı Ordusuna və dinc əhaliyə ağır zərbələr vururdular.

Rus Ekspedisiya Korpusunun tərkibində polkovnik Lazar Biçeraxovun rəhbərlik etdiyi 1500 nəfərlik kazak dəstəsi də olub. Lazar Biçeraxovun vəzifəsi geniş hərbi əməliyyatlar başlayanda Osmanlı ordusunun arxasına keçərək orada qərargahları, anbarları, ordunu ərzaq və hərbi sursatla təmin edən bölgələri, hərbi obyektləri dağıtmaqdan, bir sözlə, vahimə yaratmaqdan ibarət idi.

Çar Nikolay hakimiyyətdən salındıqda Rusiyanın İrandakı Ekspedisiya Korpusu dağılmağa başlayıb. Lakin ingilis generalı Denstervil Lazar Biçeraxovla danışıqlar apararaq ona maddi və mənəvi yardım göstərməklə kazak dəstəsinin dağılmasının qarşısını alıb. Əvəzində polkovnik Lazar Biçeraxov ingilislərin tapşırıqlarını yerinə yetirməyə başlayıb.

Qafqaz İslam Ordusu Azərbaycan Cümhuriyyətinin döyüşçüləri ilə birlikdə Bakını azad etmək üçün irəliləyəndə general Denstervil polkovnik Lazar Biçeraxovun kazaklarını Bakı Kommunasına köməyə göndərməyi qərara alıb. Bakı Kommunasının göndərdiyi gəmilər çar tərəfdarı kimi tanınan Lazar Biçeraxovun komandir olduğu kazakları Ənzəli limanından Ələt qəsəbəsinə gətirib. Bu əsgəri birlikdə məsləhətçi kimi beş ingilis zabiti, 1500 kazak döyüşçü, 4 zirehli avtomobil olub. General Denstervil Lazar Biçeraxova 180 milyon rubl pul verib ki, 10 minlik ordu toplasın (БезугольныйА.Ю.

http://fictionbook.ru/ alekseyi_yurevich_bez ugolniyyi/general_ bicherahov. online. html?).

Tabeliyində olanlara qarşı sərt və qəddar münasibəti ilə seçilən Lazar Biçeraxov Qafqaz İslam Ordusuna qarşı döyüşə hazırlaşanda onun qardaşı Georgi Biçeraxov Mahaçqala-Dərbənd arasında Sovetlərə qarşı vuruşurdu.

1918-ci ilin martında Sovetlərin əsgəri birliklərinin Daşnak döyüşçüləri ilə birləşərək Bakıda müsəlmanları qırdıqlarından xəbər tutan Quzey Qafqaz dağlılarının lideri Nəcməddin Qotsinskinin rəhbərlik etdiyi döyüşçülər dindaşlarına kömək üçün Bakıya doğru irəliləyəndə Georgi Biçeraxovun rəhbərlik etdiyi əsgəri birlik də onlarla birlikdə olur. Onlar Xaçmaz yaxınlığında Sovetlərin və Daşnakların hərbi dəstələri ilə toqquşmada qalib gələrək dəmiryol boyunu düşməndən təmizləyib bolşevik-erməni birləşmələrinin Bakı yaxınlığında, Biləcəri-Xırdalan xəttində yaratdıqları müdafiə səngərlərinədək gəlib çatırlar. Aprelin 8-dəki döyüşdə də uğur qazanırlar.

Yəni qardaşlardan Georgi bolşevik-erməni birliklərinə qarşı döyüşür, Lazar isə onlarla birlikdə Osmanlı Ordusuna və yerli Milli Qüvvələrə qarşı döyüşməyə hazırlaşırdı. Bu da təsadüfi deyildi. Bakı Sovetinin rəhbərliyi onlara söz vermişdi ki, ya Bakı-Dərbənd-Mahaçqala yolu ilə, ya da Bakı-Şəki-Balakən yolu ilə Osetiyaya getmələrinə şərait yaradacaqlar.

Bakı Sovetinin uduzduğunu görən Lazar Biçeraxov rəhbərlik etdiyi kazakları və hərbi texnikanı dəmir yolu ilə Biləcəriyə gətirir və oradan da Dərbəndə doğru irəliləməyə başlayır.

İstintaqı aparan müstəntiq Əhməd Triniçə nədən Lazar Biçeraxova qarşı döyüşdüynə dair sual verir. Əhməd Triniç də bildirir ki, Lazar Biçeraxovun dəstəsi dəmir yol boyu kəndlərə

basqın edir, kəndləri talayır, qadına-qıza sataşırdılar. Mən dəstəmlə onların üzərinə hücüma keçdikdə Lazar Biçeraxov vasitəçi göndərərək xahiş etdi ki, onların Mahaçqalaya getmələrinə mane olmayım. Razılaşdıq ki, onlar sakitcə Mahaçqalaya çəkilsinlər. Bir neçə gün sonra eşitdim ki, Lazar Biçeraxovun kazakları Məhərrəmkəndə giriblər. Mən onları cəzalandırmaq üçün dəstəmlə Məhərrəmkəndə doğru irəlilədim. Onlar döyüşmədən qaçdılar. Mən Dərbəndə çatanda möhkəm xəstələndim. Qızdırmadan huşumu itirəcək dərəcəsinə çatdım. Ona görə də Lazar Biçeraxovun kazaklarını təqib edə bilmədim **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

İstintaq materiallarında bu hadisənin baş verdiyi tarix göstərilməyib. Başqa sənədlərdə isə Əhməd Triniçin dediklərinin 8-11 avqustda baş verdiyi göstərilir.

İngilislərlə əməkdaşlıq edən, Sovetlərə qarşı heç də xoş münasibəti olmayan, 1919-cu ildə Londona dəvət edilərək kraliça tərəfindən qəbul edilən və mükafatlandırılan Lazar Biçeraxova qarşı istintaqın belə isti münasibəti anlaşılmazdır.

## Əhməd Triniç və Viktor Naneyşvili

Əhməd Triniçin gürcü əsilli sosialist Viktor Naneyşvili (1878-1940) ilə də əlaqəsi və dostluğunda da aydınlaşdırılmamış cəhətlər çoxdur.

Bakı Kommunasının Quba qəzasına göndərdiyi silahlı dəstələr yerli özünümüdafiə dəstələrinin hücumu qarşısında direniş göstərə bilməyib Xaçmaza, dəmir yol xəttinə doğru çəkiləndə onlara qarşı döyüşənlər arasında Əhməd Triniçin rəhbərlik etdiyi silahlı dəstə də olub.

Bakı Kommunasının döyüşdə məğlub olmuş silahlı dəstələri gürcü əsilli sosialist Viktor Naneyşvilinin rəhbərliyi ilə

Quzey Qafqazdan Bakıya köməyə göndərilən hərbiçilərlə Xaçmazda birləşib. Lakin onlar təkrar Qubaya hücum etməkdən çəkinərək Bakıya dönüblər. Məqsədləri yenidən qüvvələrini toplayaraq Quba qəzasına hücuma keçmək olub (**Rüstəmova-Tohidi, 2013:70**).

Gəncliyində Bakıda yaşayan və 1903-cü ildə Rusiya Sosial Demokrat Fəhlə Partiyasına qəbul olunan Viktor Naneyşvili 1918-ci ilin aprelinədək Bakıda yaşayıb və ictimai-siyasi həyatda fəal iştirak edib. Bolşeviklər onu Dağıstana Fövqəladə Komissar təyin edirlər. Həmin vəzifədə işləyəndə əsgər və zabitləri Bakı Kommunasına köməyə gətirir.

Dəvəçi dəmir yol stansiyasında yerli özünümüdafiə dəstələri onların yolunu kəsir və silahları təhvil vermələrini tələb edirlər. Viktor Naneyşvili onlarla danışıq aparmadan dəmir yol kənarındakı kəndlərə atəş açmaq əmrini verir. Lakin onların toplardan, pulemyotlardan açdıqları atəşlər yerli özünümüdafə qüvvələrinin müqavimətini qıra bilmir. Viktor Naneyşvili Bakı Kommunasından kömək istəməli olur. Hamazaspın rəhbərliyi altında 4 eşalon silahlı döyüşçü Dəvəçiyə doğru irəliləyir. Yerli özünümüdafiə dəstələri onların qarşısını kəsə bilməyərək geri çəkilməli olurlar.

Dəmir yol xətti açılır, Hamazaspın əsgəri birlikləri və Naneyşvilinin qüvvələri birləşir. Stepan Şaumyanın göstərişi ilə Viktor Naneyşvili Mir Cəfər Bağırovu yerli şəraiti yaxşı bilən adam kimi Qubaya hərəkət etdən Hamazaspın silahlı qüvvələrinə özünün nümayəndəsi təyin edir. ...” (**Rüstəmova-Tohidi, 2013:70**).

1918-ci ilin aprelində Əhməd Triniçlə Viktor Naneyşvili əks cəbhələrdə olublar. 1918-ci ilin noyabrın 23-də isə Viktor Naneyşvili Rusiya Kommunist Partiyasının Həştərxan Quber-

niya Komitəsinə sədr təyin edilib. Orada iki aya yaxın işləyib. 1920-ci ilin may ayından sonra onu Bakıda bolşeviklərin nəşr etdiyi "Bakınski raboçi" qəzetinin redaktoru və Əhməd Triniçin hamisi kimi görürük. 1920-ci ilin iyul ayının 23-dən sentyabr ayının 9-a kimi qısa bir müddətdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Prezidimunun sədri (sonralar bu vəzifə birinci katib adlandırıldı) işləyib.

Məmməd Səid Ordubadi ilə Əhməd Triniç aralarında 1920-ci ilin mayında baş verən qarşıdurmanı ədibin "Bakıda ikinci kərə" adlı xatirələrindən öyrənirik. Məmməd Səid Ordubadi 1914-cü ildə həbs edilərək Çaritsinə (Tsaritsin) sürgünə göndərilmişdi. 1917-ci ilin martında – çar İkinci Nikolay hakimiyyətdən uzaqlaşdırılandan sonra sürgün olunanlar üzərində nəzarət itir və sürgündəkilərin çoxu azad olunur. Lakin vətənə gedə bilmir. Həştərxana gəlir. Burada Rusiya yönlü Azərbaycan inqilabçıların nəşr etdikləri "Hümmət" qəzetilə əməkdaşlıq edir.

11-ci Qırmızı Ordu Azərbaycanı işğal etmək üçün irəliləyəndə onlara qoşulur. Həştərxandan Mahaçqalaya gəlir. Orada mətbəələrin milliləşdirilməsində, bolşeviklər üçün poliqrafiya bazasının yaradılmasında fəal iştirak etməklə kifayətlənmir, Ordu komandanlığının göstərişilə "Qırmızı Dağıstan" adlı qəzet də nəşr edir.

"Bakıda ikinci kərə" adlı xatirələrində yük vaqonunda Mahaçqaladan Bakıya gəldiyini yazır. 1920-ci il may ayının 2-də Bakıya çatan kommunist şair 5 gün sonra Azərbaycan SSR Xalq Maarif Komissarı və Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarı Dadaş Bünyadzadənin qəbulunda olur. Ona "təlif və tərcümə şöbəsi"ndə iş verirlər.

Məmməd Səid Ordubadi Hacı İbrahim Qasımovla "Əxbar" (sonra bu qəzet "Kommunist" adlandırıldı. – Ə.Ş.) qəzetinə getdiyini belə təsvir edir: "Qarayev gəldi (O dövrdə Azərbaycan SSR Xalq Əmək və Ədliyyə Komissarı işləyən Əliheydər Qarayev həm də qəzetə rəhbərlik edirdi. – Ə.Ş) Hamı ayağa qalxdı. O, heç bir kəsə etina etməyərək kabinetinə girdi. Arnavut Əhməd, yaxud Triniç Əhməd qalxıb yazmağa başladı…"

Məmməd Səid Ordubadi Əliheydər Qarayevin kabinetinə keçib onunla söhbət edir. Əliheydər Qarayev deyir ki, burada gördüyünüz işçilərin hamısı bir həftə əvvəl "Müsavat" qəzetəsində işləyən adamlardı. Mənim burada oturub işləməyə vaxtım yoxdur. Bu stulda oturub qəzeti idarə etməlisən.

Məmməd Səid Ordubadi komissarın tapşırığını yerinə yetirir. Ondan sonra baş verənləri isə belə təsvir edir: "Mən idarədə birinci olaraq Əhməd Bedi Triniçin məqaləsini oxudum. Sol əl ilə yazılmış bu məqaləni çox çətinliklə oxudum. Məqalədə müəyyən bir mövzu təqib edilməmişdi. O, qəliz osmanlı kəlmələrindən və təkrar-təkrar söyüşlərdən ibarət idi. Məqalənin adını sadələşdirdim, ədəbsiz kəlmələri və mətbuata yaraşmayan söyüşləri çıxarıb atdım, sonra da zəngi basıb katibi çağırdım:

– Ver bunu təzədən köçürsün, sonra gətir baxım, dedikdə Xəlil İbrahimi heyrət götürdü.

...Triniç məqaləni köçürməmişdi. O, dərhal məqaləni götürüb Qarayevin yanına aparmışdı. Qarayev də əhəmiyyət vermədiyindən "Bakinski raboçi" qəzetəsinin idarəsinə aparıb müdirə göstərmişdi. Müdir bir gürcü idi. Adı yadımda deyil, bəlkə Naneyşvili olsun. Mən başqa materiallar oxuduğum zaman "Bakinski raboçi" qəzetəsinin müdiri əlində Triniçin mə-

qaləsi içəri girdi. Salam verdi, ancaq bir kərə: "Nə üçün yoldaş Triniçin məqaləsini bu kökə salmısan?" – dedi. Mən onun "sən" deyə soruşmasına cavab olaraq:

– Sən o məqaləni oxumusanmı? – deyə soruşdum.

– O, "xeyr, oxumamışam", – dedikdə mən də:

– Onu əvvəlki vəziyyətdə çap etmək mümkün deyil, – dedim.

O, mənim sözümdən qənaətlənmədi, həyəcanlandı..." (Ordubadi, M.S., 2008:18-20).

Xatirədən aydın olur ki, Məmməd Səid Ordubadi bunu Əhməd Triniçin həbsindən öncə yazıb. 8-9 il "Kommunist" qəzetində rəhbər vəzifədə işləsə də bu iki şəxsin münasibətləri normal olmayıb.

Başqa bir diqqətiçəkən məqam da var: Bolşeviklər Bakını tutan kimi Azərbaycan Cümhuriyyətinin kadrlarına qarşı təqiblərə, həbslərə başlamışdı. Belə bir vaxtda İttihad Partiyasının katibi işləmiş, Azərbaycan Cümhuriyyətinin qatı tərəfdarı kimi tanınan Əhməd Triniçdən qəzetdə işləyənlər nədən çəkinirmiş? 1918-ci ildə əks cəbhədə olan insanlar arasında nə baş vermişdi ki, iki il sonra ideoloji sahədə böyük mövqeyi olan, bolşevik Viktor Naneyşvili Əhməd Triniçi müdafiə edib?

1920-ci il sentyabrın 4-də gecə Azərbaycan ÇK (Fövqəladə Komitə) sədri Baba Əliyevin rəhbərlik etdiyi dəstə "İttihad" Partiyasının rəhbəri Qarabəy Qarabəyovu da həbs edir. Qarabəy Qarabəyov həbsdə olarkən həbsxanaya gələn Azərbaycan SSR İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun qəbuluna düşür və təklif edir ki, xəstəxanası milliləşdirilsin. Burada gündə 200 əsgər və sovet məmuru müalicə edilsin. Nəriman Nərimanov onun həbsdən azad olmasına kömək edir. Bundan beş-altı ay sonra "İttihad" Partiyası Gürcüstan-

dakı menşeviklərlə birləşib qiyam qaldırmağa hazırlaşmaqda suçlanır. Partiya qapadılır, partiyanın rəhbəri və onun məsləkdaşı olan 155 nəfər həbs olunur. Qarabəy Qarabəyovun əmlakı müsadirə edilməklə Arxangelsk vilayətindəki Solovki həbsxanasına göndərilir.

1921-ci il iyulun 2-ə keçən gecə Bakı şəhərində, iyulun 3-də isə aparılmış əməliyyat nəticəsində əksəriyyəti "İttihad" partiyasından olan 229 nəfər həbs edilir. Sui-qəsdçilər adlandırılan bu dəstəyə Osmanlı ordusunun keçmiş zabiti Xəlil Şakirzadə başçılıq etdiyi göstərilir. Bu həbslərə baxmayaraq "İttihad" Partiyasının katibi olan Əhməd Triniçə isə dəyib toxunan olmur **(Azərbaycan çekistləri, 1983:52).**

Məmməd Səid Ordubadinin yazdığından görürük ki, Viktor Naneyşvili Əhməd Triniçi açıq müdafiə edirmiş!

Sonralar da Viktor Naneyşvili yüksək vəzifələrdə – Rusiya Kommunist Partiyası Perm Quberniya Komitəsinin (1922-ci ilin sentyabrından 1923-cü ilin sonunadək) və Qazaxıstan Vilayət Komitəsinin (1924-ci ilin sentyabrından 1925-ci ilin iyununa qədər) birinci katibi vəzifəsində işləmişdir. 1931-ci ildən 1939-cu ilədək isə Moskvadakı Umumittifaq Ticarət Akademiyasının rəhbəri olmuşdur. Viktor Naneyşvili 1940-cı il martın 22-də güllələnmişdir
(https://www.ourbaku.com/index.php/Нанейшвили_Виктор_Иванович_-_Политический_Деятель).

Əhməd Triniçin istintaq sənədlərində Viktor Naneyşvilinin adı keçməsə də belə güman etmək olur ki, onların əlaqələri həbs olunanadək davam etmişdir.

## Əhməd Triniç və Lavrenti Beriya

Əhməd Triniçlə Lavrenti Beriyanın harada tanış olduğu, necə dostlaşdıqları haqqında bilgi əldə edə bilmədim. Mir Cəfər Bağırovun istintaq materillarında isə onların arasında çox möhkəm bağlılıq olduğunu göstərən nüanslar var.

Azərbaycan Cümhuriyyətinin Əks-kəşfiyyat İdarəsinin rəisi Nağı Şeyxzamanlının xatirələrindən aydın olur ki, idarənin senzura işi üzrə rəisi Lavrenti Beriya qəflətən yoxa çıxsa da Nağı bəy onun maaşını anasına verib. Bolşeviklər Azərbaycanı işğal edəndən sonra Nağı Şeyxzamanlı Lavrenti Beriya ilə Gürcüstanda görüşüblər. Xatirələrdən aydın olur ki, münasibətləri hələ də pozulmayıbmış.

Görünür ki, Əhməd Triniç də Lavrenti Beriya ilə Əks-kəşfiyyat İdarəsində işləyəndə görüşüb tanış olublar. Mir Cəfər Bağırovun istintaq materiallarından isə aydın olur ki, bolşevik işğalından, Azərbaycanda Sovet hökuməti qurulduqdan bir müddət sonra Lavrenti Beriya Bakıda həbs olunur. Əhməd Triniçin xahişi ilə Mir Cəfər Bağırov keçmiş Əks-kəşfiyyat İdarəsinin əməkdaşı Lavrenti Beriyanı nəinki həbsdən azad edir, hətta rəhbərlik etdiyi Fövqəladə Komissiyada işə götürür (**Məmmədov,A.,** 2007)

1918-1920-ci illərdə Bakıda yaşayan sosialistlər, parlament üzvləri və müxtəlif vəzifələrdə çalışanlar Lavrenti Beriyanın Əks Kəşfiyyat İdarəsində mühüm vəzifə tutduğundan xəbərsiz ola bilməzdilər. Sual doğurur ki, belə bir adamı Mir Cəfər Bağırovun hökumətin çox ciddi strukturunda işə götürməsinə onlar nədən susub və ya da göz yumublar?

Ümumiyyətlə, Əhməd Triniçin gürcülərlə, xüsusən, Levan Qoqoberidze, Viktor Naneyşvili, Lavrenti Beriya və başqaları ilə möhkəm bağlılığı, hətta ölüm ayağında belə KQB

müstəntiqlərinə cəsarətlə Levan Qoqoberidzeni onlara satmayacağını deməsinin arxasında duranlar geniş bir araşdırma mövzusudur.

## Əhməd Triniç və Mir Cəfər Bağırov

Əhməd Triniçin istintaq materiallarında və onun haqqında hazırlanmış arayışlarda Əli bəy Zizikskinin və Mir Cəfər Bağırovun adı çox çəkilir.

1896-cı ildə Qubada doğulan Mir Cəfər Bağırov ilk təhsilini məhəllə məktəbində, molla yanında aldıqdan sonra şəhərdəki Ali İbtidai Məktəbdə təhsilini davam etdirib. Quba Xeyriyyə Təşkilatının yardımı ilə 1913-cü ildə 2 illik Petrovski (Mahaçqala) Pedaqoji Məktəbi bitirərək Xudatda, Nəcəfkənddə, Qubada işləyib. 21 yaşında Quba Qəza Polis İdarəsinin rəisi Əli bəy Zizikski onu özünə köməkçi və yəhudilər yaşayan qəsəbəyə polis müvəkkili götürüb.

İnqilabçılara qoşulan, onlarla birlikdə Qubaya gələn və müsəlmanlara qarşı törədilən qəddarlıqların, soyğunçuluğun, dinc əhalinin ermənilər tərəfindən öldürülməsinin şahidi olan Mir Cəfər Bağırov 1921-ci ildə Azərbaycan Fövqəladə Komitəsinə sədr təyin edilib. Onun Əhməd Triniçlə tanışlığı haqqında bir sənəd var. O da müstəntiqə verdiyi izahatdır.

Müstəntiq Mir Cəfər Bağırova sual verir ki, sizə keçmiş qərargah rəisi Şükrü Paşa-Əhməd Bedi tanışdır? Onun rəhbərliyi ilə türk qoşunları Quba şəhərini tutub, orada erməni əhalisini qırıb və Quba İnqilab Komitəsinin sədr müavini Məhəmməd Mehdini asdırıb? Mir Cəfər Bağırov cavabında deyir ki, Azərbaycanın rəhbər işçilərindən biri olan Əhməd Bedi ilə 1922-ci ilə toplantılarda və konfranslarda görüşüb, tanış olub. 1920-ci illərdə Bakıda şayiələr gəzirdi ki, guya Bedi Triniç

türklərlə bir yerdə vəhşiliklər edib, lakin ortada fakt, sübut yox idi (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Mir Cəfər Bağırovun cavabı inandırıcı görünmür. Əks cəbhələrdə olsalar da onları hər ikisi 1918-ci ilin aprelində Qubada olublar. 1920-ci ilin may-iyun aylarında Mir Cəfər Bağırovun Əhməd Triniçi müdafiə etməsi, ona vəzifə verməsi də ağılkəsən deyil.

Bunu Mir Cəfər Bağırovun ömür yolunun və o dövrün gözəl bilicisi Adıgözəl Məmmədovun araşdırmalarında da aydın görürük. O, yazır: "1920-ci ilin aprelində Bağırov şimaldan Azərbaycana girən silahlı qüvvələrin bir qrupu ilə dağlarla Qubaya qayıdır və iki gündən sonra Bakıya gələrək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ona hansı tapşırıq verəcəyini gözləyir. Çox keçmir ki, Qarabağda bolşeviklərə qarşı başlamış üsyanları yatırmağa göndərilən Dadaş Bünyadzadənin dəstəsinə qatılır. Orada Azərbaycan ordusunun bolşevik yönlü hərbi dəstələrinin təşkili üzrə səlahiyyətli nümayəndəsi işləyir. Komminist Partiyasının tapşırığı ilə Vilayət Hərbi Şurası sədrinə müavin təyin edilir və Vilayət Partiya Komitəsi Rəyasət Heyətinin sədr müavini seçilir.

1920-ci ilin payızında Qarabağdakı kəndli üsyanları yatırıldıqdan sonra Mir Cəfər Bağırov ikinci atıcı briqadanın komandiri təyin edilir. Çox keçmir ki, bu briqada Bakıda gətirilərək Azərbaycan diviziyasına birləşdirilir. Mir Cəfər Bağırov diviziya hərbi komissarının köməkçisi təyin edilir" (**Məmmədov, A., 2007:22**).

1920-ci ilin payızınadək Əhməd Triniç nəinki Bakıdan qaçmış və ya gizli fəaliyyətə keçmişdi, əksinə nazir vəzifəsini daşıyan, antisovet üsyanlarının yatırılmasında fəal iştirak edən Əliheydər Qarayevin yanında olmuş, "Kommunist" qəzetində

məsul vəzifədə işləmiş, ona gürcü inqilabçıları himayədarlıq etmişdir.

1920-1921-ci illərdə Mir Cəfər Bağırovun vəzifəsi tez-tez dəyişib. 11-ci Qırmızı Ordu Hərbi Tribunalında şöbə sədri, Hərbi Tribunalının üzvü seçilib. Bu təyinatda güman ki, Nəriman Nərimanov çox böyük rol oynayıb.

11-ci Qırmızı Ordunun əsgərlərinin Azərbaycandakı özbaşınalığına son qoymaq üçün azərbaycanlı kadrın hərbi tribunalın üzvü seçilməsi milli maraqlardan irəli gələn addımlardan idi. 1921-ci ilin fevral ayından Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Qafqaz Cəbhəsi Hərbi Şurasının xahişinə əsasən Mir Cəfər Bağırov Azərbaycan Xalq Komissarları Şurasının ixtiyarına göndərilir. O, öncə Azərbaycan Xalq Komissarları Şurası Fövqəladə Komissiyanın sədri və iki aydan sonra əlavə vəzifə kimi Xalq Daxili İşlər Komissarı, Quldurlarla Mübarizə Mərkəzi üçlüyünün sədri təyin edilir **(Məmmədov, A., 2007:18).**

Buradan aydın olur ki, 1920-ci ilin may ayından 1921-ci ilin fevralına kimi, Mir Cəfər Bağırovun başı döyüşlərə, ordu quruculuğuna və s. qarışıb. Onun Əhməd Triniçi qoruya biləcək səlahiyyəti olmayıb.

Məmməd Səid Ordubadinin xatirəsindən isə aydın olur ki, bolşeviklər Bakını işğal etdiyi ilk gündən Əhməd Triniç Xalq Əmək və Ədliyyə Komissarı işləyən Əliheydər Qarayev, bolşeviklərin nəşr etdiyi "Bakinski raboçi" qəzetinin redaktoru,1920-ci il iyulun 7-dən 1920-ci il sentyabrın 9-a kimi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin sədri (sonralar bu vəzifə birinci katib adlandırıldı) Viktor Naneyşvili kimi himayədarı var. Əhməd Triniçin qısa bir zamanda mövqe dəyişərək keçmiş silahdaşlarına qarşı dö-

yüşdüyünü də xatırlayırdılar. Həmdulla əfəndi Əfəndizadənin dəstəsini dağıtmaq üçün onun üzərinə Əliheydər Qarayevin rəhbərliyi ilə göndərilən hərbi hissənin tərkibində Əhməd Triniçin də olduğunu söyləyirdilər. Lakin onu təsdiqləyən sənədə rast gəlmədim.

Məhkəmədə hakimin Mir Cəfər Bağırova Əhməd Triniçlə bağlı suallar verməsi təsadüfi deyildi. 1918-ci ilin aprelində Bakı Soveti Dəvəçi, Xaçmaz, Quba, Qusar bölgələrini özünə tabe etmək üçün dəridən-qabıqdan çıxırdı.

Əqidəcə sosial-demokrat, menşeviklər partiyasının üzvü, milliyətcə gürcü David Gelovanini Quba İnqilab Komitəsinə komisar təyin etmişdi. Dəmir yolu ilə Xaçmaza gələn və burada mövqeyini möhkəmlədən David Gelovani silahlı dəstəsi ilə Qubaya gəlir. David Gelovani şəhərin öndərlərinə deyir ki, iki saat müddətinə Bakı Sovetinin hakimiyyətini qəbul edib- etməyəcəklərini bildirsinlər.

Ona bildirirlər ki, Quba şəhərinin, ətraf kəndlərin başbilənlərini iki saata bir yerə toplayıb fikirlərini öyrənmək mümkün deyil. Belə olduqda David Gelovani sərt tədbirlərə əl atıb. O, 1918-ci il dekabrın 21-də Fövqəladə Təhqiqat Komissiyasına verdiyi ifadəsində bildirir ki, başçılıq etdiyi silahlı dəstə 1918-ci il may ayının 1-də Bakıdan Qubaya gəlib. Bu dəstədə erməni Notovas Ohanesovun başçılıq etdiyi drujina da olub. Quba və ətraf kəndlərdə müsəlmanların evlərinin dağıdılmasında, var-dövlətinin müsadirə edilməsində, dinc sakinlərin öldürülməsində və b. cinayətlərdə əsasən Notovas Ohanesovun başçılıq etdiyi drujina iştirak edib.

Bundan xəbər tutan Əli bəy Zizikskinin, Həmdulla Əfəndinin, Əhməd Əfəndinin (Triniç – Ə.Ş.) silahlı dəstələri may ayının 3-də Quba müsəlmanlarına köməyə gəlib.

David Gelovani Xaçmazdakı silahlı dəstələri köməyə çağırıb. Onlara hətta Həştərxandan da kömək gəlib. Sovetlərin silahlı dəstələri Qubaya gələrkən və geri çəkilərkən yol kənarındakı müsəlman kəndlərini dağıdıb, talan ediblər.

Quba qəzasında üç günlük döyüş olur. Sovetlərin qüvvələri məğlub olaraq Dərbəndə doğru qaçıb. Həmin hadisələrin şahidi olmuş, 1920-ci ildən Sov.İKP üzvi Mirzəbaba Tahirov 1936-cı il mayın 7-də müstəntiqə verdiyi ifadədə deyib ki, Əhməd Triniçin silahlı dəstəsinin Mir Cəfər Bağırovun dəstəsinə qarşı hücuma keçdiyini gördüm **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Bu izahatdan aydın olur ki, Mir Cəfər Bağırov Bakı Sovetinin tərəfində imiş və rəhbərlik etdiyi silahlı dəstə də varmış. Məğlubiyyətdən sonra Bakıya çəkilən qüvvələri Bakı Sovetinin rəhbərləri yenidən nizama salıb Qubaya göndəriblər. Viktor Naneyşvili Stepan Şaumyanın məsləhəti ilə Mir Cəfər Bağırovu yerli şəraiti yaxşı bilən adam kimi Hamazaspın silahlı dəstəsində özünün nümayəndəsi təyin edib.

Mir Cəfər Bağırov Hamazaspla Qubaya gəlib, orada törədilən qırğınların şahidi olub. Lakin bu qırğınları durdura bilməyib. Hamazaspın fəhlə kəndli sinfinin mənafeyini müdafiə edən bir sosialist deyil, müsəlmanları məhv etməkdən ləzzət alan bir erməni şovinisti olduğunu görən Mir Cəfər Bağırov vəzifəsini buraxıb Bakıya qayıdıb. Burada Petrovun dəstəsinə qatılaraq Həştərxana gedib.

Mahaçqala şəhərində yaşayan, Qazı Əhməd bəy Məhəmmədbəyov 1936-cı ilnin fevralında Əhməd Triniçin istintaq işi ilə bağlı dindiriləndə deyir ki, Mir Cəfər Bağırov Əhməd Əfəndinin (Triniçin) 1918-19-cu illərdə Qubadakı fəaliyyəti

barədə daha ətraflı məlumat verə bilər. Çünki o, 1917-ci ildə qəza komissarı Əli bəy Zizikskinin müavini vəzifəsində çalışıb.

Mir Cəfər Bağırov da özkeçmişində 1917-ci ilin martında Əli bəy Zizikskinin yanında olduğunu, "Quba bəyləri tərəfindən evləri dağıdılmış yəhudi, rus" və keçmiş cinayətkar müsəlmanlardan ibarət "Uçağan" dəstəsi yaratdığını yazıb.

Mir Cəfər Bağırovun haqqında bir neçə kitabın müəllifi Adıgözəl Məmmədov 2018-ci il fevralın 2-də modern.az saytının müxbiri Mahmud Əyyuba verdiyi müsahibəsində deyir ki, Əli bəy Zizikski qoçaq oğlanları başına yığaraq Qubanı qorumağa çalışırdı. Onların içərisində Bağırov (Mir Cəfər) da vardı. Burada Bağırov Əhməd Bedilə tanış olub (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Adıgözəl Məmmədov yazır ki, Hamazaspın silahlı dəstəsinin qəddarlığına dözə bilməyən Mir Cəfər (onun əmisi Mir Talıb, əmisi oğlu Mir Haşım və yeznələri Hacı Heybət daşnaklar tərəfindən gözü qarşısında öldürülür. – Ə.Ş.) erməni quldur dəstəsinin soyğunçuluğu və qatilliyi barədə Bakıya teleqram göndərib. Dörd gündən sonra Alyoşa Çaparidzenin səlahiyyətli nümayəndəsi Levan Qoqoberidze Qubaya gəlib. Burada o, Mir Cəfəri təxribatda günahlandıraraq həbs etdirib. Quba İnqilab Komitəsinə Çurayevi komisar təyin edir. Nəzarət altında olan Mir Cəfər yenidən Stepan Şaumyanın adına məktub yazıb. Lakin bu məktubun təsiri olmayıb (**Məmmədov, A., 2007:18**).

Əli bəy Zizikski və Həmdulla əfəndi Əfəndizadənin silahlı dəstələri Bakı Soveti və daşnak silahlılarının üzərinə hücuma keçərək Qubanı azad ediblər. Həbsdən buraxılanlar arasında Mir Cəfər Bağırov da olub. Belə bir fikir də var ki, Mir Cəfər

Bağırovu həbsdən azad edənlər onu kəşfiyyat üçün Bakıya, bolşeviklərin yanına göndəriblər.

Burada bəzi dolaşıqlıqlar var. Belə ki, şahidlər verdikləri ifadələrdə Mir Çəfər Bağırovun Bakı Sovetinin silahlı dəstələrində, David Gelovani və erməni Hamazaspla birlikdə Qubaya və ətraf kəndlərə hücüm edənlərin arasında olduğu deyilir.

Mir Cəfər Bağırovun istər “Levan Qoqoberidzedən icazəsiz Bakıya gəlməsi”, istərsə də “kəşfiyat üçün Bakıya bölşeviklərin dəstəsinə göndərilməsi” faktlara dayanmadığı kimi, inandırıcı da görünmür.

Mir Cəfər Bağırovun məhkəməsində hakim ona sual veir ki, Siz kəşfiyyat xəttilə Əfəndiyevdən, partiya xəttilə Qulam Məmmədovdan, Bulqeyis Məmmədovadan və b. Bedi-Triniçin keçmişi haqqında məlumatlar almışdınız. Siz bunu təsdiq edirsinizmi? Cavabında Mir Cəfər Bağırov deyir ki, Triniç barədə 1937-ci ilə qədər ciddi istintaq aparılmadığından haqqında olan məlumatlar bir-birinə zidd idi. Məhkəmənin: “Nə üçün Siz Triniç kimi böyük kəşfiyyatçının cinayətlərinə göz yummuş, uzun müddət onu məsuliyyətdən qorumusunuz? – sualına isə Mir Cəfər Bağırov belə cavab verir: “Onun cinayəti barəsindəki məlumatlar bir-birinə zidd olduğunu bayaq dedim. Baba Əliyev 1933-cü ildə onun haqqında ərizə yazmışdı. Bir qismi onu ittiham edirdi. Lakin ərizə yoxlananda bəziləri onu təmizə çıxartdılar. Mən Triniçi müdafiə etmirdim” **(Məmmədov, A., 2017:11 may).**

1936-cı ildə Mir Cəfər Bağırovu Əhməd Triniçi öldürməkdə suçlayırdılarsa, 1954-cü il yanvarın 20-də Sov.İKP. MK-nın inspektoru D.Yakovlevin Nikita Xuruşşov üçün hazırladığı arayışda Əhməd Triniçlə bağlı aşağıdakı sənədlər də əlavə olunub. “Əhməd Triniç haqqında materiallar: a) Əhməd

Triniçin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi ilə əlaqədar Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi sədrinin müavini Baba Əliyevin Rubenə və Bağırova 26 aprel 1933-cü ildə yazmış olduğu 076/s saylı məktubun surəti, b) Triniç Əhməd Bedi Rəcəb oğlu barədə arayış, v) 1919-cu il fevralın 25-də Azərbaycan Müsavat Parlamentinin (1920-ci illərdən sonra yanlış olaraq uzun illər Azərbaycan Cümhuriyyəti Müsavat hökuməti kimi təqdim edilirdi – Ə.Ş.) sədrinə parlamentin mühafizə dəstəsinin formalaşdırılmasının ona həvalə edilməsi barəsində Əhməd Triniçin məktubunun foto-surəti və tərcümə edilmiş mətni, q) 1918-ci ildə Türk qoşunları tərkibində Quba şəhərində olarkən Əhməd Triniçin pul vəsaiti ilə bağlı dindirilməsi üzrə protokolun surəti, şahidlərdən S.A.Visoçinskinin, M.Abdullayevin, A.N.Nəcəfovun, Q.A.Androsovun, Ş.M.Musaxanovun və K.Tahirovun dindirilmə protokolları – cəmi yeddi protokol".

## Muhittin Birgen Əhməd Triniç haqqında



**Şək. 15 Şəkildə Muhittin Birgen**

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra kütləvi cəza tədbirlərinə başlamışdılar. Öldürülənlərin, həbs edilənlərin, sürgünə göndərilənlərin sayı on minlərlə hesablanırdı. Adamların bir çoxu da müxtəlif yollarla xarici ölkələrə qaçır, mühacir həyatı yaşayırdılar.

Mərkəzi hökumət zor aparatını tam işə sala bilmədiyindən və zorakılığa müqavimətin güclü olacağından ehtiyatlanaraq bəzi güzəştlərə gedirdi. Azərbay-

canda da bolşeviklər ölkəni işğal edəndən sonra üç ilə yaxın yarımmüstəqil bir hökumət hakimiyyətdə oldu. Azərbaycan Cümhuriyyəti dövründə qurulmuş bir sıra idarələr – hərbi nazirlik, xarici işlər nazirliyi ləğv edilməmişdi. Bakıda xarici ölkələrin səfirlikləri və konsulluqları fəaliyyət göstərdiyi kimi Azərbaycanın da xarici ölkələrdə nümayəndəlikləri, qəzetlərin müxbirləri vardı. Poeziyada müstəqillik duyğusu, azadlıq havası hələ yaşayırdı. Adamlarda milli hisslər hələ söndürülməmişdi. Müstəqilliyin bərpa olunacağına hələ ümid vardı. Hətta bunu Azərbaycan Sovet Sosialist Respublikasının bayrağında da görmək olurdu. Bayraq üzərindəki ay-ulduz hələ qalırdı.

Moskvanın təzyiqinə yalnız millətsevər ziyalılar şeirlə, kiçik səhnəciklərlə, sətiraltı sözlərlə etiraz etmirdilər. Hakimiyyətdə olan milli kommunistlər yüksək vəzifələrini itirəcəklərini, cəzalandırılacaqlarını bilsələr də öz etirazlarının bildirirdilər. Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov Vladimir Leninə "Milli ucqarlarda partiyamızın vəziyyətinə dair" məktubunu yazır, 1920-ci ilin mayında Gəncədə minlərlə insanın öldürülməsində iştirak etmiş, 28 aprel 1920-ci ildən 1 iyun 1921-ci ilədək Azərbaycan Xalq Daxili İşlər Komissarı, sonra da Azərbaycan Xalq Kommunal Təsərrüfatı Komissarı və b. yüksək vəzifələrdə işləmiş Həmid Sultanov Azərbaycan neftinin Rusiya tərəfindən müftə aparılmasına etirazını Azərbaycan Kommunist Partiyasının orqanında açıq bildirir, 19 oktyabr 1920-ci ildən 19 fevral 1921-ci ilədək Azərbaycan Xalq Komissarları Şurası Fövqəladə Komissiyanın sədri, 1922-ci ilin martından Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi işləmiş Eyyub Xan-

budaqov milli kadrların, dilinin və mədəniyyətinin sıxışdırılmasına kəskin müqavimət göstərirdi.

Ölkədə kadr çatışmırdı. Azərbaycan Cümhuriyyəti dönəmində Osmanlıdan dəvət edilmiş müəllimlər çətin şəraitdə də olsa işlərini davam etdirirdilər. Bolşeviklərin yeni təşkil etdikləri hökumətin nazirləri də məcburiyyət qarşısında qaldıqlarından türkiyəli kadrları işə dəvət edirdilər. Azərbaycan SSR Xalq Maarif Komissarı Mustafa Quliyevin dəvət etdiyi kadrlar arasında Muhittin Birgen, İsmail, Xəlil Fikret seçilirdilər. Yeni proqramların, dərsliklərin yazılmasında və pedaqoji kadrların hazırlanmasında böyük əməyi olan bu insanlar ÇK (KQB-nin keçmiş adı) tərəfindən sıxışdırılır, təqib və təzyiqlərə məruz qalırdılar (**AR DTX-nin arxivi, P-297**). Onlar bu haqda Azərbaycan SSR Xalq Maarif Komissarına və b. təşkilatlara bilgi versələr də nəticəsi olmurdu. Görürdülər ki, ÇK-ya heç bir komissar təsir göstərə bilmir. Yeni yaradılmış bu təşkilatın başında azərbaycanlılar dursa da, əməkdaşlarının əksəriyyəti erməni, yəhudi və b. millətlərdən idi. Muhittin Birgeni ÇK-ya çağırıb sorğu-suala çəkən türk dilini bilən İran ermənisi idisə, sonra onu dindirən ÇK sədrinin müavini türk dilini bilməyən bir yəhudi olmuşdu.

Muhittin Birgen Türkiyəyə döndükdən sonra 1922-ci ildə Bakıda yaşadığı günlər haqqında belə yazmışdı: "Gördüklerim, bir aralık İstanbul mektupçuluğu etmiş olan Salih Zeki ile Bakü'de Komünist gazetesinde muharrirlik yapan ve aslen Türk değil, Arnavut olan Ahmet Bedi idi. Bu, *külüstür* bir muharrirdi; Türk memleketinde Türkçülük ile itham edilmekten korktuğu ve komünist teşkilatına yaranmak istediği için her vesilede kendisinin Arnavut olduğunu iddia eder ve biz Türklerin aleyhimizde bulunurdu. Bu zümreden olanların

diğerlerini hiç görmedim. İsimlerini dahi öğrenmiş olmadığım için kim olduklarını hatırlayamıyorum. Alelade siyasi zabıta hizmetinde kullanılan pespaye insanlardı. Hangi taraftan bakılsa, malesef Türkiye, Azerbaycana yüksek ve temiz unsurlarıyla görünmek fırsatını bulamamıştı!" **(Birgen, M., 2015:151-152).**

Muhittin Birgen Bakıda uzun müddət işləməsə də "İttihat ve terekkide on sene" adlı xatirələrində Əhməd Triniç haqqında yazır: "Türkçülük ile itham edilmekten korktuğu ve komünist teşkilatına yarınmak istediği için her vesilede kendisinin arnavut olduğunu iddia eder"di.

Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra Petroqrad Vilayət Komissarlığında müsəlman işləri üzrə təbliğat və təşviqat şöbəsinin müdiri işləmiş və 1920-ci ilin mayında Rusiya Kommunist Partiyasının qərarı ilə Azərbaycana ezam edilən, yazıçı Böyükağa Talıblı Sovet Azərbaycanında Fəhlə-Kəndli Müfəttişliyi Komissarının müavini, Xalq Təsərrüfatı Şurasının sədri, Ədliyyə Komissarı, Mərkəzi Statiska İdarəsinin rəisi, Respublika prokuroru, Plan İdarəsinin sədr müavini işləyib. 1937-ci il avqustun 17-də istintaqa verdiyi izahatda deyib ki, professorlar (türkiyəli professorlar) təkcə Azərbaycanın ədəbiyyat məsələlərində fəal iştirak etmirlər, onlar məqalələr, dərsliklər yazır, həm də pul verirdilər... bu cür görüşlərdən biri İsmayılın dediklərindən mənə məlumdur. İsmayılın dediyinə görə, mənzilində Triniç, Hüseyn Cavid, Cabbar Əfəndizadə və türk səfiri görüşürdülər. Bu görüş zamanı guya türk ədəbiyyatından heç nə ilə fərqlənməyən Azərbaycan ədəbiyyatına türk nüfuzunun təsiri məsələləri müzakirə olunurdu **(Turan, 2010:64, AR DTX-nin arxivi, 12493-78 saylı istintaq işi).**

Böyükağa Talıblının müstəntiqə verdiyi izahatla Muhittin Birgenin yazdıqları arasında bir ziddiyət var. Böyükağa Talıblımı yanlış yazıb, yoxsa Əhməd Triniçmi öz fəaliyyətini məharətlə gizlədə bilib? Böyükağa Talıblı bu toplantılarda özü iştirak etdiyini demir. Üçüncü şəxsin, yəni İsmail Hikmətə istinadən deyir. İsmail Hikmətin isə belə bir sözü deyib-demədiyini müəyyənləşdirməyə KQB müstəntiqlərininin imkanı yox idi. Çünki İsmayıl Hikmət də Türkiyədən dəvət edilmiş müəllimlər kimi 1927-ci ildə Azərbaycandan qovulmuşdu. Onu bir daha Azərbaycana gətirmək, istintaqa cəlb etmək isə imkansızdı.

Azərbaycanda olarkan ali məktəblərdə dərs deyən, proqramlar hazırlayan, dərslik yazan, Maarif Komissarlığında məsləhətçi işləyən, "Maarif və mədəniyyət" jurnalının nəşrinin təşkilatçılarından olan Muhittin Birgen KQB-nin təqiblərindən yaxa qurtarıb Türkiyəyə döndükdən sonra Galatasaray Liseyində tarixdən dərs demiş, İzmirdə Əncir və Üzüm Kooperativinin yaradıcısı və rəhbəri, Milli Aydın Bankının İdarə Heyətinin rəisi, Məhəlli İtibar Koperativi Banklarının Təşkilatçısı və s. vəzifələrdə işləmişdir. "Son posta" qəzetində redaktorluq edəndə xatirələrini də orada çap etdirib. Orada Azərbacanda, Gürcüstanda, Moskvada olduğu günlərdən, Ənvər Paşa ilə görüşündən də geniş yazıb (**Birgen, M., 2015:151-152**). Bu parçalar müasir tarixşünaslığımız üçün olduqca dəyərlidir.

Osmanlı dönəmində Çorumdan Üçüncü Məclisə, Türkiyə Cümhuriyətinin dövründə isə Dördüncü Məclisə deputat seçilib.

## Əhməd Triniçin jurnalistlik fəaliyyəti

1920-ci ilin may ayından 1927-ci ilin noyabr ayının 11-ə kimi “Kommunist” qəzeti Əliheydər Qarayevin, Ağababa Yusifzadənin, Böyükağa Talıblının, Həbib Cəbiyevin, Ruhulla Axundovun redaktorluğu ilə çap olunub. Həmin müddətdə müxtəlif fasilələrlə Əliheydər Qarayev 3 dəfə, Həbib Cəbiyev 4 dəfə, o birilər hərəsi bir dəfə redaktorluq edib (**Məhərrəmov E., Məhərrəmli A., 2009**). Bolşevik olsalar da bir-biri ilə yola getməyən, ayrı-ayrı siyasi qruplaşmanın üzvü olduqlarına görə tez-tez vəzifəsini dəyişməli olan bu adamlarla Əhməd Triniçin uzun müddət “dil tapmasına”, kommunist partiyasının “çistka”larından (partiya sıralarını təmizləmə) da salamat çıxmasına heyran qalmamaq olmur.



**Şək. 16 “Kommunist” qəzetinin 5 illiyində verilmiş şəkil. Soldan: Hənəfi Zeynallı, Əhməd Triniç, Məmməd Səid Ordubadi**

Bolşeviklər əsarət altında olan xalqlara azadlıq və bərabərlik vəd etsələr də hakimiyyəti ələ aldıqdan sonra vədlərini tez unudublar. Çar Rusiyasının müstəmləkəçilik siyasətini yeritməyə başlayıblar. Sergey Kirov (1886-1934) Azərbaycan Kommunist Partiyasına birinci katib göndərilib. 1920-1925-ci illərdə Azərbaycan Həmkarlar İttifaqları Şurasına sədirlik

edən, milliyətcə erməni Levon Mirzoyan (1887-1939) və rəhbər vəzifəyə təyin olunmuş bolşeviklər türkcə bilməyib və bu dili öyrənmək də istəməyiblər. Onlar bütün güclərilə çalışıblar ki, çarizm dövründə olduğu kimi hər yerdə rus dili hakim olsun.

Nəriman Nərimanov və onun komandası buna qarşı durduğuna görə aralarında açıq və gizli bir qarşıdurma yaranıb. 1920-ci il sentyabrın 16-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Təşkilat bürosunun iclasındakı çıxışında Levon Mirzoyan deyib ki, "müsəlman nəşrləri… bizim üçün anlaşılmaz yarı ərəb dilində çıxır". Əhməd Bedi sanki ona cavab olaraq "Kommunist" qəzetindəki "Mətbuatımızın vəzifələri" məqaləsində yazıb: "Türk dilinin anlaşılmazlığı barəsində çoxlu spekulyativ danışıqlar aparılır. Özü də bu məsələni elə adamlar qaldırırlar ki, onlar bu dil haqqında heç nə bilmirlər. Onlar bircə şeyi bacarırlar: ucadan qışqırıb "Karaul!" deyə çağırmağı". Əslində isə burada qorxulu heç nə yoxdur. Bizim qəzetin dilini əvvəllər nəşr olunan "İrşad", "Şəlalə", "Açıq söz" və s. qəzetlərin dili ilə müqayisə etmək tamamilə kifayətdir. Bizim qəzet dilimizin inkişaf səviyyəsini görməmək mümkün deyil" (**Məhərrəmov E., Məhərrəmli A., 2009:50**).

1923-cü il iyul ayının 23-də Azərbaycan Komunist Partiyası Mərkəzi Komitəsinin qərarı ilə "Kommunist" qəzetinin redaktoru Həbib Cəbiyev işdən azad edilir. Rəsmi şəkildə 1923-cü il avqustun 20-dən 1923-cü il oktyabrın 7-dək Məmməd Səid Ordubadi və Əhməd Triniç redaktoru əvəz edirlər. Həmin illərdə Əhməd Triniç həm də qəzetin redaksiya heyətinin üzvü olmuşdur. Oktyabrın 11-də isə Həbib Cəbiyev yenidən redaktorluğa qaytarılır (**Məhərrəmov E., Məhərrəmli A., 2009:17**).

1924-cü ildə respublikada fəhlə-kəndli müxbirləri hərəkatını daha da genişləndirmək məqsədilə Birinci Azərbaycan Fəhlə-Kəndli Müxbirləri Qurultayı çağırılır. 250-dək nümayəndənin iştirak etdiyi qurultayın 19 bənddən ibarət tezislərini isə Triniç, Rəhmanov, Şahbazov, Çaqin və Qepşteyn hazırlayıblar. Əhməd Triniçin oğlu Fridrix atası haqqında yazır: "1921-ci ildən etibarən mətbuatla iç-içə olmuş, bir xeyli məqalələr yazmış, şeir müsabiqələrində münsiflər sırasında yer almış, Azərbaycan Yazıçılar cəmiyyətinin qurultay və plenumlarına qatılmış, söz, fikir sahibi olmuşdu. Maraqlıdır ki, atam elə azsaylı adamlardan idi ki, beynəlxalq münasibətlərlə məşğul olur, qəzetlərdə İran və Türkiyədəki vəziyyətdən yazırdı" **(Əsgərzadə, 2019:18 iyun, https://525.az/site/?name=xeber&news_id=122299#gsc.tab=0)**

1925-ci ildə "Kommunist" qəzeti nəzdində dinləyicilər kursu yaradılıb. Bu kursda mühazirə oxumaq üçün 51 filoloq alim, dilçi, jurnalist seçilib. Mühaziəçilərin sırasında Bəkir Çobanzadə, Məhəmmədhəsən Baharlı (Vəliyev), Abdulla Şərifov, Salman Mümtaz, Vəli Xuluflu kimi alimlər və Məmməd Səid Ordubadi, Böyükağa Talıblı kimi yazıçılarla yanaşı, Əhməd Triniç də vardı.

Göstərdiyi xidmətlərinə görə 1925-də Azərbaycanda ilk dəfə Əhməd Bedi Triniçə "Mətbuat qəhrəmanı" adı verilib **(Məhərrəmov E., Məhərrəmli A., 2009:17).**

Həbib Cəbiyev 1927-ci il iyulun 27-də redaktorluqdan uzaqlaşdırılır. Qəzet noyabrın 20-dək redaksiya heyəti imzası ilə çap olunur. Həmin ayın 21-dən ta 1931-ci ilədək qəzet Yusif Qasımov və Əhməd Triniçin imzası ilə çap olunur. Bu, "Kommunist" qəzetində ilk uzunmüddətli redaktorluq olur.

“Rəsmi olaraq Y.Qasımov redaktor təyin edilmişdi, əslində isə onun redaksiyadakı işi hiss olunacaq əhəmiyyətə malik deyildi və işin bütün ağırlığı əvvəllər qəzetin məsul katibi olmuş, indi isə redaktorun müavini təyin edilən Ə.Triniçin (təxəllüsü – “Bədi”) üzərinə düşmüşdü». (**Məhərrəmov E., Məhərrəmli A., 2009:21**).

1927-ci il may ayının 22-də Mir Cəfər Bağırov Azərbaycan SSR Fövqəladə Komissiyasının sədri vəzifəsindən uzaqlaşdırılır və həbs olunma təhlükəsi ilə üzləşir. O, Gürcüstana gedərək Lavrent Berya və b. tanışlarının sayəsində nəinki təqibdən canını qurtarır, hətta vəzifə də alır. 1928-ci ilədək Zaqafqaziya Su Təsərrüfatı İdarəsinin və 1929-cu ilədək Zaqafqaziya Kənd Təsərrüfatı İdarəsinin sədri işləyir.

Ruhulla Axundova yazdığı məktubdan görünür ki, məsləkdaşları onu hər an məhv etməyə hazırdılar. Belə bir zamanda Mir Cəfər Bağırovun Əhməd Triniçin vəzifəyə qoyulmasına kömək etməsi də inandırıcı görünmür. Fikrimizi təsdiqləyən başqa faktlar da var. Belə ki, “Kommunist” qəzetinin redaktoru Əhməd Triniçin məzuniyyət müddəti başa çatsa da onun işə qayıtmasına icazə verilməmişdi. Özü də bu kiminsə şifahi tapşırığı ilə deyil, Azərbaycan Komunist Partiyası Rəyasət Heyətinin qərarı ilə olmuşdur. Qərarda göstərilir ki, onun məzuniyyəti 1927-ci il sentyabr ayının 19-dan oktyabr ayının 15-dək uzadılsın. Qəzetin redaktorluğu Əliheydər Qarayevə tapşırılmışdır.

Yalnız Əhməd Triniçə deyil Azərbaycana dəvət edilmiş Türkiyə vətəndaşlarına qarşı KQB təzyiqlərini artırır. Onları ölkədən çıxarırlar. Azərbaycan Dövlət Universitetinin bir qrup tələbəsi Şair, pedaqoq Akif Söhbət 1927-ci ildə Azərbaycandan çıxarılmasını boykot edir (**“El” jurnalı 2011 aprel,**

**səh 34-35. www.eldergisi.ws).** Azərbaycan Kommunist Partiyası Rəyasət Heyətinə rəhbər təyin edilmiş erməni Levon Mirzoyan Əhməd Triniçin Almaniyanın Köln şəhərində keçiriləcək mətbuat sərgisinə getməsini Mərkəzi Komitənin Rəyasət Heyətinin 1928-ci il 10 may tarixli qərarı ilə dayandırmışdır. Bu onu göstərir ki, Levon Mirzoyanın daxil olduğu qruplaşma hakimiyyətdə möhkəmlənəndə Əhməd Triniçin də vəziyyəti ağırlaşırdı.

Mir Cəfər Bağırovun Əhməd Triniçə himayədarlığı, onu vəzifədə irəli çəkməsi 1929-cu il dekabrın 7-dən sonra, yəni Mir Cəfər Bağırovun Azərbaycana qayıdıb ikinci dəfə Azərbaycan Sovet Sosialist Respublikası Fövqəladə Komissiyasına sədrlik etməsindən sonra başlaya bilərdi. Bunu sənədlər də sübut edir.

## Əhməd Triniç rəhbər vəzifələrdə

Azərbacan Kommunist Partiyasının Mərkəzi Yoxlama Komissiyası Əhməd Triniç haqqında yazılan şikayət məktublarını və donosları ciddi araşdırmış və geniş müzakirə edərək 1930-cu il dekabrın 16-da qərar qəbul etmişdir. Qərarda göstərilir ki, Ə.B.Triniçin əksinqilabi fəaliyyəti, qaragüruhçu qruplarla əlaqələri, bolşeviklərə qarşı silahlı hücumları, dinc əhaliyə divan tutulması və s. haqqında yazılanlar həqiqətə uyğun deyildir **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Bu qərardan sonra, yəni 1931-də Əhməd Triniç Azərbaycan Dövlət Nəşriyyatının direktoru təyin edilir (**Məhərrəmov E., Məhərrəmli A., 2009:17).** Məşhur yazıçı Leonid Zorin "Avanstsena" adlı xatirə romanında yazır ki, 1933-cü ildə Bakıda ilk şeirlər kitabımı nəşr etdirirdim. Nəşriyyatın direkto-

ru, hündür boylu, bəyaz dişli, alban Əhməd Triniç gənc şair kimi mənə yardımçı oldu. Kitabımı nəşriyyat planına saldırdı və nəşr etdirdi (**Məmmədov, A., 2017:3 aprel, http://publika.az/news/maraqlitarix/30792.html**).

1932-nin ortasında Əhməd Triniç Azərbaycan Dövlət Konservatoriyasının və Dövlət Dram Teatrının direktoru təyin olunur (**Məhərrəmov E., Məhərrəmli A., 2009:17**). Heç bir musiqi təhsili, teatrla bağlılığı olmayan birisinin Konservatoriyaya rektor, eləcə də teatra rəhbər təyin edilməsi Sovet cəmiyyətində normal sayılırdı. Adamlar qabiliyyətlərinə, bacarıqlarına görə deyil, ideoloji mənsubiyyətlərinə, rəhbərlikdə olan qrupa yaxınlığına görə vəzifəyə təyin edilirdilər.

Teatrla heç bir bağlılığı olmayan Əhməd Triniç Cəlil Məmmədquluzadənin 1933-cü il fevralın 16-da tamaşaya qoyulan "Ölülər" pyesinin bədii rəhbəri (rejissorları Rza Darablı, İsmayıl Hidayətzadə, Cəfər Cabbarlı), Cəfər Cabbarlının həmin il dekabrın 2-də səhnələşdirilən "Od gəlini" pyesinin rejissoru (Sergey Mayorovla birgə) olub (**Azərbaycan Dövlət..., 2010:217**).

Arxiv sənədlərinə dayanaraq yaxın tariximizin bir çox məsələlərinə aydınlıq gətirən Aslan Kənan Əhməd Triniç haqqında yazır: "Bu soyada mən Azərbaycan Yazıçılar İttifaqının ayrı-ayrı vaxtlarda keçirdiyi qurultaylarında, plenumlarında, iclaslarındakı stenoqramlarda rast gəlirdim. O, hər dəfə yazıçı və şairlər haqqında etdiyi nitqlərində sərt, kobud, barışmaz bir çıxışı ilə fərqlənirdi. Həmin çıxışlarının birində Hüseyn Cavidi öz qaba sözləri ilə tənqid (əgər bu çıxışa tənqid demək mümkünsə) edəndə o zaman həmin müşavirəyə rəhbərlik edənlər Ə.Triniçə nitqindəki kobud ifadələrə görə irad tutmaq əvəzinə ona haqq qazandırır və çıxışını davam etdirməyə

şərait yaradırdılar. Hüseyn Cavidə qarşı edilən bu haqsız çıxışa görə Əhməd Tiriniç mənim hafizəmdə kobud bir şəxs kimi qalmışdı" (**Kənan, A., 2011:160**).

Aslan Kənan nitqlərində sərt, kobud olan Əhməd Triniçin ömür yoluna aydınlıq gətirib, onu Azərbaycan oxucusuna tanıda bilib.

Cəfər Cabbarlıdan söz açan araşdırıcılar da Əhməd Triniçin onu teatrdan uzaqlaşdırdığını yazırlar. Əhməd Triniç Cəfər Cabbarlını yaxşı tanıyırdı. 1920-ci illərdə "Kommunist" qəzetində məsul katib işləyəndə hər gün tərcümə ediləcək materialları Cəfər Cabbarlıya verir, tərcümə etdiklərini də oxuyub qəzet səhifəsində yerləşdirirdi. Cəfər Cabbarlının "Müsavat" Partiyasının gizli mərkəzinin katibi kimi tutulduğundan da xəbərdar idi.

Sovetlərə sədaqətlə xidmət edən bir kommunist kimi Əhməd Triniçin Hüseyn Cavidə, Cəfər Cabbarlıya və b. yazıçılara, araşdırıcılara qarşı sərt mövqe tutması normal görünür. Qaranlıq qalan isə başqa məsələlərdir. Belə ki, Əhməd Triniçin direktor olduğu dövrdə Hüseyn Cavidin əsərlərinin teatrın ən aparıcı tamaşalarına çevrilməsi, Cəfər Cabbarlı 1933-cü ildə tamaşaya qoyulan "Ölülər" (Cəlil Məmmədquluzadə) pyesinin rejissorlarından biri olması, "Od gəlini" (Cəfər Cabbarlı) pyesinin bədii rəhbərinin Əhməd Triniçin olmasıdır. Necə deyərlər qılıncının dalı da, qabağı da kəsdiyi, Mir Cəfər Bağırovun ən yaxın adamı kimi tanındığı bir vaxtda Hüseyn Cavidin, Cəfər Cabbarlının əsərlərinin tamaşaya qoyulmasına əngəl olmamışdı? Əksinə, onların qonorar alaraq yeni əsərlər yazmalarına şərait yaratmışdır.

Əhməd Triniç Azərnəşrin direktoru olanda Əmin Abidin iki kitabını çap planına saldırmışdı. O, direktorluqdan uzaq-

laşdırıldıqdan sonra həmin kitabların nəşri dayandırılmışdır. Bu və buna bənzər faktlar hələ də Əhməd Triniç haqqında qətiyyətlə söz deməyə imkan vermir.

## Partiyadaxili qruplaşmaların Əhməd Triniçə təsiri

İosif Stalin hakimiyyət uğrunda partiyadaxili qruplaşmaların əsaslarını sıradan çıxarsa da təhlükəli rəqibi saydığı Serqo Orcanikidzeninn tərəfdarlarına qarşı sərt tədbirlər görülməsinə başlanmamışdı. Rusiyada hakimiyyəti təkbaşına idarə etmək istəyən iki gürcü bir zamanlar yaxın dost, məsləkdaş kimi tanınırdı. Zaman isə onları barışmaz rəqibə çevirirdi. Hər qruplaşma özünə daha çox tərəfdar toplamağa və onları rəhbər vəzifələrdə yerləşdirməyə çalışırdı. Belə bir zamanda, yəni Moskvada Marksizm-Leninizm kursunu bitirib 1932-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Şurasına sədr göndərilən Mir Cəfər Bağırov Türk teatrının 60 illiyi təntənə ilə qeyd edilən günlərdə (1933, aprel) Sovet Sosialist Respublikası İttifaqı Mərkəzi İcraiyyə Komitəsinin qarşısında Şahbazovun, Cuvarlinskinin və Triniçin Qırmızı Bayraq ordeni ilə təltif olunmaları haqqında vəsadət qaldırır.

1933-cü il fevralın 7-də erməni Ruben Rubenov (Mkrtçyan) Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib seçilir. Əslində, bu seçki formal idi. Mərkəzi Komitəyə katiblər və b. rəhbər işçilər Moskvadan təyin edilirdilər.

Ruben Rubenov (Mkrtçyan) Bakıya gələn kimi özünə tərəfdar toplayaraq yerini möhkəmlətməyə, Berya-Bağırov qruplaşmasını sıxışdırmağa çalışır. Keçmiş rəhbərlikdən narazı olanları, vəzifədən çıxarılanları, vəzifəsi endirilənləri ələ alır. Yaranmış vəziyyətdən istifadə edən Azərbaycan ÇK-nın (keç-

miş KQB) rəhbərlərindən Baba Əliyev də fəallaşır. 1920-ci ilin iyun-oktyabr aylarında, yəni Azərbaycan Cümhuriyyətinin kadrlarına ən sərt və qəddar divan tutulduğu bir dövrdə ÇK-ya rəhbərlik edən, necə deyərlər qılıncının dalı da, qabağı da kəsən Baba Əliyev yenə də rəhbər vəzifədə olsa da səlahiyyətlərinin məhdudlaşdırılması ilə razılaşa bilmirdi. Odur ki, Əhməd Triniçi həbs etdirmək, ondan alınan ifadələr əsasında Mir Cəfər Bağırovu və b. rəhbər işçiləri cəzalandırmaq üçün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə geniş bir məktub yazır. Bu məktubdan istifadə edən Ruben Rubenov (Mkrtçyan) 1933-cü il mayın 19-da Boqdanov, Aqrba, Baba Əliyevdən ibarət bir komissiya yaradır. Əslində, ərizəçi komissiyaya daxil edilməməli idi. Ruben Rubenov (Mkrtçyan) istədiyinə nail olmaq üçün partiya prinsiplərinə, idarəçilik qaydalarına belə əhəmiyyət vermir. Komissiyaya keçmiş ÇK rəhbəri, ərizəçi, Baba Əliyevi, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsi və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin ikinci katibi işləmiş, Ruben Rubenov (Mkrtçyan) Bakıya gəldikdən sonra Azərbaycan SSR Dövlət Siyasi İdarəsinə (keçmiş KQB) rəis təyin etdiyi Aleksey Aqrbanı və Boqdanovu komissiyanın tərkibinə daxil edir.

Ruben Rubenov (Mkrtçyan) Bakıya gəldikdən sonra Əhməd Triniçi istəməyənlər fəallaşır, müxtəlif təşkilatlara yazdıqları ərizə və şikayətlərin sayını artırmışdılar. İlk baxışda hər şey rəqiblərin istədiyi kimi olacağı təsiri bağışlayırdı. Komissiya Əhməd Triniçin Sovet dövründə rəhbər vəzifələrdəki fəaliyyətindən çox onun 1918-ci ildə Qubada gördüyü işlərə diqqət yetirmişdir. Lakin Mir Cəfər Bağırov Azərbaycan Xalq Komissarları Şurasının sədri, Lavrenti Berya isə Ümumrusiya Kommunist Partiyası Zaqafqaziya Diyar Komitəsinin və Gür-

cüstan K(b)P Mərkəzi Komitəsinin birinci katibi işləyirdilər. Onların nüfuzu nəinki Əhməd Triniçi cəzadan qurtarır.

Komissiya üzvləri yoxlamanın nəticələri haqqında Mərkəzi Komitəyə arayış təqdim edir. Görünür, Baba Əliyevin arayışda yazdıqları ilə ürəyi soyumamış və ya Ruben Rubenovun (Mkrtçyan) gizli göstərişi ilə əlavə məktub da yazmışdı.

Komissiyaya sədrlik edən, Azərbaycan Dövlət Siyasi İdarəsinin rəisi, nüfuzlu kommunist kimi tanınan Aleksey Aqrban Əhməd Triniç haqqında Mərkəzi Komitə üçün hazırladıqları arayışda müsbət fikirlər yazdığı kimi 1936-cı ildə izahatında da xoş sözlər söyləmişdir.

Mir Cəfər Bağırovun ömür yolunun araşdırılmasında, arxiv sənədlərinin üzə çıxarılmasında böyük əməyi olan Teyyub Qurban Bağırovun məhkəməsindən söz açanda yazır ki, Mir Cəfər Bağırovun Müsavat partiyası ilə yanaşı "İttihad" partiyası üzvlərinə də himayədarlıq etməsi barədə ittihamlar irəli sürülür. Göstərilir ki, Bağırovun məsuliyyətdən xüsusilə qoruduğu şəxslər arasında 1919-cu ilin əvvəllərində "İttihad" partiyasının məsul katibi Əhməd Triniç xüsusi yer tutur... Əhməd Triniçlə Bağırov çox yaxın münasibətdə imişlər. Bağırov onu yüksək vəzifələrə irəli çəkirmiş, hətta respublika qəzetinin redaktoru kimi yüksək vəzifəyə təyin edibmiş. Triniçin əksinqilabi keçmişi barədə dəfələrlə siqnallar olmasına baxmayaraq, Bağırov 1933-cü ildə onu hökumət mükafatına – ordenlə təltif olunmağa təqdim etmişdir.

Mir Cəfər Bağırova yaxşı məlum idi ki, Onbirinci Ordunun Xüsusi Şöbəsinin rəisi Pankratov 1920-1921-ci illərdə "İttihad" partiyasının işi ilə şəxsən məşğul olmuşdur. Ordunun ermənilərdən və ruslardan ibarət hərbi müstəntiqləri Azərbaycanda Sovet hakimiyyətini silahlı üsyan yolu ilə devir-

mək cəhdində ittiham olunan "İttihad" partiyasının yüzlərlə üzvünü və tərəfdarlarını cəzalandırmaq üçün "üçlüyə" təqdim etmişlər. Pankratovdan, Aşukindən və Qubindən ibarət "üçlük" Azərbaycanın ziyalı və millətsevər oğullarını Rusiyanın Xolmoqor, Ryazan, Nijni-Novqorod və digər həbs düşərgələrinə göndərmişdir. Yalnız bir nəfər – Əhməd Triniç Mir Cəfər Bağırovun köməyi ilə Pankratovun caynağından xilas edilmişdir (**Qurban, T., 2006:29-30**). (Bağırovun Triniçi Pankratovun caynağından xilas etməsi o qədər də inandırıcı görünmür.)

Bolşeviklərin verdikləri vədə əməl etmədiyini görən, partiyadaxili ölüm-qalım qovğasının içərisində çabalayan Əhməd Triniç xilas yolunu millətçilərin sırasında olmaqda görür. 1936-37-ci ilin istintaq sənədlərində 1933-cü ildə yaradılmış "Azərbaycan millətçi partiyası"nın öndərləri sırasında birinci Əhməd Triniçin adı gəlir (**Bünyadov, Z., 1993:84**).

Açıq-aşkar görünür ki, Ruben Rubenovun (Mkrtçyan) Əhməd Triniçin teatr işini bilib-bilməməsi, vəzifəsini necə yerinə yetirməsi maraqlandırmır, 1918-ci ildə müsəlmanları qıran daşnakları cəzalandırdığına görə ondan qisas almaq istəyir. Lakin buna nail ola bilmir. Az sonra, yəni 1933-cü il dekabrın 10-da o, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən uzaqlaşdırılır.

Əhməd Triniçın Umumrusiya Kommunist Partiyası Zaqafqaziya Ölkə Komitəsinin birinci katibi Lavrenti Beriyaya (1899-1953) 1936-cı il yanvar ayının 23-də göndərdiyi məktubdan aydın olur ki, o, üç ay yarımdır istintaq edilir. Azərbaycan Sovet Sosialist Respublikası Daxili İşlər Xalq Komissarlığının müstəntiqi Kovrejenko altı gün onu sorğu-suala tutub. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin

komissiyası bir dəfə də olsun istintaqın necə aparılması ilə maraqlanmayıb. Əhməd Triniçin ərizəsindən görünür ki, Mir Cəfər Bağırov Bakıda deyil. Deməli, Mir Cəfər Bağırov Bakıda olsaydı Əhməd Triniç Lavrenti Beriyanı (1899-1953) rahatsız etməzdi (**AR DTX-nin arxivi, PS 1622 saylı istintaq işi).**

Bu ərizədən aydın olur ki, Əhməd Triniçi haqqında həbs qərarı olmadan KQB-də 1935-ci ilin sentyabrın 8-dən onu sorğu-suala çəkirmişlər.

Mir Cəfər Bağırov Bakıya qayıdır və Əhməd Triniçin istintaq işi ilə maraqlanır. Görünür, Lavrenti Beriyanın da bu işə təsiri olmuşdu. Mir Cəfər Bağırovun tələbi ilə Zaqafqaziya Xalq Daxili İşlər Komissarlığının Azərbaycan üzrə idarə rəisi Yuvelian Sumbatov Əhməd Triniçin 265 səhifədəlik istintaq işini Azərbaycan Komminist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mir Cəfər Bağırova göndərir.

İstintaq işinə aşağıdakı məzmunda arayışı da əlavə edir: "İstintaqdakı 20 şahiddən on birinin ifadələrinə görə Əhməd Bedi Triniç ifşa olunmuşdur. Belə ki, o, 1918-ci ildə türk dəstə komandiri vəzifəsində Nizova, Çaxçaxlı, Həzrə kəndlərində və Quba şəhərində silahsız dinc əhalini kütləvi şəkildə vəhşicəsinə işgəncələrlə həlak etmişdir. Həmçinin Əhməd Triniç mülkədar Zizikski ilə birlikdə Sovet xəzinəsini talan etmişdir. Əhməd Triniç bolşevik Müxtədir Aydınbəyovun qətlində də təqsirləndirilir. Müxtədir yoldaş 1918-ci ildə türklər Quba şəhərində olarkən öldürülmüşdür. Şahidlərin ifadələrinə görə, Müxtədir yoldaş Triniçin göstərişi ilə Həzrə kəndində tutulmuş və Quba həbsxanasına aparılmışdır. Onu qərargahda dindirilməyə aparan da, yenidən həbsxanaya gətirən də Triniç olmuşdur. Triniç başqa tutulanlar kimi, Müxtədir yoldaşa da işgəncələr vermiş, onu döymüşdür. 1919-cu ilin əvvəllərindən

Triniç İttihad Partiyasının üzvü olmuşdur. Bu partiyanın məsul katibi vəzifəsində çalışmışdır. Yuxarıdakıları əsas götürərək belə hesab edirəm ki, Triniç 1919-cu ilin əvvəllərinədək bolşevik dəstələrinə qarşı türk-müsavat qoşunlarının cəza əməliyyatlarında bilavasitə iştirak etmişdir. Müxtədir yoldaşın ölümündə Triniçin iştirakına gəldikdə isə, bu, əlavə istintaq tələb edir (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Bu cür sərt ittihama baxmayaraq Mir Cəfər Bağırov məktuba aşağıdakı dərkənarı qoymuşdur: "Şəxsən Sumbatov yoldaşa. Xahiş edirəm sabahdan gec olmayaraq bütün materiallar barədə mənə məlumat verəsiniz. Eyni zamanda, təklif edirəm ki, bu iş üzrə bütün dindirilmə və sorğu-suala xitam verəsiniz. M.C.Bağırov" (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Buradan aydın olur ki, Mir Cəfər Bağırov Bakıya döndükdən sonra işə qarışıb və Əhməd Triniçi xilas edib. Lakin 1936-cı ilin aprelində daxili işlər orqanlarına Sovet Sosialist Respublikaları Daxili İşlər Komissarı Nikolay Yejovun (1895-1940) imzası ilə aşağıdakı məzmunda operativ əmr daxil olub: "antisovet partiyaların üzvləri (eserlər, gürcü menşevikləri, müsavatçılar, ittihadçılar, daşnaklar və s.) "üçlük" tərəfindən işlərinə baxılan kimi güllələnməlidirlər" (Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində, 1954-cü il mart ayında Kremlə göndərilmiş sənədlərdən)

Mərkəzdən gəlmiş əmrin qarşısında Mir Cəfər Bağırov da dura bilmir. 1936-cı il aprelin 19-da Əhməd Triniçi yenidən həbs edirlər. Əhməd Triniçin istintaqı uzandıqca o, əsəbilik keçirir. Elə bilir ki, məhkəməsi olarsa günahsızlığını sübut edərək azadlığa çıxacaq. Nikolay Yejovun (1895-1940) operativ əmrindən xəbərdar olan Mir Cərəf Bağırov istintaqın gedi-

şini yubadır. O, hakimiyyətdə baş verəcək dəyişiklikləri gözləyir. Lakin dəyişikliklər yubanır. Əhməd Triniçin də həbsxanada qalmağa, qəzetlərin onun haqqında yazdığı böhtanları oxumağa səbri çatmır.

Əhməd Triniç 1920-ci ildən sonra bolşeviklərin tapşırığını yerinə yetirən, sərt tədbirlər tərəfdarı məqalə və çıxışlarından hətta ehtiyatsızlıq ucbatından cüzi qeyri-bolşevik deyimlər işlətmiş şəxsləri belə kəskin tənqid edən, cəzalandırılmasını istəyən bir adam təsiri bağışlayır. Mir Cəfər Bağırov da belə xasiyyətli idi. Görünür elə buna görə Əhməd Triniçi bəyənir və müdafiə edirdi.

Onları bir-birinə bağlayan başqa səbəblər də ola bilər. Belə ki, Əhməd Triniç həbs ediləndən sonra bacısı Nemət Kamal Məlikovanın 1936-cı il oktyabrın 27-də Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırova göndərdiyi məktubunda bəzi eyhamlar var. Nemət Kamal Məlikova yazır: "Heç kimə məlum olmasa da Triniçin Qubada və qəzada türk zabiti olarkən keçirdiyi həyat tərzi, gördüyü işlər Sizə yaxşı məlumdur". Yaxud "Triniç günahkar olsa belə siz onu azad etməlisiniz" (**Məmmədov, A., 2017:17 aprel,** http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-191898-xeber.html#.Wt4S01ygfIU)

1918-ci ildə Əhməd Triniç öznümüdafiə dəstəsinin rəhbəri kimi müsəlmanları erməni-rus silahlı dəstələrinin basqınlarından qoruyub. Bu xalq üçün qəhrəmanlıq, xeyirxahlıq olsa da Sovet hökumətinə düşmənçilik, əksinqilabçılıq sayılırdı. Mir Cəfər Bağırov bunları yaxşı bilirdi. Deməк, partiya-sovet rəhbəri kimi Əhməd Triniçi mütləq həbs etdirib cəzalandırtdırmalı idi. Nemət Kamal Məlikova təkidlə bildirir ki, qardaşı "günahkar olsa belə" Mir Cəfər Bağırov onu mütləq həbsdən

azad etdirməlidir. Sual yaranır: "Bağırov kimi sərt bir adam günahkarı nədən mütləq azad etdirməlidir?"

Əhməd Triniçin həbsində və şübhəli ölümündə Mir Cəfər Bağırov suçlanır. Əhməd Bedi Triniç Türkiyənin casusu olsaydı Mir Cəfər Bağırov onu çoxdan güllələdərdi. 1930-1936-cı illərin sənədləri onu göstərir ki, Mir Cəfər Bağırov Əhməd Bedi Triniçi müdafiə edib.

Mir Cəfər Bağırovu həm Əhməd Triniçi müdafiə etməkdə, həm də həbsxanadakı şübhəli görünən ölümündə suçlanması da dövrün ziddiyətlərinin güzgüsü təsiri bağışlayır.

## Əhməd Triniç və bacısı Nemət Kamal



**Şək. 17 Nemət Kamal Məlikova**

Repressiya illərində elə bir mühit yaratmışdılar ki, ata həbs olanda övladlar, ər həbs olanda arvadı, qardaş həbs olunanda bacısı ondan imtina edirdi. İnsanlar repressiyaya məruz qalmış əzizlərinin, ən yaxın qohumlarının adını belə ictimai yerlərdə çəkməyə cəsarət etmirdilər. Belə ağır şəraitdə Əhməd Triniçi axıradək müdafiə edən, onun həbsdən çıxması üçün mübarizə aparan bacısı Nemət Kamal Məlikova olub.

Əhməd Triniçin atasının adı Rəcəb bacısı Nemətin atasının adı isə Kamaldır. Buradan aydın olur ki, Rəcəb öldürüləndən sonra Əhməd Triniçin anası Kamala ərə getmiş və ondan da Nemət doğulmuşdur. Nemət ögey bacısı olsa da Əməd Triniç onun və əri Ağa Musa Məlikovun haqqında həmişə yüksək fikirdə olub.

1903-cü ildə Serbiyanın İskut şəhərində doğulan və Bakı şəhəri Böyük Qala küçəsi 45-də yaşayan Nemət Kamalın Bakıya nə vaxt gəldiyini öyrənə bilmədim. O, Musa Məlikovla ailə qurub və bu evlilikdən Şahpəri adlı qızları dünyaya gəlib. Nemət Kamal Bakıda müəllimə işləyib. Qardaşı həbs ediləndə bütün gücü ilə onun azadlığa çıxmasına çalışıb. Mir Cəfər Bağırova və digər rəhbər işçilərə məktublar yazıb. Müntəzəm həbsdə olan qardaşının yanına gedib, onu ərzaqla təmin edib. Onun canfəşanlığından və mübarizliyindən cana doyanlar Nemət Kamalı da, əri Musa Məlikovu da həbs ediblər. 1937-ci il iyulun 23-də həbs edilən Nemət Kamal Sovet Sosialist Respublikası İttifaqı Ali Məhkəməsi Hərbi Kollegiyasının 1938-ci il 7 yanvar qərarına əsasən Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 63-1, 70 və 73 maddələri ilə güllələnməyə məhkum edilib. Sovet Sosialist Respublikları İttifaqı Ali Məhkəmənin Hərbi kollegiyasının 15 mart 1958-ci il qərarına əsasən Məlikova Nemət Kamal qızına bəraət verilib (**Məmmədova, 2006:234**).

## Əhməd Triniçn ailəsi

Əhməd Triniçin oğlu Fridrixin araşdırıcısı Adıgözəl Məmmədova deyib ki, atam üç dəfə evlənməyib. Mənim anamla (üçüncü arvadı) Moskvada tanış olmuş, 1931-ci ildə hələ 20 yaşı olmayan anamı Bakıya aparmışdır; baxmayaraq ki, aralarındakı yaş fərqi 18 il olmuşdur. Maraqlıdır ki, atam elə az sayda adamlardan idi ki, beynəlxalq münasibətlərlə məşğul olur, qəzetlərdə İran və Türkiyədəki vəziyyətdən yazırdı, sanki mənim peşəmi qabaqcadan duymuşdu. ... "İttihad" partiyasının üzvlüyündə olmasını gizlətməyərək bir neçə

dəfə partiya "təmizlənməsindən" keçmişdi (**Məmmədov, 2017, http://publika.az/news/maraqlitarix/30792.html).**

Əhməd Triniç sonuncu evliliyi Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə bir müddət İtaliyada müsiqi təhsili almış, opera müğənnisi Şövkət Məmmədova ilə olub.

Əhməd Triniç həbs ediləndə qızı Mayanın 11, oğlu Fridrixin (Alman kommunisti Fridrix Engelsin şərəfinə bu ad verilib – Ə.Ş.) 3 yaşı olub.

Adıgözəl Məmmədovun çap etdirdiyi aşağıdakı parçalar Əhməd Triniçin ailə üzvlərinə münasibətinə aydınlıq gətirir: "Ah, Şövkət, Şövkət – mənim əzizim! Bir il əvvəl biz ayrılan zaman mən düşünmədim, düşünməyi belə bacarmadım ki, Cəfərin əsərindəki sözləri xatırlamalı olacağam. "Od gəlini": Ah dağlar, dağlar – sizə güvəndiyim dağlar – sizə də qar yağarmış!"

Şövkət! Mənim tanıdığım, sevdiyim, son nəfəsimə qədər sevəcəyim o Şövkəti unuda bilmirəm: məni aldadan Şövkət isə qoy əsl Şövkətin mənə bəxş etdiyi xoşbəxt dəqiqələrin xətrinə inansın.

Yanvarın 24-ü. Şövkəti, Şövkəti, Şövkəti xatırlayıram! Keçən ilin bu vaxtı onunla idim, xəstələnmişdi, göz yaşları ilə məni yola saldı. Bu ilin ərzində onun varlığı, harada olması haqda heç nə bilməmişəm.

Oktyabrın 17-də – düz 6 aydan sonra yazıq bacım Nemətlə görüşdüm. Bədbəxt Nemət elə bir qardaşa görə ağlayırdı ki, o, buna layiq deyil və öz bacısını dəyərləndirmirdi.

Ayın 19-da Nemətlə görüşdüm. Bu dəfə o özünü möhkəm tutmuşdu və mən ondan öyrəndim ki, fahişə Mariya (Əhməd Triniçin keçmiş arvadı – Ə.Ş) mənim barəmdə müxtəlif şayiələr yayıb.

Yanvarın 24-də Maneçka (qızı Mayanın adının əzizləmə forması – Ə.Ş.) və Tanyanı gördüm. Tanya xeyli ağladı. Mən-cə Nemət onu Mariya ilə müqayisə etməkdə haqlı deyil. Mariyaya o qədər nifrət edirəm ki, hətta bədbəxt oğlum Fridrixi də yada salmıram.

Fevral – yazıq Nemət qarlı çovğunda, xəstə, məni ac qoymaq istəməyib. Sağ olsun" (**Məmmədov, 2017, http://publika.az/news/maraqlitarix/30792.html).**

## Əhməd Triniçin həyatına son qoyan həbs

1918-ci ildə Bakı Sovet hökuməti adından Quba-Qusar bölgəsində müsəlmanlara divan tutan, on minlərlə insanı öldürən, evlərini yandıran, mal-mülkünü mənimsəyən erməni-rus silahlı dəstələrinə qarşı xalqın müqavimətini təşkil edən Əhməd Triniçdən qisas almaq istəyən kommunist cildinə girmiş erməni şovinistləri də, onun cəmiyyətdəki mövqeyinə paxıllıq edənlər də çox olub.

Əhməd Triniçlə açıq döyüşdə məğlub olanlar 1920-ci ilin aprelində bolşeviklər Azərbaycanı işğal edəndən sonra kommunist donunda geri dönmüş, qisasçılıq əhval-ruhiyyəsində olduqlarından Azərbaycanın yüzlərlə vətənsevər oğlunu məhv etmişlər. Lakin Əhməd Triniç manevr edərək dünən savaşdığı insanların sırasında özünə yer tapa bilib. Onu mudafiə edənlər arasında azərbaycanlı kommunistlər də, gürcü inqilabçılar da olub. Lakin bu, həmişə mümkün olmayıb. Əhməd Triniçi cəzalandırmaq üçün "sürüşkən" azərbaycanlılardan bacarıqla istifadə ediblər.

Əhməd Triniçin həbsdə yazdığı qeydlərdən biri bəzi məsələlərə aydınlıq gətirir. O, yazır ki, sentyabrın 11-də axşam saat 11-də müstəntiq Ovanesyan məni Tevosyanın yanına gə-

tirdi. Bu həmin Ovanesovdur ki, Qubada yüzlərlə müsəlmanın ölümündə fəal iştirak etmiş, evlərinin dağıdılmasının, mal-mülkünün yandırılmasının və qadınların zorlanmasının təşkilatçısı **olmuşdu (AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Azərbaycan Cümhuriyətinin yaratdığı Fovqaladə İstintaq Komissiyasının Quba qırğını ilə bağlı topladığı sənədlərdə onun adı Notovas Ohanesov (Oqenesov) kimi keçir. Azərbaycan Cümhuriyyəti dövründə o qaçıb aradan çıxdığından cəzalandırılması mümkün olmamışdı.

KQB-də müstəntiq işləyən Ovanesyan Qubada onlara qarşı döyüşən və məğlub edərək bölgədən qovan silahlı özünümüdafiə dəstələrinin rəhbərləri sırasında Əhməd Triniçin olduğunu yaxşı bilirdi. Keçmiş düşmənindən qisas almaq üçün onun və Tevosyanın əlinə fürsət düşmüşdü. O da bundan bacarıqla istifadə etmişdir.

Axtarış zamanı çekistlər 9-cu Kapitaninskaya, 279-cu məhəllə, mənzil 80-də yaşayan M.D.Triniçin evindən Azərbaycan Parlamenti sədrinin adına yazılmış bir ərizə götürüblər. Ərizədə yazılıb:

“**Azərbaycan Parlamentinin sədrinə.**

Zati-aliləri, möhtərəm əfəndi! Mən türk ordusu zabitlərindən biriyəm. 1333-cü ildə (hicri təqvimi ilə) əsirlikdən qurtularaq Bakıya gəlmişəm. Bakı Milli Şurasının razılığı ilə müsəlman hərbi məktəbinə müəllim təyin olunmuşam. Məhz mart faciələrindən sonra Xırdalanda və Nizovanda gedən döyüşlərdə iştirak etmişəm. Qubada könüllülərdən ibarət dəstə yaradaraq, türk qoşunlarının Zaqafqaziyaya daxil olmasınadək bolşeviklərə qarşı mübarizə aparmışam. Türk ordusu Azərbaycanda olan-

da isə rəsmi olaraq Quba qoşun hissələrinin rəisi təyin edilmişəm. Quba bolşevikləri bütün hərbi qüvvələri ilə birlikdə əsir alındıqdan və Biçeraxovun dəstələrinə bir neçə hücumdan sonra Quba qəzası, bütün Azərbaycan torpağı tamamilə düşmənlərdən təmizləndi. Mən vəzifəcə irəli çəkilərək, Qubada hərbi nümayəndə və komendant təyin olundum. Batumda digər ordu hissələrilə birlikdə bizim hissəmiz də tərxis edildi. Mən döyüş yoldaşlarımla birlikdə ordudan buraxıldım. Qafqazlı qardaşlarım tərəfindən olduqca səmimi qarşılandığımı nəzərə alaraq, yenidən Bakıya qayıtmaq qərarına gəldim. Qəzetlərdən oxudum ki, Parlamenti qorumaq üçün mühafizə dəstəsi yaradılması planlaşdırılır. Sizdən xahiş edirəm ki, həmin dəstənin təşkil olunmasını mənə həvalə edəsiniz.

**Qubanın sabiq komendantı Əhməd Bedi"**
**(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Parlamenti qorumaq üçün mühafizə dəstəsi yaradılıb. Lakin bu dəstəyə Əhməd Triniç deyil Xalid adlı Osmanlı zabiti rəhbər təyin edilib. Bu dəstənin fəaliyyəti haqqında "Əksinqilab ilə mübarizə təşkilatı"nın rəisi Nağı Keykurun (Şeyxzamanlı) yazır ki, Osmanlı ordusunda gələnlər parlamentin mühafizə alayına daxil olurlar. Bizə sonradan məlum oldu ki, onlar Azərbaycan hökuməti tərəfindən aldıqları maaşdan bir neçə dəfə çox rus pulu da yalançı nümayəndələrdən alırlarmış. Hökumətimiz işğal ərəfəsindən son olaraq belə bir qərar verir: hökumət təcili olaraq Bakıdan Gəncəyə çəkiləcək və Qızıl Ordu ilə müharibəyə Gəncədən başlanacaq. Bunun təmin edilməsi üçün maddi vəsaitə ehtiyac var idi. Təcili olaraq Azərbaycan Dövlət Mərkəzi Banka Gəncə şöbəsinə 100 milyon manat göndərilməsi əmrini verir. Pullar sandıqlara qablaşdırı-

lır və vağzala aparılaraq vaqonlara yüklənir. Qatar hərəkət edən anda Parlamentin mühafizə alayından qısaboylu türkiyəli zabit olan Xalid başında əlli-altmış silahlı dəstə vağzala gələrək qatarın hərəkətinə mane olur (**Keykurun N., 2007:81**).

Əhməd Triniç Parlamenti qorumaq üçün mühafizə dəstəsi yaradılmasında iştirakı haqqında heç bir sənədə rast gəlməmişik. Amma onun bu ərizəsi həbs edilməsi və istintaqı üçün bir vasitəyə çevrilib. Onu öncə Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 75-ci maddəsi ilə ittiham ediblər. Lakin bu maddəyə aid sübutlar tapa bilmədiklərinə görə ittihamı dəyişərək Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 215-ci maddə, 1-ci bəndi və 10-cu maddə, 2-ci bəndi əsasında mühakimə etməyə başlayıblar. İstintaq zamanı 37 şahiddən izahat alınıb (**AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi**).

Şahidlər Əhməd Triniçlə fərqli tarixlərdə tanış olsalar da müstəntiqlər onlara əsasən 1918-ci illə bağlı suallar veriblər. Cavabların çoxu onun xeyrinədir. Məsələn, Ümumittifaq Kommunist Partiyasının məsul işçisi Art məktubunda göstərir ki, o, Əhməd Bedi Triniçlə 1918-1919-cu illərdə tanış olub. Onu sədaqətli kommunist-bolşevik kimi tanıyıb. Triniç gizli bolşevik təşkilatının tapşırığı ilə İttihad Partiyasına göndərilib. Həmin vaxt da Ümumittifaq Kommunist Partiyası sıralarına daxil olub. Quba qəzasında əksinqilabçılarla mübarizədə fəal iştirak edib. Partiya orqanlarında onunla birgə işlədiyi dövrdə Triniçə heç bir ittiham irəli sürülməyib. Onun kimlərisə döyməsi təsdiqlənməyib və bu tamamilə iftiradır.

Müstəntiq şahidlərdən Ş.A.Əsgərova və Q.A.Məmmədliyə sual verir ki, Ə.B.Triniçin 1918-1919-cu illərdəki fəaliyyəti, eləcə də quldur dəstələri yaratması, Sovet hakimiyyəti əley-

hinə mübarizə aparması barədə nə bilirsiniz. Şahidlər cavab verirlər ki, Əhməd Bedi Triniç 1916-cı ildə türk ordusunun zabiti ikən ruslara əsir düşmüş, əsirlikdən qaçaraq Azərbaycana gəlmiş, burada bolşeviklərlə tanış olmuş və Ümumittifaq Kommunist Partiyasına üzv yazılmışdır. Azərbaycanın partiya orqanlarında bir sıra məsul vəzifələrdə işləmişdir. Respublika rəhbərliyinin ona qarşı münasibəti ani surətdə pisliyə doğru dəyişmiş, onu təqib etməyə başlamışlar.

Adıgözəl Məmmədovun Əhməd Triniçin həbsxanada keçirdiyi günlər haqqında qeydləri çap etdirməsi olduqca diqqət çəkəndir. Məsələn, "Fevral qurtarır. Yenə məhkəməni gözləyirəm. İndi də marta ümid edirəm. Hər gün yeni-yeni xəbərlər gəlir. "Kommunist" qəzetini oxuyuram – Əhməd Triniç – Azərbaycan xalqının və elminin düşmənidir. Ha! Ha! Ha! Belə yaramaz böhtanların qarşısında bilmirsən nə edəsən – ağlayasan, yoxsa güləsən. Guya mən faşistlərlə bərabər, Ruhulla (Axundov) ilə birgə Dil və Ədəbiyyat İnstitutunu öz əlimizə keçirmiş və orada əksinqilabi iş aparmışıq. Hamısı ağ yalan, yaramaz böhtan. Mən hətta bilmirəm ki, o institut harada yerləşir.

Ruhulla! Dünyada mənim yeganə "dostum". Heyif ki, 16 ildən sonra bildim ki, o, dost deyildir. Bu adam aprelin 17-də səhər dedi ki, mən böhtanların qurbanıyam, axşam isə mənim partiyadan çıxarılmağıma səs verdi; bu riyakar da, onun Fridası da həbs olundular" (**Məmmədov, A., 2017:23 aprel.** http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-192849-xeber.html#.Wt4SV1ygfIU ).

Yaxud başqa bir qeydində yazır: "Bütün hazır hərflər mənim vaxtımda çap olundu. Məndən sonra Azərbaycan xalqının "dostu" Əsəd (Axundov) iş başına (yəni Azərnəşrə direktor –

Ə.Ş.) gəldi və ilyarım ərzində lüğətin nəşrini dayandırdı. Azərnəşr kollektivində cəsarətli oğullar az deyil. Onlar kimin dost, kimin düşmən olduğunun fərqinə varacaqlar. Gün gələcək ki, haqq-ədalət yerini tapacaq. Mənimlə bir sırada yatanların isə 90 faizini Mikayil Hüseynov, (Hənəfi) Zeynallı, (Vəli) Xuluflu, (İdris) Bağırov, yaxud (Əli) Nazim şübhə ilə qarşılayırdılar. Mən hətta onlara da əl uzadaraq alçalmadım. Onlar həmişə mənə quyu qazmağa çalışırdılar, bu gün məni bu kompaniyaya qoşmaq istəyirlər – bu nömrə keçməyəcək.

Neyləyə bilərəm, qələm düşmən əlindədir, mən isə müdafiə hüququndan məhrum olunmuşam. Eybi yox, belə nömrələrlə mənim iradəmi qıra bilməzlər. "Gənc işçi" qəzetində Ağa Hüseyn adlı birisi mənim barəmdə iftira yayır – guya (Əli Heydər) Qarayevin göstərişi ilə mən komsomolçuları oğru, quldur adlandırmışam. Yazmaq, hürmək asandır, lakin sübut eləmək lazımdır..."

İstintaqda Əhməd Triniç İttihad Partiyasının üzvü olduğunu gizlətməyib. Bildirib ki, parlamentə onun adından yazılan ərizə saxtadır. Heç bir əksinqilabi danışıqlara yol verməmiş və Azərbaycan Kommunist Partiyasının katibi M.C.Bağırovu öldürmək niyyətində olmamışdır. Onunla bağlı şahidlərin verdiyi ifadələr yalan və iftiradır" **(Məmmədov, A., 2017:21 aprel).**

1936-cı il oktyabrın 14-də müstəntiqlər Əhməd Triniçin cinayət işini bitmiş hesab edərək Azərbaycan Sovet Sosialist Respublikası Ali Məhkəməsinin Xüsusi Kollegiyasına göndərmişlər. Doqquz ay orada saxlanılan cinayət işi baxılmaq üçün məhkəməyə göndərilməmişdir. Nikolay Yejovun (1895-1940) 1936-cı ilin aprelində yerlərə göndərdiyi operativ əmrə əməl

edilsəydi Əhməd Triniçin istintaq işi çoxdan Xüsusu Kollegiyaya göndərilməli və o güllələnməli idi.

## İ.K.Əfəndiyev Əhməd Triniç haqqında

Azərbaycan Baş Siyasi İdarəsinin (KQB) Sovet Kəşfiyyat İşi Üzrə İnformasiya Şöbəsinin "Ayaz" ləqəbli əməkdaşı İ.K. Əfəndiyev 1953-cü il oktyabrın 7-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Nikita Xruşşova yazdığı geniş məktubda Mir Cəfər Bağırovun fəaliyyətindən bəhs edib. Lakin müəllif nədənsə 17 il öncə ölmüş Əhməd Triniçi də unutmayıb. Məktubda qəribə bir ziddiyyət də var. 1930-cu illərdə Əhməd Triniçi müdafiə etdiyi Mir Cəfər Bağırovu indi də onu öldürməkdə suçlayır.

İ.K.Əfəndiyev yazır ki, 1920-ci illərdən Əhməd Triniçi izləyib, haqqında məlumat toplayıb, əməkdaşı olduğu təşkilatın rəhbərliyinə, Mərkəzi Komitəyə və başqa təşkilatlara göndərib. Bu işdə ona köməklik edənlər arasında bacısı Bulqeyis və bacısının əri Qulam Məmmədov da olub. Onun göndərdiyi məlumatlara necə reaksiya verildiyinindən söz açan İ.K.Əfəndiyev yazır ki, "Mənim xəttimlə (kəşfiyyat) sərəncam daxil olmuşdur ki, "Triniçin işini qurtarın.... Bu informasiyanı qulaqardına vuran Bağırov vəziyyəti o hala catdırmışdı ki, Qaraqoyunlu üsyanı baş verdi" (**Məmmədov, A. 2017: 17 aprel, http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-191898-xeber.html#.Wt4So1ygfIU**).

Moskvanın "Triniçin işini qurtarın" sərəncamını yerinə yetirə bilməyən, onun həbs olunmasına belə nail ola bilməyən İ.K.Əfəndiyev görünür bərk əsəbləşib. Zəhmətinin hədər getməsi onu hövsələdən çıxarsa da geri çəkilməyib. Əhməd Triniçə qarşı daim mübarizə aparıb. Hətta öləndən sonra da on-

dan əl çəkməyib. Bu İ.K.Əfəndiyevlə Əhməd Triniç arasında şəxsi münasibətdən doğan ədavətə oxşamır. Sovet Kəşfiyyat İşi Üzrə İnformasiya Şöbəsinin "Ayaz" ləqəbli əməkdaşı İ.K. Əfəndiyev peşə xəstəliyinə oxşayır. Tarixdə və bədii əsərlərdə buna bənzər nümunələr çoxdur.

İ.K.Əfəndiyevin çox ciddi bir təşkilata – Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibinə rəsmi donos göndərməsi belə qənaət yaradır ki, yazdıqları ciddidir və əsaslandırılmışdır. Əhməd Triniç haqqında yazır ki, bu adam ideya rəhbəri olduğu Qəleybuqurd şeyxləri, qolçomaqlar, "Türkiyə könüllüləri ilə" birgə müsavatçılarla birləşərək Qaraqoyunlu üsyanını hazırlayıb. Bütün fəaliyyəti pantürkizm şüarı altında olub. Bu informasiyanı toplayıb Bağırova (söhbət Mir Cəfər Bağırovdan gedir – Ə.Ş.) verdik. O, bizim dediklərimizi qulaqardına vurdu. Vəziyyət o hala çatdı ki, Qaraqoyunlu üsyanı baş verdi (**Məmmədov, A. 2017: 17 aprel, http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-191898-xeber.html#.Wt4So1ygfIU**).

İ.K.Əfəndiyevin bu iddası da inandırıcı görünmür. Çünki, bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Əhməd Triniç bütün gücü ilə onlara kömək edib. Yeni qurulmaqda olan Sovet hökumətinə tabe olmaq istəməyənlərə divan tutub. Bu da səbəbsiz deyildi. Özünü qorumaq üçün bolşeviklərin hər əmrini yerinə yetirməyə hazır idi. Yaxşı bilirdi ki, bolşeviklər onun 1918-20-ci illərdəki fəaliyyətindən xəbər tutsalar sərt cəzalandıracaqlar.

Bolşevik işğalından sonra "Müsavat" Partiyasının gizli fəaliyyətini təşkil edən, 1920-1923-cü illərdə müxtəlif vəzifələrdə çalışan Mirzəbala Məmmədzadə də Əhməd Triniçin fəaliyyətindən xəbərdar olub. Mühacirətə getdikdən sonra qəzasın-

da bolşevik işğalına qarşı əhalinin silahlı mübarizəsindən bəhs edən "Yıldırım" adlı hekayə yazaraq "Yeni Qafqasiya" jurnalında nəşr etdirib. Hekəya bolşeviklərə qarşı müqavimət dəstəsinə rəhbərlik etmiş Osmanlı ordusunun zabiti Yusif Camala həsr edilib. Hadisələr 1921-ci ildə cərəyan edir. Yusif Camal obrazı olan Yıldırıma qarşı mübarizənin başında gəlmiş, günahsız azərbaycanlıları həbs, edam və talan etməkdə ad çıxarmış Əhməd durur. Bolşeviklərə baş əyməyənlərə divan tutan bu adamı kommunistlər "Tovariş Triniç" deyə çağırırlar. Uzun boylu, sarışın, slavyan tipində göygöz olan bu arnavut Bakıda yaşayan bir dul erməni qadınla evlənib. Bir zaman millətin Əhməd Bədi kimi tanıdığı bu adam "1918-1920-ci illərdə, Azərbaycanın müstəqilliyi dönəmində İttihadi İslam Partiyasının katibi, "İttihad" qəzetinin redaktoru olmuş" bu adam "Azərbaycan milliyyətçilərini tanıdığı üçün onları ruslara göstər"mişdir (**Əsgərzadə, 2019: 18 iyun, https://525.az/site/?name=xeber&news_id=122299#gsc.tab=0**).

Mirzəbala Məmmədzadə Əhməd Triniçin fəaliyyətindən söz açarkən çətin ki, yanıla. İctimai-siyasi həyatda fəal olduğundan Azərbaycanda baş verən hadisələri diqqətlə izləyirdi. Bolşevik işğalından sonra Ali Xalq Təsərrüfatı Şurasında işlədiyindən qəzasında baş verən hadisələrlə bağlı sənədlərin tərcümə üçün ona verilməsi normaldır. Qəzasında baş verən hadisələr haqqında yazdığı "Yıldırım" hekayəsi də bədii təxəyyülün məhsulu deyil, Mirzəbala Məmmədzadənin yaxşı bildiyi, sənədlərə dayanan bir əsərdir.

Mirzəbala Məmmədzadəyə görə Əhməd Bədi Triniç Lənkaran ÇK-na rəhbərlik edib. Azərbaycan Milli Təhlükəsizlik Xidmətinin tarixini və repressiya dövrünü sənədlərlə və çox

ciddi araşdıran professor Cəlal Qasımovun Əhməd Triniçin Lənkaranda ÇK-ya rəhbərlik etdiyi haqqında yazıya rast gəlmədik. Ola bilsin Əhməd Triniç Lənkəranda baş vermiş üsyanın yatırılmasında fəallıq edib. Buna görə də Mirzəbala Məmmədzadənin yadında ÇK rəhbəri kimi qalıb.

İ.K.Əfəndiyev Nikita Xruşşova yazır ki, mən və bir sıra kommunistlər Əhməd Bedini yaxşı tanıyırdıq. Mən, Qulam Məmmədov, Bulqeyis Məmmədova və başqa yoldaşlar partiyanın kəşfiyyat xəttilə şəxsən Bağırova xəbər verirdik, yazırdıq ki, Qubaya göndərilmiş türk qoşunlarının qərargah rəisi Əhməd Bedin Ümumittifaq Kommunist Partiyasının üzvü və rəhbər işçisi Əhməd Triniçə çevrilib. Bu, o kəsdir ki, bolşevik Məhəmməd Mehdini asıb. Rəsmi informasiyalarla müəyyən edilmişdir ki, Əhməd Triniç görkəmli türk kəşfiyyatçısı, antisovet qruplaşmaların təşkilatçısı, pantürkizmin ideoloqudur. O, müsavatçılarla əlbirdir və s. Lakin Bağırov (Fövqəladə Komissiyanın sədri) bunları qulaqardına vuraraq gözə kül üfürür və deyirdi: "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə məlumdur ki, Əhməd Triniç partiya tərəfindən düşmən düşərgəsinə iş üçün göndərilmişdir, bu, hamımıza məlumdur" (**Məmmədov, A. 2017:17 aprel, http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-191898-xeber.html#.Wt4S01ygfIU**).

İ.K.Əfəndiyev yazır ki, Quba şəhərinin komendantı olarkən (söhbət Əhməd Triniçdən gedir – Ə.Ş.) Bakı Kommunasına mənsub olan bütün pulları mənimsəyərək Sovet xəzinəsini talan etmişdir. Lakin mənim ağzımdan vurdular. Bu o, demək idi ki, bu sənin obyektlərin deyil, mane olma. Bizim xaricdəki kəşfiyyatçılarımız Moskvaya xəbər verdilər ki, əksinqilabçılar Bakıdakı Azərbaycan Pedaqoji İnstitunda yuva qu-

rublar. Məhz bundan sonra onlar Sovet Sosialist Respublikası İttifaqından çıxarıldılar.

Təsadüfi deyildi ki, Bağırov da eynilə Beriya kimi partiyanın şübhə ilə yanaşdığı adamları nəinki həbsdən azad edirdi, əksinə həm də təkid edirdi ki, o insanları azad etmək vacibdir. Necə ki, Triniçi, Qazan Papax oğlu Məmmədovu, Hüseyn Musayevi, Z.Əlizadəni və digərlərini azad etmişdi.

Budur bəzi faktlar, onlar Bağırovun indiki hərəkətləri müqabilində heç də təsadüfi deyildir, onların arxasında sosial-siyasi köklər durur (**Məmmədov, A. 2017:17 aprel, http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-191898-xeber.html#.Wt4S01ygfIU).**

İ.K.Əfəndiyevin yazdıqları ciddi ittihamlar olsa da sənədlər onu təsdiqləmir. 2016-cı il may ayının 12-14-də Türkiyənin Kastamonu şəhərindəki Universitetin keçirdiyi simpoziuma bir məruzə hazırlamışdım. Həmin məruzədə Türkiyədən gəlib Azərdaycanda işləmiş 25-dən çox adamın siyahısını, haqlarında qısa bilgi də vermişdim. Onların arasında nəinki Türkiyədə, Avropada da tanınan Reşid Süreyya Gürsey (1889-1962), Remziye Hisar (1902-1992), Şevket Süreyya Aydemir (1897-1976) və başqaları da vardı.

Reşid Süreyya Gürsey Azərbaycandan getdikdən sonra Sorbona Universitetində və Kembric Universitetində təhsilini davam etdirmiş, dünyada tibb sahəsinin ən böyük bilicilərindən biri, rentgenoloq, riyaziyyatçı, fizik, dilçi, estetik, şair, rəssam, xəttat və s. kimi tanınmışdır. Atom Enerjisi Komisyonunun layihəsi əsasında ABŞ-da Broxaven Beynəlxalq Sürətləndirici laboratoriyasında, Princeton İrəli Çalışmalar və Kolumbiya Universitetində fizika dünyasının ən irəli gedənləri – məşhurları ilə birgə araşdırmalar aparmış, elmin bir çox sahə-

lərində ilkə imza atanlardan olmuşdur. Ömrünün son illərində isə Yale Universitetində professor olmuşdur.

Remziye Hisar Türkiyənin birinci qadını idi ki, Fransanın Sorbonne Universitetini bitirmiş və elmlər doktoru adını almışdı. İstanbul Universitetində və başqa elm ocaqlarında kimya və fiziki-kimya dərsləri deyən professor Remziye xanım beş dərslik yazmış və ixtisasına dair xarici dillərdən dörd kitab tərcümə etmişdir.

Şevket Süreyya Aydemir 1918-1920-ci illərdə Azərbaycanda müəllim işləməklə yanaşı, Şəkidə (Nuxada) adamlara hərbi təlim keçərək silahlı özünümüdafiə dəstələri yaratmış və onun komandiri olmuşdur. Türkiyəyə döndükdən sonra ölkəsində diqqəti çəkən ideoloqlardan olan Şevket Süreyya Aydemir "Kadro" jurnalını nəşr etdirməyə başlamışdır. Yazıçı, filosof, iqtisadçı, tarixçi kimi şöhrət qazanmışdır. Mustafa Kamala həsr etdiyi üç cildlik bioqrafik "Tək adam", İsmət İnönüyə həsr etdiyi üç cildlik bioqrafik "İkncі adam", Ənvər Paşaya həsr etdiyi üç cildlik bioqrafik "Makedoniyadan Orta Asiyaya Ənvər Paşa", bioqrafik "Mendersin dramı", avtobioqrafiq "Suyu arayan adam" və b. kitabları yalnız Türkiyədə deyil, Avropada da məşhurdur (**Şamil, A., 2008:20**).

Əhməd Triniç haqqında "öz əksinqilabi fəaliyyətini davam etdirirdi. Belə ki, ali pedaqoji təhsili təşkil etmək adı altında Azərbaycan Pedaqoji İnstitutuna (APİ) Türkiyədən müəllimlər dəvət olunurdu. Həmin "müəllimlər – elmin və Azərbaycan dilinin bilicisi" kimi qələmə verildi" (**Məmmədov,A.2017:17aprel, http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-191898-xeber.html#.Wt4S01ygfIU**).

İ.K.Əfəndiyev elə bil unutmuşdu ki, həmin illərdə o, "Kommunist" qəzetində işləyirdi. Müəllim dəvət etməyə səlahiyyəti yox idi. Müəllimləri Azərbaycan Maarif Komissarı Mustafa Quliyev dəvət edib. Sözsüz ki, o, bu işi təkbaşına deyil, respublika rəhbərliyi ilə məsləhətləşdikdən sonra görüb. Bolşeviklər Bakını işğal etdikləri ilk ildə 48 min nəfərə yaxın insan öldürmüşdülər. Onların bir qismi də Azərbaycanın sayseçmə insanları idi.

Ziyalıların bir qismi həbs edilmiş, sürgünə göndərilmiş, bir qismi də mühacirətə üz tutmuşdu.

Azərbaycan Maarif Komissarı Mustafa Quliyev vəziyyətdən çıxmaq üçün Muhittin Birgen (1885-1959), İsmail Hikmet Ertaylan (1899-1967), Halil Fikret Kanad (1892-1974) kimi millətsevər, bacarıqlı pedaqoq və istedadlı elm adamlarını dəvət etmişdi. Onlar Azərbaycanda olduqları müddətdə siyasi məsələlərə qarışmamış, elmi, pedaqoji fəaliyyət göstərmişlər.

Muhittin Birgenin təklifi ilə Bakıya dəvət edilən İsmail Hikmet Ertaylan, Halil Fikret Kanad da elmə və təhsilə verdikləri xidmətləri ilə bu gün də sevilirlər.

## İsmail Hikmet Ertaylan

Fransız dilini gözəl bilən İsmail Hikmet Ertaylan Bakı Dövlət Universitetində işə başladıqdan az sonra filologiya fakültəsinə dekan, 1927-ci ildən professor seçilib. Bakıda yaşayarkən 2 cildlik (4 kitab) "Türk ədəbiyatı tarixi" kitabını nəşr etdirib.

Asiyanın bir çox ölkələrində yaşayan, araşdırmalar aparan İsmail Ertaylan Əfqanıstanda Universitetin açılmasının təşkilatçılarından olub. Türkiyəyə döndükdən sonra müxtəlif təhsil



Şək. 18 Şəkildə İsmail Hikmet Ertaylan

ocaqlarında müəllimlik edib, Qazi universitetində dərs deyib, Dil qurumuna üzv seçilib.

Onun geniş dünyagörüşü, çoxsahəli biliyi haqqında bilgi əldə etmək üçün işlədiyi təşkilatları gözdən keçirmək kifayətdir: Kıbrısda müəllimlik, Ankara Dövlət Konservatoriyasında rektor, Prezident Orkestrinin rəhbəri, İstanbul İncəsənət akademiyasının müdiri, İstanbul Universitetinin professoru olmuşdur (**Şamil, A.,** 2008:20).

## Halil Fikret Kanad

Almaniyanın Berlin və Leypsik Universitetlərində fəlsəfə fakültəsində oxuyan, doktorluğunu da orada müdafiə edən Halil Fikret Kandil Türkiyənin pedaqoqika sahəsində ilk elmlər doktorudur. Bakıda Universitetdə işləyərkən pedaqoqika və psixologiyadan, fəlsəfədən dərs deyir, proqramlar tərtib edib, dərsliklər və məqalələr yazıb.



Şək. 19 Şəkildə Halil Fikret Kandil

KQB-nin təzyiqi ilə Azərbaycandan çıxarılan alim vətənə dönüb və Qazi Universitetində Pedaqoqika şöbəsini yaradıb. Orada və Köy İnstitutlarında təlim və tərbiyədən dərs deməklə yanaşı, proqramlar tərtib etdirir, məqalələr və kitablar yazaraq

nəşr etdirir. Türkiyə tarixində ilk dəfə iki cildlik "Pedaqoqika tarixi" yazan Halil Fikret Kandil milli tərbiyə qavramını da irəli sürən ilk alim olub (**Şamil, A., 2008:20).**

İ.K.Əfəndiyevin bəyənmədiyi, ittiham etdiyi Türkiyəli müəllimlər bunlar idi. Onun kimi məhdud düşüncəlilərin donosları Azərbaycanda elmin və təhsilin inkişafına belə zərbə vurub.

## İ.K.Əfəndiyevin Əhməd Triniç haqqındakı ittihamları

Əhməd Triniçin Qəleybuqurd şeyxlərinin, qolçomaqların, Türkiyə könüllülərinin ideya rəhbəri olduğu, müsavatçılarla birləşərək Qaraqoyunlu üsyanını hazırladığı inandırıcı görünmədiyi kimi, faktlarla da təsdiqlənmir. Uzun sürən istintaqda Türkiyə casusu adlandırılan Əhməd Triniçin hansı dövlət sirlərini əldə etdiyi, kimlərin vasitəsilə, Türkiyəyə necə ötürdüyü haqqında heç bir sənəd yoxdur. Mətbuatda Türkiyə casusu deyə qaralama kampaniyası aparılsa da, istintaqda bu mövzuya, demək olar ki, toxunmayıb.

1926-cı ilin siyahıya alınmasında Bakı şəhərində 453 min 333 nəfər yaşadığı göstərilir. Bunun da 118 min 737 nəfəri Azərbaycan türkləri olub. 1920-1926-cı illərdəki kütləvi həbslər, güllələnmələr, sürgünlər və təqiblər aydınlara ağır zərbə vurmuş, onların sayını kəskin azaltmışdır.

Buna görə də sağ qalmış azsaylı aydınların əksəriyyəti bir-birini tanıyırdı. Bakıda yaşayan arnavutlar da barmaqla sayılacaq qədər idi. Əhməd Triniçin Əmin Abidi və xanımı Nafiəni tanımaması mümkünsüzdür. Amma nə Triniçin, nə də Əmin Abidin, Nafiənin istintaq materiallarında bir dəfə də olsa onların şəxsi əlaqələrindən söz açılmır.

İstintaq materiallarında Əhməd Triniçin antisovet qruplaşmasının üzvlüyünü, pantürkizmin ideoloqu olmasını təsdiqləyən heç bir sənəd yoxdur. Əksinə, onun məqalələrində və çıxışlarında milli ziyalılara qarşı sərt bir təpki var.

Ümumittifaq Kommunist Partiyasının məsul işçisi Levan Qoqoberidze izahatında yazır ki, 1918-ci ildə Əhməd Bedin Triniçlə birgə Qubada quldur dəstələrinə qarşı mübarizə aparmışam. Qubadan çıxarkən dövlətin bütün pullarını gətirib Bakı şəhərində banka təhvil vermişəm.

Əhməd Bedin Triniç 1936-cı il fevralın 2-də Ümumittifaq Kommunist Partiyası Mərkəzi Komitəsinə, Zakkraykoma (Ümumittifaq Kommunist Partiyası Zaqafqaziya Diyar Komitəsi) və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə göndərdiyi ərizədə yazır ki, 1918-1919-cu illərdə Azərbaycan ərazisində müxtəlif quldur dəstələrinin formalaşmasına qarşı mübarizə aparmış, Şıxlarski bəylərinin 150 min rubl dəyərində olan qiymətli əşyalarını Levan Qoqoberidzeyə vermişəm **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Təəssüf doğuracaq fakt budur ki, İ.K.Əfəndiyevin raportlarının hamısı ilə araşdırıcılarımız tanış deyil. Onun Nikita Xruşşova ünvanladığı donosda yalnız yuxarıda adlarını çəkdiyimiz insanlar suçlu sayılmır. Azərbaycanın repressiyaya məruz qalmış, ölümə məhkum edilmiş yüzlərlə say-seçmə övladı ilə yanaşı, sağ qalan onlarla ziyalısı da ittiham olunur. Onların arasında Məhəmmədəmin Rəsulzadə, Abbasqulu Kazımzadə, Heydər Hüseynov, Mehdi bəy Şəfibəyov, Bahadur Eyvazov, Mərkəzi Komitənin katibi Həsən Həsənov, Hacıağa Şahverdiyev, akademik Mirəsədulla Mirqasımov və başqaları var.

İ.K.Əfəndiyevə görə onların hamısı cəzalandırılmalı idi. Lakin Mir Cəfər Bağırov onları qorumuşdur. Bu adam yalnız

kişilər haqqında donoslar toplamaqla kifayətlənməmiş, qadınları da güdmüş, onlar haqqında topladığı yalan-doğru məlumatları yuxarılara göndərmişdi. Sovet rəhbərliyi üçün mötəbər mənbə sayılan bu donoslarda günahsız ittiham olunanların cəzalandırılmasının qarşısını almaq üçün şübhəsiz ki, Mir Cəfər Bağırov xeyli manevr etməli olmuşdur.

## Əhməd Triniç intihar edib, yoxsa onu öldürüblər?

Əhməd Bedi Triniçin ölümündən 80 ildən çox keçsə də araşdırıcılar hələ də onun ölümü ilə bağlı fərqli fikirdədirlər. Hələ də Mir Cəfər Bağırovun Əhməd Triniçi öldürtdüyü fikrinin tərəfdarları var.

Sərt xarakterli, qətiyyətli, qorxmaz görünən Əhməd Triniçin özünü öldürməsi inandırıcı görünməyə bilər. Lakin onun həbsxanada keçirdiyi sarsıntılar, orada yazdığı qeydlər başqa bir fikir söyləməmizə əsas verir.

Həbsxanaya düşdüyü ilk günlər "Təəssüf ki, ölüb gedəcəyəm və əvəzində onlara heç bir yaxşılıq edə bilməyəcəyəm. Ağ ciyərim və içalatım ağrıyır, qızdırma, baş ağrıları və revmatizma hər axşam mənə əziyyət verir. Lakin mən özümü möhkəm hiss edir və elə buna görə də yaşayıram. ...Əgər düşmənlərimin alçaq sifətlərinə tüpürməsəm, hələ ölən deyiləm!!!" – yazan Əhməd Triniç sonralar yazır: "Yanvarın 16-sı! Kamerada diri-diri çürüyürəm, Ali Məhkəmənin adına yazdığım ərizələrə (onlar kəskin və sərt idi) heç bir cavab yoxdur, əgər aclıq elan etsəm, məhkəməsiz öləcəyəm və mənim düşmənlərim də elə bunu istəyirlər, bunu etmədim" **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

"Bunu etmədim" ifadəsi onun özünə qəsd etmək fikrinə düşdüyünün ilk xəbərçisidir. Başqa bir qeydində isə yazır:

"Mən dünyada hər şeydən çox yazıq adamlardan qorxuram. Əgər mən bədbəxt vəziyyətdəyəmsə, ölmək yaxşıdır. Sizdən xahiş edirəm ki, məni təcili mühakimə edin və mən Sizdən, Siz də məndən qurtulaq" (AR DTX-nin arxivi, **PS-1622 saylı istintaq işi).**

Əhməd Triniçi intihara sürükləyən inamının qırılması, sarsılmasıdır. O, son qeydlərinin birində yazır: "Günlər, günlər! Qoqa (söhbət Levan Qoqoberidzedən gedir – Ə.Ş.) da proletar dövlətinin zamanında həbs olundu, buna inanmaq olmur. Yaşayıb bu günləri görməkdənsə ölmək yaxşıdır.

Ah, dünya! Gör mən nə eşidirəm, nə görürəm. Ölmək bunu görməkdən yaxşıdır. Əli Məmmədov, Mirzə Qasımov, Mahmud Ağayev, Kazakov, Cavadyan, Tağı Şahbazi, Vəlibəyov (söhbət respublika prokuroru olmuş Bahadur Vəlibəyovdan gedir – Ə.Ş.), Məcid Yaqubov və başqaları həbs olunublar. Bir axşam Cavadyanla eyni kamerada qalmış, necə lazımsa onu təmizləmişəm. Deyirdi ki, Mariya onu aldadıb. O, Nemətin qəhrəmanlığından danışırdı. Qısası, mənə quyu qazanlar özləri ora düşdülər. Hələlik bəziləri qalıb, bu axınla onlar da fevralın 23-də gələrlər" (AR DTX-nin arxivi, **PS-1622 saylı istintaq işi).**

Əhməd Triniçin istintaqı başa çatsa da 9 ay istintaq materialları məhkəməyə göndərilməmişdi. Buradan belə qənaətə gəlmək olar ki, Mir Cəfər Bağırov cinayət işinin məhkəməyə göndərilməsini istəməyib. Hakimiyyətdaxili ziddiyətlərin necə nəticələnəcəyini gözləyib. Bəlkə də Nikolay Yejovun (1895-1940) Lavrenti Beriya ilə əvəzlənməsinədək Əhməd Triniç sağ qalsaydı o, bu suçlamadan da qurtularaq rəhbər vəzifədə işləyəcəkdi.

Rəsmi sənəddə isə yazılıb ki, 1937-ci il iyul ayının 8-də vətəndaş Triniç Ə.B. kamerada asılmış vəziyyətdə tapılmışdır. Onun ölümü haqqında başqa sənəd yoxdur **(AR DTX-nin arxivi, PS-1622 saylı istintaq işi).**

Əhməd Triniç həbsxanada ölsə də mətbuat, ictimai təşkilatlar, Sovetlərə məddahlıq etməklə özlərini qorumağa çalışanlar onun ölüsündən də əl çəkmək istəmirdilər. Buna nümunə kimi "Kommunist" qəzetinin 1937-ci il sentyabrın 30-da çap olunmuş "Azərbaycan Dövlət Dram Teatrını burjua nasionalistlərinin əlaltılarından təmizləməli" adlı məqalədən bəzi parçaları burada verməyi münasib bilirəm: "Budur, Ülvi Rəcəb. Bu adam xalqın qəddar düşmənləri – yapon-german faşizminin agentləri R.Axundovun və Ə.Triniçin vasitəsilə teatra soxulmuşdur. Yaradıcılığı bir qəpiyə dəyməyən bu adam tez bir zamanda "məşhurlaşmış" və respublikanın əməkdar artisti adına nail olmuşdur.

O, xalq düşmənləri R.Axundov, Ə.Triniç, Ə.Kərimov, H.Nəzərli ilə sıx əlaqə saxlamış, xarici reaksion qəzetlər oxumuş, patefonda xarici plastinkalar çaldırmış, məişətcə pozulmuş, səhnəmizi osmanlı, ərəb və fars sözləri ilə zibilləməyə çalışmış, gənc kadrların inkişafına mane olmuşdur...

...Budur, Möhsün Sənani. O, özünün məişətcə pozğunluğu, şübhəli və ləkəli elementlərlə sıx əlaqəsi, sovet aktyoruna yaraşmayan murdar hərəkətləri ilə məşhurdur. Budur, Şəmsi Bədəlbəyli. O, keçmişdə teatra "rəhbərlik" edən Ə.Triniç, Ə.Kərimov, H.Nəzərli kimi kontrrevolusioner direktorların əlaltısı olmuş, onların çaldığı havalarla oynamış və hazırda kontrrevolusioner qardaşı ilə əlaqə saxlayır... Bütün bu şübhəli və ləkəli adamlar, burjua nasionalistlərinin əlaltıları olan

bunlar, artıq ifşa edilmiş və teatrdan qovulmuşlar" (**Azərbaycan Dövlət Dram..., 1937:30 sentyabr).**

Bu dövrün mənzərəsini əks etdirən bir güzgüdür. Adamları "xarici qəzetləri oxumaqda", "patefonda xarici plastinkalar çaldırmaqda" suçlayırlar. Onların məntiqindən belə anlaşılır ki, kim xarici dilləri bilirsə, kim savadlı və geniş dünyagörüşlüdürsə, demək "yapon-german faşizminin agentləridir".

İstintaqı aparan müstəntiqlər adamları bu cür sərt ittihamlarla çək-çevir etmədikləri halda, onların keçmiş dostları, iş yoldaşları, məsləkdaşları, bir süfrədə çörək yeyib, deyib-güldükləri insanlar görün hansı ittihamlar irəli sürürlər. Mən güc strukturlarının əməkdaşlarına, müstəntiqlərə, KQB əməkdaşlarına haqq qazandırmıram. Onların qəddarlığı, qeyri-etik, qeyri-insani münasibətləri haqqında çox deyilib, çox yazılıb. Hətta onların bəziləri hakimiyyətdə dəyişiklik baş verən kimi sərt cəzalandırılıb, ölüm hökmü də verilib.

Bəs millətin ən dəyərli övladlarının haqqında hər cür böhtanlar yazanlar, çıxışlar edənlər haqqında nə deyəsən?! Başqalarının qanı bahasına vəzifə tutanlar, özünə mövqe qazananlar vəziyyət dəyişən kimi quzuya dönərək "mən neyləyə bilərdim, zəmanə belə idi, dedilər elədim, dedilər yazdım, dedilər üzünə durdum" ifadələrilə özünə haqq qazandırmağa çalışırlar. Yaxud da "balalarım vardı, onları başıkəsik qoya bilməzdim, onları dolandırmalydım" deməklə yaxalarını kənara çəkməyə çalışırlar.

Mənə görə istintaq orqanlarında işləyənlərdən də qorxulu və təhlükəlisi belə ikiüzlülər, yaltaqlar və məddahlardır. Onlar olmasalar, onlar saxta ittihamlar irəli sürməsələr, yalançı şahidlik etməsələr, çuğulluqları ilə qürurlanmasalar, cəza aparatındakılar da bu qədər qəddar olmazlar! Donoslarda yazılanla-

rı, yalançı şahidlərin dediklərini təsdiq etmək üçün cəza aparatında işləyənlər şeytanın da ağlına gəlməyən metodlardan istifadə ediblər.

Onların bu hərəkəti minlərlə vətənsevər, xeyirxah, səmimi, cəmiyyətin inkişafına təkan verən insanı məhv edib. Guya özlərinin, övladlarının, nəvə-nəticələrinin xoşbəxt gələcəyini düşünən bu bədxahlar bilməyiblər ki, nəinki öz övladlarına, nəsillərinə, həm də cəmiyyətin gələcək inkişafına necə böyük zərbələr vurublar.

## Sonuç

Monarxiyaya qarşı mübarizə aparanların əksəriyyəti hakimiyyətə gəldikdən sonra demokratik dövlət, respublika qurmaq adı altında öz silahdaşlarına, onlarla birlikdə monarxiyanı devirənlərə qarşı sərt addımlar atıb. Bunu Rusiyanın timsalında aydın görmək olur. 1917-ci ildə çar İkinci Nikolayı hakimiyyətdən uzaqlaşdırıb Müvəqqəti Hökumət qurublar. Lakin bolşeviklər bununla razılaşmayıb. 1917-ci il oktyabrın 25-də (yeni təqvimlə noyabrın 7-də) silahlı üsyan yolu ilə hakimiyyəti ələ alıblar. Beləcə, ölkəni vətəndaş savaşına və milyonlarla insanın güllələnməsinə, həbsinə, sürgün edilməsinə, mühacirətə getməsinə səbəb olublar.

Bolşeviklər hakimiyyəti ələ aldıqları ilk gündə verdikləri vədin heç birinə əməl etmədilər. Öncə eserlərə, yəni inqilabçı sosialistlərə, sonra menşeviklərə və başqa inqilabi qüvvələrə divan tutdular. Bununla da kifayətlənmədilər. Bolşeviklər öz aralarında hakimiyyət uğrunda mübarizəyə başladılar. Trotskinin, Zinonyev-Kamenevin tərəfdarları məhv edildi. Bu qarşıdurmada minlərlə ideoloji işdən xəbərsiz insan da trotskiçi, zinonyev-kamenevçi kimi cəzalandırıldı.

1937-ci il yaxınlaşdıqca İosif Stalin silahdaşı, əqidə dostu, hakimiyyətdə nüfuz sahibi Serqo Orconikidze və onun tərəfdarlarını da aradan götürməyə başlayıb. Əhməd Bedi Triniç də Azərbaycanda müxtəlif rəhbər vəzifələrdə işləməsinə, Bakı şəhər Partiya Komitəsinin təftiş Komissiyasına üzv seçilməsinə baxmayaraq ideoloji sahədə o qədər də diqqətçəkən fiqurlardan olmayıb.

O, bütün varlığı ilə mənsəb sahibi olmağa, vəzifəsini qorumağa çalışıb. 1917-ci ildə Bakıya Müsavat Partiyasının rəhbəri Məhəmməd Əmin Rəsulzadənin yanına gələn Əhməd Triniçi az sonra İttihat Partiyasının sədri, doktor Qarabəy Qarabəyonun yanında görürük. 1918-ci ilin mart hadisələrində milli qüvvələrin yanında olan, Əli bəy Ziziksinin özünümüdafiə dəstəsində Bakı Sovetinin əsgəri birliklərinə qarşı döyüşən Əhməd Triniç orada əks cəbhənin liderləri Bakı Sovetinin Quba qəzaası üzrə komissar Levan Qoqoberidze ilə gizli əlaqəyə girib, Şıxlar bəylərinin 150 min rubl dəyərində olan qiymətli əşyalarını, Quba şəhərindəki dövlət əmlakını, eləcə də Quba əhalisindən toplanmış vəsaiti Levan Qoqoberidzeyə verib. O, yalnız Levan Qoqoberidze ilə deyil, Mir Cəfər Bağırovla, Viktor Naneyşvili, Lavrenti Beriya və başqaları ilə gizli əlaqələrə girib.

Qafqaz İslam Ordusu Azərbaycanı rus-daşnak qüvvələrindən təmizləyəndə Əhməd Triniç Osmanlı ordusunun tərkibinə daxil olub. Quba qoşun hissələri rəisi kimi bölgədəki bolşevikləri bütün hərbi qüvvələri ilə birlikdə əsir alıb, Axtı-Şəki yolu ilə Gəncəyə göndərib. Biçeraxovun rəhbərlik etdiyi kazak dəstələrinin Azərbaycana hücumlarının qarşısını alıb. Göstərdiyi şücaətə görə Qubada Qafqaz İslam Ordusunun hərbi nümayəndəsi və Quba qəzasının komendantı təyin olunub.

Mudros müqaviləsinə əsasən Osmanlı ordusu Azərbaycandan geri çəkiləndə Əhməd Triniç də ordunun zabiti kimi Batumadək gedib. Batumda odrunun əsgər və zabitləri tərxis edildikdə Osmanlı dövlətinin ərazisinə keçməyərək geriyə – Bakıya qayıdıb. İttihat Partiyasının katibi və başqa vəzifələrdə çalışıb.

1920-ci il aprelin 20-də bolşeviklər Azərbaycanı işğal edəndə Əhməd Triniç mühacirətə getməyib. Elə ilk gündən bolşeviklərlə əməkdaşlıq edərək yüksək vəzifə tutub. 1920-1935-ci illərdə Kommunist Partiyanın tərkibində dəfələrlə təmizləmə aparılanda, kütləvi həbslər keçiriləndə Əhməd Bedi Triniç onların hamısından "təmiz" çıxa bilib.

Lakin İosif Stalinin Serqo Orconikidze qruplaşmasına qarşı qətiyyətli həmləsi, Orconikidzenin intihar adı altında aradan götürülməsi, onun tərəfdarlarına da ağır zərbə olub. Moskvada Levan Qoqobidzenin həbsi onun yaxın dostu kimi tanınan Əhməd Bedi Triniçin də həbsini mütləqləşdirib. Əhməd Bedi Triniç Mir Cəfər Bağırovla, Lavrent Beriya ilə dostluq əlaqələri olmasına baxmayaraq, onlar da Moskvanın qorxusundan Əhməd Triniçi açıq müdafiə edə bilməyiblər. Buradan aydın görünür ki, qruplaşmalar arasında qarşıdurma son həddə çatanda şəxsi münasibətlər, dostluq arxa plana çəkilirmiş.

19-20 yüzil Azərbaycan tarixi və ədəbiyyatının bilinməyən nöqtələrinə aydınlıq gətirən Vilayət Quluyev "Füyuzatın ən fəal müəllifi" məqaləsində yazır: "Asan Səbrinin "Sovet hakimiyyətinin qurulmasından sonra uzun müddət "Kommunist" qəzetinin redaktorlarından biri, 1918-ci ildə Gürcüstanı və Azərbaycanı tutan işğalçı türk ordusunun zabiti, sonuncu dəfə 1930-cu ildə Bakıda görüşdüyü Əhməd Vedi Tırni" (əs-

lində isə Əhməd Bedin Triniçlə – V.Q.) ilə bağlı yazdıqları da əhəmiyyətli sayılmaya bilərdi" **(Quliyev, V., 2013:15 iyul).**

Bu onu göstərir ki, Əhməd Triniç haqqında Krımda yaşayan aydınların da geniş bilgisi varmış. Onların da KQB-yə yazdıqları izahatlarda Əhməd Triniçin də adı keçirmiş[1].

Tanış olduğumuz sənədlər onu göstərir ki, Əhməd Triniç nə Türkiyənin casusu, nə də hansısa əksinqilabçı qrupun üzvü olub. Sabit ideoloji xətti, sabit mövqeyi də olmayıb. Şəxsi karyerası xatirinə hər vasitə ilə özünü qorumağa, mövqe tutmağa çalışıb. Lazım gələndə rəhbərlərinə xoş gəlsin deyə qəddarlıqlar da edib.

Elə buna görədir ki, 1956-cı ildən sonra repressiya qurbanlarına bəraət verilməyə başlayanda övladları dəfələrlə müraciət etsələr də Əhməd Bedi Triniçə bəraət verilməyib. Ona bəraət Sovetlər Birliyi çökdükdən sonra verilib. Oğlu Fridrixin son müraciətindən sonra, yəni Azərbaycan DTK-ının keçirdiyi təkrar istintaq nəticəsində Ə.B.Triniçin işində cinayət tərkibi olmadığına görə 17 may 1990-cı il tarixli qərarı ilə iş xətm olunmuş, Triniçə bəraət verilmişdir.

**Qaynaqlar**

---

[1] 1878-ci ildə Kırımda anadan olan Asan (Həsən) Səbri Ayvazov Azərbaycanla sıx bağlı olmuşdur. Onun "Nədən bu hala qaldıq?" əsəri 1906-cı ildə Bakıda nəşr edilmişdir. Kırımdakı "Vatan", "Tərcuman" qəzetlərinin redaktoru olan, Azərbaycandakı qəzet və jurnallara çoxsayda məqalələr yazan Asan Səbri Ayvazov 1917-ci ildə qurulan Kırım Xalq Cümhuriyyəti Anayasa komissiyasının üzvü, sonralar dil, əlifba məsələlərinin müzakirəsində fəal iştirak edən bir aydın olmuşdur. 1937-ci ilin aprelin 4-də KQB Krımda onu həbs edərək dindirmişdir. KQB ilə əməkdaşlıq edəcəyini vəd etdikdə onu Kislavodskdəki sanatoriyaya göndərirlər. Tapşırırlar ki, milli hərəkat haqqında geniş hesabat-kitab yazsın. Asan Səbri tapşırığı yerinə yetirsə də 1938-ci il aprelin 4-də xalq düşməni adı ilə güllələyirlər. Asan Səbrinin KQB-nin tapşırığı ilə yazdığı kitabda Azərbaycan aydınları ilə də bağlı maraqlı faktlar var.

1. AR DTX-nin arxivi (Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi), Talıblı Böyükağa istintaq işi, M 12493-78

2. AR DTX-nin arxivi (Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi), Triniç Əmədin istintaq işi, PS-1622.

3. AR DTX-nin arxivi (Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi), Triniç Əmədin istintaq işi, P-297

4. Azərbaycan Dövlət Drama Teatrını burjua nasionalistlərinin əlaltılarından təmizləməli. (1937). "Kommunist" qəzeti, 30 sentyabr.

5. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının foto-salnaməsi (1873-1950). Birinci kitab, "Litterpress" nəşriyyatı, Bakı, 2010, səh 217.

6. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (2005). "Lider" nəşriyyatı, 2 cilddə, 2-ci cild, Bakı, http://web.archive.org/web/20151018163026/http://www.ebooks.az/view/VbAXxoH9.pdf

7. Azərbaycan tarixi, 1900-1920-ci illər (2008). Yeddi cilddə, 5-ci cild, Bakı, "Elm" nəşriyyatı.

8. Bilgin Mehmet. (2017). Teşkilat-i mahsusanın kafkasiya misyonu ve operasyonları, "Ötüken" Neşriyyatı, İstanbul. (Türkiyədə bu mövzuda çox yazılıb. Oxucunun asan tapa bilməsi və başqa qaynaqları tapması üçün biz Mehmet Bilgin əsərini göstərdik)

9. Birgen M. (2015). İttihad və tərəqqidə on il (Azərbaycan 1922-1923-cü illərdə), (Azərbaycan dilinə çevirmə, müqəddimə və şərhlər: Vilayət Quliyev) "Qanun" nəşriyyatı, Bakı.

10.Bünyadov Ziya. (1993). Qırmızı terror, Azərbaycan dövlət nəşriyyatı, Bakı.

11.Dadaşov A. (2012). Qarabəy Qarabəyov, Letterpress, Bakı.

12.Əsgərzadə Lütfiyyə. (2019). Əhməd Bədi Rəcəb oğlu Triniç, "Ədəbiyyat" qəzeti, 8 may. edebiyyatqazeti.az/news/.../3635-ehmed-bedi-receb-oglu-tri...

13.Əsgərzadə Lütviyyə. (2019). Əhməd Bədi Triniç ədəbi-bədii mənbələrdə, "525-ci qəzet", 18 iyun, https://525.az/site/?name=xeber&news_id=122299#gsc.tab=0

14.Görüryılmaz Müstafa. (2009). Türk Qafqaz İslam Ordusu və ermənilər (1918), "Qismət" nəşriyyatı, Bakı.

15.Həsənli Cəmil. (2009). Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920), "GARISMA" MMC, Bakı.

16.Həsənli Cəmil. (2012). Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939), Adiloğlu nəşriyyatı, Bakı.

17.Quliyev Vilayət. (2013) Füyuzat"ın ən fəal müəllifi. 525-ci qəzet, 15 iyul.

18.Qurban Teyyub. (2006). Düşmənlərindən güclü şəxsiyyət, Birinci kitab. Şirvannəşr, Bakı.

19.Keykurin Nağı. (2007). Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlal fədailəri, Bakı.

20.Kənan Aslan. (2011). Əhməd Triniç xalq düşmənidirmi?, 20-ci əsrdə repressiyaya məruz qalanlar, Azərnəşr, Bakı.

21.Məhərrəmov Elmar, Məhərrəmli Aynur. (2009). "Xalq qəzeti"nin ("Kommunist") yaranması və inkişafı tarixindən. Nəşrinin 90 illiyi münasibətilə. Bакı, "Elm və təhsil" nəşriyyatı.

22.Məlikməmmədov Müzəffər. (2009). Qanlıdərə. 1918-ci il Quba faciəsi (Tarixi oçerk. Sənədli tarixi povest. Xatirələr), "Adiloğlu" nəşriyyatı, Bakı.

23.Məmmədov Adıgözəl. (2007). Baş tutmatab çevriliş, "El-ALliance" nəşriyyatı, Bakı.

24.Məmmədov Adıgözəl. ( 2017). Mircəfər Bağırov Heydər Hüseynovun yeni kitabını niyə qəbul etmədi? 3 aprel, https://publika.az/news/maraqlitarix/30792.html

25.Məmmədov Adıgözəl. ( 2017). M.C.Bağırovun dindirilməsi və istintaq protokolu , 11 may, https://olke.az/news/detail/mcbagirovun-dindirilmesi-ve-istintaq-protokolu-arasdirma-x-yazi-89747/

26.Məmmədov Adıgözəl. (2017). M.C.Bağırovun gizli məchulları və onu satan yaxın çevrəsi, 17 aprel, http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-191898-xeber.html#.Wt4S01ygfIU,

27.Məmmədov Adıgözəl. (2017). M.C.Bağırovun gizli məchulları və onu satan yaxın çevrəsi, 23 aprel, http://www.pia.az/_M.C.Bagirovun_gizli_mechullari_-192849-xeber.html#.Wt4SV1ygfIU

28.Məmmədov Adıgözəl. (2017). Mircəfər Bağırov Heydər Hüseynovun yeni kitabını niyə qəbul etmədi?, http://publika.az/news/maraqlitarix/30792.html

29.Məmmədov Adıgözəl (2017). İ.K.Əfəndiyevin şərləMədərək həbs etdirdiyi elm adamları, http://olke.az/news/detail/kefendiyevin-serlederek-hebs-etdirdiyi-elm-adamlari-arasdirma-vi-yazi-87839/

30.Məmmədova Şəfiqə. (2006). Anaların fəryadı, "Gənclik" nəşriyyatı, Bakı.

31.Məmmədli Qulam. (1988). Kölgədən bir səhifə, "Ədəbiyyat və incəsənət" qəzeti, 19 avqust.

32.Nəzibzadə Nəsib. (1996). Azərbaycan xarici siyasəti (1996), "Ay-Ulduz" nəşriyyatı, Bakı.

33.Rüstəmova-Tohidi Solmaz. (2013). 1918-ciil Quba. Aprel-may 1918-ci il. Müsəlman qırğınları sənədlərdə, Bakı.

34.Süleymanov Mehman. (2014). Nuru paşa və silahdaşları, Bakı.

35.Şamil Ali. (2008). KGB arşivi'nde Türkiye'den Azerbaycan'a davet edilmiş aydınlar hakkında belgeler, 1. Milletlerarasi Türkiye-Azerbaycan münasebetleri sempozyumu (12-14 Mayis 2016) bildiriler özet/tam metinler (1 stİnternational symposium on Turkish and Azerbaijani relations (12th-14th May 2016), Kastamonu, 2016, səh.17-26.

36.Türkər Rüşdü Qaimməqam. Qafqaz İslam Ordusu Bakı yollarında, Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyati, Bakı.

37.Turan Azər. (2010). Cavidnamə, Bakı.

38.Советская историческая энциклопедия \ Глас - ГоЦз, Гогоберидзе Л. Д. http://enc.biblioclub.ru/Termin/1500890_Gogoberidze_L__D

39.Безугольный А.Ю. Генерал Бичерахов и его Кавказская армия. Страницы истории гражданской войны и интервенции на Кавказе. 1917–1919, http://fictionbook.ru/alekseyi_yurevich_bez ugolniyyi/general_ bicherahov.. online.html? page=2

40.Гогоберидзе Леван.
https://az.wikipedia.org/wiki/Levan_Qoqoberidze#cite_note-:0-2

41.Нанейшвили Виктор Иванович. Политический Деятель
https://www.ourbaku.com/index.php/Нанейшвили_Виктор_Иванович_-_Политический_Деятель

## Nafiə Abid-Tanurun amerikadaki və türkiyədəki nəvələri

Sovetlər Birliyi dağıldıqdan sonra KQB arxivlərində bəzi sənədlərlə tanış olmaq, oradakı faktlardan istifadə etmək araşdırıcılar üçün açıldı. Uzun illər 1937-ci ildə repressiya olunanlar haqqında məqalələr yazdığımdan yaranmış imkandan istifadə etməyi qərara aldım. İşlədiyim idarənin rəhbərliyindən məktub aparıb Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivindəki 1936-38-ci illərə aid istintaq materialları ilə tanış oldum.

Fakt yetərsizliyindən, bilgisizliyimdən yazılarımda nə qədər yanlışlıqlara yol verdiyimi gördüm. Ədəbiyyat tarixi və nəzəriyyəçisi Gültəkinin Əmin Abidin ləqəbi olduğunu qətiləşdirdim. Bundan sonra araşdırıcının Bakıda və İstanbulda yaşayarkən yazdığı şeirlərini toplayıb 1999-cu ildə “Günəş” nəşriyyatında “Gültekin-Emin Abid. Buzlu cehennem” adı ilə çap etdirdim.

1970-ci illərdə, tələbə ikən Əmin Abidin xanımı Nafiə Abidin dövrü mətbuatda bir neçə şeir və hekayəsinə rast gəlmişdim. Xatirələrdən bilirdim ki, əri güllələndikdən sonra Nafiə Abid də həbs edilib. Lakin onu nədə suçlayıblar, hansı cəzanı veiblər, sonrakı taleyi necə olub? Bu suallara cavab verə biləcək sənədləri tapa bilmirdim. KQB-nin arxivində işləməyə icazə alandan sonra Nafiə Abidin də istintaq materialları ilə tanış oldum. Tanış olduğum materiallardan istifadə edərək “Nafiə xanımın acı taleyi” adlı məqalə yazıb nəşr etdirdim. 1998-ci ildə nəşr etdirdiyim məqaləni bir neçə jurnal çap etdi.

Məqaləni belə tamamlamışdım: "Əmin Abid 1938-ci il oktyabrın 21-də saat 21:30-da güllələnib. Bundan nə qohumların, nə də onu tanıyanların xəbəri olub. Tanışları isə dumanlı şəkildə Nafiə xanımın həbsdən döndükdən sonra Türkiyəyə qayıtdığını söyləyirdilər (**Şamil, Ə.**, 1998).

Doğrudanmı Nafiə xanım Türkiyəyə qayıdıb? Türkiyəyə dönübsə, nə iş görüb, nə vaxtadək yaşayıb? Bakıda yaşayarkən ictimai-siyasi fəaliyyəti olubmu? Çap olunmuş nümunələrdən əlavə şeirləri varmı? Bu və buna bənzər onlarla sual isə hələ cavabsız qalır".

20 il sonra "Avanqard" mədəniyyət portalında Nafiə Abid haqqında məqaləni oxuyanların onun sonrakı taleyi ilə maraqlandıqlarını gördüm.

## Amerikadan gələn məktub

Vyanadakı simpoziumu təşkilatçılar yüksək səviyyədə hazırlamışdılar. Bizim şəhərlə tanışlığımıza, muzey və kitabxanalara getməyimizə, adamlarla tanış olub söhbətləşməyimizə də şərait yaratmışdılar. Buna görə də ruh yüksəkliyi ilə Bakıya dönmüşdüm.

Təyyarələrin gecə reysləri mənim üçün çox yorucu olur. İstəsəm də, istəməsəm də biletimi gecə reysinə almışdılar. Səhərə yaxın Bakıya çatdım. Hazırlaşıb işə gedə bilərdim. Yaş da öz işini görür. Yorğunluğumdan işə getməyə həvəsim qalmamışdı. Bilgisayarımı açdım. İstədim ki, işə getməsəm də, idarə üçün bir az çalışım, səfər haqqında xəbər yazıb institutumuzun saytında yerləşdirim. Onu da bacarmadım. Yazmağa söz tapmırdım.

Səfərdə olduğum günlərdə elektron poçtuma baxa bilməmişdim. Gələn məktubları gözdən keçirməyə başladım. Virus

bilgisayarımı çökdürməsin deyə öncə tanımadığım emaillərdən gələn məktubları silirdim. Bruno Aslantürkdən də məktub gəlmişdi. Mənim belə bir tanışım yox idi. Bruno adı da mənə qəribə gəldi. Virus göndərilə biləcəyini düşündüm. Aslantürk soyadı məndə maraq oyatdı. Xeyli tərəddüddən sonra sildiyim məktubları təkrar gözdən keçirdim və onu açdım.



**Şək. 20 Türkiyədə geyim haqqında qanundan sonra Əmin Abidin İstanbul Darülfununun tələbəsi formasında çəkdirdiyi şəkil**

Elə ilk cümlə məni haldan-hala saldı. Özümü ələ alıb məktubu sona kimi oxuya bilmədim. Çünki 40 ildən çox nəticəsiz qalan axtarışlarıma, kiçik bir ipucu tapa bilmədiyim mövzuya ipucu tapmışdım. İnana bilmədiyim bir məktubu oxuyurdum. Orada yazılmışdı: "Benim adım Kutay Arslantürk (Anne soyadı). Ben Emin Abid Əhmədov'un en buyuk torunuyum. 1965'de Turkiye'de doğdum, 1978'de Almanya'ya taşındım, daha sonra 1982'de Amerika'da New York'a taşındım. Şimdi ise Orlando'dayım. Büyük babam hakkında çok az bilgim var, ama onun Azerbaycan edebiyatına büyük hizmetler yaptığını biliyor ve onunla gurur duyuyorum. Onun hakkında nerede, nasil bilgi bulurum? Azerbeycan'da herhangi bir akraba, ailem varmi? Lütfen bana bir cevap yazın.

Babamın adı: Altay Tanur, baba annem: Nafia Tanur" (Şamil, Ə. şəxsi arxivi)

Məktub mənə 2014-cü il dekabrın 10-14-də Vyanada simpoziumda olduğum günlərdə yazılmışdı.

## Əmin Abid haqqında ilk bilgim

Biz 1968-ci ildə Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) qəbul olunan il indiki jurnalistika fakültəsi filologiya fakültəsinin şöbəsi idi. Bir il sonra fakültəyə çevrilsə də, dərs proqramlarının, auditoriyaların ayrılması xeyli çəkdi. Bəzi dərsləri filologiya fakültəsinin tələbələri ilə birgə keçirdik.

Bizə birinci kursda "Azərbaycan şifahi xalq ədəbiyyatı" fənnindən dərs deyən Vaqif Vəliyev "Kitabi-Dədə Qorqud"-dan seminara hazırlaşmaq üçün ədəbiyyat siyahısı yazdırmışdı. Həmin siyahıda "Azərbaycanı öyrənmə yolu" jurnalının 1930-cu ildə 3-cü sayında Əmin Abidin "Əşirət dövründəki Azərbaycan ədəbiyyatına dair vəsiqələr" məqaləsinin də adı vardı. Latın əlifbası ilə yazılmış məqaləni tapmaq və oxumaq o qədər də asan olmadı. Amma çəkdiyim zəhmətə heyfislənmədim. Məqalə diqqətimi necə çəkdisə, müəllifi haqqında bilgi əldə etməyə çalışdım. İstər Vaqif Vəliyevin, istərsə də başqa müəllimlərimizin dedikləri çox qısa oldu: "1937-ci ildə həbs olunub. Sonrasından xəbər yoxdu".

Məqalənin təsiri altına necə düşmüşdümsə, bəzən proqrama salınmış seminarlara hazırlaşmaq əvəzinə 1920-1930-cu illərin qəzet, jurnallarını səhifələyib Əmin Abidin məqaləsini axtarırdım. Tapıb oxuduğum hər yazı məni daha da heyrətləndirirdi. Qəribə gəlirdi ki, niyə repressiya qurbanlarından Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Əhməd Cavadın, Hacıba-

ba Nəzərlinin, Tağı Şahbazi Simurqun, Abdulla bəy Divanbəyoğlunun (Sübhanverdixanov) və başqa şair və yazıçıların, partiya-sovet rəhbərlərinin adları çəkilir, yubileyləri qeyd edilir, Əmin Abidin, Hənəfi Zeynallının, Atababa Musaxanlının, Əli Nazimin, Vəli Xuluflunun və b. elm fədailərinin adı çəkilmir, haqqında məqalələr çap olunmur, radio-televiziya verilişləri hazırlanmır.

Heç yerdə Əmin Abidin ömür yolundan və yaradıcılığından bəhs edən yazılara rast gəlmirdim. Odur ki, 1910-30-cu illərin qəzet və jurnallarını səhifələməyə, necə deyərlər, qapı-qapı gəzib qohumlarını, tanışlarını tapmağa can atdım. Görüşə bildiyim adamlardan topladıqlarım isə ehtiyatla söylənmiş, dəqiq tarixi göstərilməyən, qırıq-sökük bilgilər idi. 1937-ci ildə repressiya olunanlara bəraət verilsə də, insanların içindəki qorxu hələ çəkilməmişdi. İstər müəllimlərimiz, istərsə də repressiya olunanları tanıyanlar bu mövzuda danışmaqdan çəkinirdilər.

## Hüseyn Nəcdətin ailəsindəki arxiv

Bu gün xatırlaya bilmədiyim birisi Əmin Abidin qardaşı oğlu Hüseyn Nəcdətin (qaynaqlarda bu ləqəb gah Nəcdət, gah da Nicdət kimi yazılır – Ə.Ş.) Sovetski küçəsi ilə Mirzəağa Əliyev küçəsinin kəsişdiyi yerdən bir az yuxarıdakı dalanda yaşadığını söylədi. Ona kimi xeyli bilgi toplamışdım. Hüseyn Nəcdətin Əmin Abidin böyük qardaşı, satirik şair, nasir, tərcüməçi və araşdırıcı Əliabbas Müznibin böyük oğlu olduğunu bilirdim. 1970-ci ilin oktyabrında bir axşam dərsdən çıxanda (ikinci növbədə oxuduğumuzdan dərsimiz saat 18:40-da başa çatırdı) qrup yoldaşım İsrafil Qurbanovla birgə Sovetski küçəsinə getdik. Bir neçə qonşudan xəbər aldıqdan sonra Hüseyn

Nəcdətin arvadı Valentina Pozdşevanın üçüncü dalandakı bir saylı evdə yaşadığını dəqiqləşdirdik.



**Şək. 21 Əmin Abid evlilikdən sonra Nafiə xanımla çəkdirdiyi şəkil**

Valentina Pozdşeva öncə bizi soyuq qarşıladı. Söhbətimiz bir az davam etdikdən sonra kövrəldi. Uzun illər onun qapısını bu mövzu ilə bağlı döyən olmamışdı. O isə həmişə gözləmişdi. Gözləmişdi ki, vətən və millət üçün böyük xidmətləri olan insanları nə vaxtsa ondan xəbər alan olacaq. Yaşlı, vəzifəli, cəmiyyətdə nüfuzu olan adamları gözlədiyi halda, qapısını tələbələr döymüşdü. Əzizlərini, doğmalarını xəbər almağımız onu keçmişə qaytardı. Atasının da məşhur inqilabçı olduğundan, Moskvada yaşadığından və həbs edildiyindən danışdı.

Sonra Hüseyn Nəcdətlə ailə qurmalarından, repressiya illərində təqib və təzyiqlərlə üzləşdiklərindən, qaynanasının evdəki kitabları, qəzet-jurnalları, əlyazmaları şor və günəbaxan tumu satanlara verib əvəzində şor və s. aldığından, Şəkiyə sürgün olunmalarından söz açdı. Dəmir yolunda mühasib işləyən Valentina Pozdşeva mühakiməli, dərin düşüncəli, uzağı görən bir insan idi. Söhbət zamanı dedi ki, qaynanam evdən kağızları aparanda həmişə mübahisəmiz olurdu. Mən deyirdim ki, vaxt gələcək, bu kağızları qızıl qiymətinə alacaqlar. Qaynanam da deyirdi ki, uşaqları yaşatmaq lazımdır. Biz ölsək, bu

kağızları zibil yeşiyinə atmağa da qorxacaqlar. Yandıracaqlar ki, heç kimin əlinə keçməsin.

Öncə elə başa düşdük ki, Valentina Pozdşeva sənədləri baha qiymətə satmaq istəyir. Ona tələbə olduğumuzu deyəndə bildirdi ki, sizin gəlməniz sənədlərin qızıl qiymətinə minməsi deməkdir. Demək, bu sənədlərə qiymət verən, dəyərini bilən var. Beləcə, Valentina Pozdşevanın evində olan əlyazmalar, makina yazıları, şəkillər və başqa sənədlərlə ötəri tanış olduq.

Valentina Pozdşeva Mütəllib Əhmədovun 1930-cu ildə öldüyünü dedi. Reyhanın isə ölüm ilini xatırlaya bilmədi.

## Arxivin dövlət təşkilatına aparılmasında Qulam Məmmədlinin rolu

M.F.Axundov adına Respublika Kitabxanasında tanış olduğumuz Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktor müavini Qulam Məmmədliyə vəziyyəti dedik və ondan xahiş etdik ki, Valentina Pozdşeva qocalıb, sənədlər itbata düşəcək, onları arxiv üçün aldırsın. O, bizim işimizi təqdir etdi və arxivin əməkdaşlarından Maarif Teymurov və Bibixanım Hüseynovanı göndərdi ki, sənədləri müəyyən məbləğ pul qarşılığında alsınlar. Valentina Pozdşeva sənədləri satmamışdı. Bildirmişdi ki, arxiv materiallarını onun qədrini bilən tələbələrə, yəni İsrafil Qurbanovla mənə verəcək. Qulam Məmmədli fakültəyə zəng vurub vəziyyəti dekanımız Şirməmməd Hüseynova demişdi. Şirməmməd müəllim bizi yanına çağırtdırdı. Vəziyyəti təfsilatı ilə xəbər aldı. Tələbələrinin işi ilə qürur duyduğu açıq-aşkar hiss olunurdu. Bizə bildirdi ki, yataqxanada qalırsınız. O sənədləri də yanınıza aparsanız itibbatacaq. Qadınla danışın, ən təhlükəsiz və münasib yer dövlət

arxividir. Qoy sənədləri oraya versin, siz də lazım olanda gedib arxivdə işləyərsiniz.

Elə həmin axşam biz yenə də Valentina Pozdşevanın evinə getdik. Vəziyyəti Şirməmməd müəllimin dediyi kimi izah etdik. O da bizim fikrimizi bəyəndi. Beləcə, 1970-ci il oktyabrın 23-də Valentina Pozdşevanın evindəki sənədlər Azərbaycan Ədəbiyyat və İncəsənət Arxivinə təhvil verildi və orada Əmin Abidin adına fond yaradıldı (**Gültekin**, 1999:14)

## Əmin Abidin qohumlarının axtarışında

Valentina Pozdşeva bizə ailəsi və qohumları haqqında xeyli danışmışdı. Ondan öyrənmişdik ki, bakılı Mütəllib Əhmədovun Əliabbas, Əbülfəz və Abid adlı üç oğlu olub. Qaynı Əliabbas dövrün məşhur şairi və nasiri, tərcüməçisi imiş. 1936-cı ildə həbs edilib. Sonra ondan heç bir xəbər öyrənə bilməyiblər. Ailənin sonuncu oğlu olan Abid İstanbul Universitetində oxuyarkən alban qızı Nafiə ilə evlənib. Bakıya döndükdə universitetdə, darülmüəllimdə və rayonlardakı ümumtəhsil məktəblərində işləyib. O, Əmin Abidin yaşadığı birotaqlı mənzilinin təxmini yerini də dedi.

Sonralar Əliabbas Müznibin oğlu Mübarizin ev ünvanını öyrənib oraya getsəm də, arvadını və uşaqlarını görə bildim. Evin hər qarışı ailənin kasıblığından, ağır həyat şəraitindən xəbər verirdi. Ali təhsil ala bilməyən Mübariz ailəni dolandırmaq üçün bir neçə yerdə işlədiyindən onunla görüşə bilmədim. Mübarizin arvadı Sumqayıtda yaşayan qayını Azərin yaşadığı evin ünvanını deyil, təxmini yerini dedi. Onu da tapa bilmədim.

Əmin Abidin ortancıl qardaşı Əbülfəzdən də soraq verən olmadı.

Əmin Abidi soraqlarkən "Azərbaycan Tibb jurnalı"nda tərcüməçi işləyən Əsgəri (və ya Əsgərov) görməyi məsləhət bildilər. Jurnalın redaksiyasına getdim. Dedilər ki, xəstə və qoca olduğundan işə gələ bilmir. Telefon nömrəsini verdilər. 1970-ci ilin soyuq bir qış günü telefonla danışıb çətinliklə evini tapdım. Görüşdük. Arıq, sısqa, balacaboy qoca Əmin Abidlə ailəvi dost olduqlarını bildirdi. Çəkinə-çəkinə danışırdı. Hərdən də ağlayırdı. İlk dəfə Əmin Abidin adının Zeynalabdin olduğunu ondan eşitdim. Nafiə haqqında dedi: "Milliyətcə alban idi. Əmin Abidlə eyni universitetdə oxumuşdu. Orada tanış olub, evlənmişdilər. Əmin Abid universiteti bitirib Bakıya dönəndə Nafiə də təhsilini yarıda qoyub Bakıya gəlmişdi. Burada nə təhsilini davam etdirməyə imkan verdilər, nə də işləməyə. Evdə dərzilik edir, qohum-qonşu üçün paltar tikirdi. Əmin Abid həbs ediləndən az sonra Nafiəni də həbs etdilər. Əmin Abidin sonrakı taleyindən xəbərim olmadı. Eşitdiyimə görə, Nafiə həbsdən qayıdanda bir oğlu da varmış. Bakıda çox qalmayıb Türkiyə konsulluğunda işləyən birisilə ailə qurub vətəninə dönüb".



**Şək. 22 ŞəkildəNafiə xanım**

Ondan öyrəndiyim bir də o oldu ki, Əmin Abidin atası Mütəllibin evi Bakının köhnə Novxanılar məhəlləsindəki Birinci Paralelni (Əlibəy Hüseynzadə) və Yuxarı Təzəpir (Mustafa Sübhi) küçələrinin kəsişdiyi yerdə olub.

Əsgər bildirdi ki, bacıları cavan öldüyündən onların yetim qalmış qızı Məsuməni Əliabbas Müznib saxlayırdı. O, sonralar bakılı, general Məmmədbağır Bağırova (1901-1946) ərə getdi. Evləri Sabir bağının qarşısındakı Monolit deyilən binadadır.

Məsumə xanımı asanlıqla tapdım. O, dayısının onu saxladığını, qayğısına qaldığını kövrələ-kövrələ danışdı. Bildirdi ki, 30-cu illərdə onu bakılı, zabit Məmmədbağır Bağırova (1901-1946) ərə veriblər. Əri Qubada və Dağlıq Qarabağda, Gürcüstanda Sovet hökumətinin düşmənlərinə qarşı vuruşub. Dayısı tutulanadək ailəvi gediş-gəlişləri, xoş münasibətləri olub. 1936-cı ildən sonra qohumları ilə əlaqəsini kəsmək məcburiyyətində qalıb. Çünki əri Mir Cəfər Bağırovla çox yaxın imiş. 1940-cı ildə Bakı şəhər Yerli Hava Hücumundan Müdafiə təşkilatına rəis təyin edilib. Əri Lenin ordeni, Qırmızı Bayraq, Qırmızı Əmək Bayrağı ordenləri, medallarla təltif olunub. Mühəndis-texniki xidmət general mayoru rütbəsinədək yüksəlib. Əri cavan, 45 yaşında dünyasını dəyişib **(ASE, 1976: 532, 1-ci cild).**

"Xalq düşməni" elan edilən, həbsxanaya göndərilən, güllələnən dayıları ilə əlaqəsini kəsən Məsumə xanım onlara bəraət veriləndən sonra da balalarına xətər dəyər deyə qohumlarının ailəsi ilə əlaqə saxlamayıb. Ünvanlarını bilmədiyi kimi, talelərindən də xəbərsizdir.

## Əzizə Cəfərzadənin xatirələri

Professor Əzizə Cəfərzadə Əmin Abidin, Əliabbas Müznibin yaradıcılığı ilə yaxından tanış idi. Onları millətçı aydınlar, cəsur, qətiyyətli, əqidələrindən dönməz insanlar kimi xatırlayırdı. Ailələri də bir məhəllədə yaşamışdı. O, Mütəllib Əhmə-

dovun ailəsi ilə bağlı yadında qalanları belə xatırladı: "Ailə Bakı xanının nəslindən olmasına baxmayaraq, çox kasıb yaşayırdı. Əmin Abidin anası Reyhan ailəni dolandırmaq üçün evdə başmaq, balınc üzü tikib satırdı. Qadınlara və uşaqlara əlifbanı, Quran oxumağı öyrətməklə yanaşı, mərsiyaxanlıq da edərdi. Uşaqlıqdan yadımda bir şeir parçası qalıb:

Molla Reyhan doğdu gecə,
Evdə qoydu balaca beçə.
Gedib layla deməyə,
Yoxsa "Hüseyn vay" deməyə?!

Əmin Abid də ilk təhsilini anasından almışdı" (**Şamil Ə. şəxsi arxivi).**

## Qasım İsmailov küçəsində, Əmin Abidin yaşadığı evdə

Görüşdüyüm qohumlarının Əliabbas Müznibin, Əmin Abidin, Nafiə xanımın həbsdən sonrakı taleyi haqqında bilgisi yox idi. Repressiya olunanların bir çoxunun xanımı həbsdən geri dönmüşdü. Onların bir neçəsi ilə görüşüb söhbət etmişdim. Onlar da Nafiə xanımın sonrakı taleyindən xəbərsiz idilər.

Əmin Abidin 1930-cu illərdə yaşadığı evin yerini öyrənib bir axşam oraya getdik. Bakıda, Qasım İsmailov küçəsində italyanka deyilən ikimərtəbəli bir binada idi. Onun yaşadığı mənzilin qapısını döydük. İçəridən gələn qadın səsi kimi istədiyimi xəbər aldı. Mən Əmin Abidlə bağlı bilgi almaq istədiyimi dedikdə, əsəbi bir səslə: "Elə adam tanımırıq, bir də bu qapını döymə!" deyə hədələyici cavab verdi. Bina köhnə kom-

munalkalardan idi. Söhbətimizi qonşular eşitmişdi. Onlardan biri bizi ikinci mərtəbədəki mənzilinə dəvət etdi, kim olduğumuzla, nə məqsədlə gəldiyimizlə maraqlandı. Ailə üzvlərinin sayı çox olsa da, qonşulardan bir neçə qadın və qız da gəldi.



**Şək. 23 Nafiə xanımın 1935-ci ildə çəkdirdiyi pasport şəkili**

Yaşlı nəsil çox ehtiyatla davranırdı. Repressiyanın xofundan qurtula bilmədikləri görünürdü. Yeniyetmə qızlar nənələrindən, babalarından eşitdiklərini daha həvəslə danışırdılar. Bəzən də mübahisə yaranırdı. Onlardan biri binada süpürgəçi işləyən rus qadının Əmin Abiddən bir qızı olduğunu söylədi. Dedi ki, repressiya edilənlərə bəraət veriləndə həmin qadın Əmin Abidin adından istifadə edib ev də aldı. Həmin qadın və onun qızı ilə maraqlandıqda etiraz edənlərin sayı artdı. Dedilər ki, o qadını Nafiə xanım qulluqçu kimi işlədirdi. Əmin Abidlə həmin rus qadını arasında heç bir intim munasibət ola bilməyəcəyinə məni inandırmağa çalışdılar.

## İnna ilə görüş

Buna baxmayaraq, çox çətinliklə də olsa Tbilisi prospektində, B.Ostrovski küçəsi 29-cu binanın beşinci mərtəbəsində yaşayan, Əmin Abidin qızı olduğu deyilən İnnanı tapdım. O, evlərinin yanındakı mebel fabrikində usta işləyən bir yəhudiyə ərə getmişdi. 10-12 yaşlarında iki oğlu da vardı. Anasının 5-6 il əvvəl öldüyünü dedi. Pasportundakı doğulduğu il qrafasın-

da 1935-ci il, adı, atasının adı və soyadı yerində İnna Aleksandrovna Prokofyeva yazılmışdı. Onun Əmin Abidin qızı olduğuna şübhə ilə yanaşdığımı gördükdə ailə arxivindəki Əmin Abidin və Nafiə xanımın avtoqrafları olan foto şəkillərini göstərdi. Həmin şəkillərdən bir neçəsini və Əmin Abid Mütəllib oğlu Əhmədova 24 dekabr 1962-ci ildə Tbilisidəki Zaqafqaziya Hərbi Tribunalı tərəfindən verilmiş 9/H/62 saylı bəraət kağızının surətini böyük həvəslə mənə bağışladı. Şəkillərin bir neçəsi də onlarda qaldı **(Şamil, Ə. şəxsi arxivi)**

Sonra da bildirdi ki, Əmin Abid "xalq düşməni" kimi həbs ediləndə anası özünü və qızını qorumaq üçün doğum şəhadətnaməsini dəyişdirib. 1956-cı ildən sonra ərizə yazaraq Əmin Abidə bəraət verilməsini istəyib. İstədiyinə də nail olub. Repressiya olunanın ailə üzvü kimi mənzil aldıq. KQB faktları dəqiqləşdirməsə bizə ev verərdilərmi?!

Bəraət kağızından Əmin Abidin 1898-ci ildə doğulduğunu, 14 iyul 1938-ci ildə həbs edildiyini öyrəndim. Bəraət kağızında Əmin Abid Mütəllibzadə Əhmədov haqqındakı 19 oktyabr 1938-ci ildə verilmiş hökmün dəlil yetərsizliyindən ləğv edildiyi bildirilirdi. Lakin hökm haqqında bir bilgi verilmirdi. Bilmək olmurdu Əmin Abid həmin hökmlə həbs olunub və ya güllələnib.

"Əmin Abidi və Nafiə xanımı xatırlayırsınızmı" – deyə İnnadan xəbər aldıqda "yadıma gəlmirlər" cavabını verdi. Əmin Abidin qohumları ilə də əlaqəsi olmadığını, onlardan heç kimi tanımadığını da söylədi. Şəkillərdəki avtoqrafdan Əmin Abidin İstanbul Darülfununda oxuduğunu, Nafiə xanımla evlənməsi tarixini, Türkiyədəki geyim islahatı haqqında qanunun vaxtını və s. müəyyənləşdirə bildim.

Bu ailəni mən bir də 1990-cı ildən sonra axtardım. Həmin ünvana gedib İnnanı və oğlanlarını xəbər aldım. Qonşular dedilər ki, Amerikaya köçüblər. Ünvanını bilən də olmadı. Bir daha bu ailədən xəbər tuta bilmədim.

## Əmin Abidin ilk dövr yaradıcılığı haqqında qısa bilgi



**Şək. 24 Nafiə xanımın həbsdən bir neçə gün sonra təcrixanada çəkilmiş şəkili**

Tələbəlik illərimdə kitabxanalarda normal kartoteka, biblioqrafiya olmadığına görə qəzet-jurnalları səhifələməklə Əmin Abid və Nafiə xanımın şeirlərinin, məqalə və hekayələrinin harada çap olunduğunu müəyyənləşdirməyə çalışdım. Qafqazda nəşr edilən "Məktəb", "Kəlniyyət", "Leylək", "Məzəli", "Molla Nəsrəddin", "Sovqat", "Bəsirət", "Şeypur", "İqbal", "Dirilik", "Babai-Əmir", "Övraqi-nəfisə", "Azərbaycan" və b. qəzet-jurnallarda Abid, Abid Mütəllibzadə, Abid Mütəllib oğlu, Abid Alp Mütəllib oğlu, Qozqurab, Qozqurab bəy imzaları ilə yazılmış xeyli şeirə, məqaləyə və tərcüməyə rast gəldim. Sovet dövründə, yəni 1923-25-ci illərdə Əmin Abid imzası ilə "Kommunist" qəzetində, "Gənc pedaqoq", "Şərq qadını" jurnallarında çap etdirdiyi təkəmseyrək şeirlərini tapdım **(Gültekin, 1999:9)**. Nafiə Abid imzası ilə Tbilisidə çap olunan "Dan yıldızı" jurnalında bir xatirə-hekayəni qeydə ala

bildim. Oxuduqlarım vətənsevər, millətpərvər bir gəncin duyğuları kimi təsirli olsa da, bədii cəhətdən zəif idi.

Fikirlərimi müəllimimiz, professor Abbas Zamanova deyəndə, o da "Əmin Abid mənə dərs deməsə də, oxuduğum pedaqoji texnikumda müəllim işlədiyini yaxşı xatırlayıram. Çox savadlı və diqqətçəkən insan idi. Elmi məqalələri olduqca dəyərlidir. Gültəkin imzası ilə yazdığı şeirləri çox təsirlidir" – söylədi.

## Əmin Abidin Sovet dövrü yaradıcılığı

Əmin Abidin Sovet dövründə çap etdirdiyi elmi məqalələri tamam başqa bir ruhda idi. Ədəbiyyatşünaslığımızda bir çox ilkə o, imza atmışdı. "Kitabi-Dədə Qorqud"dan, Oğuznamələrdən, heca vəzninin tarixindən, türk xalqları bayatılarının müqayisəsindən, Qazi (Kadı) Bürhanəddinin tuyuqlarından və s. bəhs edən sanballı və dərin məzmunlu araşdırmaları dediklərimizə nümunədir. Axundovşünaslığımız onun axtarışları, yazıları əsasında formalaşıb.

Əmin Abidə görə Orxon-Yenisey abidələrindəki yazı dili səlis və aydındır. Bu da ədəbi dilimizin 1300 il öncə formalaşdığını söyləməyə imkan verir.

Azərbaycan ədəbiyyatı tarixinin başlanğıcı mövzusunda fikir ayrılığı olduğu bir dövrdə Əmin Abidin ədəbiyyat tariximizin başlanğıcını Orxon-Yenisey abidələrindəki yazıdan öncələrə aparması çox cəsarətli bir addım idi.

Sonuncu kursda Əmin Abidin yaradıcılığından diplom işi də yazdım, dissertant kimi mövzu götürdüm. Dövri mətbuatdakı yazılarını toplasam da, ailəsinin və özünün ömür yolu haqqında rəsmi sənəd tapa bilmirdim. Bu işdə mənə yol göstərən Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, rəh-

mətlik Rasim Tağıyev oldu. O, AMEA-nın Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi Arxivində akademiya işçilərinin şəxsi işlərinin saxlandığını bildirdi.

1976-cı ildə məzuniyyət vaxtı çalışdığım "Şərq qapısı" qəzetindən AMEA-nın rəhbərliyi adına məktub alıb Bakıya gəldim. İlk dəfə Əmin Abidin ömür yolu haqqında geniş bilgini oradakı sənəddən öyrəndim. 1933-cü ildə Bakıda yeni açılan SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsində işə girmək üçün hazırladığı sənəddə Əmin Abid Türkiyədə oxuyarkən oradakı "İnci", "Syus", "Şebab", "Yarın İstanbul", "Xidməti Ümumiye" jurnallarında bədii yazılarını, "Sərvəti-fünün"da elmi məqalələrini çap etdirdiyini qeyd etmişdi **(AMEA AEİTVSMA, fond 39)**

Həmin vaxtdan sonra Əmin Abid haqqında yazdığım məqalələrdə (onları çap etdirmək o qədər də asan olmurdu. Repressiya qurbanlarına 1956-cı ildə bəraət verilməyə başlansa da, əsərlərinin nəşri üzərində senzura nəzarəti tam götürülməmişdi) akademiyanın arxivindəki şəxsi işdən istifadə edirdim. Öyrəndim ki, Ağdamda müəllim işləmiş Əmin Abidi 1934-cü ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsində işə qəbul ediblər. Məqalələri dövri mətbuatda çap olunub. Onu Mirzə Fətəli Axundovun əsərlərinin külliyyatını hazırlayan qrupun tərkibinə daxil ediblər. Hökumətin ona qarşı münasibətində müsbətə doğru bir dəyişiklik baş verib. Orada da son sənəd 1937-ci ilin may ayında Əmin Abidin işdən çıxarıldığı və ondakı əlyazmaların Əliəjdər Səidzadəyə təhvil verilməsi yazılmışdı **(AMEA AEİTVSMA, fond 39)**.

Sovetlər Birliyi çökəndən, Azərbaycan müstəqilliyinə qovuşandan sonra KQB-nin arxivində Əmin Abidin və Nafiə xanımın istintaq materialları ilə tanış oldum.


Pasaport hamilinin refakatinde bulunanlar:
İsmi
Sıfatı refakatı
Mahal ve tarihi viladeti
Göz
Saç
Boy
Burun
Diğer sabit vasıf
Identité de ceux qui accompagnent le porteur du passeport
Nom
Qualité de l'accompagnant
Lieu et date de naissance
Yeux
Cheveux
Taille
Nez
Signes particuliers
20 Şubat 1935
Nº 33246
Ankara
Refakatte bulunanların fotoğraf mahalli
Nº 33246

**Şək. 25 Nafiə xanımın pasportu**

## Nafiə Abidlə bağlı axtarışlarım

Əmin Abidin ömür yolunu, yaradıcılığını daha dərindən öyrənmək üçün yalnız Azərbaycanda araşdırmalar aparmaqla kifayətlənmirdim. Türkiyədə, Özbəkistanda, Macarıstanda, İranda, Albaniyada, Makedoniyada, Yunanıstanda və b. Ölkələrdə də axtarışlar aparırdım. Əmin Abidi tanıyanların və qohumlarının söhbətindən öyrənmişdim ki, xanımı Nafiə Türkiyədə yaşayan arnavutlardandır (alban). Ona görə də Nafiədən bir iz tapmaq üçün arnavutlar yaşayan bölgələrdə də axtarış aparırdım. Arnavutlar da, maşallah, harada yoxdurlar ki?! Bir-birinə qonşu olan Albaniyada, Kosovada, Makedoniyada, Yunanıstanda, İtaliyada... hətta uzaq Amerikada! Düşünürdüm ki, bəlkə Nafiə və onun qohumlarından bir iz tapam.

Konyadakı Səlcuq Universitetində keçirilən simpoziumda tanış olduğum Entela Muço mənim Nafiə haqqında yazdığım məqaləni albancaya (arnavut) çevirərək Tiranadakı “Standart” qəzetinin 2010-cu il 22 oktyabr sayında çap etdirmişdi. Lakin heç bir səs-səda çıxmamışdı.

Tanış olduğum sənədlərdən bilirdim ki, 1936-cı ildə SSRİ-də yenidən kütləvi həbslər başlayır. Əmin Abid 1937-ci ilin may ayında SSRİ EA Azərbaycan Filialından işdən çıxarılır. O, Kürdəmir rayonunun Qaraqoyunlu kəndində müəllim işləməyə başlayır. Mərkəzdən uzaqlaşmaq onu həbsdən xilas etməyib. 1938-ci il iyulun 14-də Əmin Abid İsmayıllı rayonunun Təzəkənd kəndində (Niyə məhz Təzəkənddə? Bu suala hələ də cavab tapa bilməmişəm – Ə. Ş.) həbs ediblər (**AR DTX-nin arxivi, PS 32796 saylı istintaq işi**). Evi müsadirə olunub. Qardaşı, millətçi şair Əliabbas Müznib də ondan xeyli öncə tutulmuşdu. İrticanın qorxusundan qohumları, tanışları onlardan üz döndərmişdi.

Nafiənin istintaqa verdiyi izahatdan aydın olur ki, anası Zəhra 1930-cu ildə Bakıya gələndə Türkiyənin Bakıda konsulu Nuru bəyin xanımı Bədriyyə ilə qohum olduqlarına görə onu qonaq çağırırb. Əmin Abid tutulanda Nafiə başının üstündə qara buludların dolaşdığını hiss edir. Qəriblikdə, çətin durumda qaldığından vətənə dönməyə çalışıb. Ümid yeri kimi Türkiyənin Batumdakı konsulluğuna üz tutub. Çünki anasının qohumu Bədriyyənin əri Nuru bəyin iş yeri Bakıdan Türkiyənin Batumdakı konsulluğuna dəyişilmişdi. Düşünür ki, Batumdan viza alıb Türkiyəyə keçməsi mümkün olar. Çətinlikləri aşaraq Batuma gedib, viza almaq ümidilə konsulluğa daxil olub. Lakin istəyinə nail ola bilməyib. Konsulluqdan çı-

xarkən onu həbs ediblər (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi**).

## Nafiə Abidin həbsi və sənədlərdə onun ömür yolu

1938-ci il avqustun 11-də Nafiə xanım SSRİ Cinayət Məcəlləsinin 58/6 maddəsi ilə – əksinqilabi iş aparmaqda, casusluqda ittiham olunub. Sən demə, Nafiə xanımın həbs edilməsi haqda 6298 nömrəli order o tutulmamışdan öncə yazılıbmış. DTK serjantı Avakova da Nafiə xanımı axtarıb tapmaq və həbs etmək haqda əmr verilibmiş. Avakova onu Batumda həbs edib Bakıya gətirib. Həbs edilərkən 165920 nömrəli qızıl qol saatını, brilyant sırğalarını, iki ədəd qızıl üzüyünü və başqa bəzək əşyalarını da əlindən alıblar.

Bakıda Nafiə xanımın istintaqı başlayıb. İstintaq işindəki pasportdakı şəkildə yaraşıqlı və gənc bir xanım baxır. Təcridxanasında çəkilmiş şəkildə isə qorxu və həyəcanla baxan qocalmış, sərxoş qadına bənzəyir. Verilən işgəncələr onu qısa müddətdə tanınmaz şəklə salıb. Bunu istintaq sənədləri də göstərir. Verdikləri cəzanın ağırlığına dözməyərək huşunu itirdiyindən istintaqa fasilələr verilib. Həkim müayinəsi zamanı ürək xəstəliyinə tutulduğu aydınlaşıb. Lakin ondan əl çəkmək istəməyiblər. İstədiklərinə də nail ola bilməyiblər (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi**).

KQB arxivində üzərində "Nafiə Tevfik Tanurun (həm də Şükrü Əhməd) Əhmədovanın istintaq işi" yazılmış 269342 saylı qovluq saxlanılır. Oradan aydın olur ki, 1903-cü ildə Tirananın təxminən 250 kilometr güneyindəki Yanya şəhərində doğulan Nafiə Yunanıstan Osmanlı imperiyasının tərkibindən ayrıldıqda ailəsi ilə birlikdə İstanbula köçüb. Kiçik yaşlarında atası Əhməd Şükrü vəfat edib. Anası Zəhra Tevfik Tanura ərə

gedib. Buna görə də bir çox sənədlərdə Nafiənin soyadı Tevfik Tanur kimi də yazılıb.

Yeddi yaşında İstanbuldakı Camlıca qız liseyinə daxil olan Nafiə Tevfik Tanur on səkkiz yaşında oranı bitirib. Bir il pedaqoji kursda oxuduqdan sonra İstanbul Universitetinin tarix-ədəbiyyat fakültəsinə daxil olub. Burada Əmin Abidlə görüşüb, sevişib və ailə qurub.

İstintaq sənədləri arasında saxlanan pasportda Nafiə xanımın 1935-ci il fevralın 20-də pasport, iyulun 23-də Azərbaycana gəlmək üçün viza aldığı, avqustun 2-də İstanbuldan yola düşdüyü və həmin ayın 14-də Bakıya çatdığı göstərilib (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi).**

## KQB müstəntiqi nədən Nafiə Abidin qohumu, Türkiyə Milli Məclisinin rəhbəri Abdulhaluk Renda ilə maraqlanırmış?

KQB müstəntiqi Nafiə xanımdan 1930-cu ildə Türkiyəyə getməsinin səbəbini xəbər alıb. O, belə cavab verib: "Ailənin yeganə qızı idim. Atam tez-tez anamın xəstə olduğunu, məni görmək istədiyini yazırdı, ona görə gedirdim" (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi).**

Bilmirəm müstəntiq Nafiə xanımın dediyinə inanıb, ya inanmayıb. Mən isə faktlardan başqa nəticə çıxarıram. Belə ki, Nafiə xanımın Türkiyəyə getməsi heç də anasının xəstəliyi ilə bağlı olmayıb. Xəstə olsaydı, Ankaradan Bakıya necə gələ bilərdi? Bakıya gəlib qızı ilə görüşübsə, Nafiə xanım nədən anasının ardınca Türkiyəyə getməli idi?

Suallara cavab vermək üçün sənədləri və dövrü mətbuatı gözdən keçirmək kifayətdir. Belə ki, 1929-cu ilin yanvarında Azərbaycanda gizli fəaliyyət göstərən Müsavat Partiyasının

“Gənc Azər” təşkilatının öndərləri Azərbaycan Dövlət Siyasi İdarəsi (KQB) tərəfindən həbs edilib. İstintaqa verdiyi izahatda Həsənağa Axundzadə yazıb: “Bir dəfə şagird Nigar Rəfibəyova (Azərbaycanın Xalq şairi Nigar Rəfibəyli – Ə.Ş.) mənə türk doktoru Rza Nur bəyin kitabını verdi. Bu kitabda doktor Azərbaycandan bəhs edərkən yazıb ki, Azərbaycanın müstəqil olduğu deyilsə də, faktiki olaraq Rusiyanın müstəmləkəsidir. O (yəni Nigar Rəfibəyli – Ə.Ş.), ümumiyyətlə, çoxlu türk jurnalı alırdı. Bilirəm ki, o, Bakı Pedaqoji Texnikumunun müəllimi Əmin Abidlə yaxın olmuşdur”.



**Şək. 26 Nafiə xanım**

İstintaqa cəlb edilmiş Həşim Aslanov isə yazıb: “Əmin Abid 1927-28-ci illərdə sinifdə türk şairi Ömər Seyfəddinin “Bomba” hekayəsini oxudu... Əmin Abid özünə yaxın bildiyi şagirdlərə həmişə təklif edirdi ki, türk şairlərinin pantürkist əsərlərini oxusunlar”.

Sözsüz ki, bu ifadələrdən sonra Əmin Abidi dinc buraxmamışlar. Azərbaycan Dövlət Siyasi İdarəsi (KQB) nəinki Əmin Abidin, bütün milli düşüncəli ziyalıların təqib planını hazırlayıb. Azərbaycan Dövlət Siyasi İdarəsinin (KQB) sədri Novruz Rzayev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi katibliyinə yazıb: “...Pedaqoji sahədə təmizləmə zamanı əsas diqqəti məktəblərdə millətçi-şovinizmi daha fəal yayan müəllimlərə: Türk ədəbiyyatı, ictimaiyyət və coğrafiya müəllimlərinə yönəltmək lazımdır”.

Xalqın ədəbiyyat tarixini dərindən öyrənən və təbliğ etməyə çalışan Əmin Abidin dünyagörüşü, yayımlatdığı məqalələr, oxuduğu mühazirələr Sovet kosmopolit məmurlarını qane etmirdi. Onu daimi nəzarətdə saxlamağa çalışır, işdən çıxarır, hörmətdən salmaq üçün haqqında böhtan xarakterli məqalələr çap etdirirdilər. Əmin Abidi universitetdən və texnikumdan işdən çıxarmışdılar. "Kommunist" qəzetinin 1930-cu il yanvarın 17-də Ə.Ə. imzası ilə "Elmi aferist" məqaləsi çap olunmuşdu, başqa qəzet-jurnallarda da əsərləri kəskin tənqid edilirdi.

Görünür, Nafiə xanımın valideynləri vəziyyətdən xəbərdar idilər. Ona görə Zəhra xanım qızına və kürəkəninə yardım etmək üçün 1930-cu ildə Bakıya gəlib. Nafiə xanım müstəntiqə verdiyi izahatda deyir ki, anam Türkiyənin Bakıdakı Konsulu Nuru bəyin xanımı Bədriyyə ilə qohum idi. Anamın Bakıya gəldiyindən xəbər tutan Bədriyyə xanım bizi evinə qonaq çağırdı (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi).**

Sözsüz ki, evdə Nafiə xanımın, Əmin Abidin durumundan, Azərbaycanda gedən ictimai-siyasi proseslərdən də söhbət gedib. Həmin vaxt Azərbaycanda kütləvi həbslər gedirdi. Nuri bəy Nafiəni həbs olunmaqdan qurtarmaq üçün ona viza verib Türkiyəyə yola salmağa razılıq verib. Anası gedəndən az sonra Nafiə xanım da Türkiyəyə yola düşüb.

Əmin Abid də Quba Pedaqoji Texnikumunda özünə iş tapıb.

Nafiə xanım müstəntiqin sualına cavab olaraq deyib ki, Türkiyədə olduğu müddətdə atalığı Tevfik Tanurun işlədiyi dəmiryol idarəsində çalışıb. 1935-ci ildə yenidən Bakıya, ailəsinin yanına qayıdıb.



**Şək. 27 Nafiə xanım Türkiyədə olarkən çəkilmiş şəkili (Yanındakıların kimliyini müəyyənləşdirə bilmədik)**

Müstəntiqi Nafiə xanımın təxribatçılıq, casusluq fəaliyyətindən çox onun Türkiyədə rəhbər vəzifədə işləyən qohumları maraqlandırıb. Müstəntiq dəfələrlə Nafiə xanımdan ikinci dəfə Türkiyədən Bakıya gəlməsi üçün necə, hansı vasitələrlə viza aldığını, qohumlarının harada işlədiyini soruşub. Buradan aydın olur ki, 1930-cu illərdə Türkiyədən Azərbaycana gəlmək istəyənlərin viza alması heç də asan deyilmiş. Nafiə xanım müstəntiqə verdiyi cavabda ona viza almaqda ana tərəfdən qohumluğu çatan Abdulhaluk Rendanın kömək etdiyini deyib. Bu iş üçün Abdulhaluk Renda dəfələrlə Moskvada – Xarici İşlər Komissarlığında kimlərəsə ağız açıb.

Abdulhaluk Renda haqqında bilgi əldə edən müstəntiq Nafiənin atalığı (istintaqda atası kimi göstərilir – Ə.Ş.) Türkiyə Dəmiryollar İdarəsində baş mühasib işləyən Tevfik Tanur, onun qardaşları – Ayvalıq şəhərindəki "Ziraat" Bankında işləyən İsmail Tanur və haradasa mühasib işləyən Kamil Tanurla da çox maraqlanıb, hətta evdar qadın olan anası Zəhranın tərcümeyi-halını da dəqiqləşdirib.

İstintaqın gedişini diqqətlə gözdən keçirəndə aydın görünür ki, Nafiəni ittiham etdikləri casusluq suçu bir kənara bu-

raxılıb. Ən çox müstəntiqləri onun qohumları, xüsusən də Abdulhaluk Renda maraqlandırb. Buna görə də belə güman etmək olur ki, KQB-yə Nafiədən daha çox Abdulhaluk Renda lazımmış (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi).**

## Abdulhaluk Renda haqqında qısa bilgi

1881-ci il noyabr 29-da Yanyada doğulan Mustafa Abdulhaluk Renda milliyətcə türkdür. 1903-cü ildə İstanbuldakı Mülkiyyə Məktəbini (Siyasi fənlər fakültəsini) bitirib. Rodosda və Ege adalarında müəllimlik, Balkandakı bəzi rayonlarda kaymakamlıq, Bitlis, Kastamonu və Hələbdə valilik edib. 1917-ci ildə Daxiliyyə Nəzarəti müstəşarlığına gətirilsə də, az sonra yenidən Hələbə vali göndərilib. 1918-ci ildə ingilislər onu Malta adasına sürgün ediblər. Sürgündən sonra ikinci çağırış Türkiyə Böyük Millət Məclisinə Çankırıdan millət vəkili seçilib. 1924-cü il oktyabrın 2-dən 1934-cü ilin fevralın 3-dək müxtəlif fasilələrlə maliyyə və müdafiə naziri işləyib. 1935-ci il martın 1-də TBMM sədri seçilib. İstintaqda Nafiə xanım Abdulhaluk Rendanın maliyyə naziri işlədiyini deyib. Əslində, həmin vaxt Abdulhaluk Renda TBMM sədriydi. 1946-cı il avqustun 5-dək Məclis başqanı olan Mustafa Abdulhaluk Renda 1948-ci ilədək dövlət bakanı işləyib.

Nafiə xanımın həbsdən azad edilib, Türkiyəyə dönə bilməsində yəqin ki, Mustafa Abdulhaluk Rendanın da rolu olub. Çünki xalq düşməni kimi həbs olunan və güllələnənlərin arvadlarına adətən səkkiz il həbs cəzası verilirdi. Nafiə xanıma da səkkiz il həbs cəzası verilmiş olsaydı, o, cəza evindən 1946-cı ilin avqustunda azad edilməliydi.



Şək. 28 Nafiə xanım

1938-ci ilin avqustundan başlayan istintaq 1939-cu il aprelin 28-də başa çatıb. Zaqafqaziya Hərbi Prokurorunun Azərbaycan SSR Daxili İşlər Komissarlığı üzrə köməkçisi, 2-ci dərəcəli hərbi hüquqşünas Kurbanov yazıb: "N.Ş.Əhmədovanın əleyhinə toplanmış sübutların xarakterini nəzərə alaraq bu işin məhkəmə dindirilməsinə göndərilməsini mümkünsüz sayıram. Bunun üçün də N.Ş.Əhmədovanın işinin SSRİ XDİK yanında Xüsusi Məşvərətə göndərilməsinə razıyam" (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi**).

Kurbanov istintaqın gedişində Nafiə xanımı ittiham etməli faktlar olmadığını gördüyündən işi məhkəməyə göndərməyi münasib bilməyib. Xarici ölkə vətəndaşı, xalq düşməni kimi güllələnmiş bir şəxsin xanımının da azadlığı haqqında qərar qəbul etməyə cəsarət etməyib. Vəziyyətdən çıxmaq üçün işi SSRİ XDİK yanında xüsusi məşvərətə göndərilməsinə razılıq verib.

Sonda isə vəzifəsini və rütbəsini, hətta adını və atasının adını göstərməyi belə unudan İvanov 14 nömrəli protokoldan çıxarışı imzalayıb. Orada yazılıb: "Əhmədova Nafiə Şükrü qızı çox təhlükəli ünsür kimi islah-əmək düşərgəsində saxlansın. Cəza müddəti 1938-ci il avqustun 11-dən hesablansın" (**AR DTX-nin arxivi, PS 269342 saylı istintaq işi**).

Bu protokoldan da aydın olur ki, Nafiə xanımın cəza müddəti müəyyənləşdirilməyib. Yəni ona məhkəmə hökmü

oxunaraq neçə il cəza çəkməli olduğu bildirilmədən islah-əmək düşərgəsinə – yəni həbsxanaya göndərilib.

İstintaq materiallarından aydın olur ki, Əmin Abidin dindirilməsi başqaları ilə müqayisədə o qədər də uzun surməyib. Belə ki, həbsindən 99 gün sonra, yəni oktyabrın 21-də saat 21.30-da güllələnib. Güllələnmə hökmü verilməyən Nafiə xanımın istintaqı isə səkkiz ay on yeddi gün çəkib.

## Akmola repressiya muzeyindən Aida Eyvazlının bir məqaləsi

Nafiyə xanım cəza müddətində hansı həbsxanada olub, yoxsa islah əmək düşərgəsinə, sürgünə göndərilib? Bu suala cavab verə biləcək sənədlərlə rastlaşmamışam. Bildiyim odur ki, ərləri "xalq düşməni" adı ilə güllələnənlərin ömür-gün yoldaşlarına 8 il həbs cəzası verir və islah əmək düşərgələrinə göndərirdilər.

Jurnalist Aida Eyvazlı min bir əziyyətlə vaxtilə "Akmola Vətən Xainləri Arvadlarının Düşərgəsi" olan yerə gedib çıxa bilib. Qazaxıstan Respublikasının Akmol şəhərindəki, islah əmək düşərgəsini indi repressiya muzeyinə çeviriblər. Aida Eyvazlının 2011-ci il mayın 25-də yazdığı "Məhbus qadınlar" adlı məqaləsini Azpres saytı yayıb.
(http://azpress.az/index.php?lang=az&sectionid=news&id=63169)

"Qısa adı ALJİR, yəni "Akmolinskiy Laqer Jen İzmennikov Rodinı"nın (tərcüməsi: "Akmola Vətən Xainləri Arvadlarının Düşərgəsi") yeri öncələr bataqlıq və qumluq olub. Düşərgədə ilk günlər samandan hazırlanmış bir neçə "barak" (bu taxta və ya samandan tikilmiş otaq deməkdir.) var idi. Ərzi isə tikanlı məftillərlə dövrəyə alınmışdı. Onları növbə ilə Stali-

nin əsgərləri qoruyurdu. Onların bir adı var idi: "vətən xaini". Onları adları, soyadları ilə yox əyinlərinə geydikləri iş paltarının arxa və ön hissəsinə tikilmiş nömrələri ilə çağırırdılar" (Eyvazlı A., 2011:25 may, http://azpress.az/index.php?lang=az&sectionid=news&id=63169)

Aida Eyvazlı muzeydəki sənədlərin birindən, 1937-ci ilin payızına kimi Krasnoluçinsk şəhər Partiya Komitəsinin katibi işləmiş Məryəm Ançisin xatirələrindən bir parçaları belə çevirib: "...Uzun sürən istintaq dindirilmələrindən, şəxsi əşyalarımızın dəfələrlə yoxlanılmasından da, əl-barmaq izlərimiz götürdükdən sonra, bizi yük vaqonlarına doldurdular. Vaqonlara NKVD (XDİK ) (Xalq Daxili İşlər Komisarlığı) işçiləri doluşdular. Onlar çoxdurlar. Onların içərisində bir nəfər zəhmi ilə xeyli fərqlənir və bizə qışqıraraq dedi: "Beləliklə, Siz Vətən xainlərinin ailə üzvü kimi məhkum olunmusunuz. Xalq Siz olmayanda daha rahat nəfəs alacaq. Sizin uşaqlarınız da Sizdən imtina edib, ərləriniz güllələnib. Eşitdiyimiz sözlər ürəyimizi üşütdü, göz yaşlarımızı saxlaya bilməyib hamımız ağlayırdıq. Əlimizdən nə gəlirdi ki... Lakin hamımıza üz vermiş eyni dərd və bəla biz anaları, məhkumları bir ailə kimi bərkitdi, möhkəm etdi. Vətənlərimizdə, evimizdə övladlarımız, doğmalarımız qalmışdı. Ümid edirdik ki, bir gün haqq-ədalət qalib gələcək". (Eyvazlı A., 2011:25may, http://azpress.az/index.php?lang=az&sectionid=news&id=63169)

SSRİ XDİK-in (NKVD) 00486 saylı əmrindən sonra 1937-ci il avqustun 15-dan 1938-ci ilə qədər, yeni yaradılan islah əmək düşərgəsinə 20 min "ЧСИР" (ÇSİR) (rus dilində çleni semyi izmennikov rodinı sözünün qısaldılmışı) göndəri-

lib. Həbs olunanlara özlərinin qalması üçün çiy kərpicdən binalar tikdirilib. Qızdırılmayan, heç bir kommunal şəraiti olmayan bu binalarda soyuqdan, xəstəlikdən, aclıqdan 1940-1950-ci illərdə 10000 qadın ölüb.

Aida Eyvazlı muzey əməkdaşlarının verdiyi sənədlərə dayanaraq yazır ki, bu gücsüz, talesiz xanımlar Stalinə xidmət edən əsgərlərin şəhvət və iyrənc ehtiraslarının da qurbanı olurdular. Həmin bu düşərgədə ata-anası bəlli olmayan 1507 uşaq da dünyaya gəldi" (**Eyvazlı A., 2011:25 may, http://azpress.az/index.php?lang=az&sectionid=news&id=63169**)

## Əmin Abidlə Nafiə xanımın evlilik tarixi



**Şək. 29 Nafiə xanım**

İstintaq zamanı Əmin Abid Türkiyə vətəndaşı olan, alban qızı Nafiə Tevfik Tanur qızı ilə evli olduğunu bildirib. Başqa bir evliliyindən, qızının varlığından isə söz açmayıb (AMEA Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi Arxivindəki şəxsi işində də qızı haqqında bir bilgi yoxdur). Nafiə xanım da istintaqda Əmin Abidin ikinci arvadı və qızının olduğu haqqında heç bir bilgi verməyib (**AMEA AEİTVSMA, fond 39**).

İstintaq materiallarında və başqa sənədlərdə Əmin Abidin Nafiə ilə evlənməsinin tarixinə rast gəlmədik. Əmin Abi-

din qohumlarının bağışladığı şəkillərinin birinin arxasında Nafiə xanımın "Sevgili anneme. Nikahdan sonra: Qızınız. 1341" qeydi var. Buradakı tarixi miladiyə çevirdikdə 1923-cü ilə uyğun gəlir. Nafiənin 1922-ci ildə İstanbul Universitetinə qəbul olunduğunu bildiyimizdən 1923-cü ildə Əmin Abidlə evlənməsini doğru tarix hesab etmək olar **(Şamil, Ə. şəxsi arxivi).**

## Nafiə Abidin bədii yaradıcılığı

1928-ci ildə İstanbuldakı Orxoniyyə mətbəəsində ərəb əlifbası ilə basılmış "İstiqlal uğrunda" şeirlər toplusu (Toplunun fotosurətini 1997-ci ildə TRT Azərbaycan şöbəsinin müdiri Seyfəddin Altaylı mənə bağışlayıb) "Milli Azərbaycan nəşriyyatı" seriyasından buraxılmış 8-ci kitabdır. Kitabda Gültəkinin 20, Əhməd Cavadın 9, Sənanın 6, Azərizadənin 2, Məsud Səfvətin 2, Məcidzadənin, Yusifin, İsmail Zühutinin, Usta Əlinin, Gülsərin, Nafiə Şükrünün hərəsinin bir şeiri verilmişdir. İki şeirin altından "... xanım", bir neçə şeirin altından isə ulduz işarələri və yaxud üç nöqtə qoyulmuşdur. Ümumilikdə kitabda 13 müəllifin 48 şeiri verilmişdir. Kitaba Kamal imzası ilə geniş müqəddimə yazılmış, sonda da "Yeni Kafkasiya" və "Azəri-Türk" dərgisindən alınmış iki məqalə əlavə edilmişdir **(Gültekin, 1999:11).**

Kitabda Nafiə Şükrünün "Qardaş sevgisi" şeiri "Azərbaycanın millətpərvər şairi Gültəkin bəgə" ithafı ilə başlayır. Şeirin sonunda isə "15 Qanuni-sani 1925" tarixi qoyulub. Şeir mövzu və üslubca da Gültəkinin şeirlərinə çox yaxındır:

Əsiyor Şərqin o munis rüzgarı.
Qafqasiyanın yaşıl yamaclarında.

Ruhumdakı eşqin son yadigarı,
Yakıyor qəlbimi dərindən inan.

Bənim də səsimdə titrəyir duyğun.
Bənim də səsimdə bir sevgi dərun.
Yalnız sen deyilsin o yurda vurğun.
Bən də abidiyəm o şən məbudun
(Gültekin, 1999:11).

Nafiə Abidin "Dan yıldızı" jurnalının (Tbilisi) 1927-ci il 10-cu sayının 18-19-cu səhifələrində "Arabaçı Vladimir" xatirə-hekayəsini oxumuşdum. "Yeni dünya" ("Maarif və mədəniyyət" jurnalı, 1927, sayı 3, səh. 21), "Bombalar kölgəsində" ("Maarif işçisi" jurnalı, 1927, sayı 6-7, səh. 63), "Uzun gecənin sonu" ("Dan yıldızı" jurnalı, 1927, sayı 10, səh. 24) şeirlərini də qeydə almışdım. Sonrakı illərdə onun imzası mətbuatda görünməmiş, haqqında da heç nə yazılmamışdı.

## Türkiyədə Nafiə Abidlə bağlı axtarışlarım

Keçmiş Azərbaycan Milli Təhlükəsizlik Nazirliyindəki istintaq materialları ilə tanış olduqdan sonra Türkiyəyə gedəndə dəfələrlə Nafiə xanımdan bir iz tapmağa çalışırdım. TRT Azərbaycan şöbəsinin müdiri Seyfəddin Altaylını da axtarışa qoşdum. Abdulhaluk Renda çoxdan dünyasını dəyişmişdi. Nafiənin atalığı Tevfik Tanur və onun qardaşlarından bir iz tapa bilmədik. Abdulhaluk Rendanın qohumlarından birini tapdıq, telefonla danışdıq. Onlar da nə Nafiəni, nə atalığı Tevfik Tanuru tanıyırdılar. Beləcə bütün ümidlərim kəsilsə də, heç zaman bu ailəni unuda bilmirdim. Həmişə xatırlayır, onların acı taleyindən söz açır, məqalələr yazırdım. Məqalələ-

rimin bir neçəsi də Türkiyənin nüfuzlu elmi jurnallarında çap olunmuşdu.

İnternetin kütləviləşməsi məqalələrimi saytlarda yerləşdirməyimə şərait yaratdı. Bu da öz təsirini göstərdi. İnternet olmasaydı Kutay Arslantürkdən məktub almağım imkansız idi.

Məktubu oxuduqdan sonra xeyli ölçüb-biçməli oldum. Bilmirdim atası Altay Tanurun Əmin Abidin övladı olmadığı haqqında eşitdiklərimi və bildiklərimi ona deyim, ya deməyim. Sonda qərara aldım ki, bu mövzuda susum. İndiyədək özünü Əmin Abidin nəvəsi sayan birisinə eşitdiklərimi desəm nə olacaq, deməsəm nə olacaq.

## Nafiə Abidin nəvəsi Kutay Aslantürklə yazışma



**Şək. 30 Nafiə xanım**

Kutay Arslantürkün məktubundan uzun illər məni düşündürən suallara qismən cavab alsam da, bu cavab məni tam qane etmirdi. Nafiə xanım, onun Türkiyədəki taleyi ilə bağlı bilgilər almaq üçün Kutay Arslantürkə zəng vurdum. Saat fərqini unutduğumdan Kutay Arslanturkü gecə yarısı yuxudan oyatdım. Həyəcandan nə danışdığımı bilmirəm. Danışıq məni sakitləşdirmədi. Bilgisayar arxasına keçib uzun-uzadı bir məktub yazdım.

Nafiə xanım haqqında verdiyim suallarımı Kutay Arslan-

türk belə cavablandırdı: "Önce baba annem ve büyük babam hakkındakı çalışmalarınız için çok-çok teşekkürler ederim.

Annemin anlattığına göre Nafie hanım Baküden İstanbula döndükten sonra politikayla ilgilenmiş, devamlı yüksek öğretim görürken 1967-68 yılında bir sinemada korku filmi seyr ederken kalp krizi geçirip vefat etmiş (Gənc araşdırıcı Dilqəm Əhməddən Nafiə xanımın ölüm tarixini dəqiqləşdirmək üçün Ankaraya gedərkən məzarlıq idarəsinə baş vurmasını, oradan bilgi almasını xahiş etmişdim. Təxminən bir ildən sonra, yəni 2019-cu il fevralın 8-də o, mənə Nafiə xanımın dəfn sənədlərinin surətini göndərdi. Ankara Böyük Şəhər Bələdiyyəsi Məzarlıqlar Amirliyinin tərtib etdiyi bu sənəddən aydın olur ki, Nafiə Əhməd Şükrü qızı Tanur 1967-ci il aprelin 5-də miokart infarktdan ölmüş və iki gün sonra Asri qəbristanlıqdakı 209 saylı adanın, yəni qəbristanlığın bir bölməsinin 285-ci məzarında dəfn edilmişdir. Böyük əziyyət çəkib bu sənədləri taparaq mənə göndərən Dilqəm Əhmədə təşəkkürümü bildirirəm – Ə.Ş) (**Əhməd D., 2019: 8 fevral**).

Onun anne ve babası hakkında hiç bir bilgim yok. Fakat babasının, yani babamın dedesinin benim babamı yetiştirdiğini biliyorum. Nafie hanımın vefatından bir yıl sonra da ben 3 yaşında iken babam ve annem ayrıldılar. Babamı (Altay Tanur) ilk defa 25 yaşında, Ankarada gördüm.

Babamdan ve annemden Feyza adında bir kız kardeşim var. Babamın ikinci hanımından Tinaz Tanur diye bir kız kardeşim var. Babamın üçüncü ve son hanımından da 1993 doğumlu Cağatay Tanur diye bir erkek kardeşim var. Tinaz da, Cağatay da facebooktalar.

Amerikaya köçen akrabalarım (İnnanın oğlanları haqqında ona yazmışdım. Onları xəbər alır) hakkında daha fazla bil-

giniz varsa, çok memnun olurum. Onların tam isimleri, eyaletleri, telefonları, ne bula bilirseniz.

Baküde Aliabbas ve Abulfazin çocukları, torunları hakkında da bilgileriniz varmı? Onların telefonlarını, adreslerini varsa da gönderseniz çok memnun olurum.

Benim perulu birinci hanımımdan (Janet Carasas) Harun adında 26 yaşında bir oğlum ve şimdiki pakistanlı hanımımdan da (Saadia Ahmad) 8 yaşında Şanzeh adlı bir kızım, 5,5 yaşında Ali Sinan adlı bir oğlum var. Kızım Şanzeh ve kız kardeşim Feyza ayni Nafie hanıma benziyorlar.

Gönderdiginiz fotograflardan genc kız olan baba annem ve o fotografın orijinali ya bende, ya da perulu hanımımda. Diğer fotografi görmedim ve benzetemedim. Nafie hanımın gördügüm her fotografı aynı 1920-lerin sinema yıldızları gibi.

Tekrar, tekrar ve tekrar teşekkürlerimi sunarım. Şu anda burada (Orlando, Florida) sabah saat 3. sayenizde çok heyecanlandım, inşallah uyuya bilirim.

Saygılarımla, Kutay Harun Arslantürk"

Sonrakı məktublarında Kutay Harun Arslantürk mənə göndərdiyi facebook səhifələri haqqında belə bir izah yazmışdı: "Alttakiler de, benim facebook sayfam, ikinci annemden olan kız kardeşim Tinaz Tanur, üçüncü annemden olan erkek kardeşim Cağatay Tanur'un annesi (babamın üçüncü hanımı Nuray Karadut ve anneme çok yakın olan ufak yeğenim Amine Sultanın facebook sayfalarıdır".

Mən Kutay Harun Arslantürkə məktub yazmaqla yanaşı, onun göndərdiyi facebooklara da məktub yazdım. Yenə də ilk cavab verən Kutay Arslantürk oldu. O yazırdı: "Ali Şamil bey, inşallah siz ve sevdikleriniz çok iyisinizdir.

Şu anda evimden 300 km uzakta bir yerde çalışmaktayım. Hafta içi uzun saatler çalıştıktan sonra, hafta sonları aileme dönüyorum, hem onlarla ilgileniyorum, hem de oradaki işlerimi hall ediyorum. Yazmadığım için özür dilerim. Hem fiziken, hem manen çok yoğun bir dönemden geçiyorum. Ailem sizi biliyor, bir tek erkek kardeşim Cağatay'la görüşemedim. Cağatay'in annesi babamızla (Altay Tanur) 1992-2006 (ölum yılı) arası evliydi. 1992'de sadece 18 yaşında olmasına rağmen çok akıllı, kültürlü, olğun bir insandır, beni çok sever, ben de onu çok severim ve benden genç olduğu halde ona anne derim. Babamın son hanımı olduğu için, kendisi babam ve büyükannem hakkında hem detaylı bilgi, hem de birçok fotoğraflara sahip olabilir. Adı Nuray Tunç, benim facebookumda arkadaşlarım arasında bulabilirsiniz. Sizin facebook sayfanız varmı?

Eklenen fotoğraflar babam ve büyük babamın (dedemin) fotoğrafları".

## Nafiə xanımın nəvəsi Çağatay Tanurla yazışma

Çox keçmədi ki, Çağatay Tanurdan aşağıdakı məktubu aldım: "Öncelikle bu araştırmaları yaparak beni ne kadar mutlu ettiğinizi anlatamam. Benim adım Çağatay Tanur. Altay Tanur'un oğluyum. Babam 11.02.2006 tarihinde saat 20:10'da hayata gözlerini yumdu. Kabri Ankara'da Karşıyaka mezarlığındadır. Babamın hayatının son 2 senesinde sadece ikimiz vardık. O sırada anlattığı bazı şeyleri hatırlıyorum. Nafie hanımın öz babası Tevfik Tanur'dur. Maile ek olan fotoğraflarda babamın, Babam hep dedesine baba demiş. Onu babası bilmiş. Öz babasıyla ilgili gerçekleri de biliyormuş. Bana anlattığı kadarı, babası ile annesi SSCB'nin (SSRİ – Ə.Ş.) asir

kampına alınmışlar ve bir süre orada yaşamışlar. Asirlerin odun toplamaya götürüldüğü bir gün büyükbabam (Emin Abid) ile bir asker arasında bir tartışma çıkıyor ve orada kurşuna dizilerek öldürülüyor. Ve ardından da oraya defnediliyor. Yani defin yerinin bilinmediğini söylemişti babam. Elimde babaannemin bir kaç fotoğrafı var. Onları da size bu mail ile yollayacağım. Benden istediğiniz her hangi bir şey varsa konuyla ilgili yardımcı olmak isterim. Cevabınızı bekliyorum. İyi çalışmalar ve bu konu hakkında araştırma yaptığınız için çok teşekkürler".



**Şək. 31 Nafiə xanımın atalığı Tevfik Tanur və oğlu Altay**

Çağatay Tanur mənə yazdığı məktubuna çoxlu şəkillər də əlavə etmişdi. Bu şəkillərin bəzilərində avtoqraflar da var. Məktubda isə yazmışdı: "Çocuk ve yaşlı birinin olduğu fotoğraf babam ve dedesi Tevfik Bey'e aittir. Diğerleri Nafia hanımın fotoğrafları. Bir fotoğrafta başka bir bayan var, ancak onun kim olduğunu bilmiyorum. Fotoğrafların altında eski türkçe yazılar bulunmaktadır. Yazıları tercüme edebilir ve ba-

na geri dönüş yaparsanız sevinirim. Babam 09.01.1942 doğumludur.

Nafie hanım'ın Türkiye'ye hangi tarihte döndüğünü bilmiyorum. Rahmetli babam bunu söylemedi. Nafie hanım'ın çevirmenlik yaptığını, 5-6 civarında lisan bildiğini söylüyordu babam. Çevirmenlik dışında başka bir işle meşgul olduğunu bilmiyorum. Ama kendisine elbise diktiğini söylerdi. Ancak terziliği meslek olarak yaptığıyla ilgili bir şey söylemedi. Annesinin el işleri konusunda yetenekli olduğunu söylerdi. Resmlerdeki elbise üzerinde görünen "NT" babaannemin armı olabilir belki. Kesin bir şey söyleyemem. Babamın dedesi olan Tevfik Tanur'da TCDD'de çalışıyormuş ve bir dönem millet vekilliği yapmış. Babam üniversite eğitimini yarıda bıraktığından üniversite mezunu değildir. Bir dönem tiyatro ile uğraşmış ve bir yapmış (Mənə göndərdiyi fotodan açıq görünür ki, Altay Tanur Əhməd Kutsi Tecerin "Satılıq ev" əsərində Orhan Kaya rolunda çox oyunda rol almış, səhnəyə oyunlar qoymuş ve rejissor kimi çıxış edib – Ə.Ş.). Daha sonra ikinci eşinin ısrarı ile tiyatroyu bırakmış ve ticaret ile uğraşmış. Ticaret alanında bir çok yerde çalışmış.

Unuttuğum, atladığım bir konu varsa, affola. Sorarsanız bildiğim kadarını zevkle paylaşırım. Cevaplarınızı bekliyorum. Ailemle ilgili çalışmalarınız için de size ayrıca teşekkür ediyorum. İyi çalışmalar".

Yazışmalardan Nafiə xanımın Türkiyəyə neçənci ildə döndüyünü (bu haqda KQB-dəki Nafiə xanımın işində də bir bilgi yoxdur), müəyyənləşdirə bilmədik. Nəvələrinin göndərdiyi şəkildə babasının yanında duran Altayın təxminən üç yaşı olduğu bilinir. Bu şəkilə əsaslanıb demək olar ki, Nafiə təxmi-

nən 1944-1945-ci illərdə Türkiyəyə dönüb. Altay Tanur isə 09.01.1942-ci ildə doğulub, 01.02.2006-cı ildə vəfat edib.




**Şək. 32 Nafiə xanımın oğlu Altayın teatr fəaliyyəti haqqında qəzetlərin yazdıqları və oynadığı tamaşanın afişası**

Onu müəyyənləşdirdik ki, vətənə döndükdən sonra Türkiyə Böyük Millət Məclisi ilə əlaqəsi olub, onlar üçün tərcümə işləri görüb. Bu da o deməkdir ki, SSRİ-də yaşamış, KQB tərəfindən həbs edilmiş Nafiə xanıma rəsmi dairələrdə inam və etimad olub. Bu məsələnin özü dərindən araşdırılmalıdır.

## "Savablarımızı və günahlarımızı yazan" sosial şəbəkə

Sosial şəbəkə savablarımızı və günahlarımızı yazan mələklərə dönüb. Harada, hansı toplantıya qatılırıq, orada nə danışırıq, kimlərlə görüşürük, xəbəri yayılır. Çox vaxt gedəcəyimiz toplantı, o toplantıda saat neçədə, nə mövzuda danışacağımız haqqında da bilgi verir. Toplantılarda nədən və necə danışırıqsa olduğu kimi yaddaşında saxlayır. Kim nə vaxt istəsə açıb oxuya və dinləyə bilir.



**Şək. 33 Əmin Abid**

İnternetin bu işindən razı qalan da var, narazılıq edən də. Mən hələ ki, onun yaxşı cəhətlərini görmüşəm. Gedəcəyim toplantıya hansı ölkələrdən kimlərin gələcəyini bilirəm. Özümə, dostlarıma, gənc araşdırıcılara lazım olan kitabları, qəzet və jurnalları, sənədləri simpoziuma gələnlər vasitəsilə gətirdirəm. Azərbaycanla bağlı bilgiləri də məndən istəyən dost-tanışa toplantılara gələnlər vasitəsilə göndərirəm. Poçt xərcləri o qədər bahalaşıb ki, dost-tanışın, elmi mərkəzlərin istədikləri kitab, qəzet və jurnalları göndərməyə bir illik maaşım belə yetməz.

Əlaqələr o qədər genişlənib ki, Koreyadan da kitab, qəzet-jurnal istəyirlər, Yaponiyadan da. Amerikada yaşayan araşdırıcılara da Azərbaycandan çap olunmuş kitablar gərək olur, hindistanlıya da. Bir sözlə, dünyanın hər yerində olan araşdırıcılar Azərbaycanla maraqlandığı kimi, biz də onların ölkələri, ədəbiyyatları, tarixləri ilə maraqlanırıq.

Bu dəfə isə kitab, qəzet-jurnal gətirməyimi xahiş etmirdilər. Zəng vurub görüşmək istədiklərini bildirirdilər. Amerikanın güney doğusundakı Florida ştatının Orlando şəhərində yaşayan Kutay Aslantürk internetdən öyrənmişdi ki, noyabrın birinci yarısında Türkiyədə olacam, orada keçirilən bir neçə toplantıya qatılacam. Simpoziumların proqramları öncədən internetdəki saytlara qoyulduğundan hansı gün, hansı salonda, hansı saatda məruzə edəcəyimi bilirdi. Bütün bunları bilsə də, öncədən zəng vurub görüş üçün vaxt və yer müəyyənləş-

dirmək istəyirdi. Mən də qrafikə baxıb İstanbulda görüşməyi daha münasib saydım.

## Amerikada da “525-ci qəzet”i izləyirlər

Diqqətimi çəkən bir cəhət o oldu ki, gedəcəyim toplantıların proqramını Kutay Aslantürk məndən öncə oxumuşdu. Belə hadisələrlə son dövrlərdə tez-tez rastlaşıram. “525-ci qəzet”in 31 oktyabr, 1 noyabr və 2 noyabr 2018-ci il saylarında çap olunan “Nafiə Abidin Amerikadakı və Türkiyədəki nəvələri” məqaləmi də Kutay Aslantürk, demək olar ki, mənimlə eyni günlərdə oxumuş, fikirlərini bölüşmək üçün telefonla yarım saatdan çox danışmışdı.

Böyük bir sevgiylə Azərbaycana bağlı olan bu insan ayda bir, iki aydan bir zəng vurur, söhbətləşirik. Danışdıqlarından da hiss edirəm ki, burada baş verənləri ardıcıl izləyir.

## Simpoziumlara getmə səbəbləri

Türk Ocaqları Dərnəyi Bursa Şöbəsi ilə Uludağ Universitetinin Bursa şəhərində keçirəcəyi “Hər yıl bir büyük Türk!” devizi altında keçirilən Beşinci Uluslararası Bilgi Şöleni “Uluslararası Cengiz Dağcı Bilgi Şöleni” adlanırdı. Bursa şəhərində 2018-ci il noyabrın 5-6-da düzənlənəcək bu toplantıda “Cengiz Dağcının “İxtiyar Savaşçı” romanında xəyal və gerçəklik”, 8-10-da Kastomonu şəhərində təşkil olunmuş “Birinci Millətlərarası Türkiyə-Özbəkistan münasibətləri” simpoziumunda “Xalid Səid Xocayevin həyat hekayəsi ilə ilgili kəsin cizgilər” mövzularında məruzə etməliydim. Hər iki toplantının da proqramı öncədən internet vasitəsilə yayılmışdı. Kutay Aslantürk bunları oxuduğu üçün mənə zəng vurmuşdu.

## Doğumunun 120 illiyində Əmin Abidin xatırlanması

Kutay Aslantürklə tanışlığımızın tarixi 2014-cü il dekabr ayının 19-dandır. Bu haqda “525-ci qəzet”dəki məqalələrimdə geniş yazmışdım. Onunla görüşüb, üzbəüz söhbət etməsək də, hərdən yazışır, telefonla danışırıq. Onunla tanışlığımıza səbəb Azərbaycanın üsyankar şairi, milli araşdırıcısı, 1938-ci ildə siyasi səbəblərə görə güllələnmiş Əmin Abid haqqında yazdığım məqalələr olmuşdu.

Əmin Abid haqqında ötən 40 ildə bəlkə də 40-dan çox məqalə yazmışam. Onların əksəriyyəti də internet saytlarında var. Kutay Aslantürkün yazılarımın hansını oxuyub, hansını oxumadığını bilmirəm. Bildiyim odur ki, onu görüşməyə həvəsləndirən “525-ci qəzet”dəki son yazılarım olub. Görünür, elmi məqalələr insanların hisslərinə publisistika kimi güclü təsir etmir. “525-ci qəzet”də çap olunan yazıma görə Şirazdan və Amerikadan əks-səda gəlməsi məni daha çox qəzetlərimizin Azərbaycandan uzaqlarda izlənməsinə görə qürurlandırdı.

Səfər proqramımı gözdən keçirdim. Kastomonu Universiteti simpoziumunun proqramında sonda şəhər və onun tarixi yerləri ilə bağlı gəzinti vardı. Qərara aldım ki, Kutay Aslantürklə görüş üçün gəzintiyə qatılmayım.

Fikrimi Kutay Aslantürkə bildirdim. O razılaşdı. Şərtləşdik ki, 2018-ci ilin noyabrın 11-də İstanbulda görüşək. Vaxtında görüş yerinə çatmaq üçün bir gün öncə səhər tezdən yola çıxıb axşamüstü İstanbulda oldum. Dostlarımızdan Əkrəm Kaya bizi qarşılayıb şəhərin Asiya tərəfindəki kirələdiyi hotelə apardı. Birlikdə şam süfrəsi arxasında xeyli söhbət etdik. Yeri gəlmişkən, Əkrəm bəy ilə hər görüşümdə yanımda gənc araşdırıcılar olub. Biz bir az onlar haqqında danışdıq. Mən qürur hissi ilə həmin aspirantların uğurlarından danışırdım. Görür-

düm ki, Əkrəm bəyin də İstanbulun tarixi yerlərini, muzeylərini gəzdirdiyi gənclərin – aspirantların indi hamsının elmi dərəcəsi olduğunu, universitetlərdə müəllim, kafedra müdiri işlədiklərini eşitdikcə gözləri gülürdü. Hərdən də onların ilk səfərləri zamanı, utancaqlıq etdiklərini yada salır, xoş xatirə kimi dilləndirirdi.

## Kutay Aslantürkün İstanbula gəlişi

Söhbətimiz uzun çəkdiyindən Əkrəm Kayadan gec ayrıldıq. Otağımıza gəlib yatmağa hazırlaşırdıq. Telefonum zəng çaldı. Zəng vuran Kutay Aslantürk idi. Saat biri keçmişdi. Dedi ki, İstanbulun Asya tərəfindəki Sabiha Gökçen hava limanındadır, təyyarədən endi. Kirayəyə maşın götürmək istəyir ki, İstanbulda olduğu günlərdə şəhərdə rahat hərəkət edə bilsin. Onun dediyi yer bizim qaldığımız hoteldən çox da uzaq deyildi. Fikirləşdim ki, yükünü baqajdan almağa azından yarım saat vaxt lazım gələcək. Kirayə maşın götürmə işləri də bir saatdan az çəkməyəcək. Sonra da gecənin yarısı, qaranlıqda gəlib hoteli tapması da xeyli vaxt aparacaq. Ona görə xahiş etdim ki, görüşü sabaha saxlayaq. Kutay Aslantürk razılaşdı.



**Şək. 34 Kutay Aslantürklə hotel foyesində söhbət**

Səhər gələndə Kutay Aslantürk məni necə qucaqlayıb ağladısa, özümü saxlaya bilməyib ona qoşuldum. Gördüm ki,

özünü toparlaya bilməyən təkcə mən deyiləm. Həyat yoldaşım Əzizə xanımın da, Kutay Aslantürkün kim olduğunu bilməyən Əkrəm Kayanın da gözləri dolub. Dedi ki, tez görüşməyə, söhbət etməyə can atırdım. Yaxşı ki, siz görüşü bu günə saxladınız. Baqajdan çantamı alıb kirayə götürdüyüm maşının sənədləşdirilməsini hazırlamaq gecə saat 4-dək çəkdi.

Öncədən planladığım söhbət alınmadı. O da, mən də plansız, sistemsiz danışırdıq. Kutay Aslantürkü ən çox maraqlandıran Əmin Abidin və Nafiə xanımın Bakı həyatı, Əmin Abidin soyu və o soydan olanların indi harada yaşamaları idi. Mənim suallarım isə Nafiə xanımın Türkiyəyə gəlmə tarixi, Ankaradakı fəaliyyəti, ölüm tarixinin dəqiqləşdirilməsi ilə bağlı idi.

## Nafiə Abidin gəlini

Kutay ailələri haqqında təxminən belə dedi: atam Altay doğulandan sonra onu anasından alıb yetimxanaya veriblər. Nənəm həbsdən qurtulub hansı yollasa Ankaraya dönəndən sonra oğluna qovuşmaq üçün bir il əlləşib. Türkiyə Böyük Millət Məclisinin sədri Abdülhaluk Rendanın diplomatik kanalları işə salması sayəsində Sovetlər Birliyindəki yetimxanadan atamı alıb Türkiyəyə gətirdib. Nafiə xanımın atası (Kutay doğru bilmir. Nafiə kiçik ikən atası Əhməd Şükrü ölmüş, anası Tovfik Tanura ərə getmişdir. Tovfik Tanur da Nafiəni qızlığa götürərək ona öz soyadını vermişdir – Ə.Ş.) Tovfik Tanur onu övladlığa götürüb. Ona görə də sənədlərdə adı, soyadı Altay Tovfik oğlu Tanur kimi yazılıb.

Atam yaraşıqlı, şövqlə geyinən, cəlbedici nitqi olan birisiydi. O, aristokrat cəmiyyətin qaydalarını yaxşı bilirdi. Anam Nazmiyənin atası Mahmut Aslantürkün iş adamıydı. Dindar

olsa da çox mühafizakar deyilmiş. Anamın dediyinə görə babam Mahmud sufi cəryanlarından hansınınsa üzvü imiş. Liseydə oxuyan qızının dostları ilə teatr tamaşalarına və aktyorların məşqlərinə getməsinə etiraz etməyib.

Tez-tez məşqlərə gedən anam iti yaddaşı olduğundan aktyorların rollarını əzbərləyib. Bir dəfə baş rolun ifaçısı xəstələnib. Onu əvəz etmək lazım gələndə anam özündə cəsarət tapıb həmin rolu oynaya biləcəyini deyib. Başqa əlacları olmadığından onun səhnəyə çıxmasına icazə veriblər. Rolun öhdəsindən gəlib. Rejissor deyib ki, bu qız anadan aktyor doğulub. Sonralar bir neçə tamaşada da göstərilən etimadı doğruldub, yeni rolları da məharətlə oynayıb. Ona Türkan Şorayın çəkildiyi "Mavi eşarp", "Vesikalı yarim" filmlərində ufaq-təfək (epizodik) rollar da veriblər, rejissor köməkçiliyi də edib. Anam yaraşıqlı, təkəbbürlü bir qız imiş. Atam Altay onu bir ofisdə görüb. Bir neçə dəfə arxasınca gəlişi ilə anamın könlünü ovsunlayıb. Beləcə, 1964-cü ildə evləniblər.

## Gəlininin Nafiə Abid haqqında söylədikləri

Kutay Aslantürkə görə, nənəsi Azərbaycandan dönəndə özü ilə var-dövlət gətirdiyindən firavan bir həyat sürürmüş. Bu fikir mənim üçün inandırıcı gəlmədi. Çünki araşdırıcılar Əmin Abidin soyunun Bakı xanlarına bağlı olduğunu yazsalar da, mən bilirəm ki, bu ailə çox kasıb yaşayıb. Nafiə xanımın Bakıda olduğu dövrdə bolşeviklər hamını soyub lüt-üryan eləmişdilər. Necə deyərlər, hamı gün çörəyinə möhtac qalmışdı. Belə bir vaxtda həbsxanadan çıxmış, nə yollasa vətəninə dönmüş Nafiə Abid buradan heç bir var-dövlət apara bilməzdi.



**Şək. 35 Nafiə xanım**

Nafiə xanım Türkiyəyə geri dönəndə anasının qohumu Abdülhaluk Renda Türkiyə Böyük Millət Məclisinin sədriydi. 5-6 dil bilən Nafiə xanıma da görünür, o, himayədarlıq edib, milli məclisdə tərcümə işləri tapşırıb. Bundan başqa, Nafiə xanımın atalığı Tevfiq, onun qardaşı Kamal, eləcə də başqa qohumları yüksək və imkanlı vəzifələrdə işləyirlərmiş. Yəqin ki, Nafiə xanımın maddi vəziyyətinin yaxşılaşmasında onların da rolu olub.

Kutay Aslantürk deyir ki, atamla anam evlənəndən sonra Nafiə xanımla bir yerdə yaşamayıblar. Nənəm oğlunun marağını nəzərə alaraq səyyar teatr təşkil edib. Teatr üçün avtobus da alıb. Beləcə, Altay Tanurun rəhbərlik etdiyi səyyar teatr şəhər, qəsəbə və kəndləri gəzib tamaşalar göstərib.

Anam həmin günlərin xoş və şirin xatirələrini indi də yada salır. Deyir ki, mən də tamaşalarda oynayırdım. Əsasən kiçik səhnəciklər göstərirdik. Tamaşaçılarla sıx ünsiyyətdə olurduq. Bir də görürdün Altay tamaşa gedə-gedə şərbətsatan rolunu oynayır. Kürəyindəki böyük sürahidən kiçik piyalələrə şərbət süzüb tamaşaçılara paylayır. Onlar da piyaləyə imkanları daxilində pul qoyur. Çünki o dövrdə səyyar teatrlar öncədən bilet satmırdı. Tamaşaçılardan yığılan pulla həm özümüz dolanır, həm də teatr üçün gərək olanları alırdıq.

Anam deyir ki, Nafiə xanım yaraşıqlı, səliqə-səhmanına diqqət yetirən, hamı ilə məsafə saxlayan, aristokrat bir xanım

idi. Biz onun yanına gedəcəyimizi öncədən xəbər verərdik. Evə daxil olanda köməkçisi bizi qarşılayaraq qonaq otağına apardardı. 15-20 dəqiqə sonra bəzənib-düzənmiş Nafiə xanım otağa daxil olardı. Biz ayağa duraraq onun əlini öpüb göstərdiyi yerdə oturardıq. Söhbətlərimiz əsasən ciddi və rəsmi olardı. Daha çox onun suallarına biz cavab verərdik. O, ayağa duranda bilərdik ki, görüş vaxtı başa çatdı. Sağollaşıb ayrılardıq.

## Süleyman Sabunçuoğlunun şam yeməyinə dəvəti

Axşamüstü Süleyman Sabunçuoğlu zəng vurdu. Onunla 1990-cı illərin ikinci yarısından tanış idik. Azərbaycana gələn ilk iş adamlarındandır. Bakıdakı keçmiş "Novbahar" restoranı binasının təmirini onun rəhbərlik etdiyi tikinti şirkəti aparıb. Sonralar Rusiyanın bir çox bölgəsində stadionlar, mədəniyyət mərkəzləri, inzibati və yaşayış binaları tikiblər.

Ziyalılara böyük hörməti var. Azərbaycanın çox araşdırıcısını İstanbulda qarşılayıb, muzeyləri, tarixi məkanları gəzdirib, qonaq edib yola salıb. Azərbaycana böyük sevgisi olan Süleyman Sabunçuoğlunun mənim İstanbula gələcəyimdən və Kutay Aslantürklə görüşəcəyimdən xəbəri vardı.

Süleyman Sabunçuoğlu hotelə gəlib bizimlə görüşdü. Sonra da şam yeməyinə dəvət etdi. İlk görüşdən Kutay Aslantürkün Süleyman bəylə söhbəti tutdu. Böyük həvəslə onun dəvətini qəbul etdi. Axşam söhbətimiz Süleyman Sabunçuoğlunun açdırdığı süfrə arxasında oldu. Kutay bəy ailə hekayətlərini danışmağa davam etdi.

## Kutay Aslantürk atası ilə anasının ayrılması haqqında

Kutay bəydən: "Söhbətinizdən belə anladım ki, atanız-ananız sevişib evləniblər. İşləri də hər ikisinin ürəyincə olub. Güzəranları da pis deyilmiş. Bəs nədən bu evlilik çox uzun sürməyib? – deyə xəbər aldıqda dedi:

- Hocam, anam boşanmalarının günahını toplumda görür. Deyir ki, basqılara tab gətirib ailəmizi qoruya bilmədik. Altay yaraşıqlı, şirindilli, aristokrat toplumun qaydalarını yaxşı bilən birisi idi. Qadınlar-qızlar onu nəinki gözləri ilə "yeməyə" çalışırdılar, elə mənim yanımdaca dəsmallarını və ya hansısa bir əşyalarını bilərəkdən yerə salırdılar. Guya ki, təsadüfən düşdü. Altay da onu yerdən götürüb nəzakətlə verir, fransızsayağı əlləridən də öpürdü.



**Şək. 36 Soldan: Kutay Aslantürk, Əzizə Şamil, Əli Şamil və Süleyman Sabunçuoğlu. Şam süfrəsi arxasında**

Beləcə, aralarında xoş ünsiyyət yaranırdı. Mən onu qadınlardan qoruya bilmədiyim kimi özüm də kişilərin basqısına tab gətirə bilmədim. O qədər xoş sözlər söyləyirdilər, o qədər nazımı çəkirdilər, düşünürdüm ki, dünyanın ən gözəl qadını mənəm. Mənim tayım, bərabərim yoxdur. Kişilər hər bir istə-



**Şək. 37 Kutay Aslantürk Pakistan kökənli xanımı Saadia Ahmad, qızı Şanzeh və oğlu Ali Sinan ilə**

yimi, arzumu böyük həvəslə və zövqlə yerinə yetirirdilər. Bu təzyiqlərə hər ikimiz dözə bilmədik. Ailəmiz dağıldı. Mən 14 yanvar 1965-ci ildə doğulmuşam, bacım Feyza (Acilya) isə 5 may 1966-cı ildə. Atamla anam 1968-ci ildə ayrılıblar.

Həmin il anam məni və Feyzanı (Acilya) alıb İstanbula köçüb. Bir müddət rəqqaslıq, müğənnilik edib. Çox qoçaq, istədiyinə nail olan bir qadın olub. Toplumun müxtəlif təbəqəsindəki insanlarla sıx bağlar qurmağı bacarıb. Bir dəfə polisi döydüyünə görə üç ay həbs cəzası da alıb. Ərəb ölkələrinə də gedib, orada oxuyub, oynayıb. Biz Ankaradan köçdüyümüzdən nənəmin qəbrinə ziyarətə getməmişik. Heyif ki, qəbrin harada olduğunu nə anam xatırlayır, nə də biz.

Atam anamdan ayrılandan sonra da bir müddət teatrdan ayrılmayıb. Böyük tamaşalarda da rol alıb, rejissorluq edib. İkinci dəfə bir həkim xanımla evlənib. Ondan da Tinaz adlı bir bacım dünyaya gəlib. İkinci xanım babamın teatrda işləməsini istəməyib. Babam ikinci xanımının təzyiqi ilə teatrdan uzaqlaşıb. Müxtəlif sahələrdə çalışıb. Buna baxmayaraq, evlilikləri uzun sürməyib, ayrılıblar. Ona görə də indiyədək bacım Tinazın üzünü görməmişəm. Onu facebookda tapdım. Məktub yazdım, cavab vermədi. İnternetdən öyrəndim ki, "Frankies İstanbul" restoranında proje (layihə) kordinatorluğu yapmış bacım Tinaz Karadut 2014-cü ilin iyunundan 2015-ci ilin iyulunadək Bakı təmsilçisi olub. Görünür, hansısa bir güc bizi

Bakıya doğru çəkir. Mən də uzun illərdir Bakıya getməyə can atıram. Ya qismət... Görək nə zaman baş tutacaq.

## Kutay Aslantürk ailələrinin xarici ölkədə yaşamağa getmələri haqqında

1970-ci illər Türkiyənin çox ağır günləri idi. Ölkə kapitalizm ilə sosializmin arasında qalmışdı. NATO ilə Varşava Birliyi burada sanki güclərini sınayırdılar. Mitinqlər, solçularla millətçilərin qarşıdurması, terror Türkiyəni yaşanmaz hala gətirmişdi. Təsəvvür edin ki, mənim 12 yaşım olanda yaralıları xəstəxanaya daşıyanlara yardım edirdim. 1977-ci ilin 1 may nümayişində onlarla insan yaralandı. O yaralıları mənim kimi uşaqlar, qadınlar xəstəxanaya aparırdılar.

Qarğaşadan qurtulmaq üçün anam 1978-ci ildə bizi də alıb Almaniyaya köçdü. 1982-ci ildə Almaniyadan Amerikaya daşındıq. Evimizin yanında bir qaraj vardı. Müsəlmanlar namaz qılmaq üçün oraya yığılırdılar, yəni oradan məscid kimi istifadə edirdilər. Anam da oraya gedirdi.

Anam orada sufilər, onların toplandıqları yer haqqında bilgi alır. 1983-cü ildə Nyu-York şəhərində sufilərin cerrahilər təriqətinin üzvlərinin toplaşdığı yerə gedir. Görür ki, müxtəlif millətlərdən olan insanlar burada bir ailənin üzvləri kimi mehriban yaşayırlar. Bir gün görür ki, toplandıqları dərgahda böyük canlanma var. Səbəbini xəbər alanda deyirlər ki, dərgahın rəhbəri Müzəffər Ozak (1916-1985) xanımı və qızı ilə Nyu-Yorka gəlir. Onu qarşılamağa hazırlaşırlar. Anam da onların karteji ilə hava limanına gedir və Müzəffər Ozakla tanış olur. Onun söhbətlərinə o qədər aludə olur ki, bir daha cerrahilərdən ayrılmır.

## Kutay Arslantürk atası Altayla keçirdiyi günlər haqqında

Mən 1990-cı ildə Türkiyəyə döndüm. Atamı 25 yaşımda, Ankarada gördüm. Bələdiyyələr üçün lazım olan avadanlıqların alınmasına vasitəçilik edir, reklamlar hazırlayıb çap etdirirdi. Bir ara onun yanında qaldım. İşlərinə kömək etdim.

Atam üçüncü dəfə Nuray Tunc adlı, 18 yaşlı bir qızla evlənmişdi. Aralarındakı yaş fərqi 30-u haqlayırdı. Sonbeşik qardaşım Çağatayın anası Nuray səmimi və mehriban, çox ağıllı, yüksək mədəniyyətli, olduqca qayğıkeş bir insandır. Məni çox sevir, mən də onu çox sevirəm və məndən gənc olsa da, ona ana deyirəm. Uzaqda olduğumdan Çağatayla sıx əlaqə qura bilmirəm. Amma anam və bacım Feyza ilə əlaqələri normaldır.

Mən Ankarada atamın işlərinə kömək edəndə Nuray Çağataya hamilə idi. Atam da içməyi sevirdi. Mən bir dəfə ona bərk hirsləndim, dedim ki, doğulacaq uşağını, gənc xanımını düşün. Hətta bir dəfə rakı şüşəsini əlindən alıb atdım. Sonra gördüm atamla bir yerdə yaşamaq çətindir. Odur ki, Amerikaya getdim.

Çağatay çox ağıllı, savadlı və ciddi bir gəncdir. 1992-ci il aprelin 26-da anadan olub. Polis məktəbini bitirib. Polis təşkilatında komissar və helikopter pilotudur. Bir neçə il Quzey Kıbrısda işlədikdən sonra yenidən Türkiyəyə dönüb. Yazışırıq.

Amerikada birinci dəfə perulu Janet Carasasla evləndim. 1999-cu ildə bir oğlumuz oldu, adını Harun qoyduq. Milli dəyərlərə fərqli baxışımız, din ayrılığımız, məişət məsələlərində ortaq məxrəcə gələ bilməməyimiz ailəmizin dağılmasına səbəb oldu. 2005-ci il iyunun 30-da pakistanlı Saadia Ahmadla evləndim. Ortaq cəhətlərimiz çoxdur. Universitetin ən nü-

fuzlu müəllimlərindəndir. Ondan 12 yaşında Şanzeh adlı bir qızım, 9 yaşında Alisinan adlı bir oğlum var. Qızım Şanzeh bibisi Feyzaya və nənəsi Nafiəyə çox bənzəyir.

## Seyid Yahya Bakuvinin davamçıları sayılan cerrahilər təriqəti

Anam cerrahi şeyxi ilə söhbətlərdən, görüşlərdən sonra, başını örtdü, uzun paltar geyməyə və təsəvvüf musiqisi ilə məşğul olmağa başladı. ABŞ-dakı "Robert koleji"ni bitirən və universitetdə sənət dərsi deyən Tosun Bekir Bayraktaroğlunun cerrahilər üzərində təsiri çox güclü idi. Bildiyimə görə, sənətçilərdən Ahmet Özhan, "O Səs Türkiyə"nin jürisi Atena Gökhan, Mazhar Alanson, Cem Yılmaz, Ali Taran, Kadir Çöpdemir, Hasan Kaçan və başqaları bu təriqətin üzvləridir.

Bilmirəm özümü belə istədi, yoxsa dərgahdanmı belə məsləhət gördülər, anam Nyu-Yorkdan İstanbula döndü. Hər halda özü geri dönmək istəsə də, dərgahın şeyxi Tosun Bekir Bayraktaroğlu ilə məsləhətləşməmiş olmazdı. İstanbulda Karagümrük dərgahı yanında ev kirayələdi. İndi burada sufi bir həyat yaşayır və təriqətinə tərəfdarlar toplayır. Necə deyərlər, təriqətin qadınlar qrupuna rəhbərlik edir. Qadınlar da onu sevir, həm də ondan qorxurlar.

İstanbula dönəndən sonra bir ara hansısa televizyanın "Səslər və surətlər" proqramına aparıcılıq etdi. Hətta keçmiş Yuqoslaviyada xristian serblər bosniyalıları qıranda orada atası-anası öldürülmüş bir qızı himayəsinə götürdü. Onun haqqında qısametrajlı filim də çəkdi. Yutubda var. İstəsəniz baxarsınız".

Cerrahilər təriqəti haqqında çox yazırlar. İnternetdə də bu mövzuda xeyli material var. Bu təriqətin Azərbaycanla

bağlı olduğunu nəzərə alaraq onun haqqında oxucuya az da olsa bilgi verməyi münasib saydım. Araşdırıcılar cerrahilər təriqətinin öz başlanğıcını İçərişəhərdə, Şirvanşahlar Muzeyinin həyətində türbəsi olan Seyid Yəhya Şirvani-Bakuvidən aldığını yazırlar.

İlk cerrahi dərgahı Sultan Üçüncü Əhməd tərəfindən 1703-cü ildə Nurəddin Məhəmməd ibn-i Abdullah el-Rumi el-İstanbuli el Cerrahi (1678-1720) üçün yaratdığını yazırlar. Təriqətin adı da onun yaradıcısının ləqəbindən gəlir. Təriqətin formalaşması haqqında fikirlər fərqlidir. Bəzi araşdırıcılar təriqətin ramazaniyyə təriqəti əsasında formalaşdığını yazırsa, bəziləri də bəktaşilikdən, qədriyyə və rifaihilikdən qaynaqlandığı fikrindədirlər.

1925-ci ildə Türkiyədə təkkə və zaviyələrin bağlanması haqqında qanun qəbul ediləndə İstanbul şəhərində cerrahilərin 14 dərgahı, zaviyəsi varmış.

Təriqətin Kanada, Argentina, İspaniya şöbələri bu gün də fəaliyyətlərini davam etdirir. Ən çox şöbəsi olduğu ölkə isə Amerikadır. ABŞ-ın Nyu-York, Çikaqo, Los-Anceles şəhərlərində təriqətin şöbələri var. Mərkəzi İstanbuldakı Karagümrük dərgahı olan təriqətin üzvlərinin sayı 30 min nəfəri keçir. Zikrlərini gur səslə etmələri kənardan diqqəti onlara çəkir.

## Kutay Arslantürkün Amerikadan Türkiyəyə köçmək istəyi

Kutay Amerikada yaşasa da, maddi imkanları normal olsa da, oradakı yaşamdan razı deyil. Övladlarının taleyindən narahatdır. Bəzi qızların 13 yaşında hamilə qalması, bunun toplum və valideynlər tərəfindən sakit qarşılanması onu çox

narahat edir. Universitetdə müəllim işləyən, Pakistan kökənli xanımı Saadia Ahmadla razılaşıblar ki, Türkiyəyə köçsünlər.

Kutay Arslantürk Azərbaycandakı ədəbiyyat, mədəniyyət sahəsinə rəhbərlik edənlərdən də giley-güzarını gizlətmədi. Dedi ki, Azərbaycandan yazılanları izləyirəm. Əmin Abidlə eyni vaxtda həbs edilən, güllələnənlərin 75 illik, 100 illik, bəzilərinin hətta 80, 90, 110 illik yubileyləri də təntənə ilə qeyd edilir, əsərləri çap olunur, küçə, meydan, məktəb, təşkilat onların adı ilə adlandırılır. Amma Azərbaycan ədəbiyyatı tarixinin formalaşmasında böyük əməyi olmuş, şeirləri ilə insanları milli azadlıq mübarizəsinə səsləmiş Əmin Abidi yada salmırlar. Biz Azərbaycanda olsaydıq, Əmin Abidin haqqını tələb etsəydik, yəqin yubileyi də keçirilər, adı da əbədiləşdirilər, əsərləri də çap olunardı.

Bu yerdə mən özümü saxlaya bilməyib dedim: "Əmin Abid bəxti gətirməmiş bir insandır. Onun araşdırıcı məsələsində də bəxti gətirmədi. Haqqında ilk yazanlardan biri mən oldum. Mənim də, onun əsərlərini nəşrə hazırlayan, haqqında kitab və məqalələr yazan, professor Bədirxan Əhmədovun da topluma, hökumət orqanlarına ciddi təsirimiz olmadı.

1990-cı illərdən gənc publisistlər böyük ilhamla Əmin Abiddən yazmağa başladılar. Azərbaycan bayrağı "türkləşmək, çağdaşlaşmaq, islamlaşmaq" ideologiyasından hazırlanıb. Türklük orada birinci yerdədir. Türklükdən yazanı, onu təbliğ edəni cəzalandırmırlar, qınamırlar. Hökumət rəhbərləri rəsmi toplantılarda türkçülüklə bağlı gözəl fikirlər söyləyirlər. Millət vəkilləri də türkçülükdən bəhs edən əsərlər yazırlar. Amma hansısa bir qüvvə türklüklə bağlı təbliğata, ciddi əməli işlər görməyə əngəllər törədir.

Türkçülükdən yazan gənclərin çoxu heç bir siyasi partiyanın üzvü olmasa da, onlar hakimiyyətdə olan bəzi məmurların gözünə müxalif kimi görünür.

Darıxmayın, zaman belə getməz. Əmin Abid haqqında yazılanları oxuyan gənc nəsil onun dəyərini layiqincə verər.

**Qaynaqlar:**


1. ADMƏİA (Azərbaycan Dövlət Mərkəzi Ədəbiyyat və İncəsənət Arxivi), fond 130.
2. AMEA AEİTVSMA (AMEA Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi Arşivi), fon 39, Əmin Abidin şəhsi işi.
3. AMEA Əİ (AMEA Əlyazmalar İnstititu), Əliabbas Müznibin şəxsi fondu 23, saxlama vahidi 255.
4. AR DTX-nin arxivi (Azərbaycan Respublikası Dövlət Təhlukəsizliyi Xidmətinin Arxivi), Əhmədov Əmin Abid Mütəllib oğlunun istintaq qovluğu, PS 32796.
5. AR DTX-nin arxivi, (Azərbaycan Respublikası Dövlət Təhlukəsizliyi Xidmətinin Arxivi), Əhmədova Nafiə Tevfik Tanurun (həm də Şükrü Əhməd) istintaq işi, PS 269342
6. ASE (Azərbaycan Sovet Ensiklopediyası) (1976). 10 cilddə, 1-ci cild.
7. Eyvazlı Aida (2011). Məhbus qadınlar 25 may, Az-pres saytı, (http://azpress.az/index.php?lang=az&sectionid=news&id=63169).
8. Gültəkin-Əmin Abid. Buzlu cəhənnəm. Şerlər (Tərtib edəni və ön söz müəllifi: Əli Şamil), Bakı, “”Günəş” nəşriyyatı, 1999, 96 səh.

9. Şamil Əli. Nafiə xanımın acı taleyi // "Qədimliyimiz – diriliyimizdir". Tədqiqatlar elmi toplusu. – Bakı: "Günəş" nəşriyyatı, 1998. — S. 68-73.

10. Şamil Əli. Nafiə xanımın acı taleyi // "Çıraq" jurnalı. – 2000. — № 2. – S. 39-42.

11. Şamil Əli. Milliyətcə alban olan Azərbaycan ədibi Nafiə xanım // http://analoq.az/yazarlar/913-mllyyetce-alban-olan-azerbaycan-edb-nafe-xanm.html

12. Şamil Əli. Şəxsi arxivi, Zaqafqaziya Hərbi Tribunalı tərəfindən 1962-ci il dekabrın 24-də Əhmədov Əmin Abid Mütəllib oğluna verilmiş 9/H/62 saylı bəraət kağızının surəti.

13. Şamil Əli. Şəxsi arxivi, Əzizə Cəfərzadənin xatirəsi.

14. Şamil Ali. Shqirtarje qe u perndoq nga KGB-ja e Stalinit (Ablan kızı Nafienin ömür yolu) // "Standart" qəzeti (Albaniya). — 2010, 22 oktyabr. — S. 14.

15. Şamil Əli. Kutay Aslantürklə Nafiə xanım haqqında söhbət // "525-ci qəzet". — 2018, 6 dekabr.

## İsmail Farka haqqın qalib gələcəyini görmədən dünyasını dəyişdi

İsmailin atası Rubeyzi Abadini Farka Albaniyanın Şıkoddere şəhərində vəkil işləyirmiş. Anası Siuri Zübeydi Bayram da həmin şəhərdənmiş. Onların evliliyindən 1933-cü il aprelin 23-də dünyaya gələn uşağa İsmail adını qoyurlar. O, ailənin tək övladı olur. İsmail atasını İkinci Dünya Savaşında, anası Siuri Zübeydi Bayramı isə 1943-cü ildə aclıq və xəstəlikdən itirir. 10 yaşlı uşağı nənəsi Renni ilə əmisi Metin böyüdür.

İsmail 1949-cu ildə Tiranada gimnaziyanı bitirir. Həmin dövrdə Sovetlər Birliyi Sosialist Cəbhəsi adı altında Doğu Avropanı öz təsiri altında saxlayırdı. Birinci və İkinci Dünya Savaşları Alban xalqına da ağır zərbə vurmuşdu. Bu zərbə sadəcə olaraq iqtisadiyyatına dəyməmişdi. Albanların yaşadığı bölgələr bir neçə dovlətin tərkibinə qatılmışdı.

Ənvər Xocanın cəsarəti və apardığı məqsədyönlü siyasət nəticəsində Balkan yarımadasının güney-doğusunda, Adriatik dənizi ilə dağlar arasındakı vadidə, 28 min 748 kvadratkilometr sahədə Albaniya Xalq Sosialist Respublikası yaradılır. Albanların bir hissəsi Makedoniyada, bir hissəsi Kosovoda, bir hissəsi Qaradağda, bir hissəsi Yunanıstanda, bir hissəsi də İtaliyada (əsasən də Sicilya adasında) qalır. Yeni qurduqları dövləti müstəqil saysalar da İosif Stalinin istəyi xaricində nə daxili, nə də xarici siyasət yürüdə bilirlər.

Sosializm düşərgəsi adlandırılan ölkələrdə Sovetlər Birliyinin mövqeyini möhkəmlətmək, müstəmləkəçilərə xidmət edəcək kadrlar hazırlamaq məqsədilə rusdilli məktəblər açılır, yeniyetmə və gənclərin bir qismini ali və orta ixtisas, texniki-peşə məktəblərində, ixtisas artırma kurslarında oxumaq üçün SSRİ-yə göndərirdilər.

1950-ci ildə İsmail Farkanı Leninqrad (indiki Sankt-Peterburq) Meşə Texnikası Akademiyasına oxumağa göndərirlər. Rus dilini öyrənir. İti yaddaşı, zəhmətsevərliyi, ünsiyətcilliyi, ictimai işlərə marağı ona müəllimlərinin və universitetin ictimai təşkilatlarının marağını artırır. Qızlar da ondan lətafətlərini, mehribanlıqlarını əsirgəmirlər. Görünür, elə buna görə də İsmail Farka tələbə ikən Sovet vətəndaşı Marqarita Dyomina ilə evlənir. 1955-ci ildə universiteti bitirsə də Leninqradda qalır. 1956-cı ildə qızları dünyaya gəlir. Bundan sonra, yəni iyunda ailəliklə Albaniyaya dönür.

Onu gənc mütəxəssis kimi Elbasan Ağac Emalı Kombinatına işləməyə göndərirlər. İki aydan sonra isə Xarici İşlər Nazirliyinə söhbətə çağırırlar. Məsləhət görürlər ki, Tirana Dövlət Universitetinin avropaşünaslıq və dilçilik fakültəsində oxusun. Yenidən tələbəlik həyatı başlayır.

1960-cı ildə universiteti bitirən İsmail Farka Albaniyanın Fransadakı səfirliyinə ezam edilir. Orada 10 ay işləyir, yenidən Xarici İşlər Nazirliyi onu Parisdən geri çağırır və bir neçə aylıq hazırlıqdan sonra, yəni 1961-ci il mayın 2-də Albaniyanın Moskvadakı səfirliyinə mühəndis-texnik məsələləri üzrə referent göndərilir. Moskvada işlərini qaydaya salana, ev kirayələyənə kimi xanımının və qızının Tiranada qalmasını məsləhət görürlər.

Sovet-Albaniya münasibətlərinin gərginləşməsi, Ənvər Xocanın İosif Stalinin dəfninə gəlməməsi, Stalinin öldürüldüyünü deməsi, Mao Tszedunla əməkdaşlığı, SSRİ ilə münasibətlərini soyutması İsmail Farkanın işini də gərginləşdirir. Sovet hökuməti Albaniyanın səfirliyi vasitəsilə Ənvər Xocaya təsir göstərmək istəyir. KQB əməkdaşları İsmail Farkayla görüşür və onu inandırmağa çalışırlar ki, Ənvər Xoca opportiniz-

mə yuvarlanıb, marksizm-leninizm ideologiyasından uzaqlaşıb. Mao Tszedunla yaxınlaşması Albaniyanın təklənməsinə, ölkənin vəziyyətinin ağırlaşmasına gətirib çıxaracaq. Sovetlər Birliyi sosializm cəbhəsinin rəhbəri kimi alban xalqının əsarətə düşməsini istəmir. Leninqradda təhsil almasının, xanımının Sovet vətəndaşı olmasının ona böyük imtiyazlar verdiyini xatırladırlar. Eyhamla bildirirlər ki, yaxın vaxtda Ənvər Xoca hakimiyyətdən uzaqlaşdırılacaq və yerinə marksist-leninçi bir kommunist hakimiyyətə gətiriləcəkdir. İsmail Farka da bu işdə onlarla əlbir çalışsa yüksək vəzifə tuta biləcək.

## Hökumətlərarası münasibətlərin pisləşməsinin insanların taleyinə təsiri

İsmail Farka açıq-aşkar görür ki, KQB əməkdaşları onu casusluğa cəlb etmək istəyir. Vətənsevər və mərd insan heç vaxt belə təkliflə razılaşmaz. İsmail Farka KQB əməkdaşlarının təklifini Albaniyanın daxili işinə qarışmaq kimi qiymətləndirir. Onlara çox sərt cavab verir. Buna baxmayaraq onlar İsmail Farkadan əl çəkmirlər. Səfirlikdə çıxıb iş dalınca haraya gedirsə, onu saxlayıb söhbətə tutur, gah da hədələyib, şantaj etməyə çalışırlar.

Vəziyyətin çıxlmaz dalana dirəndiyini görən İsmail Farka durumu rəsmi şəkildə səfirə bildirir və xahiş edir ki, Albaniya Xarici İşlər Nazirliyini məlumatlandırsın, onun vətənə dönməsinə şərait yaratsınlar. Səfir İsmail Farkanın raportlarına ciddi yanaşır. Narazılığını SSRİ Xarici İşlər Nazirliyinə bildirir. KQB əməkdaşlarını beynəlxalq hüquq normalarını pozmaqda, diplomatik işçilərin fəaliyyətlərini məhdudlaşdırmaqda suçlayır.

Məsələnin rəsmiləşdirilməsi İsmail Farkanın vəziyyətini daha da ağırlaşdırır. SSRİ Xarici İşlər Nazirliyi İsmail Farkaya təzyiq edən KQB əməkdaşları haqqında heç bir tədbir görmür. Əksinə, İsmail Farka ilə görüşənlərin KQB əməkdaşları deyil, dələduzlar olduqlarını, Sovet milisi onları tutub cəzalandıracağını deyirlər. Səfir SSRİ Xarici İşlər Nazirliyinin əməkdaşlarının onun beynəlxalq münasibətlərə əməl etməyəcəklərini görüb Albaniya Xarici İşlər Nazirliyi ilə yazışır. Razılığa gəlirlər ki, İsmail Farkanın sənədləri hazırlanıb vətənə göndərilsin.



**Şək. 38 İsmail Farkanın qoruyub saxlaya bildiyi yeganə şəkli**

Onlarla əməkdaşlıq etməkdə boyun qaçıran İsmail Farkanın Albaniyaya qayıtmaq istəyi KQB əməkdaşlarının diqqətindən yayınmır. Onun Tiranaya döndükdən sonra məsələni beynəlxalq təşkilatlara bildirməsinin qarşısını almaq üçün planlar qururlar. İsmail Farkanın hərəkətlərini daha ciddi nəzarətdə saxlayırlar.

Moskvadan Tiranaya təyyarə reysləri olmadığından səfir İsmail Farkanı Albaniyanın Odessadakı konsulluğuna ezam etməyi qərara alır. Planlaşdırırlar ki, konsul da onu Avropa ölkələrinə gedən gəmi ilə Albaniyaya göndərsin.

Albaniyanın Moskvadakı səfirliyinin əməkdaşları 1961-ci il dekabrın 23-də İsmail Farkanı Moskva-Odessa qatarının "SV" vaqonuna mindirirlər. Təlimata görə diplomatik kuryerin olduğu kupeyə kimsə minməməli və o da Odessaya çatınca

kupenin qapısını kimsəyə açmamalıydı. Dekabrın 25-də gecəyarısı qatar yolda dayanır. Vaqon bələdçisi kupenin qapısını döyərək qatarda nasazlıq və qəza vəziyyəti yarandığını, buna görə də texniklərin onun kupesindən keçən xətləri yoxlamalı olduqlarını bildirir. İsmail Farka kupenin qapısını açmaq məcburiyyətində qalır. Vaqon təmirçisi geyimində kupeyə girən 3 nəfər ondan pasportunu göstərməsini tələb edirlər.

İsmail Farka onların KQB əməkdaşları olduğunu başa düşsə də başqa çıxış yolu tapa bilmir. Ehtiyatla yatağın altındakı çantadan pasportunu çıxarmağa əyilir. Bu anda boynunun ardından vurulan ağır zərbənin təsirindən huşunu itirir.

İsmail ayılanda özünü xəstəxana palatasında görür. Bir tərəfi iflic olmuş İsmail Farkanın nitqi də pozulur. Həkimlər onu da bütün xəstələr kimi müalicə edirlər. O, danışmağa başlayanda tibb işçilərindən müalicə olunduğu yerin Moskvadakı Botkin adına hospital olduğunu öyrənir. Həkimdən və tibb bacısından çantası və oradakı sənədləri istəyir. Onlar isə heç bir çanta və sənəd görmədiklərini, onu xəstəxanaya gətirənləri isə tanımadıqlarını deyirlər.

## Alban İsmail Farkanı KQB necə Şəmsəddin Mehdiyevə çevirir

İsmail Farka vəziyyətin nə yerdə olduğunu anlayır. Odur ki, səbrli davranır, özünü huşu tam bərpa olunmamış kimi göstərir. Tibb işçilərini arxayın saldıqdan sonra imkan tapıb Albaniyanın Moskvadakı səfirliyinə zəng vurduraraq vəziyyəti xəbər verir. Elə həmin gün səfirliyin iki əməkdaşı xəstəxanaya gəlir, baş həkimlə, onu müalicə edən həkimlə və İsmail Farka ilə görüşür. Məlum olur ki, onu Şəmsəddin Mehdi oğlu Mehdiyev kimi xəstəxanaya qəbul ediblər. Xəstəxanaya gətirilər-

kən cibində Şəmsəddin Mehdi oğlu Mehdiyev adına verilmiş Elmi-Texniki Cəmiyyətin şəkli qoparılmış, möhürü pozulmuş vəsiqəsi olub.

İsmail Farka xəstəxananın baş həkimi və müalicə həkiminin yanında vəziyyəti səfirlik işçilərinə tam anlada bilmir. Səfirlik işçiləri baş həkimə xəstənin Moskvadakı Albaniya səfirliyinin əməkdaşı İsmail Farka olduğunu bildirirlər. Lakin baş həkim onların fikri ilə razılaşmır, xəstənin Şəmsəddin Mehdi oğlu Mehdiyev olduğunu, bu bilgini istinad etdikləri sənəddən aldıqları söyləyir.

Bir neçə gündən sonra səfirliyin əməkdaşı, İsmail Farkanı yaxından tanıyan İdris Şeyxu hospitala gəlir, onun vəziyyəti haqqında Albaniya Xarici İşlər Nazirliyinə bilgi verdiklərini söyləyir.



**Şək. 39 İsmail Farkanın azadlıqdakı ilk şəkillərindən**

1962-ci il fevralın 12-də Albaniyanın Moskvadakı səfirliyi bağlanır. Səfirliyin işlərini yekunlaşdırmaq üçün üç əməkdaş qalır. İdris Şeyxu da onları arasında olur. İsmail Farka 1962-ci ilin may ayında xəstəxanadan buraxılır. O, İdris Şeyxun yanına gəlir və xahiş edir ki, vətənə dönməsinə yardımçı olsun. İdris Şeyxu Sovet Sosialist Respublikaları İttifaqı Xarici İşlər Nazirliyində görüş üçün vaxt alır və İsmail Farka ilə birlikdə oraya gedir. İsmail Farka başına gələnləri nazirliyin əməkdaşlarına danışır. Lakin onlar bu işin KQB ilə bağlı olmadığını söyləyirlər. İnandırmağa çalışırlar ki, bu, soyğunçuların törətdiyi bir cinayətdir. Vəd edirlər

ki, Bolqarıstanın Moskvadakı konsulluğu ilə danışıb onu Bolqarıstan üzərindən Albaniyaya göndərəcəklər.

Bu hadisədən sonra Bolqarıstanın Moskvadakı səfirliyində İsmail Farkanı qəbul edir, başına gələnləri dinləyirlər. Baş verənləri yazılı şəkildə bildirməsini istəyirlər. O da səfirliyin tələblərini yerinə yetirir. Səfirlikdə ona şəxsiyyətini təsdiq edən müvəqqəti sənəd və Moskvadakı "Kiyev" hotelində yaşaması üçün 10 günlük kupon verilir. Lakin onun sənədlərinin hazırlanması və Sovetlər Birliyindən çıxması Bolqarıstan konsulluğu tərəfindən uzadılır.

1962-ci il noyabrın 16-da "Kiyev" hotelində gecəyarısı İsmail Farkanın qaldığı otağın qapısı döyülür. Qapını açdıqda qarşısında hotel işçisini deyil milis mayorunu görür. Milis mayoru sənədlərini dəqiqləşdirmək adı ilə İsmail Farkanı milis bölməsinə aparır. Orada bildirilir ki, haqqında cinayət işi açılıb. Cinayət işində göstərilib ki, Azərbaycan vətəndaşı Şəmsəddin Mehdiyev xaricə qaçmaq üçün saxtakarlıq edərək Bolqarıstanın SSRİ-dəki konsulluğuna özünü Albaniya vətəndaşı İsmail Farka kimi təqdim edib.

Ona heç bir yerlə əlaqə saxlamasına imkan vermirlər. Elə həmin gecə Sovet Sosialist Respublikaları İttifaqında siyasi məhbusların daha çox saxlandığı Butırsk həbsxanasına aparırlar. İsmail Farka hüquqlarının tapdalandığına etiraz edərək aclıq elan edir. Onu karserə (ağır şəraitli təkadamlıq kameraya) salırlar. Orada ayaqları şişsə də heç bir tibbi yardım göstərmirlər. 12-ci gün huşunu itirdikdə Serbski adına Umumittifaq Elmi Tədqiqat Ümumi və Məhkəmə Psixatrik İnstitutuna aparırlar. İnstitutun direktoru, Sovet KQB-sinin əsasını qoyan Feliks Dzerjinskinin qızı, KQB generalı Marqarita Feliksovna Talcenin təşkil etdiyi konsilum ona "şizofreniya" di-

aqnozu qoyur və ətrafdakılar üçün təhlükəli ola biləcəyi qərarını verir.

## Alban İsmail Farka Bakıdakı Respublika Ruhi Xəstəxanasında

Bu qərar Moskvadakı Lenin rayon Xalq Məhkəməsinə göndərilir. Hakim onun "məcburi müalicə olunması" haqqında qərar çıxarır. Bu qərara əsasən onu iki tibb işçisinin nəzarətində "dəli" kimi Bakıya göndərirlər. Onu 1964-cü il aprelin 27-də Bakıdakı 2 saylı Klinik Ruhi Xəstəxanaya "müalicə olunmaq" üçün qəbul edirlər. 5 gündən sonra isə onu 1 saylı Respublika Ruhi Xəstəxanasında ömürlük "müalicə etməyə" başlayırlar.

Albaniya səfirliyinin əməkdaşlarının Moskvadakı axtarışları, Albaniya Xarici İşlər Nazirliyinin məktubları da bir nəticə vermir. Beləcə, İsmail Farka itkin sayılır, mərkəzdən uzaqda, Bakıda isə Şəmsəddin Mehdiyev "müalicə olunur".

İsmail Farka həbsxanada və klinik ruhi xəstəxanada onun kimi günahsız insanlarla tanış olur. Beynəlxalq təşkilatların insan haqları konvesiyalarından xəbərdar olduğundan fərqli düşündüklərinə görə həbs edilən, "dəli" adıyla psixi klinikalarda işgəncə verilən insanların da haqqını müdafiə etməyə çalışır. Onların adından və öz adından Beynəlxalq Təşkilatlara məktublar göndərir. Lakin bu məktubların Sovet Sosialist Respublikaları İttifaqından xaricə çıxmasına KQB əməkdaşları imkan vermirlər.

İsmail Farka Azərbaycanda olmasından istifadə edərək Şəmsəddin Mehdiyevin valideynlərinin yerini öyrənir və onların 1 saylı Respublika Ruhi Xəstəxanasına "oğlanlarını görməyə" gəlmələrinə nail olur. Şəmsəddin Mehdi oğlu Mehdiyevin

ata və anası Qasım İsmayılov rayonundan (indiki Goranboy) 1964-cü il mayın 25-də itkin düşmüş oğlanlarını tapmaq ümidilə xəstəxanaya gəlirlər. Neçə ildir axtardıqları 180 santimetr boyu olan, dördüncü sinfi bitirmiş, Azərbaycan türkcəsindən başqa bir dil bilməyən oğlanları əvəzinə, 164 santimetr boylu, alban, rus, fransız dillərində sərbəst danışan və yazan, ərəb, fars dillərində fikrini ifadə edən birisi ilə qarşılaşırlar. Onların xəstəxanada "müalicə olunan" adamı tanımadıqlarını söyləməsi də heç nəyi dəyişmir. Valideynlər anlayırlar ki, oğlanları KQB tərəfindən "itkin salındığından" tapılmır.



**Şək. 40 İsmail Farkanın ailəsinin Şüvəlanda yaşadığı evin görüşü (Şəkil 2009-cu ilin iyul ayında çəkilib)**

İsmail Farka xəstəxanada öz adından və orada "dəli" deyə saxlanılanlar adından Sovet Sosialist Respublikaları İttifaqının rəhbərlərinə, prokurorluq orqanlarına və beynəlxalq təşkilatlara ərizə və şikayətlər yazır. Onun yazdığı məktublar "tədbir

görülmək üçün" yerli orqanlara göndərilir. Azərbaycan KQB-sinin və Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşlarına tapşırılır ki, İsmail Farkanı "başa salsınlar". Dəfələrlə onunla görüşür, söhbətlər edir, "profilaktik tədbirlər görür" və bildirirlər ki, Albaniya vətəndaşı olmasına, xaricə getməsinə Moskva heç vaxt razı olmayacaq. Azərbaycan vətəndaşlığını qəbul etsə, onu xəstəxanadan buraxarlar və Şəmsəddin Mehdiyev adı ilə işləməsinə və yaşamasına şərait yaradarlar. İsmail Farka hər dəfə onların təklifini rədd etdikcə, döyülür, günlərlə ac və susuz saxlanır, fiziki və mənəvi işgəncələrlə üzləşir. Həkimlər də içdikləri Hippokrat andını unudub ona trisidil, kaloperidol, sulfazin və başqa ağrıverici iynələr vururlar.



**Şək. 41 İsmail Farka övladları Bayram, Rubeyzi, Adil, Zübeydə ilə birlikdə (Şəkil 2009-cu ilin iyul ayında çəkilib)**

## İsmail Farka və Azərbaycan dissidentləri

İsmail Farka 1 saylı Respublika Ruhi Xəstəxanasında Azərbaycan dissidentlərindən Çingiz Abdullayev, Nadir Ağayev və başqaları ilə tanış olur. Onlar təşkilatlanaraq birlikdə

insan haqlarını müdafiə etməyi planlayırlar. Bu plandan xəbər tutan KQB onları daha sərt cəzalandırır və bir-birlərilə görüşmələrini məhdudlaşdırır. İsmail Farka isə heç vaxt mübarizəsini dayandırmır, yaranmış hər bir vəziyyətdən istifadə etməyə çalışır.

1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyası MK-nın Baş katibi vəzifəsinə Mixail Qorbaçov gəldikdən təxminən bir neçə ay sonra İsmail Farkanın yanına bir nəfər gəlir. O, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşı olduğunu bildirir. İsmail Farkaya ölkədə baş verən dəyişikliklərdən geniş söhbət edir. Bildirir ki, Mixail Qorbaçovun adına ərizə yazsa bəlkə xəstəxanadan azad edilməsinə imkan yaranar. İsmail Farka bu məsləhətə inanır və Moskvaya məktub göndərir. Az keçmir ki, Azərbaycan Sovet Sosialist Respublikası Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətinin əməkdaşı onun yanına gəlir, dediklərini imzası ilə təsdiq edəcək bir məktub alıb gedir.

Azərbaycan Tibb Universitetini bitirib 1 saylı Respublika Ruhi Xəstəxanasında işləməyə gələn Əyyub Əliyev müalicə etməli olduğu xəstələrdən İsmail Farkayla söhbət edərkən onun dediklərini diqqətlə dinləsə də özünə heç bir söz demir. Xəstəxananın baş həkimin yenisi ilə əvəzlənməsi və ölkədə baş verən yumşalma gənc həkimə də təsir edir. İsmail Farkanın ruhi xəstə olub-olmadığını yoxlamaq qərarına gəlir. Onun dediklərini yoxlamaq üçün sorğu hazırlayıb baş həkimə imzaladaraq Leninqraddakı Meşə Texnikası Akademiyasına göndərir. Sorğuya cavab gəlir ki, həqiqətən 1950-ci illərdə akademiyada albaniyalı İsmail Farka adlı bir tələbə oxuyub.

Yeni sənəd İsmail Farkanın işində olan, 1964-cü ildə və sonrakı illərdə Leninqrad Meşə Texnikası Akademiyasına gön-

dərilmiş “burada sizin soruşduğunuz ad və soyadlı tələbə oxumayıb” cavablarını təzkib edirdi. Həkimlərin konsilumunun təşəbbüsünə baxmayaraq İsmail Farkanın azadlığına qovuşması 1989-cu il avqustun 9-dək uzanır.

## Azərbaycanda Milli Azadlıq mübarizəsi İsmail Farkanı dəlixanadan çıxardı, lakin...

İsmail Farka azadlığa çıxsa da öz hüquqlarını bərpa edə bilmir. Azərbaycanlı dissidenlər də ona yardım edə bilmir. Şair Xəlil Rza Ulutürk şəxsi nüfuzundan istifadə edərək Bakıdan 40-50 km aralıda, Şüvəlan bağlarında tikilməkdə olan yarımçıq kiçik bir evdə onu yerləşdirir. İsmail Farka 1990-cı ildə Şüvəlandakı orta internat məktəbini bitirmiş, kəlbəcərli Şəlalə Hüseynova ilə evlənir.

İsmail Farka Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin Axtarışlar Üzrə Bölməsinin rəisi M.Şteynberqlə, Münxendəki Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti ilə, 1992-ci ildə Albaniyanın Moskvada açılmış səfirliyi ilə əlaqə qurur. Səfir Pertef Asmatayni İsmail Farkanı Moskvaya dəvət edir. Onu Albaniyada ölmüş bildiklərini, hətta 1962-ci ildə oğlu olduğunu, oğlunun evləndiyini də bildirir. Lakin onun vətənə göndərə bilməsi üçün ölkəsində hələ münasib şərait olmadığını da söyləyir.

## Onu ölməyə qoymayan ümid

Qocalmış, vətəndəkilərin ona qarşı laqeydliyindən qəlbi qırılmış İsmail Farka yenidən Azərbaycana dönür. Azərbaycan hakimiyyət orqanlarına, Bakıdakı Beynəlxalq təşkilatlara dəfələrlə müraciət etsə də nə şəxsiyyətini təsdiq edən sənəd, nə də siyasi mühacir statusu ala bilir. Azərbaycan Xalq Cəbhəsi fəallaşdığı dövrdə ona yardım etmək istəyənlərin sayı artır. Lakin 1993-cü ilin iyununda baş vermiş çevriliş onun işini ye-

nidən çıxılmaz vəziyyətə salır. Nə vətəninə göndərirlər, nə də Azərbaycanda yaşaması üçün şərait yaradıb şəxsiyyətini təsdiq edən sənəd verirlər.

Taleyin hökmünə boyun əyməli olan İsmail Farka Şəlalə Hüseynova ilə evliliyindən 6 övladı dünyaya gəlir. O, övladlarına valideynlərinin və qohumlarının adlarını qoyur: Rubeyzi (24.04.2000), Bayram (13.03.2001), Adil (02.02.2006), Zibeyde (30.03.2005) və Zurayde (25.07.2008). Bir övladı isə kiçik yaşlarında baxımsızlıqdan ölür.



**Şək. 42 İsmail Farka anasının adını verdiyi qızı Zubeydə ilə (Şəkil 2009-cu ilin iyul ayında çəkilib)**

Albaniyaya getmək ərəfəsində öyrəndim ki, İsmail Farka bir nəfər imkanlı adamın villasında bağban işləyir. Onu bağban işlədən insana bilmədim minnətdarlığımı necə bildirim. 85 yaşını haqlamış qocanın bağban işləməsi o qədər də asan deyil. Görünür, bağ sahibi xeyirxah bir insandır. Onun yaşaması üçün bağban kimi saxlayır.

Əslində İsmail Farkanın normal qidalanmış, firəvan yaşamış, müntəzəm həkim müayinəsindən keçmiş, hər cür qayğı

ilə əhatə olunmuş yaşıdlarının çox azı sağdır. Aclığa, səfalətə, üzərində aparılmış eksperimentlərə, döyülməyə, təhqirlərə tab gətirmiş İsmail Farka isə hələ yaşayırdı. Onu yaşadan iradəsinin möhkəmliyi, hüquqlarının bərpa olunacağına, vətəninə bir qəhrəman kimi dönəcəyinə bəslədiyi ümid idi.

Lakin bunlar da onu əbədiyaşar edə bilmədi. İsmail Farka 2018-ci il oktyabrın 12-də doğmalarından, onun xatirini əziz tutanlardan xəbərsiz Şüvəlanda dünyasını dəyişdi.

Amma içimdə bir əminlik var ki, nə vaxtsa İsmail Farka vətənsevər, əyilməz bir insan kimi gənclərə nümunə göstəriləcək, adı əbədiləşdiriləcəkdir.

**Qaynaqlar**:


1. Agayev Nadir.(1990). Qapalı cəhənnəmin sirləri, (Xüsusi bülleten, sayı, 2), Özbasım (самиздат), Bakı.
2. Agayev Nadir.(1990). "Karatelnaya meditsina", qazeta "Moskva", (самиздат), aprel-may.
3. Ağayev Nadir.(1991). Ya druqoy takoy stranı ne znayu, "Azadlıq" qəzeti, 14 iyun, sayı 23 (53).
4. Ağayev Nadir.( 1993). Qapalı sahənin sirləri, "Qızılbaş" qəzeti, 3 mart, sayı 10.
5. Farka İsmailin xatirələri.(DS qrupunda saxlanılır)
6. Hüseyni Ramil, Cəfərov Namiq, Mikayıloğlu Yadigar. (1999). İtkin Alban Mərdəkanda, "7 gün" qəzeti, 13 fevral, sayı 17 (193), səh. 10.
7. "Panorama" qəzeti, 1998,4 mart.
8. Historia e rralle, diplomati shqiptar qe u internua nga KGB-ja si Azerbajxhanas (Acı taleli insan) // "Standart" qəzeti (Albaniya). – 2009, 24 may. – S. 19.
9. Historia e rralle, diplomati shqiptar qe u internua nga KGB-ja si Azerbajxhanas (Acı taleli insan) // "Standart" qəzeti (Albaniya). – 2009, 25 may. – S. 19.

10. Historia e një preheje. Rruga e dhimbshme e jetës së një vajze shqiptare (Alban kızı Nafienin ömür yolu) // “Shqiptarë dhe Azerbajxani. Albanlar və Azərbaycan” (Albaniya) qəzeti. – 2017, Prill. – №1. – S. 1, 3,7, 8.

11. Əzizə Şamil, Əli Şamil. (2018). Dissident sorağında (1956-1986), “Elm və təhsil”, Bakı, 204 səh.

12. Азиза Шамиль, Али Шамиль (Шамилова Азиза Агали кызы, Шамилов Али Гусейин оглы) .(2018). В поисках диссидентов. Баку, издательство “Elm və təhsil”, Bakı, 156 стр.

## Nəşr edilmiş kitabları

1. **Türk xalqlarının tanınmış adamları** / Şamil Ə., Tahirzadə Ə.; Ensiklopedik məlumat kitabı. Sözlük, layihə. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998. — 84 s.

2. **Tanıdığım insanlar.** I kitab / Şamil Ə. – Bakı: "Sumqayıt" nəşriyyatı, 2000. — 156 s.

3. **Burulğandan çıxmaq mümkündürmü** / Şamil Ə. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001. — 152 s.

4. **Dastanlaşmış ömürlər** / Şamil Ə. – Bakı: "Səda" nəşriyyatı, 2001. — 96 s.

5. **Quzey Kıbrıs** / Şamil Ə. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001. — 152 s.

6. **Aşıq İsgəndər Ağbabalı** / Şamil Ə., Şamil Əzizə. – Bakı: "Səda" nəşriyyatı, 2006. — 104 s.

7. **Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı** / Şamil Ə. – Bakı: "Nurlan" nəşriyyatı, 2011. — 412 s.

8. **Axısqalı Xəstə Hasan** (Şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər) / Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012. — 248 s.

9. **Aşıq İsgəndər Ağbabalı** (Xatirə, məqalə, məktub və sənədlərin işığında) / Şamil Ə., Şamil Əzizə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012. — 148 s.

10. **Qırım sevgisi** / Şamil Ə. – Simferopol: QCİ "Qırım devoquvped neşir" nəşriyyatı, 2012. — 200 s.

11. **Axısqalı Xəstə Hasan** (Şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər) / Şamil Ə. – Almatı: "Elm və təhsil" nəşriyyatı, 2013. — 272 s.

12. **Türkçülüyün qurbanları** (Qazaxıstan) / Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2013. — 164 s.

13. **Colan türkmanları** (folklor və etnoqrafiya örnəkləri) / Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014. – 142 s.

14. **Colan Türkmanları (folklor və etnoqrafiya örnəkləri)** / Şamil Ə.; hazırlayan M.Herisçiyan, redaktə və ətək yazıları H.Umudoğlu. — Təbriz: "Dənizçin" nəşriyyatı, 1395 (2016). – 144 s.

15. **Çıldırlı Aşıq İrfani (Şeirləri, haqqındakı dastan rəvayətlər)**/ Şamil Ə. — Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016. — 248 s.

16. **Colan Türkmanları (folklor və etnoqrafiya örnəkləri**) / Şamil Ə., təkrarnəşr, hazırlayan M.Herisçiyan, redaktə və ətək yazıları H.Umudoğlu. —Təbriz: "Dənizçin" nəşriyyatı. 1397 (2018). — 144 s.

17. **Dissident sorağında** / Şamil Ə., Şamil Əzizə. — Bakı: "Elm və təhsil" nəşriyyatı, 2018. — 204 s.

18. В поисках диссидентов / Şамиль А., Şамиль Азиза. — Баку: Издательство "Elm və təhsil", 2018. — 156 с.

19. **Biobiblioqrafik göstərici**/ Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2019. – 172 s.

20. **Qaşqaylar və onların folkloru**/ Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2020. – 282 s.

### Tərtib etdiyi kitablar

21. **Gültəkin-Əmin Abid.** Buzlu cəhənnəm / Tərtib edən Şamil Ə. – Bakı: "Günəş" nəşriyyatı, 1999. — 96 s.

22. **Uşaq ensiklopediyası (nədir? kimdir?).** III cild / Tərtib edən Şamil Ə. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1999. — 352 s.

23. **Uzaq dağların adamı** / İ.Ö.Vəliyevin həyat və yaradıcılığı haqqında; tərtib edənlər Şamil Ə., Əliyeva T., Hacıyeva L., Qəhrəmanova N. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 2002. – 324 s.

24. **Ağaoğlu B.E.** Solovkidə gördüklərim / Tərtib edən Şamil Ə. – Bakı: "Günəş" nəşriyyatı, 2004. – 80 s.

25. **Koroğlu dastanı** (Əli Kamali arxivindəki variantlar) / Tərtib edən Şamil Ə. – Bakı: "Nurlan" nəşriyyatı, 2009. – 396 s.

26. **Folklor və tariximiz mövzusunda respublika elmi konfransının materialları** (19-20 noyabr 2012) / Tərtib edənlər Şamil Ə., Saleh V. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012. – 248 s.

27. **Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi mövzusunda beyəlxalq elmi konfransın materialları** (5 dekabr 2013) / Tərtib edənlər Şamil Ə., Qəzənfərqızı A. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2013. – 308 s.

28. **Folklorun toplanması və sistemləşdirilməsi problemləri mövzusunda respublika elmi konfransının materialları** (5 iyun 2013) / Tərtib edənlər Şamil Ə., Qəzənfərqızı A. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2013. – 240 s.

29. **Əmin Abid.** Azərbaycan türklərinin ədəbiyyatı tarixi // Tərtibçilər və ön söz müəllifləri Şamil Ə., Əhmədov B. – Bakı: "Elm və təhsil", 2016. – 240 s.

30. **Pof.Dr. Hacali Necefoğluna Armağan** // Düzenleme kurulu Şamil A., Pidvoynıy V., Alekberli A., Özkaya S., Gazanfarkızı A. – İzmir, 2016.

31. **Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər.** Elmi sessiyanın materialları (10 iyun 2016-cı il)

/ Tərtib edənlər Şamil Ə.. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016. – 100 s.

32. **Əmin Abid.** Azəri ədəbiyyatı tarixi // Tərtibçilər və ön söz müəllifləri Şamil Ə., Əhmədov B. – Bakı: "Elm və təhsil", 2020. – 328 s.

## ƏLİ ŞAMİL HÜSEYN OĞLU (ŞAMİLOV)



1948-ci ildə Göyçə mahalının İnəkdağ kəndində (indiki Ermənistan Respublikası) doğulub. 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib, təyinatla Naxçıvandakı "Şərq qapısı" qəzetində işləməyə göndərilib. Çalışdığı qəzetdə "Elimizin söz boxçası" səhifəsini açıb, orada folklor materialları verib. Qəzetlərdə, Azərbaycan və Naxçıvan Televiziya və Radiosunda xalq yaradıcılığı ilə bağlı verilişlər hazırlayıb.

Keçmiş SSRİ-də yaşayan türk xalqları ilə əlaqə qurub. Onların qəzetlərində məqalələr çap etdirib və çalışdığı qəzetdə türk xalqları haqqında səhifələr verib.

1988-ci ildə Azərbaycan Xalq Cəbhəsi Naxçıvan Vilayət təşkilatının qurucularından olub və təşkilatın orqanlarını gizli nəşr etdirib.

1993-cü ildən Azərbaycan Ensiklopediyasında qrup rəhbəri, 1998-ci ildən AMEA Folklor Elmi-Mədəni Mərkəzində (indiki Folklor İnstitutunda) işləyir. Folklora dair elmi məqalələri Azərbaycanda, İranda, Türkiyədə, Türkmənistanda, İsveçdə, Cüney Koreyada, RF və başqa ölkələrdə çap olunub.

facebook.com/kohlanpress
instagram.com/kohlanpress
twitter.com/kohlanpress
kohlanpress@gmail.com
(+994 55) 359-99-23